

*Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2018**
**3 (63)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2018**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Ramiz Mehdiyev*** *(sədr)*

***Əli Həsənov, Novruz Məmmədov, Zeynal Nağdəliyev,***
***Əli Əhmədov, Akif Əlizadə, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Ədalət Muradov, Mehdi Abdullayev, Sevil Məmmədova,***
***Fəxrəddin Nağıyev, Gülnarə Qurbanova, Etibar Nəcəfov,***
***Elçin Əhmədov, Ziyafət Həbibova, Rəcəb Rəhimli, Firdovsiyyə Əhmədova,***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın ictimai elmlər şöbəsinin ekspert şurası tərəfindən rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2018, №3(63).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2018, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2018*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2018
3 (63)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2018

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Ramiz Mehdiyev*** *(chairman)*

***Ali Hasanov, Novruz Mammadov, Zeynal Naghdaliyev, Ali Ahmadov, Akif Alizadeh, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov*** *(editor-in-chief)*

***Alikram Abdullayev*** *(deputy editor)*

***Elman Nasirov*** *(executive secretary)*

***Ali Nuriyev, Adalat Muradov, Mehdi Abdullayev, Sevil Mammadova, Faxraddin Naghiyev, Gulnara Qurbanova, Etibar Najafov, Elchin Ahmadov, Ziyafet Habibova, Rajab Rahimli, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Expert Council of the Department of Social Sciences of Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2018, №3(63)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2018, 336p.*

*© Academy of Public Administration, 2018*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

***İyul – avqust – sentyabr 2018-ci il***

## İyul

**2 iyul**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampı təbrik etmişdir.

**4 iyul**
- Ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirmişdir.

**5 iyul**
- Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir.
- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivini təbrik etmişdir.

**6 iyul**
- Meksika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Andres Manuel Lopes Obradoru təbrik etmişdir.

**8 iyul**
- Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına sədrlik etmişdir. İclasda yekun və giriş nitqi söyləmişdir.

**9 iyul**
- İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Monqolustanın Prezidenti Xaltmaa Battulqayı təbrik etmişdir.

**10 iyul**
- Rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Monteneqronun milli bayramı münasibəti ilə Prezident Milo Cukanoviçi təbrik etmişdir.
- NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüssel şəhərinə səfərə gəlmişdir.

**11 iyul**
- Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşmüşdür.
- Sonra Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması mərasimində iştirak etmişdir.
- Brüsseldə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşü olmuşdur.
- Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün təşkil edilən qəbulda iştirak etmişdir.
- Fransa Respublikasının milli bayramı münasibətilə Prezident Emmanuel Makronu təbrik etmişdir.

**12 iyul**

Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşmüşdür.
- Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak və çıxış etmişdir.
- Belçika Krallığının paytaxtı Brüsselə səfəri başa çatmışdır.

**13 iyul**
- Respublikanın hüquq-mühafizə orqanları rəhbərləri ilə iclas keçirmişdir.
- İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**14 iyul**
- Mastunq şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar ilə əlaqədar Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynə başsağlığı vermişdir

**16 iyul**
- XXI dünya çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Fransa Respublikasının Prezidenti Emmanuel Makronu təbrik etmişdir.
- Futbol üzrə XXI dünya çempionatında Xorvatiya yığma komandasının uğurlu çıxış edərək bu mötəbər

turnirin gümüş medalını qazanması münasibətilə Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçi təbrik etmişdir.
- Futbol üzrə XXI Dünya Çempionatının uğurla keçirilməsi münasibətilə Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putini təbrik etmişdir.

**18 iyul**
- Rəsmi qarşılanma mərasimindən sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatandan sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə sənədlərin imzalanması mərasimində iştirak etmişdir.
- Sənədlərin imzalanması mərasimindən sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində iştirak və çıxış etmişdir.
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, Prezidentin qızı Laura Mattarellanın "Şöhrət" ordeni, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesinin isə "Dostluq" ordeni ilə təltif edilməsi mərasimində iştirak etmiş və ordenləri təqdim etmişdir.
- Onun tərəfindən İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak və çıxış etmişdir.
- Ölkəsinin milli bayramı - Kralın andiçmə günü münasibətilə Belçikanın Kralı Əlahəzrət Filipi təbrik etmişdir.

**19 iyul**
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birlikdə Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-İtaliya biznes forumunda iştirak və çıxış etmişdir.
- Heydər Əliyev Mərkəzində İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birlikdə Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş "Əbədiyyət xəzinəsi" adlı sərgi ilə tanış olmuşdur.
- Sonra Heydər Əliyev Mərkəzində İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birlikdə "Mini Azərbaycan" sərgisi ilə tanış olmuşdur.
- Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Fransa Respublikasına səfərə gəlmişdir.
- Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşü olmuşdur.
- Parisdə "Naval" qrupunun sədri və baş direktoru Erve Giyu ilə görüşmüşdür.
- Parisdə "Total" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə görüşmüşdür.
- Parisdə "SUEZ" qrupunun baş icraçı direktoru Jan Lui Şassod ilə görüşmüşdür.
- Parisdə "Airbus" şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay ilə görüşmüşdür.
- Parisdə "Wilmotte & Associys Architectes" şirkətinin icraçı direktoru xanım Borina Andriye ilə görüşmüşdür.
- Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşmüşdür.
- Sonra Senatın qızıl kitabını imzalamışdır.

**20 iyul**
- Parisdə "Thales International" şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşmüşdür.
- Parisdə "Rothschild and Co" şirkətinin Müşahidə Şurasının sədri Devid de Rotşild ilə görüşmüşdür.
- Parisdə "IVECO France" şirkətinin prezidenti, "IVECO Global Bus"un rəhbəri Silvan Blez ilə görüşmüşdür.
- Parisdə "Bouygues Travaux Publics" şirkətinin baş icraçı katibinin müavini Mark Adler ilə görüşmüşdür.
- Parisdə Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşmüşdür.
- Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüşü olmuşdur.
- Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından onun şərəfinə verilmiş naharda iştirak etmişdir
- Parisdə "CIFAL" qrupunun prezidenti Jil Remi ilə görüşü olmuşdur.
- Fransa Respublikasına səfəri başa çatmışdır.
- Bakıda keçirilən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının iclasının iştirakçılarını təbrik etmişdir.
- Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibəti ilə Prezident Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

**23 iyul**
- Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Abdulla Yamin Abdul Qəyyumu təbrik etmişdir.

**25 iyul**
- Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Martin Vizkarra Kornexoyu təbrik etmişdir.

**27 iyul**
- Mərakeşin milli bayramı – Taxt-tac günü münasibətilə Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti Alan Berseyi təbrik etmişdir.

- Benin Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Patris Talonu təbrik etmişdir.

**30 iyul**
- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## Avqust

**1 avqust**
- Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində iştirak etmişdir.
- Sonra əlil və şəhid ailələrinin üzvləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Daha sonra mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etmişdir.

**6 avqust**
- Ölkəsinin milli bayramı münasibətilə Sinqapur Respublikasının Prezidenti xanım Həlimə Yaqubu təbrik etmişdir.

**8 avqust**
- Bəhreyn Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ebrahim Yusuf Al-Abdullanın etimadnaməsini qəbul etmişdir.
- Şri-Lanka Demokratik Sosialist Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Şərif Anisin etimadnaməsini qəbul etmişdir.
- Koreya Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Hen Cunun etimadnaməsini qəbul etmişdir.

**10 avqust**
- ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin başçılıq etdiyi və komitənin üzvü Rik Kravfordun daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.
- Rəsmi qarşılanma mərasimindən sonra Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatandan sonra Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə sənədlərin imzalanması mərasimində iştirak etmiş, Birgə Bəyanatı imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun adından Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.

**12 avqust**
- Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstan Respublikasının Aktau şəhərinə səfərə gəlmişdir.
- Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak və çıxış etmişdir.
- Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısından sonra sənədlərin imzalanması mərasimində iştirak etmiş, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzalamışdır.
- Aktau Zirvə toplantısında sənədlərin imzalanma mərasimindən sonra Xəzəryanı dövlətlərin başçıları ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir
- Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olmuşdur.
- Aktauda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.
- Dövlət başçıları ilə birlikdə Aktau şəhərinin dəniz sahilində gəzintiyə çıxmışdır.
- Gəzintidən sonra digər dövlət başçıları ilə birlikdə Aktauda körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması mərasimində iştirak etmişdir.
- Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısının iştirakçılarının şərəfinə təşkil edilmiş rəsmi qəbulda iştirak etmişdir.
- Qazaxıstan Respublikasına səfəri başa çatmışdır.

**13 avqust**
- Paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak etmişdir.

**14 avqust**
- Qabon Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Ali Bonqo Ondimbanı təbrik etmişdir.
- İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Coko Vidodonu təbrik etmişdir.

**16 avqust**
- Əfqanıstan İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qanini təbrik etmişdir.

**18 avqust**
- Türkiyənin Respublikasının aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Sədri vəzifəsinə

yenidən seçilməsi münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.
- Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibi, görkəmli siyasi xadim Kofi Annanın vəfatı ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının Baş katibi Zati-aliləri cənab Antonio Quterreşə başsağlığı vermişdir.
- Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməsi münasibətilə Baş nazir İmran Xanı təbrik etmişdir.

**20 avqust**
- Müqəddəs Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**21 avqust**
- Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Pyotr Poroşenkonu təbrik etmişdir.

**23 avqust**
- İslandiya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Berqlind Asqeyrsdottirin etimadnaməsini qəbul etmişdir.
- Benin Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssiradjou Gomina İbrahimin etimadnaməsini qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nqo Duk Manhın etimadnaməsini qəbul etmişdir.

**24 avqust**
- Paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olmuşdur.
- Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Moldova Respublikasının Prezidenti İqor Dodonu təbrik etmişdir.

**25 avqust**
- Rəsmi qarşılanma mərasimindən sonra Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatandan sonra Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Heydər Əliyev Mərkəzində Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel ilə birlikdə iş adamları ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik Şamaxı rayonu Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.
- Meysəri kəndindəki “Şirvan şərabları” MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak etmişdir.
- Sonra müəssisənin kollektivi ilə görüşmüşdür.
- İsmayıllı rayonuna səfəri çərçivəsində Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolunun açılışında iştirak etmişdir.
- İsmayıllı rayonunun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən “AZZA AGRO” MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin açılışında iştirak etmişdir.
- “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının açılışında iştirak etmişdir.
- Sonra müəssisənin kollektivi ilə görüşmüşdür.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- İsmayıllı rayonuna səfəri çərçivəsində burada yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik “İsmayıllı” yarımstansiyasının açılışında iştirak etmişdir.
- İsmayıllı rayonuna səfəri çərçivəsində Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak etmişdir.
- İsmayıllı rayonunda “Buta Qrup” MMC tərəfindən yaradılan aqroparkın açılışında iştirak etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Şamaxı rayonunda ucaldılan abidəsini ziyarət etmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoymuşdur.

**26 avqust**
- Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Dəmirçi Arxeologiya Muzeyinin açılışında iştirak etmişdir.
- Yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında iştirak etmişdir.
- İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak etmişdir
- İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak etmişdir.
- Əvvəlcə Lahıc qəsəbəsinin sakinləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Sonra Lahıc qəsəbəsinə təbii qazın verilməsinin rəmzi olan məşəli alovlandırmışdır.
- Daha sonra Lahıc icma evində yaradılan şəraitlə tanış olmuşdur.
- Şamaxı Safari Parkında olmuşdur.

**28 avqust**
- Bakı bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən “Qu quşları” fəvvarə kompleksinin açılışında iştirak etmişdir.
- Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışında iştirak etmişdir.

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malayziyanın XV Ali Başçısı əlahəzrət Sultan V Məhəmmədi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Trinidad və Tobaqo Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı xanım Pola-Mey Uiksi təbrik etmişdir.

**29 avqust**
- Gürcüstanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradzenin etimadnaməsini qəbul etmişdir.
- Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti Andrey Kiskanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.

**30 avqust**
- Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə görüşü olmuşdur.
- Sonra Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə işçi naharı etmişdir.
- İosif Davıdoviç Kobzonun vəfatı ilə əlaqədar İosif Kobzonun ailəsinə başsağlığı vermişdir
- Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Çan Day Kuanqı təbrik etmişdir.

**31 avqust**
- Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi ona təqdim olunmuşdur.
- Ölkəsinin milli bayramı – Respublika Günü münasibəti ilə San-Marino Respublikasının Kapitan-Regentləri Stefano Palmierini və Matteo Çiaççini təbrik etmişdir.
- Ölkəsinin milli bayramı - Müstəqillik günü münasibətilə Svazilend Krallığının Kralı Əlahəzrət III Msvatini təbrik etmişdir.

## Sentyabr

**1 sentyabr**
- Rusiya Federasiyasına rəsmi səfəri başlamışdır.
- Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü və işçi naharı olmuşdur.
- Soçidə geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə sənədlərin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat"ı imzalamışdır.
- Sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Rusiya Federasiyasına rəsmi səfəri başa çatmışdır.

**2 sentyabr**
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak etmək üçün Qırğız Respublikasına səfərə gəlmişdir.

**3 sentyabr**
- Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olmuşdur.
- Çolpon-Ata şəhərində Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşündə iştirak və çıxış etmişdir.
- Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin başçılarının şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.
- Qırğız Respublikasına səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Esvatininin Kralı Əlahəzrət III Msvatini təbrik etmişdir.

**4 sentyabr**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temeri təbrik etmişdir.

**5 sentyabr**
- Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Arif Alvini təbrik etmişdir.
- Makedoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Gyorge İvanovu təbrik etmişdir.
- Xorvatiya Respublikasına rəsmi səfərə gəlmişdir.

**6 sentyabr**
- Rəsmi qarşılanma mərasimindən sonra Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olmuşdur.

- Təkbətək görüş başa çatandan sonra Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatandan sonra Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Sənədlərin imzalanması mərasimindən sonra Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuş və Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad etmişdir.
- Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi naharı etmişdir.
- Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşmüşdür.
- Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından onun şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.
- Xorvatiya Respublikasına rəsmi səfəri başa çatmışdır.
- Tacikistan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Prezident Emoməli Rəhmonu təbrik etmişdir.

**7 sentyabr**

- Yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik etmişdir.

**12 sentyabr**

- ATƏT-in baş katibi Tomas Qremingeri qəbul etmişdir.
- Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Bakının Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbdə yenidənqurmadan və əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.

**13 sentyabr**

- Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Cəfər Cabbarlı adına 187 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- 85 illik yubileyi münasibətilə xalq artisti Arif Məlikovu təbrik etmişdir.
- Meksika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Enrike Penya Nietonu təbrik etmişdir.

**14 sentyabr**

- "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə "Azərbaycan" qəzetinin kollektivini təbrik etmişdir.
- Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak və çıxış etmişdir.
- TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Çili Respublikasının Prezidenti Sebastian Pinyeranı təbrik etmişdir.

**15 sentyabr**

- Rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, Ulu Öndərin məzarı önünə əklillər qoymuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklillər qoymuşdur.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoymuşdur.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Xatirə kitabına ürək sözlərini yazmışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Azərbaycan paytaxtının Azadlıq meydanında keçirilən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda iştirak və çıxış etmişdir.

- Parad başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzalamışdır.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Qız qalasının qarşısına gələrək burada parad iştirakçıları ilə xatirə şəkilləri çəkdirmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Bakı bulvarını gəzmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Dağüstü parkdan Bakının mənzərəsini seyr etmişdir.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə işçi naharı etmişdir.

**16 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən gənc əsgərlərin andiçmə mərasimində iştirak etmişdir.

**17 sentyabr**

- Çin Xalq Respublikasının Sinxua xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**18 sentyabr**

- Masallı və Biləsuvar rayonlarına səfəri zamanı Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak etmişdir.
- Masallı rayonuna səfərə gəlmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Masallı şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Masallı Sənaye Məhəlləsinin açılışında iştirak etmişdir.
- Sonra yerli sahibkarlarla görüşmüş və görüşdə çıxış etmişdir.
- “Masallı-Neməti” Məhdud Məsuliyyətli Cəmiyyətin çəltik emalı müəssisəsinin açılışında iştirak etmişdir. Masallı rayonunda əsaslı yenidən qurulan Şərifə-Hişkədərə-Miyanku-Kubin-Birinci Səmidxanlı-Xəli-li-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışında iştirak etmişdir.
- Biləsuvar rayonuna səfərə gəlmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Biləsuvar şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun açılışında iştirak etmişdir.
- Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Biləsuvarda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.
- Biləsuvar Gənclər Evinin açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Malta Respublikasının Prezidenti xanım Mari-Luiz Koleyro Prekanı təbrik etmişdir.

**19 sentyabr**

- Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir
- Mali Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident İbrahim Bubakar Keytanı təbrik etmişdir.

**20 sentyabr**

- Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humədi, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Tseretelini qəbul etmişdir.
- NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri Əlahəzrət Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**21 sentyabr**

- Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirak etmiş və nitq söyləmişdir.
- Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımla görüşmüşdür.
- Bakıda, Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimində iştirak etmişdir.
- Bakıda keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi çərçivəsində Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ilə görüşmüşdür.

**22 sentyabr**

- Bakıda keçirilən cüdo üzrə dünya çempionatında Azərbaycan idmançısı Hidayət Heydərovun bürünc medal uğrunda yarımfinal qarşılaşmasına baxmışdır.

- Bakıda, Milli Gimnastika arenasında cüdo üzrə dünya çempionatının yarışlarına baxmışdır.
- Vyetnam Sosialist Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Çan Day Kuanqın vəfatı ilə əlaqədar Vyetnam Kommunist Partiyasının Baş katibi Nquyen Fu Çonqa başsağlığı vermişdir.
- İran İslam Respublikasında törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması ilə əlaqədar Prezident Həsən Ruhaniyə başsağlığı vermişdir.

**24 sentyabr**

- Azərbaycana işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşü olmuşdur.
- "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu təbrik etmişdir.

**25 sentyabr**

- Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Xüsusi Olimpiya Komitəsinin sədri Timoti Şriverin başçılıq etdiyi və dünya şöhrətli idmançılar Bart Konner, Nadya Komaniç və Vladimir Qribiçin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olmuşdur.

**26 sentyabr**

- Fransa Qvianasında yerləşən Kuru kosmodromundan "Azerspace-2" peykinin orbitə buraxılması münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Bakıda, Milli Gimnastika arenasında cüdo üzrə dünya çempionatının final görüşünə baxmışdır.

**27 sentyabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer birlikdə Bakıda keçirilən cüdo üzrə dünya çempionatının qarışıq komanda yarışlarına baxmışdır.
- Sonra Azərbaycan yığmasının üzvləri ilə görüşmüşdür.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birlikdə Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- Ölkəsinin milli bayramı - Çin Xalq Respublikasının yaranması günü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.
- MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Tacikistan Respublikasına səfərə gəlmişdir.

**28 sentyabr**

- Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşündə iştirak etmişdir.
- Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclasında iştirak etmişdir.
- Düşənbədə MDB Sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla söhbəti olmuşdur.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Tacikistan Respublikasına səfəri başa çatmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi və bunun üçün geniş potensialın mövcud olduğunu vurğuladı. Prezident İlham Əliyev nəqliyyat dəhlizi sahəsində də əməkdaşlığın önəm daşıdığını bildirərək qeyd etdi ki, Azərbaycan hazırda tərəfdaş və qonşu ölkələr arasında nəqliyyat bağlantısının yaradılması işinə fəal sürətdə investisiya qoyur və ölkəmiz mühüm Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizinə çevrilməkdədir. Şimal-Cənub nəqliyyat layihəsinin uğurlu icrasına başlanmışdır. Azərbaycan bu sahəyə böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından biznes sahəsində fəallığın artırılmasının vacibliyini də qeyd etdi. Azərbaycanda Finlandiyanın bir neçə şirkətinin çalışmasına toxunan Prezident İlham Əliyev bu şirkətlərin sayının daha da artırılmasının mümkün olduğunu dedi və bildirdi ki, Azərbaycanın iqtisadi inkişafı, perspektiv planlar, güclü iqtisadi infrastruktur digər xarici şirkətlər kimi, Finlandiya şirkətlərinin də iqtisadiyyatımızın müxtəlif sahələrində fəal çalışmaları üçün yaxşı imkanlar yaradır.

Xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleynin Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir, Azərbaycan Prezidenti ilə Finlandiya Prezidentinin Davosda keçirilən görüşünün məmnunluqla xatırlandığını bildirdi. Finlandiyanın xarici ticarət və inkişaf naziri ölkəmizə səfər proqramının çox məzmunlu olduğunu deyərək, səfər zamanı məhsuldar görüşlər keçirəcəyinə ümidvar olduğunu söylədi. O, Bakının gözəlliyinin nümayəndə heyəti üzvlərində böyük təəssürat doğurduğunu qeyd etdi və paytaxtımızda tarixi arxitektura abidələrinin müasir binalarla gözəl vəhdət təşkil etdiyini vurğuladı. Xanım Anne-Mari Viroleynin bildirdi ki, ölkələrimiz ümumi tarixə malikdirlər və Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var.

Görüşdə ölkələrimiz arasında energetika, tranzit, peşə təhsili, infrastruktur layihələrində Finlandiya şirkətlərinin iştirakı, iş adamları arasında ticarət əlaqələrinin artırılması, sərmayə qoyuluşu, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Prezident Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Finlandiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

***Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.

Dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Qebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlətimizin başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluq hissi ilə qeyd etdi ki, hazırda Azərbaycanın hər bir şəhərində bütün lazımi tibbi xidmətləri əhatə edən ən müasir avadanlıqla təchiz olunmuş tibb ocaqları fəaliyyət göstərir. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirib.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, ilk növbədə, prezident seçkilərində qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Tedros Adhanom Qebreyesus Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işlərdən danışdı. Azərbaycanda səhiyyə sahə-

sində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. Dünya Səhiyyə Təşkilatının baş direktoru ölkəmizdə qaçqın və məcburi köçkünlərə göstərilən yüksək dövlət qayğısından da danışaraq bildirdi ki, bu sahədə Azərbaycanın təcrübəsi bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *İsveçrə Konfederasiyasının federal müşaviri Yohan N.Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammann ölkəmizə səfərindən məmnunluğunu bildirərək dedi ki, gəlişlərində məqsəd Azərbaycanda gedən inkişaf prosesləri ilə tanış olmaqdan və ölkələrimiz arasında biznes əlaqələrinin daha da genişləndirilməsi ilə bağlı məsələləri müəyyənləşdirməkdən ibarətdir. Eyni zamanda, o, səfər çərçivəsində nümayəndə heyətinin Azərbaycanın “Bir kəmər, bir yol” layihəsində iştirakı ilə bağlı daha ətraflı məlumat almaqdan maraqlı olduğunu dedi. Yohan N.Şnayder-Ammann İsveçrə ilə Azərbaycan arasında Dünya Bankı və Beynəlxalq Valyuta Fondu çərçivəsində də uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi.

Qonaq TANAP layihəsinin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdırdı. O, Prezident İlham Əliyevin hər il Davos İqtisadi Forumunda iştirakına görə minnətdarlığını bildirdi.

Ölkələrimiz arasında siyasi və iqtisadi sahədə əlaqələrin çox uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi. Prezident İlham Əliyev müxtəlif sahələrdə biznes əlaqələrinin genişləndirilməsi üçün də yaxşı imkanların olduğunu vurğuladı və bu baxımdan ayrı-ayrı infrastruktur layihələrinin həyata keçirilməsi, qarşılıqlı investisiyaların qoyulması sahəsində yaxşı təcrübənin olduğunu dedi. Yohan N.Şnayder-Ammann ilə Davosda görüşünü xatırlayan Prezident İlham Əliyev bildirdi ki, onun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin genişləndirilməsi işinə öz töhfəsini verəcək və əməkdaşlığımız bundan sonra da genişlənəcək. Prezident İlham Əliyev əminliyini ifadə etdi ki, Azərbaycan iqtisadiyyatı gələcək illərdə də daha da inkişaf edəcək, ölkəmiz xeyli sayda sənaye və infrastruktur layihələrinin həyata keçirilməsini planlaşdırır və Azərbaycan bu işlərdə İsveçrə şirkətlərinin iştirakında maraqlıdır.

Söhbət zamanı qeyd olundu ki, İsveçrə-Azərbaycan Bakıda keçirilən Biznes Forumu və orada həm İsveçrədən, həm Azərbaycandan böyük sayda biznes nümayəndələrinin iştirakı iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcək.

Görüşdə ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Həsən Qazizadə Haşimi İran Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səyləri nəticəsində ölkələrimiz arasında ikitərəfli münasibətlər gündən-günə güclənir və möhkəmlənir.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Prezident Həsən Ruhani ilə görüşlərini məmnunluqla xatırlayaraq qeyd etdi ki, bu görüşlər zamanı səhiyyə sahəsində əməkdaşlıq məsələləri də müzakirə edilib və bununla bağlı işlərin həyata keçirilməsi üçün müvafiq tapşırıqlar da verilib. Dövlətimizin başçısı İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminın Azərbaycana səfərinin ölkələrimizin səhiyyə sahəsində əməkdaşlığının genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

### *Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunaraq, bu yaxınlarda Brüsselə səfərini və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla keçirdiyi görüşünü məmnunluqla xatırlayaraq qeyd etdi ki, həmin səfər zamanı aparılan səmərəli danışıqlar və Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün önəmlidir. Prezident İlham Əliyev qeyd etdi ki, eyni zamanda, bu sənədin paraflanması Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha nümayiş etdirdi. Azərbaycan-Avropa İttifaqı əlaqələri gündəliyinin geniş olduğunu bildirən dövlətimizin başçısı əməkdaşlığın uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan, eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır və bu təşkilat Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşlərinin və Brüsseldəki tədbirlərin çox yaxşı səviyyədə keçdiyindən məlumatlı olduqlarını vurğuladı. Toivo Klaar Avropa İttifaqı-Azərbaycan əlaqələrinin genişləndiyini qeyd edərək, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu dedi. Bu baxımdan qonaq Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu bildirdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, nəqliyyat, ticarət, turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

### *Bəhreyn Krallığının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ebrahim Yusuf Al-Abdullanın etimadnaməsini qəbul edib.

Səfir Ebrahim Yusuf Al-Abdulla fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Ebrahim Yusuf Al-Abdulla etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Ebrahim Yusuf Al-Abdullanın səfirlik fəaliyyəti dövründə Azərbaycanın müxtəlif qurumlarının rəhbərləri ilə görüşəcəyinə və bu görüşlərin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Ebrahim Yusuf Al-Abdulla Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Bəhreyn Krallığında Azərbaycan xalqının Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə son illər əldə etdiyi uğurlar böyük maraqla izlənilir.

Səfir Ebrahim Yusuf Al-Abdulla ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinin zəruri olduğunu bildirdi, eyni zamanda, mədəni əlaqələrin inkişafının da önəmli olduğunu qeyd etdi.

Azərbaycan ilə Bəhreyn arasında bir çox oxşar məqamların olduğunu bildirən səfir vurğuladı ki, hər iki ölkə öz müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmləndirilməsi, eyni zamanda, sivilizasiyalararası dialoqun təşviqi, sülh və əmin-amanlıq şəraitində yaşaması üçün bütün dünyada səylər göstərir.

Ebrahim Yusuf Al-Abdulla qeyd etdi ki, Azərbaycan Prezidenti və Bəhreyn Kralının əlaqələrimizin inkişafı ilə bağlı göstərdiyi siyasi iradə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaradır və beynəlxalq ictimaiyyətin bizim ölkələrimizə böyük etimadı var.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, ölkədə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkədə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə yeni heyvandarlıq kompleksləri yaradılır. Respublikada ət və süd məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi məqsədilə dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 264,1 milyon manat olan 49,9 min başlıq 27 müasir cins heyvandarlıq kompleksinin yaradılmasına 111,7 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən 9 heyvandarlıq kompleksinin yaradılmasına ümumi dəyəri 68,4 milyon manat olan investisiya təşviqi sənədi verilib ki, nəticədə qənaət olunmuş 746 min manat vəsait sahibkarlar tərəfindən həmin layihələrin icrasına yönəldilib. Ölkədə müasir heyvandarlıq komplekslərinin yaradılması nəticəsində xaricdən yüksək məhsuldar cins heyvanlar gətirilərək əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının daha yüksək səviyyədə ödənilməsi təmin edilir. 2009-cu ildən indiyədək ölkəyə "Aqrolizinq" ASC vasitəsilə 29,9 min baş yüksək məhsuldarlığa malik cins heyvanlar gətirilib. Ölkədə 2017-ci ildə ət istehsalı ötən illə müqayisədə artaraq 133 min ton, süd istehsalı isə 2024 min ton olub. Yeni yaradılan heyvandarlıq təsərrüfatlarından biri də İsmayıllı rayonunun Keyvəndi kəndi ərazisində istifadəyə verilən "AZZA AGRO" MMC-nin müasir heyvandarlıq kompleksidir.

İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Zöhrab Aslanov kompleksdə görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdilər.

Şahin Mustafayev dövlətin güzəştli kreditləri hesabına yaradılan heyvandarlıq kompleksləri barədə danışarkən qeyd etdi ki, indiyə qədər yaradılan cins heyvandarlıq komplekslərinin sayı 27-yə çatıb. Bu müəssisələrin illik istehsal gücü 150 min ton süd və 6 min ton ət təşkil edir. Bu il istifadəyə verilməsi nəzərdə tutulan 4 heyvandarlıq kompleksində isə 6600 cins heyvan saxlanılacaq. Həmin müəssisələrin illik istehsal gücü isə 11 min ton süd, 2 min ton ət olacaq.

Bildirildi ki, müasir texnologiyaların tətbiqinə əsaslanan kompleksin birinci mərhələsi üzrə işlərin görülməsinə 9,5 milyon manat investisiya qoyulub ki, bunun da 3,5 milyon manatı İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılıb. Bundan əlavə, kompleksə İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilib və nəticədə xeyli vəsaitə qənaət olunub. Kompleksin tərkibinə 1000 başlıq ferma binaları, doğum, sağım və buzovluq bölmələri, yem istehsalı sahəsi, əkinçilik təsərrüfatı və digər köməkçi sahələr daxildir.

Prezident İlham Əliyevə "Aqrolizinq" ASC vasitəsilə ilkin olaraq gətirilmiş "Holstein Friesian" cinsindən olan inəklər, kompleksdə yeni doğulmuş buzovlar, İsveçin "DeLaval" şirkətinin ferma və sağım sistemi avadanlıqları, Almaniya və Hollandiya istehsalı olan kənd təsərrüfatı texnika və aqreqatları haqqında ətraflı məlumat verildi.

Qeyd edildi ki, kompleksə gətirilmiş 99 baş "Holstein Friesian" cinsindən olan boğaz düyədən əlavə, bu ilin sentyabr və noyabr aylarında 201 baş cins düyənin gətirilməsi və gələcəkdə heyvanların baş

sayının 1600-ə çatdırılması nəzərdə tutulur. Heyvandarlıq kompleksində bu sahədə dünya liderlərindən olan İsveçin "DeLaval" şirkətinin ferma və sağım sistemi avadanlıqları quraşdırılıb. Bu sistem hər bir cins heyvana fərdi yanaşmaqla, onların yaşı, çəkisi, yem rasionu, süd verimi, sağlamlıq vəziyyəti və digər məlumatları xüsusi çiplərdə toplayaraq kompleksin səmərəli idarə olunmasına imkan verir. Belə ki, heyvanların yemlənməsi və sağılması zamanı çiplər vasitəsilə yığılan məlumatlar xüsusi proqramda toplanılaraq hər bir heyvan üzrə gündəlik yem norması müəyyən olunur, sağlamlıq vəziyyəti təhlil edilir. Sistemin daha bir xüsusiyyəti hər bir cins heyvan üçün qüvvəli yemin müəyyən olunmuş vaxtda və miqdarda avtomatlaşdırılmış qaydada verilməsidir. Ferma binalarında quraşdırılmış pərdələr havanın temperaturuna, rütubətlilik səviyyəsinə və günəşin düşmə bucağına görə avtomatik olaraq tənzimlənir. Bundan başqa, fermaların daxili temperaturunun tənzimlənməsi məqsədilə su ilə sərinləşdirilən avtomatik idarə olunan pərlər quraşdırılıb. Bütün bunlar cins heyvanların südünün kəmiyyətinin və keyfiyyətinin artırılmasına imkan verir.

Diqqətə çatdırıldı ki, heyvandarlığın inkişaf etdirilməsi, heyvandarlıq məhsullarının həcminin artırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun maya dəyərinin aşağı salınmasında mühüm məsələlərdən biri də yerli istehsal hesabına davamlı yem bazasının yaradılmasıdır. Bu məqsədlə kompleks tərəfindən qüvvəli və qaba yemə olan tələbatın ödənilməsi üçün cari ildə 500 hektar sahədə arpa və yonca əkilib, 2,1 min ton silos ehtiyatı yaradılıb. Gələcəkdə əkin sahələrinin 800 hektara çatdırılması nəticəsində kompleksin yem tələbatının tam daxili imkanlar hesabına təmin edilməsi, eləcə də ət və süd məhsullarının emalı sahələrinin yaradılması nəzərdə tutulur. Belə ki, kompleksin daha mənfəətlə fəaliyyət göstərməsi məqsədilə gündəlik emal gücü 10 ton süd və 1 ton ət olan emal sahələrində istehsal ediləcək ekoloji təmiz məhsullar "AZZA" brendi adı altında şirkətə məxsus mağazalar şəbəkəsində satışa çıxarılacaq.

Qeyd olundu ki, layihənin icrası nəticəsində 14 nəfər işlə təmin olunub. Gələcəkdə iş yerlərinin 70-ə çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının açılışında iştirak edib.

Dövlətimizin başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi önəm verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib. "Azərxalça" ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba və Xaçmazdakı müəssisələr dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilib.

Bu müəssisələri materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 18 milyon dollar olan "Yunəyirici - boyaq" fabrikinın, Horadiz, Şəmkir, Quba və Xaçmazda 5 regional yun və boyaq tədarükü məntəqəsinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanıb. 2019-cu ildə əlavə olaraq 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. Artıq istifadəyə tam hazır olan "Azərxalça" ASC-nin İsmayıllı filialı da bu sırada mühüm yerlərdən birini tutur.

Məlumat verildi ki, müəssisənin binasının inşasına 2016-cı ildə başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə yerinə yetirilib. Filialın ümumi sahəsi 1252,88 kvadratmetr olan binasında 150 toxucunun və 12 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir.

Müəssisənin kollektivi ilə görüşən Prezident İlham Əliyev dedi:

– Çox gözəl bir gündür, xalçaçılıq fabrikinin açılışı münasibətilə sizi təbrik edirəm.

Xalçaçı: Çox sağ olun, biz də Sizə təşəkkür edirik.

Prezident İlham ƏLİYEV: Çox şadam ki, belə gözəl müəssisə yaradılıb və qadınlar işlə təmin olunublar.

Xalçaçı: Çox sağ olun. Bu gündən sonra gözəl xalçalar toxuyacağıq. Biz 10 rayon üzrə birinci yeri tutmuşuq, bu gündən sonra da çalışacağıq. Bizi medalla təltif etmişiniz, Sizə təşəkkür edirik.

Prezident İlham ƏLİYEV: Bəli, bəli təltif etmişəm. İsmayıllının çox böyük ənənələri var.

Xalçaçı: Bəli, biz birinci yerə çıxmışıq, xalçaçılar adından Sizə təşəkkür edirik.

Prezident İlham ƏLİYEV: Yaxşı işləmisiniz ki, birinci yerə layiq görülmüsünüz.

Xalçaçı: Çox sağ olun. Sizin sayənizdə bizim hər şəraitimiz yaxşıdır. Şəraitə görə onlar da yaxşı xalça toxuyurlar. Çox sağ olun, Sizə təşəkkür edirik.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. İsmayıllı rayonunun xalçaçılıq ənənələri çox zəngindir, qədimdir. Çox yaxşı ki, siz bu sənəti yaşatmısınız, yaşadırsınız. Gərək gələcək nəsil də bu sənəti mənimsəsin. Yəni, xalçaçılıq sənəti bizim milli sərvətimizdir. Azərbaycan xalçaları dünya miqyasında tanınır və dünyanın aparıcı muzeylərində təqdim olunur.

Biz xalçaçılığın inkişafı ilə bağlı çox ciddi tədbirlər görürük. Bölgələrdə xalça fabriklərinin yaradılması bu işlərin bir hissəsidir. Bu, son müddət ərzində açılan sayca beşinci fabrikdir. İlin sonuna qədər daha beş fabrik açılacaq. Ümumiyyətlə, nəzərdə tutulur ki, ölkəmizdə 30 xalçaçılıq fabriki yaradılacaq və minlərlə

insan, xüsusilə qadınlar işlə təmin olunacaqlar. Bu fabriklərdə çalışanlar da qadınlardır. Biz qadınlar üçün də iş yerləri yaradırıq. Burada istehsal olunan, toxunan xalçalar həm ölkə daxilində, həm də xaricdə satılacaq və beləliklə, Azərbaycan öz ixrac məhsullarını dünyaya daha da geniş formada təqdim edəcəkdir. Xalçaçılıq sənətinin gələcəkdə yaşaması üçün sizin əməyiniz, zəhmətiniz, istedadınız əsas rol oynayır. Mənə verilən məlumata görə, bu fabrikdə 150-yə yaxın insan işlə təmin olunub. Gələcəkdə işlər yaxşı gedərsə, bu fabriki böyütmək də olar ki, bu işə daha çox qadın cəlb olunsun.

Dövlət daim sizi dəstəkləyəcək. Bütün avadanlıqlar, bütün dəzgahlar, iplər - hamısı dövlət tərəfindən təmin olunur. Yaxın aylarda, yəqin ki, gələn il Azərbaycanda əyirici-boyaq fabriki də işə düşəcək. Ondan sonra, ümumiyyətlə, xaricdən heç bir material gətirməyə ehtiyac qalmayacaq. Deməli, iplərdən tutmuş, boyalara qədər bütün materiallar Azərbaycanda istehsal olunacaqdır. Azərbaycanda xalçaçılığın çox böyük tarixi və çox böyük gələcəyi var. "Azərxalça" müəssisəsinin yaradılması məhz bu məqsədi güdürdü. Mənim qoyduğum vəzifələr, verdiyim tapşırıqlar yerinə yetirilir və İsmayıllı rayonundakı xalçaçılıq fabriki bunu bir daha göstərir. Sizi ürəkdən təbrik edirəm.

Xalçaçılar: Çox sağ olun.

Prezident İlham Əliyev toxunmuş xalçanı kəsdi.

Dövlətimizin başçısı müəssisənin kollektivi ilə söhbəti davam etdirərək onlara işlərində uğurlar arzuladı.

Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağsu, İsmayıllı, Qobustan, Şamaxı, Ağdaş, Göyçay, Hacıqabul, Kürdəmir, Salyan, Ucar, Zərdab, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarının kəndlərində toxunan orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Qeyd olundu ki, müəssisədə çalışan toxucular İsmayıllı şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı da həyata keçiriləcək.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev İsmayıllı rayonuna səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılan abidəsi önünə gül dəstəsi qoydu.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov abidənin ətrafında, o cümlədən rayonda görülən abadlıq işləri, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.

Prezident İlham Əliyev  İsmayıllı rayonuna səfəri çərçivəsində burada yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik "İsmayıllı" yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb. Bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. İsmayıllı rayonunda da energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchizatı prioritet məsələlərdən olub. İsmayıllı Elektrik Şəbəkəsinin xidməti ərazisində son üç ildə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, inkişafda olan turizm, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, üç kəndin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla da İsmayıllı Elektrik Şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər ciddi şəkildə azalıb.

Diqqətə çatdırılıb ki, bu sahədə işlər hazırda da davam etdirilir. Yaxın perspektivdə 110/10 kilovoltluq "Qubaxəlilli" yarımstansiyasının yenidən qurularaq 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, 35/10 kilovoltluq "Ağçay" yarımstansiyasının tikilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq "İsmayıllı" yarımstansiyasını işə saldı.

Məlumat verildi ki, "İsmayıllı" yarımstansiyası istismar müddətini başa vurduğundan müasir üslubda tamamilə yenidən qurulub. Bu yarımstansiya vasitəsilə İsmayıllı şəhərinin və ətraf 14 yaşayış məntəqəsinin, 35 kilovoltluq Basqal və 35 kilovoltluq İvanovka hava xətlərinin üzərində olan 35/10 kilovoltluq "Girdimançay", "Zərgəran", "Yeni Basqal" və "İvanovka" yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiya elektron tipli rele mühafizəsi və avtomatik sistemlərlə təchiz edilib, məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulub. Ümumiyyətlə, 22 min 148 abonentin elektrik enerjisi ilə təmin edilməsi 110/35/10 kilovoltluq "İsmayıllı" yarımstansiyası vasitəsilə yerinə yetirilir.

Bildirildi ki, rayonun Topçu, Buynuz, Sumağallı, Çayqovuşan, İstisu və Qalacıq kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yaradılan obyektlərin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün 110/35/10 kilovoltluq 10 MVA gücündə "Topçu"

yarımstansiyası inşa edilib. Bu yarımstansiyadan çıxan 10 kilovoltluq hava xətləri vasitəsilə təxminən 1200 abonentin elektrik təchizatı həyata keçirilir. Yarımstansiyanın fəaliyyətə başlaması üçün işlər davam etdirilir. İsmayıllı rayonunun Basqal qəsəbəsinin və ətraf kəndlərin elektrik təchizatının yaxşılaşdırılması məqsədilə 35/10 kilovoltluq 2,5 MVA gücündə "Yeni Basqal" yarımstansiyası da inşa edilib və istismara verilib. Yarımstansiyanı qidalandıran 35 kilovoltluq "Basqal" hava xəttinin 2,3 kilometrlik hissəsi əsaslı təmir olunub, 5,5 kilometrlik hissəsi isə yeni çəkilib.

Qeyd olundu ki, İsmayıllı Elektrik Şəbəkəsində 23 min 403 abonent mövcuddur. Onlardan 21 min 382-si əhali, 2021-i isə qeyri-əhali qrupuna aiddir.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev İsmayıllı rayonuna səfəri çərçivəsində Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yol barədə Prezident İlham Əliyevə məlumat verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda mühüm yol-nəqliyyat layihələri həyata keçirilir. Nəticədə həm ölkə əhəmiyyətli, həm də şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulur. Bu işlərin həcmi və coğrafiyası getdikcə daha da genişlənir. Bütün bu işlər, ilk növbədə, vətəndaşların rahatlığını, nəqliyyatın və piyadaların təhlükəsizliyini təmin etmək, həmçinin ölkəmizdə nəqliyyat sahəsinin inkişafına dəstək vermək məqsədi daşıyır. Belə layihələr, eyni zamanda, Azərbaycanda reallaşdırılan sosial-iqtisadi inkişafın uğurla davam etdiyini göstərir. Bu cür müasir yol layihələrinin icrası ümumilikdə regionların iqtisadiyyatına da töhfə verir, fermerlərin məhsullarını daha rahat və tez daşıması üçün əlverişli şərait yaradır.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidentinin bu il imzaladığı Sərəncama əsasən, 1000 nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə vəsait ayrılıb. Uzunluğu 14 kilometr olan yol dördüncü texniki dərəcəlidir. Hərəkət hissəsinin eni 6 metr olan yol iki hərəkət zolaqlıdır. Yol boyu su ötürücü borular quraşdırılıb, siqnal dirəkləri, yol nişanı və göstərici lövhələr qoyulub, yol cizgi xətləri çəkilib, biraşırımlı körpü tikilib.

Bu yolun inşası iki yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq, Azərbaycanda beynəlxalq və respublika əhəmiyyətli yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm işlər görülüb.

Son illərdə yol infrastrukturunun yenilənməsi sahəsində icra olunan layihələr kənd və qəsəbələrarası yolları əhatə edib. Azərbaycanda yeni-yeni kənd yollarının inşası, mövcud yolların ən müasir səviyyəyə çatdırılması, ilk növbədə, əhalinin sosial məsələlərinin həlli baxımından olduqca vacib əhəmiyyətə malikdir. Bununla yanaşı, bütün bunlar ölkəmizin iqtisadi potensialının səviyyəsindən də xəbər verir.

Prezident İlham Əliyev İsmayıllı rayonunda "Buta Qrup" MMC tərəfindən yaradılan aqroparkın açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Bəşir Quliyev aqroparkda görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Son illərdə Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər və icra olunan dövlət proqramları nəticəsində dövlət tərəfindən hərtərəfli dəstək alan sahibkarlar yeni zavod, fabrik və digər istehsal müəssisələri yaradırlar. Bununla da, ölkəmizin iqtisadi potensialı artır, özəl sektor inkişaf edir və ən əsası işsizlik problemi aradan qaldırılır. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Dövlətimizin başçısının yürütdüyü uğurlu aqrar siyasət, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yaradılan infrastruktur, suvarma və irriqasiya sistemləri, maliyyə dəstəyi və subsidiyalar, aqrar sektora vergi güzəştləri kəndliyə son illərdə bol məhsul yetişdirməsi üçün geniş imkanlar yaradıb. Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı müvafiq Fərmanla aqroparkların yaradılması məhz bu problemlərin aradan qaldırılmasına yönəlib. Aqroparklar fermer təsərrüfatlarının idarə olunmasının mütərəqqi aqrar-sənaye üsuluna keçidinin inteqrasiyasını, məhsuldarlığın artırılması və saxlama şəraitinə görə itkilərin azaldılmasını, ixrac coğrafiyasının genişləndirilməsini və "Made in Azerbaijan" brendi ilə xarici bazarlara stabil və etibarlı çıxışını təmin etməyə əlverişli şərait yaradır. Bundan başqa, ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da böyük əhəmiyyətə malik aqroparkların yaradılması rayonların iqtisadi imkanlarını artırmaqla yanaşı, yeni iş yerlərinin yaranmasına da səbəb olur. İndiyə qədər aqroparkların yaradılması üçün dövlət dəstəyi hesabına infrastruktur, o cümlədən su, elektrik, qaz və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 218 milyon manatdan çox investisiya qoyulub. Ümumi dəyəri 457 milyon manatdan çox olan 17 aqroparkın yaradılmasına dövlət tərəfindən 111,2 milyon manat güzəştli kredit ayrılıb və 15 aqropark üzrə dəyəri 563,5 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq dörd aqroparkda birinci mərhələ üzrə işlər başa çatdırılıb. Yeni aqroparklardan biri də İsmayıllı rayonunun Kürdmaşı kəndində "Buta Qrup" MMC tərəfindən yaradılan aqroparkdır.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Bildirildi ki, ümumi dəyəri 22 milyon manat olan aqroparkın yaradılmasına birinci mərhələdə 7,7 milyon manat investisiya qoyulub. Bunun 1,9 milyon manatı İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılıb. Ərazisi 602 hektar olan aqroparkın tərkibinə əkinçilik təsərrüfatı, soyuducu anbar kompleksi, istehsal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və paketlənməsi sahələri daxildir. Aqroparkda cari ildə 120 hektar buğda, 120 hektar kartof və 96 hektar qarğıdalı əkilib. Əkin sahələrinin davamlı və keyfiyyətli su təminatının həyata keçirilməsi üçün 2 su anbarı inşa edilib, su və elektrik xətləri çəkilib, ilkin olaraq 90 hektar sahədə müasir pivot suvarma sistemi qurulub, müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınıb.

Prezident İlham Əliyevə aqroparkda kartof tədarükü və çeşidləmə prosesi, kompleksin elektron idarəetmə sistemi barədə məlumat verildi.

Qeyd olundu ki, aqroparkın 3 min ton tutumu olan soyuducu anbar kompleksi məhsulların uzun müddət keyfiyyətli və itkisiz saxlanılmasına imkan verir. Anbarda gücü saatda 15 ton çeşidləmə və gücü saatda 10 ton olan paketləmə xətləri quraşdırılıb. Bu avadanlıq hesabına sahədən yığılan ekoloji təmiz məhsullar ölçülərinə görə çeşidləndikdən sonra paketlənərək aqroparkın soyuducu anbar kompleksində saxlanılır və əsasən qeyri-mövsüm dövründə satışa çıxarılır. Kartofçuluq üzrə ixtisaslaşan aqroparkda il ərzində təqribən 2,7 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunaraq "İsmayıllı Tərəvəzləri" brendi altında yerli və xarici bazarlarda satışa çıxarılacaq.

Bildirildi ki, aqroparkda Almaniyadan və Hollandiyadan gətirilmiş super elit və elit toxumlardan ölkəmizin müxtəlif regionlarının iqlim şəraiti və torpaq strukturuna uyğun yüksək keyfiyyətli toxumların yetişdirilməsi nəzərdə tutulur. Növbəli əkin sisteminin tətbiqi, eləcə də düzgün aqrotexniki qaydalara riayət olunmaqla aqroparkda yüksək keyfiyyətli kartof sortları əkilir ki, bu sortlar üzrə hər hektara orta məhsuldarlıq 45-50 ton təşkil edir.

Qeyd edək ki, respublika üzrə ötən il 2016-cı illə müqayisədə kartof istehsalı 1,3 faiz artaraq 913,9 min ton, ixracı 51 faiz artaraq 57,7 min ton, idxalı isə 11,7 faiz azalaraq 168,8 min ton təşkil edib. Gələcəkdə aqroparkda məhsul istehsalının 3 dəfə artırılması, soyuducu anbar kompleksinin 15 min tona çatdırılması və bitki yağları istehsalı sahəsinin yaradılması nəzərdə tutulur. Layihənin icrası nəticəsində 24 nəfər işlə təmin olunub.

Hazırda ölkənin 30 rayonu üzrə 192,2 min hektar ərazidə dəyəri 1,4 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu il istifadəyə verilən aqroparkların sayının 14-ə çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin Şamaxı rayonunda ucaldılan abidəsini ziyarət edib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıb.

Məlumat verildi ki, ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda son vaxtlar yenidənqurma və abadlıq işləri aparılıb, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Dəmirçi Arxeologiya Muzeyinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım muzeyin rəmzi açılışını bildirən lenti kəsdilər.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın hər bir guşəsi maddi-mədəniyyət abidələri ilə zəngindir. Bu gün respublikamızın bir sıra bölgələrində aparılan genişmiqyaslı arxeoloji tədqiqatlar nəticəsində bir çox maddi-mədəniyyət nümunələri üzə çıxarılıb, bu da Azərbaycan tarixinin qədimliyini bir daha sübut edir. Bu abidələrin qorunub-saxlanması və yeni nəsillərə ötürülməsi də mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə tarix-diyarşünaslıq, həmçinin arxeologiya muzeyləri önəmli rol oynayır. Ölkəmizdə mədəniyyətin bütün sahələrinə göstərilən qayğı muzey işinin təşkili və bu sahədə yeni innovasiyaların tətbiq olunması baxımından da diqqət çəkir. Şamaxı rayonunun Dəmirçi kəndində yeni inşa olunan Arxeologiya Muzeyi də qədim maddi-mədəniyyət abidələrinin qorunmasına xidmət etməklə özündə bu prinsipləri nümayiş etdirir.

Məlumat verildi ki, Şamaxı rayonunun ən qədim kəndlərindən olan Dəmirçinin tarixi XV əsrə gedib çıxır. İsmayıllı rayonunun Əhən kəndindən gələn dəmirçi ailələri mövsümi işlə əlaqədar burada müvəqqəti, sonralar isə daimi məskən salıblar. Sakinlərin məşğuliyyəti ilə əlaqədar kəndin də adı dəyişib və Dəmirçi olub. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bu kəndin iqlimi mülayimdir, yayı sərin keçir. Kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, "Azərxalça" ASC-nin guşəsi, suvenir mağazası və "ABAD" dükanları, avtomobil dayanacağı yaradılıb, "Qala" və bulaq kompleksi inşa edilib. Dövlətimizin başçısının göstərişi ilə ölkəmizin ən qədim dini məbədlərindən olan kənd məscidi əsaslı şəkildə yenidən qurulub. Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Dəmirçi kəndinə səfərləri çərçivəsində kənd məscidinin yenidənqurmadan sonrakı vəziyyəti və burada yaradılan turizm infrastrukturu ilə tanış olublar.

Muzeydə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, muzey binasının inşasına bu ilin

fevralında başlanıb. Yüksək səviyyədə həyata keçirilən tikinti işləri avqustda başa çatdırılıb. Birmərtəbəli bina açıq və qapalı ekspozisiya zallarından, iki yardımçı otaqdan ibarətdir. Buradakı açıq muzey xüsusilə diqqəti cəlb edir.

Bildirildi ki, Dəmirçi-Lahıc yolunun çəkilişi zamanı kəndin 4-cü kilometrliyində Gədəli yaylağı adlanan ərazidə 3 hektar sahədə son antik və erkən orta əsrlərə aid nekropol aşkar edilib. Tədqiqat zamanı yer səthindən təqribən 50-80 santimetr dərinlikdə 30-dək daş qutu qəbirləri, qala divarları və yeraltı anbarlar aşkarlanıb. Kvadrat formasında olan qəbirlərin hamısının divarları çaydaşı və əhəngdaşından ibarət olan qaya parçalarından hörülüb, üstü isə sal daşlarla qapanıb. Qəbirlərdə skeletlər bükülmüş vəziyyətdə sol böyrü üstə başı əsasən şimal-şərq istiqamətində aşkar olunub. Həmin daş qutu qəbirlərdə alban dövrünə aid kifayət qədər zəngin maddi-mədəniyyət nümunələri qeydə alınıb. Tapıntılar arasında saxsı və çini məmulatlar sayca üstünlük təşkil edir. Daş qutu qəbirlərdə metal nümunələrə, o cümlədən silah və bıçaqlara, eləcə də tunc bəzək əşyalarına daha çox rast gəlinir. Bəzi qəbirlərdə skeletin başının altında gümüş cam üzə çıxıb. Elmi cəhətdən çox mühüm tapıntılardan biri həmin camların içərisində skeletin başı altındakı parça qalıqlarıdır. Bu da Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan ən qədim parça nümunəsi hesab olunur. Bir qəbirdə skeletin yanında qılınc və xəncər də qoyulub. Bu tapıntılar həmin qəbrin ən azı sərkərdə və camaat arasında xüsusi nüfuz sahibi olan hərbçiyə aid olduğunu ehtimal etməyə əsas verir.

Diqqətə çatdırıldı ki, muzeyin sərgi zalında ümumilikdə 7 bölmə yaradılıb. Burada Şamaxı rayonu ərazisində, həmçinin Dəmirçi kəndində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi-mədəniyyət nümunələri, nadir daş alətlər, əkinçilik mədəniyyətinə aid əmək alətləri, soyuq silahlar, mis, bürünc, gümüş sikkələr, aqlay materiallardan su boruları, qədim gil məmulatı və digər qiymətli tapıntılar, məişət əşyaları nümayiş olunur. Bu eksponatlar muzeyə gələn turistlərdə böyük maraq doğuracaq, onlara ölkəmizin tarixi ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. Muzey, həmçinin bölgənin tarixinin müxtəlif dövrlərini araşdırmaq baxımından da mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında iştirak ediblər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və xanımına yolun göstəriciləri barədə məlumat verdi.

Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biri də yol infrastrukturunun yenilənməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsidir. Yeni, müasir avtomobil yollarının tikintisi, mövcud yolların isə yenidən qurulması işləri ildən-ilə genişlənir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında bu sahəyə xüsusi yer ayrılır. Son illərdə yol infrastrukturunun inkişafı istiqamətində icra edilən layihələr yolların müasir səviyyəyə çatmasına hərtərəfli imkan yaradıb. Digər mühüm məqam respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası və yenidən qurulması işlərinin geniş vüsət almasıdır. Bu layihələr bütün bölgələri əhatə edir. Yeni salınan Dəmirçi-Lahıc avtomobil yolu bunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmiri və yenidən qurulması, ümumilikdə, bölgələrimizin sosial-iqtisadi, turizm, kənd təsərrüfatı potensialını gücləndirir. Bütün bu tədbirlərin əsas məqsədi vətəndaşların gündəlik həyatını asanlaşdırmaq və daha da yaxşılaşdırmaqdır.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən yolun uzunluğu 22 kilometrdir. Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına əsasən, Şamaxı rayonunun bir və İsmayıllı rayonunun dörd yaşayış məntəqəsini əhatə edən Dəmirçi-Lahıc yolunun tikintisinə Prezidentin ehtiyat fondundan 3 milyon, dövlət büdcəsinin investisiya xərclərindən isə 13,7 milyon manat olmaqla, Avtomobil Yolları Dövlət Agentliyinə ümumilikdə 16,7 milyon manat ayrılıb. Bu vəsait hesabına Dəmirçi-Lahıc avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun qurulub. Yolun hərəkət hissəsinin eni 6 metr, çiyinlər də daxil olmaqla, yol yatağının eni 8-10 metrdir. Yol üzərində ümumi uzunluğu 210 metr olan müxtəlif diametrli suötürücü borular qoyulub. Avtomobil yolunda nəqliyyat vasitələrinin normal hərəkətinin təmin edilməsi üçün müvafiq yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, həmçinin avtobus dayanacaqları tikilib.

Qeyd edək ki, Dəmirçi-Lahıc avtomobil yolunun tikintisi sakinlərin rahat gediş-gəlişini təmin etmək, yük və sərnişin daşımasını asanlaşdırmaqla yanaşı, turistlərin hər iki rayonun turizm bölgələrinə daha qısa və abad yolla getməsinə imkan yaradacaq.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

Lahıc qəsəbəsi ölkəmizin ən qədim yaşayış məskənlərindən biridir. Tarixi erkən orta əsrlərə gedib çıxan bu qəsəbə nadir arxitekturası ilə diqqəti cəlb edir. Bu gün Lahıc Tarix-Mədəniyyət Qoruğunda 90-dan çox tarixi abidə, o cümlədən 5 məscid, 3 hamam, 60-dan artıq yaşayış evi, həmçinin körpü və su dəyirmanı, qəbirüstü daşlar, bir neçə sənətkarlıq emalatxanası və ictimai bulaqlar qorunur. Lahıcda 100-dən çox sənət növü və peşələr yaşadılır və inkişaf etdirilir. Bütün bunlar da turistlərin diqqətini çəkir. Bu ilin 8 ayında

qəsəbəyə 45 min turist gəlib. Son illərdə qəsəbənin inkişafı ilə bağlı bir sıra tədbirlər görülüb, sosial layihələr icra olunub. Bu layihələrdən biri də 400 şagird yerlik Lahıc qəsəbə tam orta məktəb binasının inşasıdır. Məktəbdə yaradılan şərait göstərir ki, dövlətimizin başçısının təhsilə göstərdiyi diqqət nəticəsində bu sahə tamamilə yeni və keyfiyyətli mərhələyə qədəm qoyub. Son illərdə müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub, mövcud təhsil müəssisələri isə günün tələbləri səviyyəsində yenidən qurulub. Təqdirəlayiq haldır ki, bu proses bölgələri də əhatə edib.

Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi ki, Lahıc qəsəbə tam orta məktəbi üçün bina 1928-ci ildə inşa edilmişdi. Məktəb 130 şagird üçün nəzərdə tutulmasına baxmayaraq, burada 232 şagird təhsil alırdı. Binanın mövcud vəziyyəti müasir dövrün tələblərinə uyğun deyildi, eyni zamanda, qəsəbə əhalisinin sayının artması və ətraf kənlərdə tam orta məktəbin olmaması bu təhsil müəssisəsində şagird sıxlığı yaratmışdı. Dövlətimizin başçısının ötən il imzaladığı Sərəncama əsasən, Lahıcda 400 şagird yerlik yeni ümumtəhsil məktəbinin tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə vəsait ayrıldı. Üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Müxtəlif fənn kabinetləri və laboratoriyalarının yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Burada idman zalı və 175 yerlik akt zalı da yaradılıb. Videomüşahidə sisteminin quraşdırıldığı məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilib.

Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Lahıc qəsəbəsinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış edərək dedi:

– Mən sizi salamlayıram. Çox şadam ki, Lahıc qəsəbəsinə gəlmişəm. Uzun illərdir ki, istəyirdim gəlim. Amma Prezident kimi ilk səfərimdir. Əvvəllər dəfələrlə olmuşam, siz də bunu yaxşı bilirsiniz. İstəyirdim əliboş gəlməyim. Ona görə bir az vaxt apardı. Ancaq bu səfər ərəfəsində Lahıc qəsəbəsində çox önəmli hadisələr baş vermişdir. Birincisi, biz bu gün Dəmirçi-Lahıc avtomobil yolunun açılışını qeyd etdik. Bu, hesab edirəm ki, tarixi bir layihədir. Lahıc qəsəbəsini Şamaxı rayonu ilə birləşdirir. Əvvəlki yol keçilməz idi. Heç yük maşını ilə getmək mümkün deyildi. İndi isə mən özüm bu yolla gəlmişəm. Çox rahat, gözəl yoldur, təhlükəsiz yoldur. Bakıdan Lahıca gələn turistlər üçün də, vətəndaşlar üçün də çox rahat bir yoldur. Həm daha qısadır, həm də təhlükəsiz getmək mümkündür.

Keçən il mən Dəmirçi kəndində olarkən, kəndin inkişafı ilə bağlı göstərişlər vermişəm. Bu gün orada tarix muzeyinin açılışını qeyd etdik. Dəmirçi kəndi də Lahıc qəsəbəsi ilə tarixən bağlı olan bir kənddir. Ona görə indi gediş-gəliş də çox rahat olacaq.

Lahıc qəsəbəsinin təhsil məsələlərinin həlli də diqqət mərkəzindədir. Bilirəm, belə təkliflər də olubdur ki, yeni məktəb tikilsin. Keçən il Sərəncam verildi və bu gün biz bu məktəbin açılışını etdik. Gözəl, 400 şagird yerlik məktəbdir. Hazırda burada təxminən 200-dən çox şagird oxuyur. Amma gələcəkdə əhali artacaq, uşaqların sayı artacaq. Elə məktəb tikmişik ki, gələcəkdə də Lahıc qəsəbəsinin ehtiyacını tam ödəsin.

Əlbəttə ki, Lahıc qəsəbəsinə təbii qazın çəkilişi də tarixi layihədir. Siz yaxşı bilirsiniz ki, qaz xətlərini çəkmək çox çətin məsələdir, həm maliyyə baxımından, həm texniki baxımdan. Ancaq Lahıcın Azərbaycanda xüsusi yerini nəzərə alaraq, biz bu böyük layihəni də icra etdik. İndi biz təbii qazın verilməsini sizinlə birlikdə qeyd edəcəyik.

Yəni, bir daha demək istəyirəm, mən bu gün gəlmişəm ki, bu tədbirlərdə iştirak edim və sizinlə görüşüm. Şadam ki, Lahıc sakinlərinin xahişləri tam yerinə yetirilib. Əgər əlavə xahişlər olarsa, siz mənə deyin, biz onları da həll edərik ki, bu tarixi, qədim qəsəbə öz inkişafını bundan sonra da təmin etsin.

Lahıc tarixi bir yerdir, qədim yaşayış diyarıdır. Burada yaşayan insanlar çox istedadlı insanlardır. Sizin misgərlik sənətiniz, digər sahələrdə fəaliyyətiniz lahıclıların nə qədər istedadlı olduğunu göstərir. Eyni zamanda, Lahıcdan bir çox görkəmli şəxsiyyətlər olub, bu gün də var – alimlər, ziyalılar, ictimai xadimlər. Yəni, Lahıc çox dəyərli insanlar yetişdirib. Hesab edirəm ki, təhsil məsələsində də siz ön sıralardasınız. Mənə indi məlumat verildi ki, Lahıc məktəbini bitirən şagirdlər Azərbaycanın ali məktəblərinə yüksək ballarla daxil olurlar. Yəni, bu, onu göstərir ki, qəsəbənin çox dərin kökləri var, mədəniyyəti var. Bu mədəniyyət özünü göstərir. Çünki Lahıc nəinki Azərbaycanda, bizim regionumuzda unikal yaşayış yeridir. Təsadüfi deyil ki, Lahıca minlərlə, on minlərlə turist gəlir. İndi Şamaxı-Lahıc yolu ilə daha da çox gələcəklər. Əminəm ki, turistlərin axını daha da artacaq. Bu qəsəbənin özəlliyi ondadır ki, burada çox nadir memarlıq ansamblı mövcuddur.

İndi Lahıcın memarlığı, küçələri, binaları özlüyündə bir milli sərvətdir. Burada işləyən, yaşayan insanların əl işləri də, əlbəttə ki, bu qəsəbəni dünya səviyyəsində təqdim edir. Təsadüfi deyil ki, dünyanın aparıcı televiziya kanallarında Lahıcla bağlı verilişlər gedib və bu gün də gedir. Həm "Euronews", həm başqa aparıcı televiziya kanallarında, qonşu ölkələrin kanallarında indi çox gözəl reportajlar verilir. Bu da Azərbaycanın şöhrətini daha da artırır və Lahıca gələcək turistlərin sayını da artırır.

Turizm Azərbaycanda prioritet istiqamətlərdən biridir. Mənə verilən məlumata görə, Lahıcda otellər tikilir, bir otel indi məktəbin önündə inşa edilir. Mən bunu da alqışlayıram. Bax, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 7 ayında 9 faiz artıb və bu proses davam edir. Hər gələn turist xidmət sektorunun inkişafına xidmət göstərir. Mən istəyirəm ki, hər bir yerdə, ölkəmizin hər bir guşəsində insanlar daha da yaxşı yaşasınlar, onların həyat səviyyəsi yüksəlsin, dolanışıq yaxşı olsun. Ona görə biz bütün lazımi infrastruktur layihələrini icra edirik, o cümlədən İsmayıllı rayonunda. Mən dünən İsmayıllı rayonunun bəzi obyektlərinin açılışında olmuşam. Həm yeni heyvandarlıq kompleksi, aqropark, yarımstansiya, yollar – bütün bunlar İsmayıllı rayonunun inkişafına xidmət göstərir. İsmayıllı rayonunda qazlaşdırmanın səviyyəsi 75 faizdir. Biz içməli su layihəsini icra etmişik, İsmayıllı şəhərinin içməli su problemi həll olunub. Bir çox kənd yolları salınıb. Dünən istifadəyə verdiyimiz yarımstansiya nəinki İsmayıllı rayonuna, qonşu rayonlara da enerji ötürür. İndi yarımstansiya ancaq 40 faiz gücü ilə işləyir. Yəni, İsmayıllı rayonunun gələcək inkişafı üçün bizdə indi bütün enerji təsərrüfatı mövcuddur.

Dünən mən xalçaçılıq fabrikinin açılışında iştirak etmişəm. Orada 150 qadın işlə təmin olunub, xalçaçılıq sənətini yaşadır, yaxşı maaş alır. Yəni, bu gün Azərbaycan reallıqları budur. Ən ucqar yerdə infrastruktur yaradılır, təhsil müəssisələri tikilir, yollar, qaz xətləri çəkilir ki, insanlar rahat yaşasınlar. Əminəm ki, yolun, qazın çəkilişindən sonra Lahıca gələn qonaqların – həm Azərbaycan vətəndaşlarının, həm də xarici vətəndaşların sayı qat-qat artacaq.

Mən şadam ki, bu gün sizinlə birlikdəyəm. Mən lahıclılarla müxtəlif sərgilərdə dəfələrlə görüşmüşəm - Bakıda, Mehriban xanımın xətti ilə Heydər Əliyev Fondunun tədbirlərində, xarici ölkələrdə lahıclılar öz sənətini nümayiş etdirirlər. Hər dəfə də onlar məni dəvət edirdilər, mən də hər dəfə deyirdim ki, gələcəyəm. Amma bir daha demək istəyirəm, istəyirdim ki, əliboş gəlməyim. Sizi bir daha təbrik edirəm.

Lahıc qəsəbə tam orta məktəbinin direktoru, Əməkdar müəllim Hikmət Haqverdili dövlətimizin başçısına minnətdarlığını çatdıraraq dedi:

– Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, Lahıca xoş gəlmisiniz. Sizi bütün lahıclılar adından salamlayıram. Bu əziz günlərdə bizimlə bir yerdə olduğunuza görə Sizə və Mehriban xanıma öz minnətdarlığımızı bildiririk. Bu gün Lahıcda möcüzələr baş verir. Lahıc və lahıclılar üç böyük tarixi hadisəni yaşayırlar. İlk növbədə, qazlaşdırmadan danışmaq istəyirəm. Bizim ağlımıza gəlməzdi ki, nə vaxtsa Lahıcda qaz olacaq. Bu gün Lahıca və ona bitişik dörd kəndə qaz verildi. Bu, Sizin insanlara qayğınızın, dövlətimizin artan qüdrətinin bariz təcəssümüdür. Bundan sonra insanlarımız evlərində mavi qazla isinəcək, evlərə rahatlıq gələcək.

Mübaliğəsiz deyə bilərəm ki, Siz və Mehriban xanım insanlığın, xeyirxahlığın, vətənə və milli dövlətçiliyə xidmətin bariz nümunəsisiniz. Biz hamımız Sizin səfərlərinizi, görüşlərinizi diqqətlə izləyirik. Siz ötən il Dəmirçi kəndində səfərdə olarkən qeyd etdiniz ki, həmin kəndin sakinlərinin Lahıcda qohumları yaşayır, buradan Lahıca qədər yol çəkiləcək. Bu gün artıq bu yol çəkilib. Bu yolda addımlayan hər kəs hər addımda Sizə dualar edəcək.

Məktəb binası 1928-ci ildə tikilmişdi. Doxsan ildən sonra Lahıcda müasir tələblərə cavab verən yeni məktəb tikildi. Mən bir məktəb direktoru kimi deyə bilərəm ki, Lahıc məktəbinin şöhrəti çox böyükdür. Bu şöhrət bundan sonra da artacaq. Məktəbə ayaq qoyan hər bir şəxs dövlətimizin, öz Prezidentinin qayğısını həmişə hiss edəcək və onlar dövlətimizə həmişə sədaqətli vətəndaşlar olacaqlar.

Möhtərəm Prezident, Mehriban xanım, Sizin sayənizdə Lahıc beynəlxalq aləmə çıxıb. Lahıc misgərlik sənətinin UNESCO-nun mədəni irs siyahısına daxil edilməsini biz lahıclılar Mehriban xanımın müstəsna xidməti kimi dəyərləndiririk. Lahıc sənətkarları, bütün lahıclılar adından Sizə minnətdarlığımı bildirirəm. Mehriban xanım, Sizi ad gününüz münasibətilə bütün lahıclılar adından təbrik edirik. Siz insanlara daim sevinc, xoşbəxtlik bəxş edirsiniz. Biz Sizin fəaliyyətinizi daim izləyirik. Siz həmişə xeyirxah işlərdə, xeyirxah tədbirlərdə iştirak edirsiniz. Bu Sizi fərqləndirən cəhətlərdəndir. Siz bu əziz gündə – ad gününüzdə biz lahıclılarla bir yerdəsiniz. Bu, Sizin böyüklüyünüzü, insanlara bağlılığınızı göstərir.

Möhtərəm Prezident, Sizin və Mehriban xanımın siyasəti nəticəsində Azərbaycan bütün dünyaya işıq saçır. Biz fəxr edirik ki, belə bir ölkənin vətəndaşıyıq. Biz fəxr edirik ki, Sizin kimi qüdrətli, xalqını sevən, vətəninə, kökünə bağlı olan rəhbərlərimiz var. Sizi, Mehriban xanımı, ailənizin hər bir üzvünü bütün lahıclılar adından səmimi qəlbdən təbrik edirəm, cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Qəsəbə sakini Hüseynağa Kamilzadə də Prezident İlham Əliyevə təşəkkür edərək dedi:

– Cənab Prezident, çox böyük təşəkkürümü bildirirəm ki, böyüklük etmisiniz. Biz çox çətin vəziyyətlər keçirmişik, piyada gedib-gəlirdik, balaca bir yol var idi. Mərhum atanız, – Allah ona rəhmət eləsin, – İsmayıllıda bir tədbirdə idi, mən də o tədbirin iştirakçısı idim. O vaxt oradan Lahıca gedəndə Aslanov ona demişdi ki, Siz Siyasi Büronun üzvüsünüz, oraya getmək təhlükəlidir. O, həmin iclasda yol nazirinə dedi ki, yoldaş Xələfov, sizə göstəriş verirəm, bir ildən sonra bütün nəqliyyat növləri Lahıca hərəkət etməlidir, özüm gələcəyəm. Çox diqqətli idi. Bir azdan sonra bildiyiniz kimi, böyük işlə əlaqədar Moskvaya apardılar. Həmin nazir hər həftənin altıncı günü burada olurdu. Bir neçə dəfə də bizim evimizdə qonaq olmuşdu. Söhbət edirdi ki, ulu öndər Heydər Əliyev çox diqqətli insandır. Moskvada olmağına baxmayaraq, vaxtaşırı danışanda

soruşurdu ki, Lahıcın yolu nə yerdədir? İndi Sizdə onun diqqəti var. Allah ona qəni-qəni rəhmət eləsin. Bizim lahıclılar heç vaxt yaxşılığı unutmurlar. O körpüdən keçən elə bir adam olmur ki, oradan keçəndən sonra ona rəhmət oxuyub, salavat çevirməsin.

Sizin xidmətiniz isə göz qabağındadır. Çox böyük xidmətləriniz var və bu, əvəzedilməzdir. Allahdan Sizə, hörmətli Mehriban xanıma uzun ömür, cansağlığı arzu edirəm. Ən azı bundan 100 il sonra da bir yerdə yaşamağı arzulayıram.

Prezident İlham Əliyev: Bir daha demək istəyirəm ki, Lahıcın Azərbaycan tarixində xüsusi yeri var. Bugünkü müstəqil Azərbaycanı dünyada təqdim edən, öndə gedən qəsəbələrdən biridir. İndi dünya bilir ki, Lahıc kimi bir yer var, burada gözəl insanlar yaşayırlar, gözəl təbiəti var. On minlərlə insan gəlib sizinlə görüşəcək və Lahıcı tanıyacaq.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev İsmayıllı rayonuna, o cümlədən Lahıc qəsəbəsinə təbii qaz xəttinin çəkilməsi ilə bağlı görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyevin təsdiq etdiyi və uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair 2014–2018-ci illəri əhatə edən Dövlət proqramının əsas müddəalarında biri də ölkə ərazisinin tam qazlaşdırılmasıdır. Hazırda “Azəriqaz” İstehsalat Birliyinin qarşısına qoyduğu əsas hədəflərdən biri də çətin relyefə malik ərazilərin qazlaşdırılmasıdır və bu sırada İsmayıllı rayonunun Lahıc qəsəbəsi mühüm yer tutur. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunan qəsəbənin qazlaşdırılması son illərdə bu sahədə əldə edilən mühüm nailiyyətlərdən biridir. Belə ki, dövlətimizin başçısının ucqar kənd və qəsəbələrin qazlaşdırılması barədə tapşırığına uyğun olaraq, Lahıc qəsəbəsi və bu xətt boyunca yerləşən kəndlər də daxil olmaqla qazlaşdırma işləri həyata keçirilib.

Rövnəq Abdullayev dedi:

– Cənab Prezident, 27 yaşayış məntəqəsinin qazla təmin olunmasından sonra indi 2297 qəsəbə mərkəzləşdirilmiş qazla təmin olunub.

Prezident İlham Əliyev: Qazlaşdırma bizdə neçə faizə çatıb?

Rövnəq Abdullayev: Cənab Prezident, bu proqram çərçivəsində qaz şəbəkələrinin uzunluğu 10 min 500 kilometrdən 45 min 500 kilometrə çatıb. Qazlaşdırma sahəsi arta-arta gedir. Bu gün ölkə üzrə qazlaşdırma səviyyəsi 95 faizdir.

Prezident İlham Əliyev: Amma İsmayıllı rayonunda 75 faizdir.

Rövnəq Abdullayev: Bu, rayondakı dağlara görədir.

Prezident İlham Əliyev: Ona görə mən tapşırıram, məşğul olun. Biz gərək qazlaşdırmanı artıraq. Dünən icra başçısı mənə dedi ki, yaxın günlərdə 5 kəndin qazlaşması həyata keçiriləcək.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov: Bu gün qazla təmin edilən kəndlər də daxil olmaqla.

Rövnəq Abdullayev: Cənab Prezident, 720 min abonentimiz var idi. Dövlət Proqramının icrasından sonra artıq 2 milyon 140 min abonent var.

Prezident İlham Əliyev: Üç dəfə artıb.

Rövnəq Abdullayev: Bəli. Əgər itkilər 2010-cu ildə 16-17 faiz idisə, yeni sistemlərin qurulmasından sonra itkilər azalıb və hazırda 5,5 faizə enib. Cənab Prezident, Lahıca qazı 19 kilometr kənardakı qazpaylayıcı məntəqədən çəkmişik. Bununla bərabər, Qaraqaya, Gəndov, Namazgah kəndləri də qazlaşdırılıb. Lahıcın daxilində ümumilikdə 39 min metr uzunluğunda boru xətti çəkilib.

Prezident İlham Əliyev: Bütün evlərə qaz çəkilib?

Rövnəq Abdullayev: Cənab Prezident, Sizin göstərişinizlə fərq qoymadan bütün evlərə, bütün obyektlərə qaz çəkilib. Relyefin xüsusiyyətlərinə, iqlim şəraitinə görə burada qaz çəkilişinin çətinlikləri var. Qaz xətti dağlıq ərazilərdən, qayalıqlardan keçdiyinə görə bəzən borular əllə daşınıb.

Prezident İlham Əliyev: Bu, həm texniki cəhətdən çətin işdir, həm də çox maliyyə vəsaiti tələb edir. Ancaq artıq bunu etmişik.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lahıc qəsəbəsinə təbii qazın verilməsinin rəmzi olan məşəli alovlandırdılar.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Lahıc icma evində yaradılan şəraitlə tanış oldular.

Qəsəbə sakini misgər Nəzər Əliyev dedi: Cənab Prezident, Sizə son dərəcə minnətdarıq. Bizim üçün yaratdığınız bu şəraitə, bizə yaşatdığınız sevincə görə bütün sakinlərimiz adından Sizə minnətdarlığımızı bildiririk. Bu il nəvəm Fərrux məktəbə gedəcək, o gözəl məktəbə görə də çox sağ olun. Sizə dünyalar qədər təşəkkür edirik. Sizin gəlişinizə çox sevinirik.

Qeyd edək ki, rayon mərkəzindən 36 kilometr məsafədə yerləşən Lahıcda əhalinin əsas məşğuliyyəti sənətkarlıqdır. Qəsəbə icmasının təklifi ilə Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan kənd investisiya layihəsi çərçivəsində Lahıcda ümumi sahəsi 428 kvadratmetr olan icma evi tikilib. Burada sənətkarlara yaradıcılıqla məşğul olmaqla yanaşı, öz əsərlərini satmaq üçün də şərait yaradılıb. Azərbaycan kənd investisiya layihəsinin üstünlükləri kənd icmalarının infrastruktur problemlərini həll etməklə məhdudlaşmır. Layihə icma üzvlərinin müasir biznes fəaliyyəti üçün vacib olan birgə fəaliyyət, layihələrin və biznes planların hazırlanması bacarıqlarına yiyələnmələrinə şərait yaradır.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan Cənub Qaz Dəhlizinin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng “Şahdəniz” yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, biz, qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında “Tərəfdaşlıq prioritetləri” sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni Saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləmiş və öz dəyərli töhfəsini vermişdir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir, siyasi islahatlar, iqtisadi əməkdaşlıq, enerji əməkdaşlığı və nəqliyyat sahəsindəki əməkdaşlıq. Azərbaycan bu sahədə də öz töhfəsini verir.

Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini vermişdir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda “Qətiyyətli dəstək” missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, “Qətiyyətli dəstək” missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək.

Hörmətli xanım Prezident, dəvətə və göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Dost Xorvatiya xalqına daim tərəqqi və xoşbəxtlik arzulayıram. Sağ olun.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqrebdə “Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı” abidəsini ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğurunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib.

Xorvatiyanın Baş naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti dövlət iqamətgahının fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev və Baş nazir Andrey Plenkoviç birgə foto çəkdirdilər.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olundu, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri birgə işçi nahar etdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb.

Parlament sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edildi. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirildi.

Azərbaycanın Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasında iştirakının önəmi qeyd olundu, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edildi, dostluq qruplarının bu işə mühüm töhfə verə biləcəyi bildirildi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Zaqrebdə Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.

Prezident Kolinda Qrabar-Kitaroviçin çıxışı

– Zati-aliləri, hörmətli Prezident Əliyev.

Zati-aliləri, xanımlar və cənablar, əziz dostlar, axşamınız xeyir olsun.

Bir daha, cənab Prezident, Sizə və nümayəndə heyətinizə Xorvatiya Respublikasına "Xoş gəlmisiniz!" deyirəm. Ümid edirəm ki, gününüz məhsuldar və xoş keçib və bu axşam dostlar arasındakı şam yeməyi Sizin ürəyinizcə olacaq.

İnanıram ki, bu gün təkcə apardığımız danışıqlar, həmçinin Baş nazirlə və parlamentin sədri ilə apardığınız söhbətlərlə yadda qalmadı. Anlaşma memorandumunun imzalanması, xüsusilə də enerji sektorunda fəaliyyət göstərən şirkətlər arasında danışıqlarla biz Xorvatiya və Azərbaycan arasındakı münasibətlərin yeni mərhələsinə qədəm qoyduq.

Cənab Prezident, ikitərəfli münasibətlərimizin inkişafına töhfə vermək məqsədilə Sizinlə, sizin hamınızla birlikdə işləməyi səbirsizliklə gözləyirəm. Əlbəttə ki, biz hər iki ölkənin inkişafını arzu edirik. Əfsuslar olsun ki, tarixən qeyri-sabit regionda yerləşən hər iki ölkəyə sabit və firavan gələcəyə ümidlə baxmağı, açıq qalan istənilən məsələləri və həll olunmamış münaqişələri nizamlamaq iqtidarında olmağı arzu edirəm və bu məsələdə biz sizi tam dəstəkləyirik.

Azərbaycan və Avropa İttifaqı arasında olan xüsusi tərəfdaşlıq vasitəsilə Avropa İttifaqı kontekstində birlikdə çalışmağı arzu edirəm. Bu gün qeyd etdim ki, NATO-nun tərəfdaşı qismində verdiyiniz töhfələrə, xüsusilə Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına verdiyiniz töhfəyə görə biz Sizə minnətdarıq. Lakin, eyni zamanda, ümumi kontekstə regional və qlobal təhlükəsizliyi müzakirə etdiyimizə, ümumi maraqlarımıza və ümumi gələcəyimizə görə Sizə təşəkkürümü bildirirəm.

Bir daha Sizə çox xoş axşam və Xorvatiyada xoş vaxt keçirməyi arzu edirəm.

Prezident İlham Əliyevin çıxışı

– Zati-aliləri, hörmətli xanım Prezident.

Xanımlar və cənablar, əziz dostlar.

Xanım Prezident, əvvəla icazə verin, dəvətə, mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdarlığımı bildirim. Biz, Sizin gözəl ölkənizdə özümüzü həqiqətən evimizdəki kimi hiss edirik. Mənim rəsmi səfərim başa çatır və mən səfərin nəticələrindən çox razı qaldığımı qeyd etmək istəyirəm. Əminəm ki, səfər Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq münasibətlərini gücləndirəcək.

Xanım Prezident, biz müntəzəm olaraq təmasdayıq. Hamımız iki il bundan əvvəl Azərbaycana rəsmi səfərinizi xatırlayırıq. Aramızda yaranan əlaqələr ikitərəfli münasibətlərin inkişafına kömək göstərir. Keçən il Münxendə beynəlxalq konfrans zamanı Sizinlə görüşmüşük və bu gün Xorvatiyaya rəsmi səfərim zamanı görüşürük. Bu, onu nümayiş etdirir ki, ölkələrimiz arasında çox fəal siyasi dialoq prosesi gedir. Münasibətlərin inkişafı üçün çox güclü potensial mövcuddur.

Bu gün biz enerji, nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, sənayenin inkişafı sahələrində genişmiqyaslı əməkdaşlıq məsələlərini müzakirə etdik. Eləcə də regional məsələləri müzakirə etdik. Müzakirə etdiyimiz bütün məsələlərdə bizim ümumi yanaşmamız var. Bu, çox vacibdir. Bu, bizi həqiqi strateji tərəfdaş edir. Azərbaycan regionumuzun, Avropanın enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayır. Biz daha da fəal rol oynamağa davam edəcəyik və bu mənada Xorvatiya ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan qitələrarası dəmir yolu əlaqəsi layihəsinin də təşəbbüskarı olub və bu da artıq Avropadan Asiyaya və əks istiqamətdə daşınan yüklərin həcminin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır. Bütün bu layihələr konkret nəticələri olan layihələrdir və bu layihələr bizi birləşdirir.

Avropa İttifaqı ilə münasibətlərimizdə bizə davamlı dəstək göstərdiyinə görə Xorvatiyaya minnətdarıq. Bu gün müzakirə etdiyimiz kimi, biz Avropa İttifaqı ilə yeni Sazişin tezliklə tamamlanmasına böyük ümidlər bəsləyirik və bu da bizim əməkdaşlığımızda çox mühüm mərhələ olacaq. Bu, bütün sahələri –- Azərbaycanın siyasi, demokratik və iqtisadi inkişafını, enerji siyasətini, nəqliyyat, multikulturalizmlə bağlı olan sahələri əhatə edən hərtərəfli sənəddir. Bu, gələcəkdə Azərbaycan ilə Avropa arasında fəal əməkdaşlığı təmin edəcək mühüm bir sənəd olacaq.

Siz bizim NATO-nun "Qətiyyətli dəstək" missiyasına verdiyimiz töhfəni qeyd etdiniz. Biz lap əvvəldən Əfqanıstandayıq, mən əsgərlərimizi nəzərdə tuturam. 2002-ci ildən bəri biz koalisiyaya qoşulmuş azsaylı ölkələrdən biriyik. Biz bu yaxınlarda Əfqanıstandakı hərbi kontingentimizi 120 hərbçiyə qədər artırmışıq. Bu da NATO-ya üzv olmayan ölkələr arasında ən yüksək göstəricilərdən biridir. Əlbəttə ki, biz koalisiya qüvvələrinə logistika, nəqliyyat dəstəyini, ərazimiz üzərindən uçuş imkanını təmin edirik və bizim töhfəmiz NATO və üzv ölkələr tərəfindən yüksək qiymətləndirilir.

Bizim mədəni əlaqələrimizin necə inkişaf etdirilməsi nöqteyi-nəzərindən yaxşı anlayışımız var və bu gün xüsusilə mədəni mübadiləyə aid sənədin imzalanması təbiidir. Azərbaycan dərin multikulturalizm, dinlərarası, sivilizasiyalararası dialoq ənənələri olan bir ölkədir. Bütün bunlar bizim üçün mühüm əhəmiyyət kəsb edir. Prezidentin Sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan olunub. 2015-ci ildə biz birinci Avropa Oyunlarına ev sahibliyi etdik. 2017-ci ildə biz dördüncü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdik. Beləliklə, iki il müddətində biz əməkdaşlıq formatını müəyyən etmək üçün bir şəhərə Avropadan, İslam aləmindən atletləri və dostları dəvət etdik. Bu oyunlar sadəcə idman tədbiri deyildi. Onlar insanları birləşdirən çox mühüm beynəlxalq tədbirlər idi.

Əlbəttə ki, biz hamımız Katolik Kilsəsinin rəhbəri, Roma Papası Fransiskin 2016-cı ildə Azərbaycana tarixi rəsmi səfərini xatırlayırıq. Onun Bakıdan çatdırdığı mesajlar həqiqətən də vacib idi. O, müxtəlif dinlərin nümayəndələri arasında daha çox anlaşmaya nail olmaq üçün bizim siyasətimizin vacibliyini vurğulamışdı. Beləliklə, Xorvatiya ilə müzakirə etdiyimiz və əvvəl qeyd etdiyim kimi, bütün məsələlərdə bizim ümumi anlaşmamız və yanaşmamız var. Bu, bizim tərəfdaşlığımızı daha da güclü edir.

Bu gün Sizin gözəl ölkənizi xoş ovqatla tərk edirəm. Mən həqiqətən özümü burada evdəki kimi hiss edirəm. Fürsətdən istifadə edərək əməkdaşlığımızı davam etdirmək üçün xanım Prezidenti bir daha Azərbaycana səfərə dəvət etmək istəyirəm.

Prezident İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri senyatbrın 6-da başa çatdı.

## *Masallı və Biləsuvar rayonlarına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı və Biləsuvar rayonlarına səfəri zamanı Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak edib.

Son illərdə respublikamızın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən Azərbaycanı digər ölkələrlə bağlayan əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində də mühüm layihələr həyata keçirilir.

Yeni inşa edilən yollardan biri də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoludur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi layihəsi haqqında məlumat verdi.

Bildirildi ki, mövcud Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometr idisə, yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir. Yol birinci texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 15 metr, hərəkət zolaqlarının sayı 4 olan yol müasir səviyyədə və bütün tələblərə uyğun inşa olunub.

Sifarişçisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi olan yolun podratçı şirkətləri Azərbaycanın "Evrascon-AzVirt" Birgə Müəssisəsi, Türkiyənin "Kolin İnşaat Sanayi Turizm və Ticarət", həmçinin "Özgün Yapı Sənaye və Ticarət", o cümlədən digər nüfuzlu xarici şirkətlərdir.

Qeyd edildi ki, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun 31 kilometrlik Ələt-Yenikənd hissəsi 2006-2009-cu illərdə inşa edilib. Yolun 23,4 kilometrlik Yenikənd-Salyan hissəsinin, həmçinin Kür çayı üzərində 363 metrlik körpünün və 1,2 kilometrlik yanaşma yollarının tikintisi isə 2016-cı ildə başa çatdırılıb və dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilib.

Məlumat verildi ki, yolun 24,8 kilometrlik Salyan-Şorsulu, 30,1 kilometrlik Şorsulu-Cəlilabad və 39,2 kilometrlik Lənkəran-Astara hissələrində isə tikinti işləri cari ildə yekunlaşdırılıb. Bu hissələrin açılışı ilə Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun daha 150 kilometrlik hissəsi istismara verildi. Bununla da Ələtdən Astarayadək 204 kilometrlik məsafədə tam yeni və müasir yolun inşası başa çatdırıldı.

Avtomobil yolunun 2011-2018-ci illərdə yeni istiqamət üzrə tikilən ümumi uzunluğu 173 kilometr olan Yenikənd-Astara hissəsində layihə üzrə bir sıra işlər həyata keçirilib. Layihənin Şorsulu-Cəlilabad hissəsində 12,5 kilometrlik yol bataqlıq-göl ərazilərdən keçdiyi üçün burada torpaq xüsusi texnologiya ilə bərkidilib və yol yatağının tikintisi zamanı 1,2 milyon ton qaya-daş dolğusundan istifadə olunub.

Ümumilikdə, magistral yolboyu 24 körpü, 66 yeraltı keçid, 25 yolötürücü və yol qovşağı, 4 tunel, 51 kilometr çiyinlərdə suaxıdıcı beton küvetlər tikilib, 5 istirahət parkı salınıb, 166 kilometr ayırıcı zolaqda dəmir-beton təhlükəsizlik və 140 kilometr çiyinlərdə metal mühafizə çəpərləri, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb və yol-cizgi xətləri çəkilib.

Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun digər avtomobil yolları və maneələrlə kəsişməsində müxtəlif səviyyəli yol qovşaqlarının tikilməsi, birləşən və ayrılan yolların sayının azaldılması yolda təhlükəsizliyin təmin edilməsinə maksimum şərait yaradıb. Magistral yol Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və yolun tikintisi bu bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcək.

Prezident İlham Əliyev Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev Masallı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Masallı şəhərinin mərkəzindəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov abidənin ətrafında və son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısına Viləş çayının şəhər ərazisindən keçən hissəsində yeni salınan Park-Bulvar Kompleksində işlərin gedişi ilə də bağlı məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində çox mühüm layihələr icra olunub və bu proses davamlı xarakter alıb. Xüsusilə sənayenin müxtəlif sahələrinin inkişafına böyük diqqət göstərilir. Bu da təsadüfi deyil. Çünki sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq ölkədə yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Bütün bunların nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi isə genişlənib. İndi ölkədə innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluğunu artırmaq məqsədilə nəhəng sənaye parkları və məhəllələri yaradılır. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından bu cür sənaye parklarının və məhəllələrinin müstəsna əhəmiyyəti var. Bundan başqa, bu obyektlər sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından da müstəsna rol oynayır. Bu məqsədlə dövlətimizin başçısının müvafiq sərəncamları ilə Neftçala, Masallı, Sabirabad və Hacıqabulda sənaye məhəllələrinin yaradılması qərara alınıb. Artıq Neftçala Sənaye Məhəlləsi sahibkarların istifadəsinə verilib. Masallı Sənaye Məhəlləsinin təşkili işləri başa çatdırılıb. Hacıqabul Sənaye Məhəlləsinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsinin tikintisi üçün hazırlıq işləri aparılır. Beləliklə, bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin tərkib hissələrindən olan sənayeləşmənin sürətləndirilməsi prioritet sahə elan olunub və bu istiqamətdə irimiqyaslı layihələrin icrası davam etdirilir. Müasir sənaye məhəllələrinin yaradılması həm də ölkəmizin iqtisadi potensialını nümayiş etdirir, iqtisadi gücümüzü artırır.

İqtisadiyyat naziri Şahin Mustafayev Masallı Sənaye Məhəlləsində görülən işlər, həmçinin ölkədə yaradılan və yaradılmaqda olan sənaye məhəllələri barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Azərbaycanda ilk sənaye məhəlləsi dövlətimizin başçısının iştirakı ilə 2017-ci ildə Neftçalada açılıb. Həmin Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Hacıqabul Sənaye Məhəlləsinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Tikinti işlərinə 200 nəfər cəlb edilib. Sabirabad Sənaye Məhəlləsi isə 20 hektar ərazidə yaradılır. Artıq burada tikinti işlərinə başlanılıb. İnşaat işlərinə 200 nəfər cəlb olunub. Masallı Sənaye Məhəlləsi Prezident İlham Əliyevin 2016-cı il iyunun 13-də imzaladığı Sərəncamla yaradılıb. Ümumi sahəsi 10 hektar olan məhəllədə tikinti işlərinə 2017-ci ilin iyulunda başlanıb. Sənaye

Məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur, o cümlədən 2,5 MVt gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu qurulub, su və kanalizasiya sistemi, təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu yaradılıb, yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq işləri aparılıb. İlk mərhələdə mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsalı, taxta evlərin hazırlanması ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 5 milyon 230 min manat dəyərində 10 layihə təqdim edilib. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı Masallı Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə tanış oldu. Məlumat verildi ki, Sənaye Məhəlləsində müxtəlif mebel və onların hissələrinin istehsalı üzrə 5 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına ümumilikdə 3,5 milyon manatdan çox investisiya yatırılıb, 142 yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısı Sənaye Məhəlləsində fəaliyyət göstərən "Perla" Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsi ilə tanış oldu. Bu istehsalat sahəsinin yaradılmasında müasir avadanlıqlardan istifadə edilib. Burada döşək və metal yay hissələri istehsal ediləcək. Müəssisənin investisiya dəyəri 1,2 milyon manatdır. "Perla" brendi ilə satışa çıxarılacaq müəssisənin məhsulları yüksək keyfiyyəti ilə seçilir. İstehsal sahəsində 30 daimi iş yeri açılıb. Müəssisənin nəzərdə tutulan illik dövriyyəsinin həcmi 3 milyon manatdır.

Sənaye Məhəlləsində fiziki şəxs Süleyman Qurbanov tərəfindən istehsal sahəsi yaradılıb. Burada "Mikayıloğlu" brendi ilə uşaq və mətbəx mebelləri istehsal ediləcək. Müəssisə 2018-ci ilin avqustunda istismara verilib. İnvestisiya məbləği 100 min manat olan müəssisədə 7 nəfər çalışacaq. Müəssisədə ayda 100 uşaq və mətbəx mebeli istehsal olunacaq. Burada nəzərdə tutulan illik dövriyyənin həcmi 180 min manatdır.

"Birlik-3A" MMC isə Sənaye Məhəlləsində taxta evlər istehsalı üzrə ixtisaslaşıb. İnvestisiya məbləği 500 min manat olan müəssisədə 15 iş yeri açılıb. Burada ay ərzində müasir tipli 3 taxta ev hazırlanacaq. Müəssisənin illik məhsul dövriyyəsinin həcmi 2 milyon manat təşkil edəcək.

"Kainat-2016" MMC-nin taxta emalı və məmulatları istehsalı müəssisəsinin investisiya dəyəri 500 min manatdır. Müəssisəyə əlavə dövlət dəstəyi göstərilərək İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilib. Burada 15 nəfər daimi işlə təmin olunub. Müəssisə bu ilin avqustunda istismara verilib. İstehsal gücü ayda 300 kubmetrdir. Nəzərdə tutulan illik dövriyyənin həcmi isə 600 min manatdır.

Sənaye Məhəlləsinin ilk qadın iştirakçısı olan Qənirə Zeynalovanın istehsal sahəsinə 80 min manat investisiya yatırılıb. Müəssisədə müxtəlif növ yumşaq mebellərin istehsalı təşkil edilib. Bu istehsal sahəsi 2018-ci ilin avqustunda istismara verilib. Burada 6 nəfər iş yeri ilə təmin olunub. Müəssisənin istehsal gücü ayda 30 dəst müxtəlif növ yumşaq mebeldir. Burada nəzərdə tutulan illik dövriyyənin həcmi 200 min manatdır.

Fərdi sahibkar Rahib Zərbiyev tərəfindən Sənaye Məhəlləsində 250 min manat investisiya yatırılmaqla dəmir məmulatları, işıq dirəkləri, park oturacaqları və digər məhsulların istehsalı müəssisəsi yaradılıb. Artıq bu ilin aprelindən məhsul istehsalına başlayan müəssisədə 20 iş yeri açılıb. Müəssisənin nəzərdə tutulan illik dövriyyəsinin həcmi 300 min manatdır.

Sonra Prezident İlham Əliyev Sənaye Məhəlləsində "Azərxalça" ASC tərəfindən yaradılmış Xalçaçılıq üzrə Təlim-Tədris Mərkəzi ilə tanış oldu. Mərkəzin fəaliyyət sahəsi xalçaçılıq üzrə tədris-hazırlıq kurslarının təşkilidir. Bildirilib ki, Mərkəzdə 50-dən 150-dək yerli sakin xalçaçılıq sənətinə yiyələnəcək. Onlar kursu bitirdikdən sonra müvafiq işlə təmin ediləcəklər. Burada 10 ədəd toxucu dəzgahı quraşdırılıb.

Sənaye Məhəlləsində mebel, dam örtükləri və aksesuarlar istehsal edən müəssisələr də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin inzibati binasında yaradılan şəraitlə də tanış oldu. Burada toplantı və təlimlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Binada iclas otağı, müasir ofis sahələri, "Start-up"lar üçün ofislər, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və Sənaye Məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan digər sahələr var. İnzibati binada, eyni zamanda, sahibkarlara sığorta, bank və mühasibatlıq, hüquq məsləhətləri xidmətləri göstəriləcək. Sahibkarlara dəstək məqsədilə Sənaye Məhəlləsinin bütün ərazisi pulsuz internetlə təmin olunub. Digər sənaye məhəllələrinə olduğu kimi, Masallı Sənaye Məhəlləsinə də sahibkarlar tərəfindən böyük maraq göstərilir.

Prezident İlham Əliyev Sənaye Məhəlləsinin inzibati binasında yaradılmış İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "Kiçik və Orta Biznesin Dostu" (KOB) Mərkəzi ilə də tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, gələcəkdə ölkənin digər şəhər və rayonlarında da sahibkarlara dəstək məqsədilə yaradılacaq "Kiçik və Orta Biznesin Dostu" mərkəzlərinin fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, kiçik və orta sahibkarlığın inkişafı vasitəsilə regionun potensialının reallaşdırılmasına yönələcək. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq olunacaq. "KOB Dostları"nın fəaliyyətinin digər önəmli istiqaməti KOB-lara onların dayanıqlı inkişaf tələblərinə uyğun çoxsahəli dəstəyin göstərilməsidir. Belə ki, bu istiqamətdə fəaliyyət həm mövcud dövlət dəstək mexanizmlərindən istifadə imkanlarının genişləndirilməsinə və onlara KOB-ların maneəsiz və rahat çıxışının təmin edilməsinə, həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin göstərəcəyi çoxsaylı dəstək mexanizm-

lərinin tətbiqinə yönələcəkdir. “KOB Dostları” kiçik və orta biznesin hüquqlarının müdafiəsi istiqamətində də fəaliyyət göstərəcək. Eyni zamanda, sahibkarlarla sıx əlaqələr qurulacaq və “KOB Dostları” onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənəcək. Bu isə həmin tələblərə operativ reaksiyanı təmin etməyə imkan verəcək.

Sonra Prezident İlham Əliyev Məhəlləyə investisiya yatıran yerli sahibkarlarla görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün Masallı rayonunun həyatında əlamətdar bir gündür. Biz Masallı Sənaye Məhəlləsinin açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Burada çalışan insanlara, sahibkarlara, fəhlələrə uğurlar arzulamaq istəyirəm. Çox gözəl hadisədir. Bu təşəbbüs Masallı rayonunun sənaye potensialının möhkəmlənməsinə xidmət göstərəcək. Burada hazırda 200 iş yeri var, bundan sonra isə daha çox iş yeri yaradılacaq.

Biz indi Sənaye Məhəlləsinin birinci mərhələsini işə salırıq. Ərazi kifayət qədər genişdir və gələcəkdə burada əlavə korpuslar tikiləcək. Mən əminəm ki, burada minlərlə insan işlə təmin olunacaq və eyni zamanda, biz idxaldan asılılığı da azaldacağıq.

Ümumiyyətlə, bölgələrdə sənaye məhəllələrinin yaradılması təşəbbüsü çox düzgün bir addım idi. Artıq həyat bunu göstərir. Bir neçə rayonda belə məhəllələr, sənaye parkları yaradılıb, o cümlədən Masallı rayonunda. Biz bundan əvvəl Sumqayıtda, Mingəçevirdə, Neftçalada belə mərkəzlərin açılışını qeyd etmişik, bu gün isə Masallıda. Hacıqabul və Sabirabad rayonlarında sənaye zonalarının yaradılması prosesi gedir. Bu, ilk növbədə, dövlətin siyasətini göstərir. Çünki dövlət buraya əsas vəsaiti qoyan tərəfdir. Həm yerin seçilməsi, bütün infrastrukturun, kommunikasiyaların yaradılması, sənaye və ofis binalarının tikintisi dövlət hesabına həll olunur. Bu, dövlətin sahibkarlara böyük dəstəyidir. Sahibkarlar da öz tərəfindən sərmayə gətirərək avadanlıq alırlar, işi düzgün təşkil edirlər və fəaliyyətə başlayırlar. Əgər biz bu təşəbbüsə start verməsəydik yəqin ki, bu müəssisələr də yaradılmazdı. Hazırda Masallıda bu istiqamətdə işlər yaxşı gedir.

Bütövlükdə ölkəmizdə sənayeləşmə ilə bağlı siyasət uğurla davam etdirilir. Təkcə onu demək kifayətdir ki, bu ilin 8 ayında ölkəmizin qeyri-neft sənayesi təxminən 11 faiz artıb. Bu, çox böyük göstəricidir və doğrudan da göstərir ki, bu sahədə nə qədər böyük işlər görülüb və görüləcəkdir.

Bakı və Sumqayıt şəhərləri Cənubi Qafqazın əsas sənaye şəhərləridir. Bu il Sumqayıt şəhərində böyük sənaye müəssisələrinin yaradılması təmin edilir. Bir neçə ay bundan əvvəl onlardan birinin - polipropilen zavodunun açılışı olmuşdur, polietilen zavodunun açılışı isə ilin sonuna planlaşdırılır. Bu iki zavodun sərmayə həcmi 800 milyon dollardan çoxdur. Ümumiyyətlə, Sumqayıt Kimya Sənaye Parkına qoyulan və qoyulacaq sərmayənin həcmi 2 milyard dollardan çoxdur. Əgər biz vaxtilə o böyük ərazini orada olan yararsız vəziyyətə düşmüş binalardan təmizləməsəydik, sahibkarlara bu şəraiti yaratmasaydıq, dövlət vəsaiti qoyulmasaydı 2 milyard dollar vəsait də qoyulmazdı.

Ona görə bu gün Masallıda həyata keçirilən bu gözəl layihə göstərir ki, Azərbaycan sənaye inkişafı istiqamətində çox düzgün yoldadır, çox düzgün addımlar atılır, iş yerləri, yerli istehsal yaradılır və idxaldan asılılıq azalır. Bu gün mənə göstərilən müəssisələrin fəaliyyəti məhz bu məqsədi güdür. İdxaldan asılılıq azalır, yerli istehsal yaradılır, vergilər ödəniləcək və insanlar işlə təmin olunacaqlar. Azərbaycanda əhali artır. Masallı da əhali baxımından ən böyük rayonlarımızdan biridir, ona görə yeni iş yerlərinin yaradılması prosesi daim getməlidir.

Masallı rayonuna həmişə böyük diqqət göstərilmişdir. Bu, mənim Prezident kimi Masallı rayonuna 10-cu səfərimdir. Bütün səfərlər zamanı biz çox önəmli obyektlərin, layihələrin açılışını qeyd etmişik, o cümlədən bu gün. Masallıda infrastruktur layihələrinin icrası uğurla gedir. Qazlaşdırma 100 faizə yaxınlaşır və əminəm ki, gələn il bütün yaşayış məntəqələri və bütün sakinlər qazla tam təmin olunacaqlar. Bu, tarixi nailiyyət olacaq. Çünki Masallıda əvvəlki illərdə qazlaşdırma çox aşağı səviyyədə idi. Heç şəhərin böyük hissəsi qazla təmin edilmirdi, o ki qaldı, kəndlərə, ümumiyyətlə, qaz yox idi. İndi biz 100 faizə yaxınlaşırıq. Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapır, yeni yarımstansiyalar tikilir ki, Masallı sakinləri dayanıqlı enerji ilə təmin edilsinlər. Mən 2016-cı ildə burada olarkən biz şəhərin içməli su layihəsinin açılışını qeyd etdik. Hesab edirəm ki, bu da tarixi hadisədir. Masallı şəhəri tam, ən yüksək standartlara cavab verən içməli su ilə təmin edilib. İndi kəndlərin su problemləri öz həllini tapır.

Digər infrastruktur layihələrinə gəldikdə, yol tikintisi, xüsusilə kənd yollarının tikintisi uğurla gedir. Mənə verilən məlumata görə, kənd yollarının təxminən 85 faizi yenidən qurulub. Əminəm ki, növbəti illərdə Masallı rayonunda təmirsiz bir dənə də kənd yolu qalmayacaq. Masallı şəhərinin küçələrinin yenidən qurulması üçün mənə rayondan müraciət edilib və müraciətə müsbət reaksiya verilib. Əminəm ki, yaxın gələcəkdə şəhərin bütün küçələri də ən yüksək səviyyədə yenidən qurulacaqdır. Yol infrastrukturuna gəldikdə, onu da bildirməliyəm ki, bu gün Bakı-Astara magistral yolunun açılışı olmuşdur. Bu da tarixi layihədir. Çünki Azərbaycanın imkanını göstərir və eyni zamanda, yol çox keyfiyyətlidir, ən yüksək dünya standartlarına cavab verir və məsafə baxımından Bakıdan Astaraya gedən yol təxminən 40 kilometr qısalır. Çünki yeni yol xətti salınıb. Əvvəllər o yerlərdə bataqlıq olubdur və artıq yeni yol şəhərlərə girmir, – nə Biləsuvar, nə də Masallı şəhərlərinə, – yeni bir istiqamətlə düz sərhədə qədər gedir. Əlbəttə, Masallı rayon sakinləri də hesab edirəm ki, bunu çox yüksək qiymətləndirəcəklər. Çünki magistral yolla, xüsusilə yük maşınlarının gecə-gündüz o tərəf-bu tərəfə işləməsi insanları narahat edirdi, müəyyən təhlükə yaradırdı.

Bu, infrastruktur layihələri ilə bağlı olan işlərdir. Sosial məsələlər Masallı rayonunda uğurla həll olunur. Mən bütün açılışları yaxşı xatırlayıram. Mərkəzi rayon xəstəxanasının əsaslı təmirdən sonra açılışı, göz xəstəxanasının, olimpiya kompleksinin, gənclər evinin, "ASAN xidmət" mərkəzinin açılışları – bütün bunlar çox önəmli layihələrdir. Cənub zonasında birinci "ASAN xidmət" məhz Masallı şəhərində yaradılıb və mən iki il bundan əvvəl açılışda iştirak etmişəm. Mənə verilən məlumata görə, Masallı sakinləri və qonşu rayonlardan gələn vətəndaşlar xidmətin işini yüksək qiymətləndirirlər.

Beləliklə, hesab edirəm ki, biz Masallı rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı bütün əsas işləri görmüşük. Əlbəttə, görüləsi işlər hələ çoxdur. Baxmayaraq ki, 40-dan çox məktəb tikilib və əsaslı təmir edilib, hələ də təmirə ehtiyacı olan məktəblər kifayət qədər çoxdur, onları da biz həll edəcəyik. Əsas odur ki, bütün məsələlər həll olunur, yerlərdən gələn təkliflərə müsbət baxılır. Biz gələn ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına dair yeni Dövlət Proqramını qəbul edəcəyik və yerlərdən gələn təkliflər əlbəttə ki, proqramın tərtibatında mühüm rol oynayacaq. Ona görə sakinləri narahat edən məsələlər mütləq məruzə edilsin, bizə göndərilsin ki, növbəti proqramda bu günə qədər həll olunmayan bütün məsələlər öz əksini tapsın.

Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

Masallı rayon ictimaiyyəti adından dövlətimizin başçısına minnətdarlığını bildirən sahibkar Süleyman QURBANOV dedi:

– Möhtərəm, cənab Prezident, Sizi Masallı Sənaye Məhəlləsində salamlayırıq. Masallıya xoş gəlmisiniz.

Tapşırığınıza uyğun olaraq inşa edilən Masallı Sənaye Məhəlləsi bu gün nəinki bizim rayonun, hətta ətraf rayonların da inkişafına öz töhfəsini verəcəkdir. Masallı Sənaye Məhəlləsi sənayenin inkişafı ilə yanaşı, həmçinin çoxsaylı iş yerlərinin açılması deməkdir. Bir sözlə, bizə burada çox gözəl şərait yaradılmışdır, Sənaye Məhəlləmizdə bank, poçt, tibb məntəqəsi, hüquq məsləhətxanası fəaliyyət göstərəcəkdir. Sənaye məhəlləsində yaradılmış yeni mexanizm – "Kiçik və Orta Biznesin Dostu" Mərkəzi çoxsaylı xidmətlərlə həmişə biz sahibkarların yanında olacaq. Sözün qısası, burada hər cür şərait yaradılıb. Cənab Prezident, bu da dövlətimizin güclü olması, Sizin biz sahibkarlara göstərdiyiniz yüksək diqqət və qayğı deməkdir.

Mən əvvəllər Rusiyada fəaliyyət göstərirdim. Özəl bölmənin inkişafına yetirilən diqqət məni Azərbaycana qayıtmağa, öz Vətənimdə fəaliyyət göstərməyə sövq etdi. İndi mən Masallı Sənaye Məhəlləsinə investisiya yatırmışam, öz mebel istehsalı sahəmi açmışam.

Cənab Prezident, rayonumuzun inkişafına göstərdiyiniz yüksək diqqət və qayğınıza görə bütün masallılılar və masallılı sahibkarlar adından Sizə təşəkkür edirik, minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun.

Prezident İlham ƏLİYEV: Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Masallı – Nemətləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsinin açılışında iştirak edib.

Son illərdə ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının çəkisi və rolu artmaqdadır. Bölgələrimizdə bu sahənin inkişafı istiqamətində icra olunan layihələr Azərbaycanda həm də ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi məsələsinə böyük dərəcədə töhfə verir. Son illərdə yaradılan müasir müəssisələrdən biri də "Masallı – Nemətləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsidir. Bu cür müəssisələrin yaradılması ölkəmizin ümumi iqtisadi inkişafına da töhfə verir. Təsadüfi deyil ki, bu gün Azərbaycanda ümumi daxili məhsulunun böyük hissəsini qeyri-neft sektoru təmin edir ki, bu da ölkədə aparılan iqtisadi şaxələndirmə siyasətinin nəticəsidir. Qeyri-neft sektorunun inkişafında şübhəsiz ki, son illərdə həyata keçirilən aqrar islahatlar mühüm rol oynayır. Bu da Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafına, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına verdiyi önəmi bir daha təsdiqləyir.

Hazırda yüksək məhsuldarlığın təmin edilməsinə, yerli məhsulların rəqabət qabiliyyətinin artırılmasına, kənd təsərrüfatının gəlirli sahələrinin inkişafına, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkilinə və ərzaq təhlükəsizliyinə nail olunmasına dövlət səviyyəsində yüksək diqqət göstərilir. Bu məsələlər aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Bu çərçivədə çəltik tədarükünün stimullaşdırılması, əhalinin bu sahəyə marağının daha da artırılması xüsusi əhəmiyyətə malikdir. Ümumilikdə, son illərdə cənub bölgəsində, o cümlədən Masallı rayonunda ənənəvi əkin sahəsi olan çəltikçiliyin inkişafına diqqət artırılıb.

Müəssisənin direktoru Ağamirzə Kərimov dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi. Yeni yaradılmış müəssisənin ümumi ərazisi 1 hektar, tikinti sahəsi isə 600 kvadratmetrdir. Müəssisənin inşasına 2017-ci ilin noyabrında başlanılıb. 2018-ci ilin sentyabr ayında inşaat işləri tam başa çatdırılıb. Bu istehsalat sahəsinin aylıq emal gücü 300 ton, düyü qurutma gücü isə 900 tondur.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Dövlətimizin başçısı çəltik emalı müəssisəsində yaradılan şəraitlə tanış oldu.

Müəssisənin nəzdində hazır məhsul anbarı və satış mərkəzi tikilib. Gələcəkdə çəltik saxlanılması üçün xüsusi bunkerlərin tikintisi nəzərdə tutulub. Emal edilən düyünün daxili bazarın tələbatına uyğun olaraq satışı üçün müxtəlif şirkətlərlə danışıqlar aparılıb. Bundan başqa, "Made in Azerbaijan" brendi kimi məhsulun xarici bazarlara çıxışı ilə əlaqədar sənədləşmə işləri davam etdirilir. Burada 15 nəfər daimi işlə təmin edilib. Gələcəkdə müəssisənin gücünün 2 dəfə artırılması və işçilərin sayının 40 nəfərə çatdırılması nəzərdə tutulub.

"Masallı – Nemətləri" MMC-nin çəltik təsərrüfatının ümumi sahəsi isə 60 hektardır. Təsərrüfatda yeni texnologiyaların tətbiqi ilə çəltik əkini sahələrinin

hazırlanması bir neçə mərhələdə həyata keçiriləcək. Onların arasında şumun frez və disklə yumşaldılması, ləklərin içinin lazerli qreyderlə hamarlanması, toxumların germetik vannalarda yetişdirilməsi, 48 saat müddətində qapalı yerlərdə saxlanılması, kasetlərə aqreqatla səpilməsi daxildir. Bundan başqa, toxumların xüsusi hazırlanmış şitilxanalarda saxlanılması, şitillərin əkinə hazırlanması və kiçik texnikalar vasitəsilə əkilməsi də həyata keçiriləcək. Burada yeni texnika və metodlardan istifadə etməklə məhsuldarlıq orta hesabla bir hektara 40-50 sentner - əvvəlkindən 2 dəfə çox olacaq. Müəssisə şitiləkən traktorla və digər texnikalarla təchiz edilib.

Ərazidə 400 tonluq anbar da inşa olunub. Cari ildə rayon ərazisində ümumilikdə 301 hektar çəltik sahəsi əkilib. 25 hektar sahə isə Koreya Respublikasından gətirilmiş "Daydon" markalı texnikalar vasitəsilə ən müasir texnologiya əsasında əkilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Masallı rayonunda əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, yolun yenidən qurulması Prezident İlham Əliyevin bu il iyulun 23-də imzaladığı Sərəncama əsasən aparılıb. 32 min nəfərin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun tikintisi üçün dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,5 milyon manat vəsait ayrılıb. Yolun ümumi uzunluğu 24,7 kilometrdir. Dördüncü texniki dərəcəyə aid ikizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Yolun yenidən qurulması layihəsi çərçivəsində genişmiqyaslı torpaq işləri görülüb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilib. Dağlıq ərazidə yerləşən avtomobil yolunun tikintisi 22 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

Sonra dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanda sürətli və davamlı sosial-iqtisadi inkişafa nail olunub. Bu inkişafın əsas elementlərindən biri də yol infrastrukturunun müasir səviyyədə yenidən qurulmasıdır ki, bu istiqamətdə də ölkəmizdə tarixi layihələr icra olunub. Azərbaycanda son dövrlərdə yol infrastrukturunda baş verən əsaslı dəyişikliklərin nəticəsini hər bir vətəndaş öz şəxsi həyatında hiss edir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub. Masallı rayonunun Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun yenidən qurulması da bu tədbirlər sırasındandır.

Biləsuvar rayonuna səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Masallı rayonuna səfərini başa çatdırdıqdan sonar Biləsuvar rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev abidənin ətrafında aparılan abadlıq işləri və rayonda icra olunan layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun açılışında iştirak edib.

Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu cür yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsir göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, həmçinin nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir vətəndaş öz həyatında hiss edir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, 20 mindən çox əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun uzunluğu 15,4 kilometrdir. Üçüncü və dördüncü texniki dərəcəyə uyğun tikilən yol iki hərəkət zolaqlıdır. Yolun inşası zamanı 26,1 min kubmetr torpaq işləri görülüb, 11,6 min kubmetr tikinti materialından və asfalt-beton örtüyündən istifadə edilib. Yol boyunca nişanlar və göstərici lövhələr quraşdırılıb.

Qeyd edək ki, dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncama əsasən tikilən avtomobil yolu dörd yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Bu gün Biləsuvar rayonunda çox gözəl bir gündür, biz yeni kənd yolunun açılışını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu yol bir neçə kəndi birləşdirir. On beş kilometr uzunluğunda olan bu yol ən yüksək standartlara cavab verir. Bu kəndlərdə 16 min əhali yaşayır. Bu yol insanlara rahatlıq verəcək.

Biləsuvar rayonunda yol infrastrukturunun yenilənməsi uğurla davam edir. Son illərdə rayonun əksər kənd yolları əsaslı şəkildə təmir və bərpa olunub. Mənə verilən məlumata görə, Biləsuvar rayonunun kəndlərinin təqribən 80 faizi artıq müasir yollarla təmin edilib. Bu gün buraya gələrkən magistral yoldan Biləsuvar şəhərinə qədər – bu yola qədər yolun keyfiyyətinə fikir verdim və heç də mənim xoşuma gəlmədi. Bilirəm ki, sizin də bu yolla bağlı fikirləriniz var. Ona görə indi dərhal göstəriş vermişəm, müvafiq Sərəncam imzalanacaq, bu il Prezidentin ehtiyat fondundan ilkin vəsait ayrılacaq və gələn ilin təqribən yaz aylarına qədər bu yol tam əsaslı təmir ediləcək. Bu yolun uzunluğu 14 kilometrdir. Yol həm keyfiyyətsizdir, sıradan çıxıb, həm də ensizdir. Göstəriş vermişəm, daha da enli yol salınsın ki, Biləsuvar şəhərinə giriş çox gözəl, möhtəşəm olsun.

Ölkəmizdə yol tikintisi ilə bağlı işlər uğurla gedir. Bu gün Masallı rayonunda bir neçə kəndi birləşdirən 24 kilometr uzunluğunda yolun açılışını qeyd etdik, indi isə Biləsuvarda. Yəni, biz bir gündə 40 kilometrə yaxın kənd yollarının açılışını qeyd etdik.

Ölkəmizdə yol tikintisi geniş vüsət alıb. Bu il Dövlət İnvestisiya Proqramında ən azı 600 kəndin yolunun əsaslı təmir olunması nəzərdə tutulub və yenidən qurulur. O cümlədən magistral yolların salınması, onların ən yüksək standartlara çatdırılması prosesi də gedir.

Bu gün ölkə əhəmiyyətli Bakı-Astara yolunun açılışını da qeyd etdik. Bu, çox gözəl yoldur. Deyə bilərəm ki, dünyanın ən yüksək standartlarına cavab verir, çox rahat, təhlükəsiz bir yoldur. Onu da qeyd etməliyəm ki, bu yol Bakıdan Astaraya olan məsafəni 40 kilometr qısaldır, çünki yolun məcrası dəyişib. Beləliklə, vətəndaşlar daha rahat gedib-gələ biləcəklər. Eyni zamanda, əvvəlki yol Biləsuvar şəhərinin içi ilə gedirdi və əlbəttə ki, şəhər sakinləri üçün müəyyən narahatlıq yaradırdı. Yadımdadır, 2000-ci ildə günlərin birində mən o yol ilə gələrkən mənim yaxın dostumla da görüşmüşdüm. 2000-ci ildə parlament seçkiləri ərəfəsində, Yay Olimpiya Oyunlarından sonra yolda dayanıb məni salamlayırdı, alqışlayırdı. Mən bu kişini tanımırdım. Maşını saxladım, görüşdük, tanış olduq. O vaxtdan bu günə qədər hər dəfə Biləsuvarda olarkən görüşürük. İndi isə magistral yol çəkilib. Biləsuvar rayonunun yolları əsaslı şəkildə təmir olunur.

Biləsuvar rayonuna diqqət daim yüksək səviyyədə olubdur. Bu, mənim Prezident kimi rayona altıncı səfərimdir. Əvvəlki səfərlər zamanı biz bir çox sosial, iqtisadi obyektlərin açılışında görüşmüşük – xəstəxananın, Olimpiya İdman Mərkəzinin tikintisi, məktəblərin açılışı. Bir sözlə, Biləsuvarda sosial-iqtisadi inkişaf uğurla gedir, rayonun infrastruktur layihələri icra edilir, qazlaşdırmanın səviyyəsi 90 faizə yaxındır. Göstəriş vermişəm ki, gələn il Biləsuvar rayonunun qazlaşdırılması 100 faizə çatdırılsın, bu günə qədər həll olunmayan layihələr də icra edilsin. Təqribən 5 il bundan əvvəl burada olarkən biz içməli su layihəsinin açılışını qeyd etdik. Azərbaycanda elektrik stansiyalarının tikintisi nəticəsində yeni yarımstansiyalar da inşa olunur, dayanıqlı enerji ilə təminat yaxşılaşır. Bir sözlə, infrastruktur məsələlərinin həlli gözəl imkanlar yaradır, həm insanların rahatlığını təmin edir, həm də iqtisadi inkişafa təkan verir.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Biz əsas ərzaq məhsulları ilə özümüzü təminetmə səviyyəsinə çox yaxınlaşmışıq. Biləsuvar rayonunda kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və digər sahələr uğurla inkişaf edir. Pambıqçılığa gəldikdə, deyə bilərəm ki, son üç il ərzində əkin sahələri üç-dörd dəfə artırılıb. Məndə olan məlumata görə, bu il 12 min hektarda pambıq əkini təşkil edilibdir, üç il bundan əvvəl isə cəmi 3 min hektarda. Çünki pambıqçılıq Biləsuvar üçün ənənəvi kənd təsərrüfatı sahəsidir, əməktutumlu sahədir, məşğulluğu artırır, insanların rifah halını yaxşılaşdırır. Kənd təsərrüfatının digər sahələri də böyük önəm daşıyır. Bu ilin 8 ayında kənd təsərrüfatımız əhəmiyyətli dərəcədə artıb, sənaye istehsalı artıb, qeyri-neft sənayemiz isə təxminən 11 faiz artıb. Biz bu istiqamətdə işlərimizi bundan sonra da davam etdirəcəyik.

Ölkəmizin Sərhəd Xidməti Xəzəryanı dövlətlərin müvafiq qurumları ilə ikitərəfli və çoxtərəfli formatlarda sıx əməkdaşlıq edir. Dənizdə qanunsuz fəaliyyətin profilaktikası və aradan qaldırılması üzrə birgə tədbirlər həyata keçirilir.

Azərbaycan regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional təhlükəsizlik üçün böyük təhdid doğurur. Ermənistanın işğalı nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının təxminən 20 faizi işğal olunmuş, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir çox aparıcı beynəlxalq təşkilatlar Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul etmişlər. Bu sənədlər münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. BMT Təhlükəsizlik Şurası 20 ildən artıqdır ki, münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Bu qətnamələr öz qüvvəsini itirməyib. Lakin Ermənistan bu qətnamələrə əməl etmir, beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozur. Ermənistan işğal olunmuş torpaqlarda qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirməyə çalışır. Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycan xalqının çoxsaylı tarixi, memarlıq və dini abidələrini məhv etmişdir. İşğal edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı 7 digər rayon tarixi və əzəli Azərbaycan torpağıdır. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Çıxışımın sonunda əminliyimi bildirmək istərdim ki, Sammitdə qəbul edilən qərarlar Xəzəryanı ölkələr arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.

## *Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində İlham Əliyevin nitqi*

Hörmətli Sooronbay Şərifoviç.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə, Sooronbay Şərifoviç, göstərilən qonaqpərvərliyə görə və Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyiniz üçün Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Qırğızıstan torpağında olmağımdan çox məmnunam. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik edən Qazaxıstan tərəfinə də öz minnətdarlığımı bildirirəm. Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır.

Regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır. Çünki indiki dünyada yeni risklər, təhdidlər yaranır, yeni münaqişə, müharibə ocaqları alovlanır. Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. İyirmi ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, hərbi cinayətlər, Xocalı soyqırımı törədilmişdir. Bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır. Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir, mindən çox insan itkin düşüb. Onların taleyi haqqında heç bir məlumat yoxdur. İşğal edilmiş torpaqlarda Ermənistan bizim bütün tarixi, dini abidələrimizi, məscidlərimizi, əcdadlarımızın qəbirlərini dağıdıb, maddi sərvətlərimiz Ermənistan tərəfindən talan edilib. Bu, hərbi cinayətdir və bu cinayəti törədənlər ədalət qarşısında cavab verməlidirlər və verirlər. Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır.

Onu da qeyd etməliyəm ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali orqanı münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni

silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq müddəalar var və münaqişə əlbəttə ki, bu prinsiplər əsasında öz həllini tapmalıdır. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti oxşar qərar və qətnamələr qəbul etmişlər. Bu, münaqişənin həlli üçün əsas hüquqi bazadır.

Bugünkü Zirvə görüşünün mövzusu idmanla bağlıdır. Bu barədə də öz fikirlərimi bildirmək istərdim. Azərbaycanda idmana çox böyük diqqət göstərilir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətidir. Ölkəmizdə bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onların arasında xüsusilə I Avropa Oyunlarını qeyd etmək istərdim. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları heç vaxt keçirilməmişdi. İlk dəfə olaraq üç il bundan əvvəl Bakıda Oyunlar keçirildi. Bu Oyunlarda Avropanın bütün ölkələrini təmsil edən 5 mindən çox idmançı iştirak etmişdir. Azərbaycan Oyunlarda yüksək idman nəticələri göstərmişdir və komanda hesabında ikinci yerə layiq görülmüşdür. Ondan iki il sonra, yəni ötən il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu Oyunlarda Azərbaycan idmançıları birinci yerə layiq görülmüşlər. İki il ərzində bir şəhərdə həm Avropa, həm İslam Oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. Azərbaycan idmançıları Olimpiya Oyunlarında da yaxşı nəticələr göstərirlər. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə qərarlaşmışdır və bu, bizim ölkəmiz üçün tarixi nailiyyətdir.

İdman insanları, xalqları birləşdirir. Əminəm ki, idmanın inkişafı həm ölkələrimizin ümumi inkişafına töhfə verəcək, eyni zamanda, bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Humanitar məsələlərə gəldikdə, xüsusilə TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirmək istərdim. Azərbaycan hər iki təşkilatda fəal iştirak edir.

Mən diqqətinizi iqtisadi əməkdaşlığa cəlb etmək istərdim. Xüsusilə indiki şəraitdə biz iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Xüsusilə aramızdakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır və burada hesab edirəm ki, investisiya layihələri xüsusi rol oynayır. Qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək üçün yeni mexanizmlər işlənməlidir.

Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə. Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu, bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda, Türkiyənin çox böyük iqtisadi potensialını göstərir. Əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilib, “Böyük iyirmilər”in aparıcı ölkələrindən biridir. Biz çox sevinirik ki, Türkiyə bütün sınaqlardan şərəflə çıxır, o cümlədən iqtisadi sınaqlardan. Biz hər zaman bir-birimizin yanındayıq və bunun ən gözəl göstəricisi, yenə də deyirəm, bizim qarşılıqlı sərmayəmizdir. Türkiyədə çox gözəl investisiya iqlimi, biznes üçün çox gözəl şərait var və biz Azərbaycan olaraq bundan sonra da qardaş ölkəyə sərmayə qoyuluşunu davam etdirəcəyik.

Bütövlükdə biz qardaş ölkələrə investisiyaların qoyuluşu ilə həm öz iqtisadi maraqlarımızı təmin edirik, həm də ki, bu ölkələrdə yeni imkanlar yaradırıq. Azərbaycan da qardaş ölkələrdən investisiyaları qəbul etmək üçün bütün işləri görüb. Azərbaycanda da gözəl sərmayə iqlimi var və qarşılıqlı sərmayə qoyuluşu bizim birliyimizi daha da möhkəmləndirəcək. Xüsusilə nəzərə alsaq ki, keçən ilin oktyabr ayından Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng infrastruktur layihəsi fəaliyyətdədir. Bu yol Asiyanı Avropa ilə birləşdirir və bu yolla yükdaşımalarının həcmi artır və artmalıdır. Bu, yeni nəqliyyat dəhlizidir, yeni nəqliyyat damarıdır. Azərbaycan dost, qonşu ölkələrlə birlikdə bu layihənin icrası ilə Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib etmiş olur. Nəzərə alsaq ki, nəqliyyat baxımından bu, çox əlverişli yoldur, mən bütün dost ölkələri bu yoldan istifadə etməyə çağırıram, o cümlədən Avropa ölkələrini, Macarıstanı, Özbəkistanı, Qırğızıstanı. Artıq Qazaxıstan, Türkiyə, Azərbaycan bu yoldan istifadə edir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, bugünkü Zirvə görüşünün çox böyük mənası var, çox gözəl nəticələri olacaq. Əsas nəticə də ondan ibarətdir ki, bizim dostluğumuz, qardaşlığımız daha da möhkəmlənəcək.

Təşəkkür edirəm.

## *Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda İlham Əliyevin nitqi*

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli qonaqlar.

Əziz hərbçilər, xanımlar və cənablar.

İlk növbədə, mənim dəvətimi qəbul edib Azərbaycana gəlmiş əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana öz dərin təşəkkürümü bildirmək istəyirəm. Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram.

Biz bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu respublikanı yaradan Azərbaycan xalqı olmuşdur. Ancaq gənc müstəqil Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. Bakı şəhəri və bir neçə başqa şəhər işğal altında idi. Azərbaycan hökuməti Gəncə şəhərində yerləşmiş və orada fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəti-cəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır.

Biz bu gün əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəhidlərimizin məzarlarını ziyarət etdik. Onların məzarları yan-yanadır. Onlara Allahdan rəhmət dilədik, onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Əfsuslar olsun ki, iki ildən sonra Cümhuriyyət süqut etdi, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir və bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu da bir qardaşlıq nümunəsi idi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir. Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim altı görüşüm olmuşdur - ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulmuşdur. Birgə maliyyə resursları təşkil edilmişdir və bu nəhəng transmilli layihələr uğurla icra edilmişdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirilmişdir. Bu dəmir yolu yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaq. Bizim ölkələrimizin əhəmiyyəti, önəmi artır. Bütün bu böyük layihələri ancaq biz birlikdə edə bilərdik və etdik. Nəzərə alsaq ki, bu layihələr böyük maliyyə resursları, böyük siyasi iradə tələb edir, ancaq birgə səylərimizlə biz buna nail ola bilmişik. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə bizim iş birliyimiz, əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər.

Türkiyə son illər ərzində çox böyük və şərəfli yol keçmişdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Yaşadığımız bölgənin tarixi və bu günü bunu əyani şəkildə göstərir. Türkiyənin siyasi imkanları genişlənir, dünyadakı oynadığı rol artır və bu, bizi çox sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə böyük iqtisadi gücə sahib bir ölkədir. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu var. O dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir. Bütün bu uğurlar yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olmuşdur. Bu gün mən Azadlıq meydanından bütün bu uğurlar münasibətilə Türkiyə Cümhuriyyətinin Prezidentini və bütün türk xalqını ürəkdən təbrik etmək istərdim.

Gələn ay Azərbaycan dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcək. Tarix üçün bu, çox qısa bir vaxtdır. Müstəqilliyimizin ilk iki ili çox ağır, faciəvi keçmişdir, torpaqlarımız işğal altına düşmüşdür, Azərbaycan böyük iqtisadi çətinliklərlə, iqtisadi-siyasi böhranla üzləşmişdir. Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Nəzərə alsaq ki, birinci iki ilimiz çox ağır keçmişdir, sonrakı dövrdə Azərbaycan böyük uğurlara imza atdı. Bu gün Azərbaycan bölgədə önəmli ölkəyə çevrilib, dünyadakı rolumuz artır, bizim beynəlxalq mövqelərimiz möhkəmlənir, dünya ictimaiyyəti bizim siyasətimizi dəstəkləyir. Bunun ən bariz nümunəsi odur ki, bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir. Bu, dünyanın Azərbaycana olan dəstəyinin təzahürüdür. İqtisadi sahədə aparılan islahatlar Azərbaycana böyük imkanlar gətirdi, biz böyük nailiyyətlərə çata bildik. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulmuşdur. Sosial məsələlərin həlli işində böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Azərbaycan dost ölkələrlə, ilk növbədə, Türkiyə ilə birlikdə böyük layihələr icra etdi. Yəni, bütün bunlar tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın gələcəyi də parlaq olacaq.

Ölkəmiz ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu

sırasındadır. Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Mənfur qonşular 1990-cı illərin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək torpaqlarımızın bir hissəsini işğal edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsində məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərmişdir. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır.

Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır.

Tarixi zəfərdən sonra qəhrəman əsgərlərimiz Bakı küçələrinə zəfər yürüşünə çıxmışlar. Minlərlə Bakı sakini onları alqışlayırdı, onları öpürdü, qucaqlayırdı, bağrına basırdı. Bu, bir birlik bayramı idi.

Bu gün minlərlə Bakı sakini şəhərin küçələrində bu paradı, türk və Azərbaycan əsgərlərinin möhtəşəm yürüşünü gözləyir. Bu gün Bakı şəhəri Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib. Küçələrdə, binalarda, hərbi gəmilərdə, səmada Türkiyə və Azərbaycan bayraqları dalğalanır. Bu gün bu möhtəşəm mərasimi təkcə Bakı şəhərinin sakinləri yox, bütün dünya görür. Milyonlarla insan Türkiyə və Azərbaycanda, milyonlarla soydaşımız xaricdə bunu görür və haqlı olaraq qürur hissi keçirir.

Əziz dostlar, bacılar və qardaşlar, mən bir daha sizin hamınızı tarixi gün münasibətilə – Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təbrik etmək istəyirəm. Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulamaq istəyirəm. Bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

## *Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi*

Hörmətli deputatlar.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bizim tədbirlərdə iştirak edən bütün xarici qonaqları salamlayıram, onlara “Xoş gəlmisiniz!” deyirəm.

Dörd ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır. Azərbaycan dili rəsmi dil kimi elan edilmişdir. İyunun 26-da Azərbaycan Milli Ordusu yaradılmışdır ki, bir neçə ay bundan sonra Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etdilər.

Təhsillə bağlı çox önəmli qərarlar qəbul edilmişdir, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması haqqında qərar qəbul olunmuşdur. Gələn il biz Bakı Dövlət Universitetinin 100 illiyini qeyd edəcəyik.

Bir çox qanunlar qəbul edilmişdir, daha doğrusu, 200-dən çox qanun qəbul edilmişdir. Qadınlara səsvermə hüququ verilmişdir. Yəni, qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir.

Bu il biz Azərbaycanda və bir çox ölkələrdə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bir çox önəmli

tədbirlər keçirmişik. Azərbaycanda müntəzəm olaraq tədbirlər keçirilir. Onların arasında, əlbəttə ki, 28 May günü ilə əlaqədar keçirilmiş təntənəli tədbirləri xüsusilə qeyd etmək istərdim. Ondan sonra Azərbaycan Milli Ordusunun 100 illiyinə həsr edilmiş möhtəşəm hərbi paradı qeyd etməliyəm. Bir neçə gün bundan əvvəl - sentyabrın 15-də ikinci möhtəşəm hərbi parad keçirilmişdir. Bakının işğalçılardan azad edilməsi günü təntənəli şəkildə qeyd edildi. O gün Qafqaz İslam Ordusu, Azərbaycan Milli Ordusu, könüllülər Bakını işğalçılardan azad etmişlər və Azərbaycan hökuməti iki gündən sonra Gəncədən Bakıya köçə bilmişdir. Bizim tarixi şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz sahiblərinə qaytarılmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Bu, tarixi şans, tarixi xoşbəxtlik idi. Çünki Azərbaycan xalqı əsrlər boyu müstəqillik, azadlıq eşqi ilə yaşamışdır. Ancaq uzun illər ərzində başqa dövlətlərin tərkibində idi. 1991-ci ildə ikinci dəfə bizə belə imkan yarandı. Ancaq əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunurdu. Ölkə iqtisadiyyatı ağır vəziyyətdə idi, siyasi proseslər vəziyyəti gərginləşdirirdi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti vüsət alırdı, daxildə çəkişmələr imkan vermirdi ki, Azərbaycan uğurla inkişaf etsin. 1992-ci ildə dövlət çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı və Azərbaycan çox çətin çağırışlarla üz-üzə qalmışdı. 1992-ci ildə hakimiyyətə gəlmiş qüvvələr ölkəmizi uçuruma aparırdı, ölkəmizdə siyasi-iqtisadi böhran dərinləşirdi, Ermənistan işğalçılıq siyasətini genişləndirirdi, torpaqlarımız işğal altına düşürdü, iqtisadiyyat tamamilə iflic olmuşdu və ölkəmizdə vətəndaş müharibəsinə start verildi, qardaş qanı töküldü. Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək yeganə düzgün addım atmışdır, Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi idi.

Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, o, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan vermişdi. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifah halı böyük dərəcədə yaxşılaşmışdır. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra o, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi.

Bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü.

Azərbaycana böyük həcmdə sərmayə qoyuluşunun təmin edilməsində Heydər Əliyevin müstəsna rolu var. Dünən biz “Əsrin kontraktı”nın 24-cü ildönümünü qeyd etdik və “Əsrin kontraktı” olmadan Azərbaycanın bugünkü sürətli inkişaf dinamikasını təsəvvür etmək mümkün deyil.

Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilmişdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Mən qeyd etməliyəm ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar. Bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, mən də bunu izləyirəm və deməliyəm ki, doğrudan da çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

Əlbəttə ki, Azərbaycan deputatlarının fəaliyyətinin əsas istiqaməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya birliyinə, öz həmkarlarına həqiqətlərin çatdırılmasıdır. Mən hesab edirəm ki, bu işdə çox böyük uğurlara nail olmuşuq. Son illərdə bir neçə təşkilat, o cümlədən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişlər və bu sahədə fəaliyyət davam etdiriləcək. Mən əminəm ki, Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə öz müsbət töhfəsini verəcəkdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Bu torpaqların tarixi toponimləri, tarixi abidələri, bizim milli irsimiz onu göstərir ki, bu torpaqlarda Azərbaycan xalqı əsrlər boyu yaşayıb. Bu gün bu torpaqlar işğal altındadır. Nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən yeddi rayon da Ermənistan tərəfindən işğal edilib. Bu torpaqlarda bütün infrastruktur dağıdılıb. Dağıdılmış şəhərlərimizin şəkilləri internetdə dərc edilir, bunu hər kəs görə bilər. Bizim bütün milli sərvətimiz, muzeylərimiz ermənilər tərəfindən talan edilib, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb. Azərbaycan xalqına qarşı hərbi cinayət törədilib. Xocalı soyqırımı törədilib, bir gecə ərzində ermənilər 600-dən çox günahsız insanı, o cümlədən 100-dən çox qadını, 60-dan çox uşağı vəhşicəsinə qətlə yetiriblər. Bu gün 10-dan çox ölkənin parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb və bu proses bundan sonra da gedəcəkdir.

Bütün beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər. Onların arasında əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xüsusilə qeyd etmək istərdim. Bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Ermənistan 20 ildən çoxdur ki, bu qətnamələrə əməl etmir, onlara məhəl qoymur və beləliklə, öz işğalçılıq siyasətini davam etdirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm, bunun vaxtı gəlib çatıb ki, işğalçıya qarşı çox ciddi tədbirlər görülsün və bu, ədalətli olardı. Bu məsələ ilə bağlı biz beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərinə də fikir verməliyik. Əgər dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirsə, onda əlbəttə ki, bu orqanın nüfuzu o qədər də yüksək səviyyədə ola bilməz. Münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Mən hesab edirəm ki, bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

Münaqişəyə, böyük humanitar fəlakətə baxmayaraq, – bir milyondan çox insan bu münaqişədən əziyyət çəkir, – Azərbaycan inkişaf yolundadır, Azərbaycanın inkişafı çox sürətlidir. Ermənistan isə, əksinə, getdikcə daha da zəifləyir. Ermənistanda bu ilin yazında baş vermiş çevriliş əslində göstərir ki, əvvəlki rejim xalqın dəstəyini tam itirmişdir. İyirmi il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu, bir daha onu göstərir ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər. Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular. İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir. Bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə mətbuatla, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilatlar səsini çıxarmır. Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər var? Bu, çox ciddi araşdırılmalıdır. Biz onsuz da yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər. Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək. Amma Ermənistan açıq-aşkar repressiya siyasətini aparır, medianı boğur, siyasi opponentlərini həbsə alır, baş nazir onların həbsi ilə bağlı göstəriş verir və buna heç bir reaksiya verilmir. Bu, çox düşündürücü məsələdir və hesab edirəm ki, beynəlxalq təşkilatlar bizim bu sualımıza mütləq cavab verməlidirlər. Verməsələr, deməli, onlar bu yeni yaranan diktatura rejimi ilə əlbirdirlər.

Ermənistanda gedən proseslərə baxdıqda istər-istəməz müəyyən paralellər meydana çıxır. 1992-ci ildə də Azərbaycanda hakimiyyətə insanlar meydanlardan, küçələrdən gəlmişdilər. Onların heç bir təcrübəsi, siyasi biliyi yox idi. Onlar iqtisadiyyatın nə olduğunu bilmirdilər. Ümumiyyətlə, onlar cəmiyyətdə elementar davranış qaydalarını gözləmirdilər. Nəticədə Azərbaycan xalqı o hakimiyyətə cəmi bir il dözə bildi və ondan sonra onlar siyasi səhnədən birdəfəlik çıxarıldılar. Ermənistanda da biz eyni mənzərəni görürük. Meydanda çığırıb-bağıranlar bu gün yüksək postlara təyin olunur, heç bir təcrübəsi olmayan insanlar bu gün Ermənistanın taleyini həll edirlər. Yeni hökumət tərəfindən atılan addımlar onu göstərir ki, bu adamların heç bir biliyi, hazırlığı yoxdur və bu, nəinki Ermənistan üçün, bölgə üçün böyük təhlükə mənbəyidir. Bir tərəfdən, – mən bunu artıq bir dəfə demişəm, – indiki Ermənistan hakimiyyəti nə qədər çox hakimiyyətdə qalsa, bizim üçün bir o qədər yaxşıdır. Çünki o, mövcud olan problemlərin üstünə problemlər gətirir. Onsuz da Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir. Rəsmi statistikaya görə orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstəgəl onların işğalçılıq siyasəti faktiki olaraq əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər. Əgər onlar işğalçılıq siyasətini davam etdirmək istəyirlərsə, bilməlidirlər ki, bunun axırı olmayacaq. Bunun axırı onlar üçün çox pis olacaq.

Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, bir milyondan çox köçkün və qaçqınımız var, Azərbaycan uğurla inkişaf edir və inkişaf üçün çox gözəl perspektivlər var. Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy, Ermənistan bu xülyalarla yaşamasın. Qoy, Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Qeyd etdiyim kimi, beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Təkcə BMT Təhlükəsizlik Şurası deyil, BMT-nin Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Bu il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Bu, Avropa İttifaqının mövqeyidir. Qonşu dövlətlər bizim ərazi bütövlüyümüzü tanıyır və dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə münaqişə ilə bağlı qətnamələr qəbul etmişdir. Onların hamısı bizim mövqeyimizi müdafiə edir. Yəni, bu, məsələnin beynəlxalq hüquqi tərəfidir. Real həyatda biz nəyi görürük: Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə, – müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir, – onda bu dövlətə hansı ad vermək olar? Ancaq uğursuz dövlət. Bu uğursuzluq, əslində, onların işğalçılıq siyasəti nəticəsində olmuşdur. Çünki əgər işğalçılıq siyasəti olmasaydı, onlar Azərbaycanın imkanlarından faydalana bilərdilər. Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz – siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu gün bizim siyasətimiz, – mən bunu bir daha demək istəyirəm, bu, sirr deyil, – Ermənistanı tam təcrid edilmiş vəziyyətə salmaqdır, iqtisadi dayaqlarını, – ona dayaq da demək olmaz, – çökdürməkdir. Nəyə görə? Çünki biz torpaqlarımızı istəyirik. Bizə deyirlər ki, məsələni sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səslənən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq. Onunla bizim işimiz yoxdur. Amma bu, münaqişənin həlli üçün indi böyük problemə çevrilir.

Ona görə biz bundan sonra da öz siyasətimizi aparacağıq. Bizim iqtisadi potensialımız da artır. İndi Ermənistanla Azərbaycan arasında fərq yerlə-göy qədərdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişafda olan ölkədir, Ermənistan isə yoxsul, başqasının əlinə baxan, ianələrlə dolanan bir ölkədir. Biz, əlbəttə ki, bundan sonra da öz siyasətimizi aparacağıq.

Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb.

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı, iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyi hesablaması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi

sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir.

Biz güclü ordu qurmuşuq. Bu il Bakıda iki hərbi parad keçirilmişdir – həm ordumuzun, həm də Bakının işğaldan azad edilməsinin 100 illiklərinə həsr edilmiş paradlar. Paradlarda nümayiş etdirilən imkanlarımız hesab edirəm ki, çox təsirlidir. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və bu, reallıqdır.

Bir sözlə, biz ölkəmizi bundan sonra da bu siyasətlə inkişaf etdirəcəyik. Bu gün biz innovasiyalara, texnologiyalara daha çox üstünlük veririk. Bir neçə gündən sonra Azərbaycan orbitə üçüncü süni peyki çıxaracaq. Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Orbitdə iki peykimiz var, üçüncü də çıxarılır.

Enerji siyasətimizə gəldikdə, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır. Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən "Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır.

Əlbəttə ki, Azərbaycan öz coğrafi vəziyyətindən bundan sonra da uğurla istifadə edəcək. Nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz artıq reallıqdır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Keçməyə də bilərdi, əgər biz bu coğrafiyaya böyük sərmayə qoymasaydıq, əgər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz olmasaydı. Əgər onun qonşularla münasibətləri yaxşı deyilsə, ölkə necə tranzit ölkəyə çevrilə bilər, bu, mümkün deyil. Ona görə də xarici siyasətimiz daxili vəziyyətimizin daha da yaxşı olmasına hesablanıb. Xarici siyasətimiz, eyni zamanda, Azərbaycanda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayır. Azərbaycanda daxildə təhlükə mənbələri yoxdur. Mən bunu dəfələrlə demişəm. Biz özümüzü mümkün olan risklərdən isə öz siyasətimizlə, o cümlədən uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. İlk növbədə, bu siyasət bizə lazımdır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Eyni zamanda, bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya – bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Biz bu gün parlamentin 100 illiyini qeyd edirik. Yüz il bundan əvvəl, əlbəttə, Azərbaycan parlamenti öz funksiyalarını tam şəkildə icra edə bilmirdi. Biz, əlbəttə, müstəqil dövlət idik, ancaq onu da hamımız bilməliyik ki, 1918–1920-ci illərdə müstəqilliyimiz tam deyildi. Azərbaycan çox zəif bir ölkə idi. Azərbaycan müstəqil həyatda ilk addımlarını atırdı. Ölkə daxilində kifayət qədər çox problemlər var idi. Deyə bilərəm ki, hökumət ölkə ərazisinə tam nəzarət edə bilmirdi. Deyə bilmərəm ki, biz o vaxt beynəlxalq təcriddən tam çıxa bilmişdik. Bizi qəbul etməyənlər də var idi. Biz tarixi yaxşı bilirik. Bu gün isə Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir. Bu gün Azərbaycan tam müstəqil siyasət aparır. Qeyd etdiyim bütün məsələlər – istər xarici siyasətlə, daxili siyasətlə, iqtisadiyyatla bağlı olan bütün nailiyyətlər bu məqsədə xidmət göstərir ki, bizim müstəqilliyimiz daha da möhkəmlənsin. Müstəqillik təkcə dövlət atributları deyil. Sən müstəqil siyasət apara bilirsən, yoxsa yox? Bunu uğurla apara bilirsən, yoxsa yox? Bu müstəqil siyasət sənə xeyir gətirir, yoxsa yox? Bax, bu suallara cavab verdikdə əminliklə deyə bilərik ki, bu gün tam şəkildə müstəqil siyasət aparan Azərbaycan öz milli maraqlarını tam şəkildə təmin edir. Azərbaycan parlamentinin bu işlərdə önəmli rolu var.

Əziz dostlar, deputatlar, sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

# SİYASƏT
# POLICY

**Ali HASANOV**
**Assistant to the President of the Republic of Azerbaijan for Publicand Political Issues,**
**Doctor of Science in History, Professor**

## GRANDIOSE TRIUMPHANT ANNALS OF 15-YEAR PRESIDENCY

The 100th anniversary of the Azerbaijan Democratic Republic, the first democratic republic in the Muslim world, is widely celebrated in our country. Describing this event as one of the landmark and glorious pages in the history of our nation, President Ilham Aliyev said: “We are rightfully proud of the fact that the Azerbaijani people founded a first democratic republic in the Muslim world. This is yet another evidence that the Azerbaijani people are freedom-loving and progressive people.” The head of state has always had a great respect for the history of the Democratic Republic and its founders. Under presidential decrees, a monument in honor of the Azerbaijan Democratic Republic was erected in the center of Baku a few years ago, 2018 was declared "The Year of the Azerbaijan Democratic Republic". We will not be mistaken if we say that the greatest sign of President Ilham Aliyev’s respect for the Azerbaijan Democratic Republic and its founders is that he has preserved their ideas, realized their dreams of democracy and reliably safeguarded the independence and sovereignty of Azerbaijan…

We will mark the 27th anniversary of the restoration of Azerbaijan’s state independence in a few days. The middle and old generation well remember how hard the first years of independence were. On the one hand, separatism emerging in the Nagorno-Karabakh region of Azerbaijan further intensified before the collapse of the USSR, 20 per cent of our lands were occupied as a result of Armenia’s aggression, nearly a million of our fellow countrymen became refugees and internally displaced persons. On the other hand, traditional economic and trade relations were disrupted, the country plunged deeper into an economic and political crisis. Only in 1993, after Heydar Aliyev’s return to power, the country gradually came out of this crisis, public and political stability, national civil unity was ensured, and reconstruction got underway in all areas of life. Seeing the national leader’s political line as the only right path, our people supported Mr Ilham Aliyev as a worthy successor of this policy and elected him as their new President with 76.8 per cent of votes in October 15, 2003 elections. Mr Ilham Aliyev’s brilliant governance skills, which he has been demonstrating since assuming power, his resolute domestic and foreign policy based on national interests, and his saying "I am going to be the president of every Azerbaijani" during the pre-election campaign earned him a great deal of popularity, endless confidence and trust of the people. That is why Ilham Aliyev won a confident victory in the 2008, 2013 and 2018 presidential elections. October 15 marks the 15th anniversary of President Ilham Aliyev’s activities as the head of state. In this regard, I would like to share some of my reflections on the 15th anniversary of Mr Ilham Aliyev's activities in the post of President of the Republic of Azerbaijan.

If we analyze in general, in 15 years of his presidency, President Ilham Aliyev, relying on a civil unity platform, the foundation of which was laid by national leader Heydar Aliyev, first of all strengthened internal public and political stability, ensured security of the population, fundamental rights and freedoms of the people, tranquility in the country, and succeeded in gradually improving well-being of citizens. We can say without hesitation that Azerbaijan takes the first place in the post-Soviet area thanks to internal national civil unity and strong public and political stability factor, which is based on the broader public support for the government's policy. Apart from this, Azerbaijan has reinforced its position in the top three in the region over the last 15 years on a number of other key parameters of internal development, including macroeconomic stability, rapid economic development, dynamics of public and moral security system, positive demographic situation, effective government control of migration and urbanization processes and effective public administration.

Secondly, the successful domestic and foreign policy pursued by President Ilham Aliyev and his effective public administration system has increased Azerbaijan`s regional and international influence, and its geopolitical, geo-economic and military-geostrategic position in the Caspian-Black Sea basin and the South Caucasus has been reinforced over the past 15 years.

Azerbaijan is currently in the top three among the regional self-sufficient states for its rational use of natural resources, geographical location and material, moral and human resources, for the successful regional policy and the right choice of position in the field of transnational transport, communications and energy corridors, independence of domestic and foreign policy, for sustainability and dynamics of socio-economic development, for its future development potential and a number of other parameters.

Səfər çərçivəsində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev ictimaiyyət qarşısında çıxış etmiş, sonra dövlət başçısı pambıq sahələrinə baxmış, pambıqçılarla görüşüb onlarla söhbət etmişdir.

Möhtərəm Prezidentimizin Salyan rayonuna 24 sentyabr 2017-ci il tarixli səfərinin proqramı da zəngin olmuşdur. Belə ki, ölkə rəhbəri «İşıqlı Azərbaycan» layihəsinə uyğun olaraq tikilən 110/35/10 kV-luq “Qaraqaşlı” yarımstansiyasının açılışında iştirak etdi. Yarımstansiyanın işə düşməsi ilə 31 min abonentin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchizatına, eləcə də bölgədə güc qıtlığının aradan qaldırılmasına təminat verilmiş oldu. İndi Salyan rayonunun su təsərrüfatı üçün tələb olunan 11,5 MVA gücündə 35 kv-luq iki yarımstansiya da məhz bu “Qaraqaşlı” yarımstansiyasından qidalandırılır.

Həmin gün ölkə rəhbərimiz şəhər 2 saylı tam orta məktəb üçün tikilmiş yeni binanın açılış mərasimində də iştirak etdi. 1200 şagird yerlik yeni üçmərtəbəli məktəb 48 sinif otağı, 6 laboratoriya, əmək təlimi otaqları, tibb məntəqəsi, kitabxana, 380 yerlik akt zalı, idman və atıcılıq zalları ilə şagirdlərimizin ixtiyarına verilib. Yeni yaradılmış şərait təhsilin inkişafına öz müsbət təsirini göstərmiş, məktəbin uğurları bu il çox sevindirici olmuşdur.

Fərəhli haldır ki, paytaxtdan sonra əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir. Bu baxımdan 410 kvadratmetr ərazidə inşa edilən Bayraq Muzeyinin açılışında iştirak edən dövlət başçısı muzeydə tarixi-

mizin müxtəlif dövrlərinə aid eksponatlar, qədim Azərbaycan dövlətlərinin bayraqları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə müxtəlif dövlət rəmzləri, hətta müasir müstəqillik dövrümüzün tarixi hadisələrinə geniş yer verilmiş guşələrlə tanış olmuşdur.

Səfər çərçivəsində ölkə rəhbəri İlham Əliyev rayonun Xıdırlı kəndində Xəzər dənizinin suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə də yaxından tanış olmuşdur. 2013-cü ildən fəaliyyətə başlayan, 2016-cı ildə isə ikinci xətti quraşdırılan bu kompleksin istehsal gücü 1000 kubmetrə bərabərdir. Gün ərzində dənizdən qəbul edilən 2500 kübmetr duzlu sudan 2000 kubmetr içməyə yararlı hala salınır. Hazırda duzsuzlaşdırılan suyun 90 faizi ətraf ərazidə salınan 700 hektara yaxın yaşıllıqların suvarılmasına, qalan hissəsi isə məişətdə istifadə edilir. Buradakı 1 milyon 600 minə yaxın tingin suvarılmasında məhz duzsuzlaşdırılmış sudan istifadə olunur.

Regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönələn layihələr sırasında Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisi xüsusi əhəmiyyəti ilə seçilir. Cənab Prezidentin imzaladığı sərəncamla inşa edilən, ümumi uzunluğu 30 kilometrdən çox olmaqla 5 yaşayış məntəqəsini birləşdirən yoldan 5 mindən çox əhali istifadə edir. Yolun açılışında iştirak edən ölkə rəhbərimizə kənd sakinləri minnətdarlıqlarını bildirmişlər. İctimaiyyət nümayəndələri ilə görüşən möhtərəm Prezidentimiz Salyan və salyanlılar haqqında xoş sözlər söyləmiş, rayonumuzun sosial-iqtisadi potensialını yüksək qiymətləndirmiş, Salyan rayonunun inkişafı üçün yeni dövr, yeni mərhələ başladığını bildirmiş, rayonda kənd təsərrüfatının və sənayenin inkişafı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarını vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son iki ildə Salyan rayonunun sosial-iqtisadi inkişafına dair 9 sərəncam imzalamışdır. Həmin sərəncamların icrasının nəticəsi olaraq Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan və Qaraçala-Düzənlik-Peyk-Birinci Varlı avtomobil yolları, Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintiləri başa çatdırılmış, 122 min nəfərdən artıq əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Şirvan-Salyan avtomobil yolunun inşası və Salyan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası davam etdirilmişdir.

Möhtərəm Prezidentin sərəncamı ilə Salyan rayonu üzrə Qırxçıraq qəsəbəsi, Seyidsadıqlı, Quyçu, Alçalı və Qızılağac kəndlərinin içməli su təchizatı sisteminin qurulması, Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması layihəsi çərçivəsində işlərin davam etdirilməsi və sahəsi 11000 hektara yaxın olan qış otlaq sahələrinə suvarma suyunun çatdırılması məqsədilə əlavə vəsaitlər ayrılmışdır.

Həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində rayonda ümumi məhsul buraxılışının həcmi 2003-cü ilə (59343) nisbətən 2017-ci ildə (423949) 7,1 dəfə, sənaye məhsulunun həcmi 2003-cü ilə (17934) nisbətən 2017-ci ildə (80194) 4,5 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 2003-cü ilə (23897) nisbətən 2017-ci ildə (133173) 5,6 dəfə, əsas kapitala yönəldilmiş vəsait həcmi 2003-cü ilə (1091) nisbətən 2017-ci ildə (129682) 118,9 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 2003-cü ilə (1091) nisbətən 2017-ci ildə (122469) 112,2 dəfə artmışdır. 2003 (57) - 2018-ci ilin I yarısında 20930 daimi olmaqla 38477 yeni iş yeri yaradılmışdır. 2003-2018-ci ilin I yarısında SKMF vasitəsilə 421 sahibkara 42,1 milyon manat kredit verilmiş, fermerlərə ümumilikdə 18,6 milyon manat yardım edilmişdir.

Rayonun Qızılağac kəndi ərazisində 3000,0 hektar torpaq sahəsində Aqropark yaradılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 170 s saylı, 3 mart 2017-ci il tarixli sərəncamı ilə Aqroparkın əhatə etdiyi torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi məqsədilə kateqoriyası dəyişdirilərək dövlət ehtiyat fondu torpaqları kateqoriyasına keçirilmişdir.

Aqroparkda mənbəyi Akkuşa suvarma kanalı olmaqla ümumi uzunluğu 20 km olan su kanalı və ərazidəki mövcud kollektor-drenaj şəbəkəsinin 50 km hissəsi lildən təmizlənmiş, 16 km-dən su kanalı, 0,7 km qaz xətti çəkilmişdir. 15 km məsafədən elektrik xəttinin çəkilişi davam edir. 20 km-dən yeni su xəttinin və 2 km-dən sənaye qaz xəttinin çəkilməsi layihələndirilmişdir.

Tələb olunan texnikalar müəyyən edilmiş, 60 ədəd texnika və avadanlıq alınmışdır.

60 ədəd texnika alınmış, 500 başlıq 2 tövlə, texnika parkı, ofis binası, 3 ədəd 1500 tonluq taxıl anbarı inşa edilmiş, 2 tövlənin, gücü 10 ton/saat olan 1 ədəd yem zavodunun, 4500 tonluq yem anbarının və qonaq evinin tikintisi davam edir.

26 km uzunluğunda torpaq kanalı çəkilib başa çatdırılmış, su kanalı və kollektorlardan keçid üçün istifadə ediləcək 250 metr 1200 milli metrlik borular çəkilmişdir. 5 ədəd nasos aqreqatının su vurması üçün 530 miil metrlik, uzunluğu 1500 metr olan dəmir boru xətti, 800 metrdən elektrik xətti çəkilmiş, yeni yarımstansiya qurulmuşdur. 800 metr uzunluğunda su kanalının tikintisi başa çatdırılmış, 64500 kub metr torpaq daşınmışdır. Salyan-Şirvan yolunda 16 metr uzunluğunda, diametri 3 metr olan 4 Duker, 6 ədəd borulu keçid, 3 ədəd su buraxan hidrotexniki və səviyyə qaldırıcı qurğu və su yığılan təzyiqli hovuz tikilmişdir. Tikinti işləri başa çatdırılmış və yeni tikilmiş kanala su vurulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2016-cı il tarixli, 537-s saylı sərəncamına əsasən Salyan rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar 5000,0 ha sahənin suvarma suyu ilə təmin edilməsi layihəsi həyata keçirilmiş, 26 km uzunluğunda suvarma kanalının tikintisi başa çatdırılmışdır.

Rayonda abadlıq və quruculuq işləri, sosial iqdisadi həyatın ayrı-ayrı sahələri 2018- ci ildə də uğurla inkişaf etdirilməkdədir. Həyata kecirilən düzgün makro-iqtisadi siyasətin nəticəsidir ki, Salyan respublika büdcəsindən əlavə dotasiya almadan yaşayan rayon kimi sağlam iqtisadi əsaslarla inkişaf edir.

Şəhərin 38 kommunal binasında əsaslı təmir işləri görülmüş, Xəlil Rza Ulutürk küçəsi 14, Yusif Qasımov 4, 6, Cəfər Cabbarlı küçəsi 14, Ağaxan Ağabəyli küçəsi 1A binaların dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Şəhərin Elçin İmanov, Aşıq Pənah, Hacı Zeynalabdin Tağıyev və Taleh Davudzadə küçələrində abadlıq işləri davam etdirilmişdir, Qüdrət Səmədov küçəsinə asfalt-beton örtük vurulmuşdur.

Rayonda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, Ələt-Astara magistral avtomobil yolunda, həmçinin Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda və 45 km uzunluğunda Salyan-Neftçala avtomobil yolunda tikinti işləri başa çatdırılmış, 13,1 km uzunluğunda Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu kəndini birləşdirən kəndarası avtomobil yolunun və Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 km hissəsinin tikinti işləri davam etdirilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində rayonun 5 kəndində 30,7 km-dən çox kənddaxili yollara çınqıl səpilmişdir. Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində rayonun Bəşirbəyli kəndində İbtidai məktəb binasının tikintisi başa çatdırılmışdır.

Həsənli kəndi ərazisində 100 min başlıq Damazlıq Quşçuluq təsərrüfatının, Kürsəngi kəndi ərazisində İstixana kompleksinin, şəhər ərazisində Pivə və limonad istehsalı zavodunun və 2 mərtəbəli "Bazar-ticarət mərkəzi"nin, ümumi sahəsi 12,8 hektar olan daha 7 istixana kompleksinin tikintisi əsasən başa çatdırılmışdır.

Rayonun Xıdırlı kəndi ərazisində Zeytun və Meyvə emalı zavodlarının tikintisi sürətlə davam edir. Qeyd edilən zavodların tikintisi məhsul istehsalının artımı ilə yanaşı yüzdən artıq yeni iş yerlərinin yaranmasına səbəb olacaqdır.

Rayonda qeyri neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqa-

mətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 sahibkara 552 min manat kredit verilmişdir.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin 6 ayında 510 daimi olmaqla 2856 yeni iş yeri yaradılmışdır.

2018-ci ilin məhsulu üçün 16813 hektar sahədə taxıl, bundan 8348 hektar buğda, 8465 hektar arpa, 4039 hektar sahədə təzə yonca, 660 hektar sahədə dən üçün qarğıdalı, 420 hektar sahədə kartof, 1241 hektar sahədə tərəvəz, 822 hektar sahədə isə bostan məhsullarının əkini aparılmış və demək olar ki bütün sahələrdə ötən ilin müvafiq dövrünə nisbətən daha çox məhsul tədarük edilmişdir.

Prezident İlham Əliyevin tapşırığına əsasən pambıqçılığın inkişafı respublikanın aqrar sektorunu prioritet istiqaməti elan edilmişdir. Bu vacib işə Salyan rayonunda da xüsusi diqqət göstərilməkdədir. Pambiqçılıq sahəsində zəngin təcrübəsi və təqdirəlayiq ənənələri olan salyanlılar bu mövsümdə 7055,0 hektar torpaq sahəsində əkin aparmış və bol məhsul yetişdirmişlər. 720 nəfərdən çox sahibkar, hüquqi və fiziki şəxs özünə məxsus və ya icarəyə götürdüyü torpaqlarda elin qiymətli sərvətinin vaxtında tədarükü üçün çalışırlar. Sahələrdə 5995 nəfər işlə təmin olunmuşdur. Pambığın tədarük qiymətlərinin dövlət tərəfindən qaldırılması kənd adamlarının işgüzarlığını daha da artırmışdır.

Rayonda əhalinin həyatında mühüm əhəmiyyətə malik olan elektrik, təbii qaz, içməli su təminatı sahəsində müəyyən işlər görülmüşdür. Əhalini keyfiyyətli elektrik enerjisi ilə təmin etmək üçün 2018-ci ilin birinci yarımilində yüksək gərginlikli elektrik transformatorlarında, yarımstansiyalarda təmir işləri aparılmış, 83 ədəd transformatora 8,5 ton yağ əlavə olunmuşdur.1317 ədəd qüsurlu sayğac dəyişdirilmiş, 95 yeni abonentə sayğac quraşdırılmışdır. Şəhərin SİB kabelə keçməsi ilə əlaqədar 1114 ədəd ağac dayaq yeni dəmir və dəmir-beton dayaqla əvəz edilmişdir. Texniki itkilərin azaldılması məqsədilə rayon ərazisində 20,5 km SİB kabel çəkilmişdir. Əhalinin təbii qazla təmin edilməsi istiqamətində müəyyən işlər davam etdirilmişdir. Salyan şəhərinin mərkəzi və ətraf kəndlərində istehlakçıların qaz təsərrüfatına quraşdırılmış qaz sayğaclarının yeni çəkilmiş qaz xətləri üzərinə köçürülməsi işləri davam etdirilir.

Rayonun uzun illər qazsız qalmış Kürsəngi kəndində tikinti quraşdırma işləri başa çatdırılmış, ümumi uzunluğu 76244 metr uzunluqda qaz xətti çəkilmiş, 940 ədəd sayğac və 940 ədəd fərdi tənzimləyici quraşdırılmış, əhalinin istifadəsinə verilmişdir. Hazırda rayonun Peyk və Düzənlik kəndlərində qazlaşma işləri davam etdirilir.

Salyan rayonunda təbii qazla təmin olunan abonentlərin sayı 25246-a çatdırılmış, 1039 yeni mənzil qazlaşdırılaraq qeydiyyata alınmışdır.

Lakin görülən işlərlə yanaşı bu sahədə problemlər hələ də qalmaqdadır. Hələ də rayonda 5 yaşayış məntəqəsi qazlaşdırılmayıb. O cümlədən Xıdırlı kəndi Sovetlər dövründən qazlaşdırılmamış qalmışdır. Fövqəladə Hallar Nazirliyi tərəfindən Kür çayında suyun səviyyəsinin qalxması nəticəsində evlərinə ziyan dəymiş vətəndaşlar üçün tikilmiş, eləcə də hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən fərdi yaşayış evlərinin, rayonun Qırx Çıraq qəsəbəsi, Çuxanlı və Aşağı Kürkəndi kəndlərində yeni salınmış yaşayış massivlərinin qazlaşdırılmasına ciddi ehtiyac vardır.

“Salyan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2017-ci il tarixli, 3175 №-li Sərəncamına uyğun olaraq Salyan şəhərində su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması işləri davam etdirilmiş, yeni çəkilmiş su xətlərindən ayırmalar verilmiş, 727 mənzilə su sayğacı quraşdırılmışdır.

Azərbaycan Respublikası Regionlarının (2014-2018-ci illər) Sosial İqtisadi İnkişafı

Dövlət Proqramı»nın icrası ilə əlaqədar aqrar sahədə də rayonda bir sıra tədbirlər həyata keçirilmişdir.

Məlumdur ki, ölkəmizin iqtisadi inkişafının baza sütunlarından biri olan, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası yerli icra hakimiyyətlərinin fəaliyyətinin əsas istiqamətlərindən biridir. Yerlərdəki bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edən Dövlət proqramları ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb.

Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Salyan rayonunda da müasir texnologiyalar əsasında yeni istehsal sahələrinin yaranmasına nail olunub, rayona qoyulan investisiyaların həcmi xeyli artıb.

Bütün bunlar ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində mümkün olub.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev 29 yanvar 2018-ci il tarixdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr edilmiş konfransda çıxışı zamanı demişdir: "Dövlət investisiya siyasəti nəticəsində bölgələrdə demək olar ki, bütün infrastruktur layihələri icra edilir, indi isə vaxt gəlib yetib ki, yerli icra orqanları bu işlərdə daha da fəal çalışsınlar." İftixarla qeyd etmək olar ki, cənab prezident ötən il cəlb edilmiş sərmayələrin, investisiya layihələrinin ümumi həcminə görə ilk onluqda qərar tutan rayonların sirasında Salyan rayonunun adını birinci olaraq çəkmişdir. Ümumi həcmə görə 100 milyon manatdan çox olan sərmayələr 5 rayonda icra edilmişdir ki, bu sırada 126 milyon investisiya qoyuluşu ilə Salyan rayonu da vardır.Hazırda investisiyalrın real işə çevrilməsi prosesi uğurla davam edir.

Rayonun Kürsəngi kəndi ərazisində 50 hektar torpaq sahəsində "GP ALPHA GREEN HAUSE" MMC tərəfindən ümumi dəyəri 96,9 milyon manat olan istixana kompleksinin tikintisinə başlanılıb. Artıq 5 hektar sahədə istixana kompleksinin tikintisi başa çatıb və ilk məhsul istehsal olunub. Ümumilikdə 27,5 milyon manat vəsait xərclənmiş istixana kompleksində 160 nəfər işlə təmin edilib.

"Şəfa Broyler" MMC-yə yeni quşçuluq təsərrüfatının yaradılması ilə əlaqədar təkliflər verilib, birgə işin nəticəsi olaraq rayonun Həsənli kəndi ərazisində illik layihə gücü 12 milyon yumurta olan damazlıq quşçuluq təsərrüfatı yaradılıb. Görülmüş tədbirlər nəticəsində layihə dəyəri 25 milyon manat olan 18 quşçuluq ferması tikilib və 50 nəfər işlə təmin edilib.

Salyan Qida Məhsulları Kommersiya Şirkəti tərəfindən müasir tələblərə cavab verən yeni pivə və limonad istehsalı zavodu tikilib. İllik istehsal gücü 14,6 min ton olan zavodun tikintisinə 8 milyon manat investisiya qoyulub və 70 nəfər rayon sakini işlə təmin edilib.

Ümumiyyətlə, 2017-ci ildə rayonda özəl investisiya hesabına sənaye, kənd təsərrüfatı, iaşə, emal və istehsal sahələri üzrə 51 layihənin icrasına 170 milyon manat investisiya yatırılıb.

2003-cü ildən bəri Salyan rayonunda 19 minə yaxın yeni daimi iş yeri açılıb. Həmin dövrlə müqayisədə sahibkarlıq subyektlərinin sayı 10,8 dəfə artaraq 10 min 752-yə çatıb.

2017-ci ildə rayonda aqrar sahənin inkişafına da xüsusi diqqət yetirilib, 32,3 min hektar sahədə müxtəlif kənd təsərrüfatı bitkiləri, o cümlədən 19 min hektarda taxıl, 7 min hektarda pambıq əkilib. Ümumilikdə bu işlərə 23 min 527 nəfər cəlb olunub ki, bu da 2016-cı illə müqayisədə 1,5 dəfə çoxdur.

Əkin dövriyyəsinə yeni torpaq sahələrinin cəlb edilməsi ilə bağlı tapşırıqlarınızın icrası nəticəsində rayonda 5 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi ilə bağlı işlər başa çatdırılıb. Sahəsi 3 min hektar olan və tikintisi davam edən aqroparkda 500 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Salyan rayonunun inkişafı ilə bağlı imzalamış 16 Sərəncam sosial-iqtisadi sahələrdə yüksək uğurların əldə olunması ilə nəticələnib. Aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində rayonumuzun siması son illər dəyişərək yeni, müasir görkəm alıb.

Rayonda genişmiqyaslı abadlıq və quruculuq işləri aparılıb, irihəcmli infrastruktur layihələri həyata keçirilib, əhalinin içməli su, qaz və elektrik enerjisi ilə təminatı yaxşılaşıb, yeni yollar salınıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan vətəndaşının bu gününə, sabahkı rifahına, xoş gələcəyinə yönəldilmiş islahatların və Dövlət proqramlarının uğurlu nəticələrini hər bir salyanlı öz gündəlik həyatında hiss edir.

Rayonumuza göstərilən diqqət və qayğıya görə salyanlılar bundan sonra da dövlət tapşırıqlarının icrası istiqamətində bütün qüvvələri səfərbər edəcək, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqlar.

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, yol-nəqliyyat infrastrukturu, dinamik inkişaf, sosial təyinatlı obyektlər, layihələr*

**Sevindik Hatamov**

*The Head of the Executive Power of the Salyan Region*

## SALYAN IS ONE OF THE MOST INVESTED DISTRICTS

### SUMMARY

The article notes that the socio-economic development of Salyan district is associated with the name of National Leader Heydar Aliyev. Thus, in the first period of his leadership all industrial enterprises which carried out Union and Republican importance were established in Salyan district and special attention and care was paid to the development of the agrarian and social sphere.

The author states that dynamic development has been achieved in the region after the implementation of the "State Program on Socio-Economic Development of the Regions" signed by the President of Azerbaijan Ilham Aliyev.

The article provides information on chronicle about the President of the Republic of Azerbaijan, Ilham Aliyev's historical visits to Salyan district in 2003-2017 and the importance of facilities that were opened with the participation of the president was also indicated in the article. It was also particularly emphasized that currently Salyan district is the first in 5 regions with a capital investment of more than 100 million manat in country. As a result, new production areas and new working positions have been established in this mentioned district.

16 decrees signed by Ilham Aliyev, the President of the Republic of Azerbaijan on the development of the Salyan district provide sustainable development in the socio-economic sphere. After large-scale construction project the district is being modernized day by day.

***Key words:*** *Socio-Economic Development, Road Transport Infrastructure, Dynamic Development, Facilities of Social Purpose, Projects*

**Севиндик Хатамов**
*Глава Исполнительной власти Сальянского района*

## САЛЬЯН - ОДИН ИЗ НАИБОЛЕЕ ИНВЕСТИРУЕМЫХ РАЙОНОВ

## РЕЗЮМЕ

В статье отмечается, что социально-экономическое развитие Сальянского района связано с общенациональным лидером Гейдаром Алиевым. Так, при руководстве Азербайджаном со стороны общенационального лидера Гейдара Алиева в Сальянском районе были созданы общесоюзные промышленные учреждения республиканского характера, оказывалось внимание развитию аграрной и социальной области. Автор отмечает, что в результате исполнения Государственной Программы о социально-экономическом развитии регионов, подписанной Президентом Азербайджанской Республики Ильхамом Алиевым, в районе достигнуто динамическое развитие.

В статье показана хроника поездок в Сальян за 2003-2017 годы Президента Азербайджанской Республики Ильхама Алиева и даны сведения об открытии объектов, на которых присутствовало руководство страны. Отмечается, что Сальянский район входит в 5 районов, инвестиции в которые превышают 100 млн. манатов. В результате в районе созданы новые производственные участки и новые рабочие места.

16 постановлений, подписанных Президентом Азербайджанской Республики Ильхамом Алиевым поддерживают социально-экономическое развитие Сальянского района. В результате проведенных широкомасштабных работ район становится более современным и новым.

***Ключевые слова:*** *социально-экономическое развитие, дорожно-транспортная инфраструктура, динамическое развитие, социально-обеспеченные объекты, проекты*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

**VÜQAR GÜLMƏMMƏDOV**
**Azərbaycan Respublikası Hesablama Palatasının sədri**

## DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN TƏMİN EDİLMƏSİNDƏ ALİ AUDİT QURUMLARININ ROLU: METODOLOJİ VƏ PRAKTİK YANAŞMA

*Dayanıqlı İnkişaf Məqsədləri (DİM) – müasir beynəlxalq çağırışdır*

BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli Qətnaməsi ilə təsbit edilmiş “Dünyamızın dəyişdirilməsi: Dayanıqlı İnkişaf üzrə Gündəlik-2030”un icrası ilə əlaqədar Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsü beynəlxalq çağırış kimi qəbul edilmişdir (9). Qətnamə 17 məqsəd, 169 vəzifəni (hədəfi) və 231 göstəricini özündə əks etdirir və Minilliyin İnkişaf Məqsədlərinin və Davamlı İnkişaf Məqsədlərinin davamı olaraq çıxış edir.

Dayanıqlı inkişaf iqtisadi, sosial və ekoloji aspektlərin birgə inkişafını nəzərdə tutur. Başqa sözlə desək, bu yanaşmada məhdud resursların sosial-iqtisadi inkişafa nail olunması yolunda effektiv istifadə edilməsi meyar olaraq qəbul edilir (9).

Qəbul olunmuş Qətnamədə yoxsulluğun azaldılması əsas məqsəd olaraq müəyyən edilmiş, iqtisadi, sosial və ekoloji aspektlərinin birgə inteqrasiyası isə mərkəzi məsələ kimi qəbul olunmuşdur. Ümumilikdə bu sənəddə üzv dövlətlər həm də dayanıqlı inkişafın qiymətləndirilməsi üçün potensial quruculuğunu artırmağa, daha yaxşı məlumat və statistik rəqəmləri əldə etməyə çağırır. Nəzərdə tutulmuş tədbirlər isə öz növbəsində insanlığı yoxsulluqdan müdafiə etmək və planeti qorumaq məqsədini daşıyan 5 istiqaməti əhatə edir – insanlar, planet, firavanlıq, sülh və tərəfdaşlıq. Bu sənəddə həmin istiqamətlər 5P olaraq müəyyən edilmişdir – people, planet, prosperity, peace, partnership (9).

*Azərbaycan Respublikasında DİM-in institusional bazası*

Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində bu Qətnaməyə qoşulmuş, Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə “Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası”nın yaradılması ilə sosial-iqtisadi problemlərin həllində yeni institusional bazanın formalaşdırılması istiqamətində mühüm addım atılmışdır (1,2). Fərmanda Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunmuşdur (3).

*DİM-in tətbiqində Ali Audit Qurumlarının (AAQ) rolu*

Hazırda beynəlxalq müstəvidə Ali Audit Qurumları (AAQ) tərəfindən ciddi şəkildə dəstəklənən bu sənəd dövlətin sosial-iqtisadi hədəflərinin realllaşdırılmasında mühüm təşəbbüs olaraq qəbul edilir.

AAQ-ların birbaşa rolu bu istiqamətdə qəbul edilən layihə və proqramların fəaliyyət auditinin həyata keçirilməsidir. INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) və EUROSAI (Avropa Ali Audit Qurumlarının Təşkilatı) 2022-ci ilədək müddəti əhatə edən strateji inkişaf planlarında “Dayanıqlı İnkişaf

Məqsədlər”ini əsas hədəflərdən biri kimi müəyyən etmişdir.

AAQ-ların fəaliyyəti ilk növbədə, beynəlxalq səviyyədə ən yaxşı (və ya qabaqcıl) təcrübə olaraq qəbul edilmiş INTOSAI-ın ISSAI standartlarına əsaslanır. 2016-cı ildə DİM-lə bağlı “Dayanıqlı İnkişaf Məqsədləri: Ali Audit Qurumlarının rolu” adlı ISSAI 5130 standartı (5,6) qəbul edilmişdir.

AAQ-ların hazırkı dövrədək ekoloji audit aparma təcrübəsini nəzərə alaraq DİM-in tələbləri çərçivəsində öz fəaliyyətində yeni addımların müəyyən edilməsini zəruri sayır. Bu məqsədlə 6 addım müəyyən edilmişdir:

- ✓ mandatın dəqiqləşdirilməsi,
- ✓ inkişaf strategiyası,
- ✓ potensialın yaradılması və ekspertiza,
- ✓ auditin aparılması,
- ✓ təcrübənin öyrənilməsi,
- ✓ təsir göstərilməsi.

Mandatın dəqiqləşdirilməsi mərhələsində iki əsas şərt kimi AAQ-ın bu istiqamətdə audit aparma səlahiyyəti və fəaliyyət (səmərəlilik) auditi (performance audit) təcrübəsinin olması müəyyən edilir.

İnkişaf strategiyası AAQ-ların qarşısında dayanıqlı inkişafla bağlı strateji məsələləri hədəf kimi müəyyənləşdirir.

AAQ qarşısında aşağıdakı əsas suallar durur:

- Dayanıqlı inkişaf üzrə auditin aparılmasında əsas məqsədlər?
- Dayanıqlı inkişafın hansı aspektlərinin auditi aparıla bilər?
- Ümumiyyətlə, hansı sualların dayanıqlı inkişafa aidiyyatı var?
- Bu istiqamət üzrə auditin aparılmasında əsas yanaşmalar hansılar ola bilər?
- AAQ-ın təşkilatı fəaliyyətində hər hansı bir dəyişikliyin edilməsi zəruridirmi?
- Digər strukturlarla hansı əlaqələrin yaradılması zəruridir?

AAQ-ın bu istiqamətdə strateji yanaşması bir çox faktorlardan asılıdır. Zəruri potensial, müvafiq təcrübə, dövlət üçün prioritetlik və s.

Potensialın yaradılması və ekspertiza istiqamətində əsas hədəf hökumətin DİM-lə bağlı fəaliyyətinin faydalılığının ölçülməsindən asılı olacaqdır. Bu şəraitdə əsas məsələ fəaliyyət (səmərəlilik) auditi ilə bağlı mövcud metodologiyanın yetərliliyinin müəyyən edilməsi, əgər zəruridirsə kənar ekspertlərin cəlb edilməsidir.

Kənar ekspertlərin cəlb edilməsi DİM-in spesifik hədəfləri ilə bağlıdır. Beynəlxalq təcrübə göstərir ki, heç də bütün strateji hədəflərin auditinin aparılması üzrə AAQ-da peşəkar mütəxəssis olmaya bilər.

Auditin aparılması mərhələsi bir neçə suala cavab verməlidir:

- Bu istiqamətdə müvafiq faydalılıq göstəricilərini, hədəf və yekun nəticələri özündə əks etdirən adekvat planlaşdırma mövcuddurmu?
- Təşkilat üzərinə düşən funksionallığı dürüst icra edə bilirmi?
- Müxtəlif təşkilatlar nə dərəcədə dürüst çalışır?
- Hesabatlılıq dürüst müəyyən edilibmi? Hesabat dürüst, aktual, aydın, vaxtlı-vaxtında və lazımi nəticələri özündə əks etdirirmi?
- Məqsəd və vəzifələrin ölçülməsi üzrə adekvat sistem varmı?
- Zəruri məlumatlar müvafiq qərarların qəbul edilməsi – əsaslandırılması zamanı istifadə edilirmi?

Təcrübənin öyrənilməsi məqsədilə digər ölkə AAQ-larının qabaqcıl təcrübəsi, həmçinin INTOSAI müvafiq regional işçi qruplarının ekoloji audit təcrübəsinin öyrənilməsi məqsədəuyğun hesab edilir.

Təsir göstərmək üçün mühüm şərt ilk olaraq hesabatların nəşr edilməsi, Kütləvi İnformasiya Vasitələri, parlamentin müvafiq komitələri, həmçinin cəmiyyətin daha geniş təbəqələri ilə güclü kommunikasiya və hesabatlılıq strategiyasının qurulmasındadır.

Bu standartlarla yanaşı AAQ-ların faydalandığı mühüm istiqamət mövcud audit potensialından yararlanmaqdır. Son məqsəd əhalinin rifahının yüksəldilməsi üçün müxtəlif beynəlxalq çağırışları audit müstəvisində dəyərləndirməkdir. Bu fonda DİM istisna deyil. Belə

ki, AAQ-ların fəaliyyət (səmərəlilik) auditindən istifadə etməklə qeyd edilən sosial-iqtisadi hədəflərə çatması zamanın tələbidir.

*DİM-in 17-ci məqsədinin reallaşdırılmasında AAQ-ların imkanları*

DİM-in 17-ci məqsədi "İcra vasitələrini gücləndirmək və dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq"ır (1,9).

Bu məqsədə çatmaq üçün müəyyən edilən vəzifələr sırasında ikisi xüsusilə Ali Audit Qurumlarının fəaliyyəti ilə bağlıdır.

17.1. Vergi və digər gəlirləri toplama ilə bağlı daxili potensialı artırmaq üçün, inkişaf etməkdə olan ölkələrə beynəlxalq dəstək yolu ilə, daxili vəsait toplama işini gücləndirmək.

Bu vəzifəni ölçmək üçün dövlət maliyyəsində aid edilən göstəricilər aşağıdakılardır:

- ✓ Ümumi dövlət gəlirlərinin ÜDM-də faiz nisbəti, mənbələr üzrə bölgüdə;
- ✓ Milli büdcənin maliyyələşməsində daxili vergilərin xüsusi çəkisi;

17.4. Borc maliyyələşdirməsinə, müvafiq hallarda borcların azaldılmasına və borcların yenidən təşkilinə şərait yaratmağı məqsəd kimi qarşıya qoyan əlaqələndirilmiş siyasətlər vasitəsilə uzun-müddətli borc dayanıqlığına nail olmaqda inkişaf etməkdə olan ölkələrə yardım etmək və borcla bağlı gərginliyi azaltmaq üçün yüksək borcu olan yoxsul ölkələrin xarici borc probleminə diqqət yetirmək.

Bu vəzifəni ölçmək üçün dövlət maliyyəsində aid edilən göstərici aşağıdakıdır:

- ✓ Dövlət borcuna xidmətlə bağlı xərclərin məhsul və xidmətlərin ixracına olan nisbəti.

*DİM üzrə göstəricilərin hesablanmasında istifadə edilən metodologiya*

DİM üzrə müəyyən edilən vəzifələrin kəmiyyət ifadəsində ölçülməsi üçün istifadə edilən göstəricilərin metodologiyası Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanmışdır. Həmin metodologiyaya əsasən göstəricilər aşağıdakı formada hesablanır.

Aşağıdakı cədvəldə 17-ci məqsəd üzrə iki əsas göstəricinin hesablanması verilir.

17.1.1 göstəricisi — Dövlət büdcəsi gəlirlərinin Ümumi Daxili Məhsula faiz nisbəti əsas götürülür.

17.1.2 göstəricisi – Milli büdcənin maliyyələşməsində daxili vergilərin xüsusi çəkisi dedikdə Beynəlxalq Valyuta Fondunun Dövlət Maliyyə Statistikası Təlimatı (Government Finance Statistics Manual) (4) əsasında dövlət büdcəsinə ödənilən bütün vergi daxilolmalarının dövlət büdcəsi xərclərinə olan nisbəti əsas götürülür. Bu halda, vergilər dedikdə, hazırda ölkəmizdə qüvvədə olan Vahid Büdcə Təsnifatına görə:

a) Gəlirlərdən (mənfəətdən) vergilər,
b) Mülkiyyətdən vergilər,
c) Mal və xidmətlərə görə vergilər,
d) Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər və
e) Sair vergilər aid edilir.

Hər iki indikatorun dinamikası növbəti cədvəldə verilmişdir.

**Cədvəl 1.** DİM-in 17-ci məqsədi üzrə əsas göstəricilər

| | Göstəricinin adı | Ölçü vahidi | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| 17.1.1. | Ümumi dövlət gəlirlərinin ÜDM-də faiz nisbəti | faiz | 32,2 | 29,0 | 3,5 |
| 17.1.2. | Milli büdcənin maliyyələşməsində daxili vergilərin xüsusi çəkisi | faiz | 49,4 | 50,9 | 53,2 |
| 17.4.1. | Dövlət borcuna xidmətlə bağlı xərclərin məhsul və xidmətlərin ixracına olan nisbəti faiz | faiz | 3,4 | 6,3 | 4,4 |

*Fəaliyyət (səmərəlilik) auditi*

DİM üzrə müəyyən edilən hədəflərin reallaşdırılması və bu məqsədlə iqtisadi alət olaraq istifadə edilən dövlət proqramlarının təhlil və auditinin aparılmasını şərtləndirir (6,7). Bu halda, əsas şərt fəaliyyət (səmərəlilik) auditi metodologiyasından faydalanaraq sosial-iqtisadi hədəflərə nail olub-olmamağın ölçülməsidir.

Fəaliyyət (səmərəlilik) auditi qənaətliliyin, effektliliyin və nəticəliliyin yoxlanılmasını əhatə edir və ona aşağıdakılar daxildir:

(a) sağlam inzibati prinsip və praktiki, həmçinin, idarəetmə siyasətinə uyğun olaraq inzibati fəaliyyətlər üzrə qənaətliliyin auditi;

(b) informasiya sistemləri, fəaliyyət qiymətləndirmələri və monitorinq tədbirləri, habelə, müəyyən çatışmazlıqların aradan qaldırılması üçün audit olunan qurumlar tərəfindən həyata keçirilən prosedurlar daxil olmaqla, insan, maliyyə və digər resurslardan istifadənin səmərəliliyinin auditi;

(c) Audit olunan qurumda obyektivliyin təmin olunması ilə əlaqədar olan fəaliyyətin nəticəliliyinin auditi və fəaliyyətə nəzərdə tutulmuş təsir ilə müqayisədə faktiki təsirin auditi.

DİM üzrə hədəflərin reallaşdırılma səbəblərini araşdırmaq üçün iki audit növü arasında müqayisənin aparılması zəruridir.

Hər iki – maliyyə və fəaliyyət (səmərəlilik) auditi eyni audit obyektini əhatə edə bilər. Məsələn, borc idarəetmə sistemləri və ya dələduzluğa mane olan sistemlər üzərində nəzarət.

✓ Əgər auditin əsas məqsədi nəzarətlərin qənaətbəxş işlədiyini yoxlamaqdırsa onda maliyyə auditi həyata keçirilir.

✓ Əgər auditin əsas məqsədi iqtisadiyyatın (və ya iqtisadi) səmərəliliyi və ya effektivliyi barədə suallara cavab verməkdirsə onda fəaliyyət (səmərəlilik) auditi həyata keçirilir.

**Cədvəl 2.** Qənaətliliyin, səmərəliliyin və nəticəliliyin müfəssəl izahı

| **Qənaətlilik** – Xərclərinin minimuma endirilməsi və lazımi keyfiyyətin saxlanılması | |
|---|---|
| Qənaətliliyə dair audit sualları ilə bağlı nümunələr<br>• Xəstəxana ən ucuz qiymətə lazımi keyfiyyətdə ləvazimat satın alırmı?<br>• İnformasiya Texnologiyaları xidmətlərinin özəlləşdirilməsi keyfiyyəti qoruyaraq eyni zamanda qiymətdə azalmalara səbəb olurmu? | Xərclərin aşağı səviyyədə saxlanılması |
| **Səmərəlilik** – lazımi keyfiyyəti saxlamaqla eyni səviyyədə xərcin qarşılığında gəlirin artırılması və yaxud eyni səviyyədə gəlir üçün xərcin azaldılması | |
| Səmərəliliyə dair audit sualları ilə bağlı nümunələr<br>• Xidmətin keyfiyyətinə heç bir xələl gətirmədən və əlavə xərclər sərf edilmədən gözləmə müddəti azaldıldımı?<br>• Təhlükəsizlik və əməliyyat standartlarına xələl gətirmədən xidmət olunan maşınların sayının artırılmasına baxmayaraq təmir deposuna sərf olunan xərclər minimuma endirildimi? | Resursların maksimum səmərəli istifadə edilməsi |
| **Nəticəlilik** – siyasətin məqsədlərini qarşılamaq və ya üstələmək və nəzərdə tutulan səviyyənin əldə olunması | |
| Nəticəliliyə dair audit sualları ilə bağlı nümunələr<br>• Nazirliyin proqramı ictimaiyyət tərəfindən qəbul edilən xidmətin keyfiyyətini aydın formada yaxşılaşdırıbmı?<br>• İdarəetmə təcrübələrinin təkmilləşdirilməsi təşkilat daxilində iştirakdan yayınma hallarının azaldılmasında kömək olubmu?<br>• Planlaşdırılmış ekoloji təkmilləşdirmələr nazirlik tərəfindən irəli sürülən dəyişikliklərə səbəb olubmu? | Hökumətin istədiyini təqdim etmək |

Fəaliyyət (səmərəlilik) auditi adətən iki əsas suala cavab axtarır:

✓ İşlər düzgün şəkildə yerinə yetirilirmi?

✓ Doğru işlər yerinə yetirilirmi?

Qeyd edilənlər nəzərə alınaraq fəaliyyət auditi aşağıdakı üç yanaşmadan birini rəhbər tutur:

✓ Sistem yönümlü yanaşma, idarəetmə sistemlərinin (yəni, maliyyə idarəetmə sistemlərinin) düzgün işləməsini yoxlayır;

✓ Nəticə yönümlü yanaşma, nəticə və ya yekun nəticə məqsədlərinə nəzərdə tutulmuş şəkildə nail olunub-olunmadığını və ya proqram yaxud xidmətlərin nəzərdə tutulduğu kimi fəaliyyət göstərib-göstərmədiyini qiymətləndirir;

✓ Problem yönümlü yanaşma, ayrı-ayrı problemlərin və meyarlardan kənarlaşmaların səbəblərini araşdırır, yoxlayır və təhlil edir.

**Nəticə**

Beləliklə, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) beynəlxalq təşəbbüsdür. Bu təşəbbüs olmaqla yalnız icra strukturlarının fəaliyyətini deyil, həm də Ali Audit Qurumlarının fəaliyyəti ilə də əlaqədardır. Bu halda, AAQ-ların əsas məsuliyyəti fəaliyyət (səmərəlilik) auditindən istifadə edərək DİM-də müəyyən edilən hədəflər üzrə həyata keçirilən tədbirlərin auditinin aparılmasıdır.

Yeni qəbul edilmiş "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununda yuxarıda qeyd edilən səmərəlilik auditi Hesablama Palatasının audit fəaliyyətinin tərkib hissəsi kimi müəyyən edilmişdir. Qanunda səmərəlilik (performans) auditi proqram, layihə, fəaliyyət, əməliyyat, idarəetmə və informasiya sistemlərinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi kimi müəyyən edilmişdir. Qeyd olunan bu məqamlar isə, öz növbəsində, yuxarıda göstərilən DİM-ə nail olunmasında resursların konsepsiyaya uyğun şəkildə - qənaətli, nəticəli və səmərəli istifadəsini təmin etmək istiqamətdə mühüm alət hesab olunur.

**Ədəbiyyat:**


1. https://www.president.az/articles/21314
2. Azərbaycan – 2030: Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru, Azərbaycan Respublikasının Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar ilkin addımları haqqında Könüllü Milli Hesabat, Bakı - 2017;
3. Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəlik;
4. International Monetary Fund, Government Finance Statistics Manual 2014;
5. INTOSAI, ISSAI 5130, Sustainable Development: The Role of Supreme Audit Institutions http://www.idi.no/en/idi-cpd/auditing-sustainable-development-goals-programme;
6. INTOSAI, ISSAI 300, http://www.issai.org/en_us/site-issai/issai-framework/3-fundamental-auditing-priciples.htm
7. INTOSAI, ISSAI 3000, http://www.issai.org/en_us/site-issai/issai-framework/4-auditing-guidelines.htm
8. IDI, Auditing Sustainable Development Goal
9. http://www.undp.org/content/undp/en/home/sustainable-development-goals/goal-17-partnerships-for-the-goals.html
10. http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/RES/70/1&referer=/english/&Lang=E


***Açar sözlər:*** *Dayanıqlı İnkişaf Məqsədləri, Ali Audit Qurumları, səmərəlilik auditi, nəticəlilik, qənaətlilik, kənar dövlət maliyyə nəzarəti, ISSAI standartları*

**Vugar Gulmammadov**
*The Chairman of the Chamber of Accounts of the Republic of Azerbaijan*

## THE ROLE OF SUPREME AUDIT INSTITUTIONS IN PROVISION OF SUSTAINABLE DEVELOPMENT GOALS: METHODICAL AND PRACTICAL APPROACH

### SUMMARY

The article provides information on Sustainable Development Concept, the Resolution accepted by UN, and the institusional base of this Concept in the Republic of Azerbaijan. The author analyzed the role of Supreme Audit Institutions in the achievement of Sustainable Development Goals and the main issues faced in this area. Moreover, implemented international standards and the approaches and requirements defined by these standards are systematized by author.

The capabilities of non-state financial supervision agencies and used methodology were analyzed in the article. Furthermore, the article provides information on the key criteria of performance audit and the advantages of applying mentioned audit.

***Key words:*** *Sustainable Development Goals, Supreme Audit Institutions, Audit Efficiency, Effectiveness, Cost-Effectiveness, External State Financial Control, ISSAI standards*

**Вугар Гюльмамедов**
*Председатель Счётной Палаты Азербайджанской Республики*

## РОЛЬ ВЫСШИХ ОРГАНОВ ФИНАНСОВОГО КОНТРОЛЯ В ОБЕСПЕЧЕНИИ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ: МЕТОДОЛОГИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ПОДХОДЫ

### РЕЗЮМЕ

В статье представлена информация о концепции устойчивого развития, принятой Резолюции ООН, а также институциональная база данной концепции в Азербайджанской Республике. Автор проанализировал роль высших органов финансового контроля в достижении целей устойчивого развития, основные вопросы, регулирующие это направление, систематизировал применяемые международные стандарты, подходы и требования, определяемые этими стандартами.

В статье осуществлён анализ возможностей используемой методологии органов внешнего финансового контроля в направлении реализации целей устойчивого развития, представлена информация об основных критериях аудита, эффективности, преимуществах проведения этого вида аудита.

***Ключевые слова:*** *цели устойчивого развития, высшие органы финансового контроля, аудит эффективности, эффективность, экономичность, внешний финансовый контроль, стандарты ISSAI*

D A V A M L I  İ N K İ Ş A F I N  İ D A R Ə  E D İ L M Ə S İ
S U S T A I N A B L E  D E V E L O P M E N T  M A N A G E M E N T

**RAUF SULTANOV**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ekologiya kafedrasının professoru, biologiya elmləri doktoru**
*e-mail: rsultanov@bk.ru*

# QLOBAL EKOLOJİ ÇAĞIRIŞLARIN İDARƏ EDİLMƏSİ İLƏ ƏLAQƏDAR KADR POTENSİALININ FORMALAŞDIRILMASI

Azərbaycanda davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti cəmiyyət və təşkilatlar qarşısında duran məqsəd və vəzifələrin həllinə uyğun gəlməli, onların uğurla həyata keçirilməsinə xidmət etməlidir. Bu baxımdan Azərbaycanda davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti dövlətin ayrı-ayrı təşkilatların ümumi məqsədlərinin tərkib hissəsidir. Təbiət-cəmiyyət, cəmiyyət-biosfer münasibətlərində yaranan ziddiyyətlərin dinamik inkişafı və ildən-ilə daha da kəskinləşməsi bütün nüfuzlu beynəlxalq təşkilatların ciddi narahatlığına səbəb olmuşdur.

Ətraf mühit və inkişafa həsr olunmuş ümumdünya konfransında beynəlxalq ekoloji təhlükəsizliyin əsas istiqamətləri müzakirə olunaraq bir çox dövlətlərin milli təhlükəsizlik strategiyasının prioritetinə çevrilmişdir. Milli təhlükəsizlik strategiyasının prioritetinə uyğun çağırışların edilməsi planlı şəkildə həyata keçirilməlidir. Həmin konfransda davamlı inkişafa keçməzdən öncə hər bir ölkədə ekoloji təhlükəsizlik problemlərinin sosial-fəlsəfi cəhətdən araşdırılması və beləliklə də, «ekoloji cəmiyyət»in formalaşdırılmasının əsas sahələrinin müəyyənləşdirilməsi prioritet məsələ kimi qaldırılmışdır. Ekoloji cəmiyyət formalaşdırılmasının əsas sahələrindən biri də, təbii ki, ekoloji çağırışlardır. Buna görə də Azərbaycanda davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması problemlərinə, onların hazırlanması prosesinə ümumdövlət maraqları baxımından yanaşılması tələb olunur.

XXI əsrdə elmi-texniki tərəqqinin sürətli və dinamik inkişafı, İKT (informasiya kommunikasiya texnologiyaları), internet, robot, nano-texnologiyanın insan həyatının bütün sahələrinə inteqrasiyası cəmiyyətin şüurunda təbiətə, onun sərvətlərinə, floraya, faunaya yaradıcı münasibətin formalaşmasını tələb edir. Hazırda beynəlxalq aləmdə hamı belə bir fikirlə razılaşır ki, insanlarda mədəniyyətin, sivilizasiyanın yeni növü – ekoloji mədəniyyət formalaşmalıdır. Həmçinin ekoloji çağırışlar da ekoloji mədəniyyəti formalaşdıran əsas amillərdəndir. Əks təqdirdə, insanların təbiətə, onun sərvətlərinə mənfi münasibəti dəyişilməyəcək, əksinə, daha da dərinləşəcəkdir.

Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması problemi, xüsusilə idarəçilik üzrə kadrların hazrlanması, yerləşdirilməsi və təkmilləşdirilməsi bütövlükdə cəmiyyət və dövlət üçün ən vacib məsələləri özündə ehtiva edir. Təsadüfi deyildir ki, davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasətini, kadr potensialını bir sıra hallarda ölkənin, dövlətin əsas milli prioriteti adlandırırlar. XIX və XX əsrlərdə insanın antropogen və texnogen fəaliyyətinin təsiri nəticəsində ətraf mühitin, onun amillərinin, təbii sərvətlərin, biosferin, ekosistemlərin, flora və faunanın normal ahəngi tamamilə pozulmuş və çox ciddi ekoloji disbalans yaranmışdır. Ona görə də mövcud olan qlobal ekoloji problemlərlə əlaqədar çağırışların hazırlanması vacib məsələlərdən biridir.

Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti, kadrların hazırlanması, yerləşdirilməsi, seçilməsi və tərbiyəsi idarəetmə nəzəriyyəsinin mühüm cəhətlərindən biridir. Kadrlarla iş sistemi – kadrların yetişdirilməsi, seçilməsi, yerləşdiriməsi, irəli çəkilməsi, onların ixtisasının artırılması, işçi kateqoriyaları və vəzifə nomenklaturasının müəyyənləşdirilməsi, təhlili, onlarla işin təşkili və planlaşdırılması, əməyinin qiymətləndirilməsi sistemləri və s. əhatə edən geniş spektirli məsələlər kompleksidir.

Respublikamızda ekoloji təhsilin problemlərinə dair keçirilən konfranslarda həmin problemlərin həlli yolları geniş müzakirə olunmuş və müvafiq ekoloji çağırışlara dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda ekologiya elminin öyrənilməsi, təbliğ edilməsi, inkişafı, onun əsas müddəalarının yerinə yetirilməsi, ekoloji cəhətdən təmiz, saf ərzaq məhsullarının istehsalı, ekoloji kənd təsərrüfatına geniş yer verilməsi, bəşəriyyətin sivilizasiya yolu ilə inkişafının ən vacib, ümdə problemi hesab olunur. Bütün bəşəriyyət ekologiyanın qorunması üçün səfərbərliyə cəlb edilməli, ekoloji çağırışlar aparılmalı, təbiətə, torpağa, havaya, suya, heyvanlara, bitkilərə, balıqlara, quşlara qəddar münasibət göstərənlərə, beynəlxalq, ekoloji və bioloji terrorizmə qarşı müharibə elan olunmalıdır.

Kadrların seçilməsi müəyyən modellər, əlamətlər və prinsiplər əsasında həyata keçirilir. Bu məsələ prinsip etibarilə idarəedən sistemin formalaşmasını, onun, bütövlükdə cəmiyyətin gələcəyini müəyyənləşdirir. Kadrlarla iş onların hazırlanması və ixtisasının artırılması məsələləri ilə də sıx əlaqədardır. Buna görə də davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti, kadrlarla iş müəyyən dərəcədə universal xarakter daşıyır. Çünki bu, kadrların yerləşdirilməsi və onların formalaşması problemini vahid qaydada həll etməyə imkan verir. Sistemlilik və kompleksilik tələbləri, prinsipləri, xüsusən rəhbər işçilərinin seçilməsi nəzərə alınmalıdır [2, s.1-3].

Ölkənin ekoloji strategiyası, ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, beynəlxalq və regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi indiki və gələcək nəsillərin maraqlarını təmin edən ölkənin iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir. Bu gün müstəqil Azərbaycan Respublikasının zəngin təbiətini, təbii sərvətlərini qorumaq və bərpa etmək üçün vaxtilə başlanılmış işlər davam etdirilir, bu istiqamətdə yeni-yeni layihələr həyata keçirilir, ekoloji çağırışlar aparılır, ekoloji problemlərin həllinə cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti cəlb olunmaqla dövlətin müəyyənləşdirdiyi ekoloji siyasət reallaşdırılır.

Kadrlarla aparılan işdə hüquqi normativlər mühüm rol oynayır. Hüquqi normativlər kadr seçilməsində neqativ halların qarşısının alınmasında mühüm amil ola bilər. Kadrlarla işdə kadrların rotasiyası, onların peşəkarlıq keyfiyyətlərinin qiymətləndirilməsi, kadr ehtiyatları, attestasiya, yeni işçilərin işə qəbulu proseduru, kadr xidməti strukturu və s. amillər mütləq nəzərə alınmalıdır. Bu istiqamətlərin həyata keçirilməsi bir necə vəzifələrin həllini tələb edir ki, buraya kadrların professional keyfiyyətlərinin inkişafının idarə edilməsi, dövlət idarəçiliyi sistemində tətbiq edilən kadrların professional keyfiyyətlərinin inkişafının idarə edilməsi, dövlət idarəçiliyi sistemində tətbiq edilən kadr texnologiyalarının səmərəliliyinin artırılması, kadrların fəaliyyətinin qiymətləndirilməsi, dövlət qulluçuları üçün sosial təminat və güzəştlər sisteminin yaradılması daxildir. İqtisadiyyatın sürətli inkişafı ətraf mühitin modern və çevik idarə olunmasını zəruri etmişdir. Bu baxımdan idarəetmə prosesində elektron hökumətin tətbiqi və xidmətlərin elektron qaydada həyata keçirilməsi ətraf mühitin mühafizəsi istiqamətində həyata

keçirilən tədbirlərin səmərəliliyini artırmışdır. Hazırda ölkədə iqtisadi inkişafla əlaqədar iri həcmli infrastruktur layihələri həyata keçirilir ki, bu da öz növbəsində ətraf mühitə təsirin qiymətləndirilməsi prosesinin tətbiqini zəruri edir [1, s.175-178; 3, s.2].

Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasətinin vəzifələrinin reallaşdırılmasında idarəetmə kadrları mühüm rol oynayır, məhz onlar dövlət siyasətinin əsas aparıcıları hesab olunurlar. Kadrlar problemi dövlət idarəçiliyinin tərkib hissəsidir, buna görə də sistemli və kompleks yanaşma tələb edir.

Kadr potensialının formalaşdırılması və hazırlığı keyfiyyəti, ictimai və dövlət fəaliyyətinin müxtəlif sahələrinin effektiv kadr təminatı, iqtisadi səmərəliliyin artırılması ilə birbaşa əlaqəlidir. Buna görə də Azərbaycan dövlətinin son illərdə hazırlayaraq həyata keçirdiyi bütün sosial-iqtisadi inkişaf proqramları kadrların inkişafı proqramları ilə qırılmaz surətdə bağlıdır.

Bu çağırışların əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatlarının daha dolğun təmin olunmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasətinin obyektiv məntiqi cəmiyyətin kadr tələbatının ödənilməsi və əmək potensialının inkişaf etdirilməsi üçün həyata keçirilən tədbirlərin əlaqələndirilməsində öz əksini tapır. Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasətinin məqsədi vahid dövlət siyasətinin məzmunundan, dövlətin idarəetmə formasından, icra mexanizmlərinin effektivliyindən, dövlət qulluğunun modelindən və s. amillərindən asılıdır. Davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti kadrlarla işin təşkilini, kadr potensialının yaradılmasını və inkişafını, işinin təşkilini, kadr potensialının yaradılmasını və inkişafını, kreativ kadrların formalaşdırılmasını nəzərdə tutan, bu sahədə inkişafın davamlılığını şərtləndirən strateji hədəfləri müəyyənləşdirən dövlət strategiyasıdır. Bu zaman əsas istiqamət dövlətin və cəmiyyətin inkişafı üçün zəruri olan kadr potensialının yaradılması və ondan səmərəli istifadə edilməsi və bu əsasda peşəkar dövlət qulluğunun formalaşdırlmasıdır. Ümumdövlət siyasətinin əsasında təşəkkül tapan, mürəkkəb struktura və obyektiv məzmuna malik olan davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti effektiv idarəçilik üçün müstəsna əhəmiyyət kəsb edir. Dövlət qulluğunda davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasəti dövlətin ümumi siyasətinin tərkib hissəsi olub, onun həyata keçirilməsinə xidmət edən mühüm vasitədir. Bu vəzifələri layiqincə yerinə yetirmək üçün professional idarəçilik kadrlarına ehtiyac daim hiss olunur. Deməli, dövlət orqanlarını yüksək mənəvi və peşəkar keyfiyyətlərə malik kadrlarla təmin etmək üçün davamlı inkişaf naminə kadr potensialının formalaşdırılması siyasətinin və kadr hazırlığının günün tələblərinə uyğun təşkili də öz aktuallığını saxlayan məsələ olaraq qalacaqdır.

İnsanlarda ekoloji mədəniyyətin, sivilizasiyanın, təfəkkürün, şüurun, tərbiyənin və təhsilin formalaşması artıq günün, dövrün tələbinə çevrilmişdir. Ekoloji mədəniyyət, ekoloji çağırışlar bütün insanlarda bəşəri mədəniyyəti təcəssüm etdirən mədəniyyətin sivil inkişaf forması və təhsil mühitidir. XXI əsr bütün xalqlardan mədəni inkişafın əsas istiqaməti kimi ekoloji təhsilin fasiləsiz inkişaf strategiyasını, konsepsiyasını, proqramını hazırlamağı və həyata keçirməyi tələb edir. Qlobal ekoloji çağırışların və onların idarə olunması məsələləri öz əksini tapmalıdır.

Ekoloji təhsilin ardıcıl və sistemli olması üçün bu prosesə şəxsiyyətin formalaşmasının

ilk anlarından, uşaqlıqdan başlamaq lazımdır ki, onun da təməli məhz ailədə, məktəbəqədər tərbiyə ocaqlarında, ibtidai siniflərdə qoyulmalı, orta, orta ixtisas və ali məktəblərdə isə tamamilə formalaşmalıdır. Ona görə də məktəbə qədər təhsildə, məktəbdə və ali təhsil ocaqlarında insanların yaş xüsusiyyəti və bilik səviyyəsindən asılı olaraq mövcud problemlərlə əlaqədar ekoloji çağırışlar formalaşdırılmalı və həyata keçirilməlidir [2, s.1-2].

Yüksək ixtisaslı ekoloji kadrlar (ekoloji mühəndislər, ekspertlər, hidroloqlar, hidrobioloqlar, ixtioloqlar, ixtiopatoloqlar, iqlimşünaslar, meşə mühəndisləri, dendroloqlar, ornitoloqlar və s.) hazırlanmalıdır. Bu vacib məsələ təbii ki, müvafiq ali məktəblərin üzərinə düşür. Əfsuslar olsun ki, Azərbaycanda ekoloji çağırışların və onların idarə edilməsi uşaqlar, şagirdlər, tələbələr, ümumilikdə isə əhali və ictimaiyyət arasında lazımi dərəcədə formalaşmamışdır. Müasir dövrdə insanların ekoloji mədəniyyəti, şüuru, psixologiyası hələ də günün tələbi səviyyəsində deyil. Bunun əsas səbəbi onlarda ekoloji bilgilərin, məlumatların zəif olması, yaxud tamamilə olmamasıdır. Bu baxımdan ölkəmizin mövcud təhsil sistemində ekologiya üzrə nəzəri biliklərin əxlaqi davranışlara çevrilməsini formalaşdıran ekoloji çağırışlar işlənib hazırlanmalıdır.

Ölkələrimizin mütəxəssisləri tərəfindən ekoloji təhsilin ümumi istiqamətlərini və prinsiplərini özündə əks etdirən təhsil konsepsiyası hazırlanmış və ondan proqram sənədi kimi istifadə edilməsi tövsiyə olunmuşdur. Burada qlobal ekoloji çağırışların mahiyyəti açıqlanmalı, bu istiqamətdə idarəetmə prinsiplərinə əsaslanan maarifləndirici tədbirlər həyata keçirilməlidir.

Son illər Azərbaycanda ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına diqqətin artırılması, mövcud ekoloji problemlərin daha səmərəli həll edilməsi məqsədilə müvafiq sərəncamların imzalanması bu sahənin ölkədə prioritet olduğunu göstərir. Yüksək kadr siyasətin həyata keçirilməsi məqsədi ilə ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensialının müasir üsullarla idarə edilməsi, indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların istifadəsi, insanın həyat fəaliyyətini təmin edə biləcək ekosistemlərin, xüsusilə biomüxtəlifliyin qorunub saxlanılması qarşıya qoyulmuş vəzifələrdəndir. Ona görə də respublikamızda həm dövlət səviyyəsində, həm də ictimai qurumlarda qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müvafiq ekoloji çağırışlar edilir [5, s.185-191].

Respublikamızda qlobal xarakterli ekoloji problemlərin həlli üçün görülən işlər, həyata keçirilən layihə və proqramlar da ekoloji durumun bərpası və yaxşılaşdırılması istiqamətində müsbət və təqdirəlayiq hal kimi dəyərləndirilməlidir.

Bu istiqamətdə mükəmməl ekoloji çağırışların hazırlanıb həyata keçirilməsi günün əsas tələblərindən biridir. Ölkədə ekoloji çağırışların edilməsi və idarə olunması ardıcıl və sistemli aparlmadığı üçün əhalinin ekoloji maarifləndirilməsi və məlumatlandırılması bu istiqamətdə tələblərə tam cavab vermir. Alimlərimiz, ziyalılarımız əhalinin ekoloji maarifləndirilməsi məqsədilə müvafiq ekoloji çağırışların aparılmasında və təşkilində fəal iştirak etməli, öz mənəvi vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir [6, s.24-26].

Ölkə rəhbərliyi tərəfindən ətraf mühitin mühafizəsi sahəsində formalaşdırılan yeni ekoloji siyasət insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun tam təmin olunmasına zəmin yaratması məqsədilə mütəmadi olaraq ekoloji çağırışlar formalaşdırılır və idarə olunur.

Ölkəmizdə son illər ərzində aparılmış məqsədyönlü dövlət siyasəti, ekoloji çağırışlar beynəlxalq təcrübədən istifadə və həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində ətraf mühitin mühafizəsi və təbiətdən davamlı istifadə edilməsi sahəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Bu istiqamətdə bioloji müxtə-

lifliyin qorunub saxlanılması yetişdirilməkdə olan kadr potensialı əsas vəzifələrindən biri olmuşdur.

Bu gün Azərbaycanda ekologiyaya dair elmi və praktik yönümlü ekoloji çağırışların aparılmasına baxmayaraq bütün bunlar günün tələbləri səviyyəsində deyildir. Ölkəmizdə qlobal ekoloji çağırışlara dair mövzular yeni dərsliklərə, dərs vəsaitlərinin hazırlanmasına xüsusi yer ayrılmalıdır. Bu istiqamətdə sanballı əsərlərin, məqalələrin nəşri üçün müsabiqələr keçirilməli, görkəmli alimlər bu işə cəlb olunmalıdırlar. Hazırkı dövrdə əhali və ictimaiyyət arasında ekoloji çağırışlara dair təbliğatın aparılmasının çox böyük əhəmiyyəti vardır. Lazımi dərəcədə ekoloji çağırışlar aparılsa,əhali meşələrin, ağacların qırılmasına, yaşıllıqların məhv edilməsinə biganə qalmazlar. Ekoloji çağırışların vaxtında aparılmaması və düzgün idarə edilməməsi nəticəsində neqativ ekoloji böhranlar yaranar.

Respublikanın müvafiq təşkilatları tərəfindən beynəlxalq təşkilatlarla, donor ölkələrlə əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Belə ki, BMT-nin İnkişaf, Ətraf Mühit, Sənayenin İnkişafı proqramları, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Vəhşi Təbiət Fondu və s. təşkilatlarla əməkdaşlıq davam etdirilir. Bununla bərabər müvafiq sazişlər əsasında inkişaf etmiş ölkələrlə ikitərəfli əlaqələr qurulur və ekoloji çağırışlar formalaşdırılaraq həyata keçirilir. Ətraf mühit sahəsində beynəlxalq müqavilələrə qoşulma prosesinə də böyük diqqət yetirilir. Azərbaycan Respublikası bu günə kimi 20-dən artıq ekoloji konvensiyaya qoşulmuş, müvafiq protokollar imzalamış, bir sıra mühüm beynəlxalq tədbirlərin təşkilatçılığını həyata keçirmişdir [4, s.156-161].

Son illərdə Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi və mövcud normativ-hüquqi aktların ölkənin qoşulduğu beynəlxalq müqavilələrin müddəalarına, həmçinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində əməli addımlar atılmışdır. Ətraf mühitə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra yeni qanunlar qəbul edilmiş, mövcud qanunlara əlavə və dəyişikliklər edilmişdir. Qanunvericilik əsasən atmosfer havası, su ehtiyatları, məişət və istehsalat tullantıları, su bioresursları, biomüxtəlifliyin qorunması sahələrini əhatə etmişdir. Yeni qanunların qəbul edilməsi, mövcud qanunlara əlavə və dəyişikliklərin edilməsi ilə bərabər, həmçinin onların icrasının təmin edilməsi məqsədilə müvafiq normativ aktlar, qaydalar və ekoloji çağırışlar hazırlanıb təsdiq olunmuşdur.

Ekoloji sivilizasiya mahiyyət etibarı ilə ətraf mühitə, onun əsas amillərinə (hava, torpaq, su, flora, fauna və s.) neqativ və antropogen amillərin qarşısının alınması, təbii resurslardan düzgün və məqsədyönlü istifadə olunması, qorunub saxlanması və gələcək nəsillərə təhvil verilməsindən ibarətdir. Dünyanın inkişaf etmiş və inkişafda olan bütün ölkələrində olduğu kimi, respublikamızda da ekoloji çağırışların aparılması və idarə edilməsi dövlət siyasətinin əsas tərkib hissələrindən biri olmalıdır. Respublikamızda ekologiya ili çərçivəsində aparılmış ekoloji çağırışlar və onların düzgün idarə edilməsi nəticəsində dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ən sevindirici hal isə ondan ibarətdir ki, ölkə əhalisi də bu təşəbbüsə qoşularaq ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir.

Bu, ilk növbədə dövlətin və ictimai təşkilatların rəhbərliyi ilə ölkə iqtisadiyyatının, sosial-mədəni həyatın bütün sahələrində, o cümlədən, ekoloji tarazlığın qorunması, ətraf mühitin sağlamlaşdırılması ilə bağlı aparılan ekoloji çağırışlar ardıcıl və məqsədyönlü fəaliyyətin uğurlu nəticəsidir.

Ekologiyaya dair aparılan qlobal ekoloji çağırışlar, bir çox yaddaqalan tədbirlər və aksiyalarla ətraf mühütün mühafizəsi məsə-

ləlləri öz həllini tapmaqdadır. Keçən il Ümumdünya Ətraf Mühit Günü «Çoxlu növlər, bir planet, bir gələcək» devizi ilə keçirilmiş və tədbirlərdə iştirak etmək məqsədilə BMT-nin Ətraf Mühit Proqramının Avropa Bürosunun direktoru Kristof Buvye Bakıya gələrək ağacəkmə kampaniyasında iştirak etmişdir. Respublikanın bütün şəhər və rayonlarında Ətraf Mühit Günü ilə bağlı ağacəkmə aksiyaları uğurla başa çatmışdır [6, s.15-19].

Ətraf mühitin sağlamlaşdırılması istiqamətində Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair əlavə tədbirlər planı hazırlanmış və onu müvafiq qurumlar həyata keçirmişdilər.

**Ədəbiyyat:**


1. Aslanov E. Azərbaycanda dövlət idarəçiliyi üzrə kadrların hazırlanması tarixinə dair // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2010, № 4 (32), 175-178 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cq il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Hüseynova N. Müasir dövlət qulluğunda kadr siyasətinin rolu // "Yeni Azərbaycan" qəzeti, 2014, 7 fevral.
4. Əmək bazarı və kadr hazırlığı problemləri. Elmi-praktik konfransın materialları, Bakı, 2002, 298 s.
5. Sultanov R. // Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi. Magistr hazırlığı üçün proqram. Bakı 2018 208 s.
6. Qlobal ekoloji çağırışların idarə edilməsi. Magistr hazırlığı üçün proqram. Bakı 2018, 27 s.


***Açar sözlər:*** *davamlı inkişaf, ekoloji çağırışlar, kadr potensialı, ekoloji cəmiyyət, ekoloji strategiya, ətraf mühitin qorunması*

**Rauf Sultanov**
*Professor of the Department of Ecology of the Azerbaijan State Pedagogical University, PhD in Biological Sciences*

# FORMATION OF HUMAN RESOURCES RELATED TO THE MANAGEMENT OF GLOBAL ENVIRONMENTAL PROBLEMS

## SUMMARY

One of the important aspects of the management theory is the policy of human resources development for sustainable development, training, deployment, selection and upbringing. Personnel work–wide range of issues such as training, selection, placement, promotion of personnel, raising their qualifications, identifying and analyzing working categories and nomenclature of workplaces, organizing and planning work with them, labor assessment systems, etc. are the broad areas of issues.

Selection of staff is carried out on the basis of certain models, signs and principles. Principally, this issue determines the formation of the system that governs it and its future as a whole.

This is one of the most urgent problems in our country which meets global environmental problems and their management in accordance with the requirements of the day.

.

***Key words:*** *sustainable development, environmental challenges, personnel potential, ecological society, environmental strategy, environmental protection*

**Rauf Sultanov**
*Профессор кафедры Экологии Азербайджанского
Государственного Педагогического Университета,
доктор биологических наук*

## ФОРМИРОВАНИЕ КАДРОВОГО ПОТЕНЦИАЛА В СВЯЗИ С УПРАВЛЕНИЕМ ГЛОБАЛЬНЫХ ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ

## РЕЗЮМЕ

Политика формирования кадрового потенциала для устойчивого развития, подготовка, отбор и воспитание кадров – является одним из важных аспектов теории управления. Система работы с кадрами – это комплекс широкоспектрных вопросов, охватывающих обучение, подбор, размещение, выдвижение кадров, повышение их квалификации, выявление и анализ рабочих категорий и номенклатуры рабочих мест, организацию и планирование работы с ними, систему оценки труда и т.д.

Подбор кадров осуществляется на основе определенных моделей, признаков и принципов. Этот вопрос в принципе определяет формирование управляющей системы, которая ее регулирует, ее будущее и общества в целом.

Это одна из самых насущных проблем в нашей стране, которая отвечает глобальным экологическим вызовам и их управлению в соответствии с требованиями дня.

***Ключевые слова:*** *устойчивое развитие, экологические проблемы, кадровый потенциал, экологическое общество, экологическая стратегия, охрана окружающей среды*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

**ELÇİN ƏHMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru**
*e-mail: elchin_ahmedov@yahoo.com*

## AZƏRBAYCANIN DİNAMİK İNKİŞAF GÖSTƏRİCİLƏRİ: UĞURLAR VƏ NAİLİYYƏTLƏR (2003-2018-ci illər)

*"Bu gün biz Heydər Əliyev siyasətinə sadiq qalaraq bu siyasəti davam etdiririk. Bu illərdə biz Heydər Əliyev siyasətinin təntənəsini görürük, onun fiziki yoxluğu şəraitində bu siyasət yaşayır və yaşayacaqdır".*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

**Giriş**

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni siyasi kursun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və sosial-iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, ölkəmizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın siyasi kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən siyasət məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslandıraraq dövlətimizin yeni siyasi kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu siyasi xəttində ilk növbədə bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursunun həyata keçirilməsi uçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu

mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələrin Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməklə səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir. Həmin illərdə çox ciddi islahatlar aparılmış, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmiş, Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər hazırda ölkəmizin uğurlu inkişafını şərtləndirmiş, o dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

**Azərbaycanın dinamik inkişafının mühüm mərhələsi**

2003-cü ildən keçən on beş il ərzində isə, Azərbaycan xalqı və dövləti sözün əsl mənasında sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir. Dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın qazandığı nailiyyətləri şərtləndirən mühüm faktorlardan biri də enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir (3).

Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizm də iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. On beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır (19).

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 250 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan 4–5 də-fə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilmişdir (19).

Xüsusilə Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilmişdir. Azərbaycanın valyuta ehtiyatları 2003-cü ildə 1,8 milyard dollar idisə hazırda 46 milyard dollara yaxındır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda biz öncül mövqelərdə dururuq. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatı artıq dünyada 35-ci, MDB məkanında isə 1-ci yerdədir (7). Forumun 2017-ci il üzrə "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir (1). Gənc, 27 yaşı olan müstəqil dövlət üçün bu, çox böyük nailiyyətdir və Azərbaycan iqtisadiyyatının çoxşaxəli şəkildə inkişaf etdiyini göstərir.

2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmiş və 2013-cü il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin - "Azərspace-1"-in orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmaqla yanaşı və Azərbaycanı kosmik ölkələr sırasına daxil etmişdir. 2014-cü ildə Azərbaycan ikinci müşahidə peykinə sahib olmuş, bu peyk ölkəmizə təhvil verilmişdir - "Azərsky". "Azərsky" peykinin xüsusiyyəti ondan ibarətdir ki, bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir və dünyada cəmi 20 ölkə belə peyklərə malikdir ki, bu da çox böyük uğur olmaqla yanaşı, ölkəmizin sürətli inkişafının göstəricisidir. Bu ilin sentyabrın 26-da isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılmışdır. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir (42).

Bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilmiş, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuş, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılmışdır. Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə dünyada neft ölkəsi kimi tanınan Azərbaycanın təchizatçısı olduğu Bakı-Tbilisi-Ceyhan layihəsi ilə ölkəmiz qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30-dək ölkəsinə ixrac edilir (12).

Eyni zamanda, ölkəmiz son illərdə təbii qaz ehtiyatlarına görə də diqqəti cəlb edir. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlardan sonra nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını

təmin etmək üçün ciddi vasitə olacaqdır. Azərbaycanın mövcud qaz ehtiyatları bundan sonrakı 100 il ərzində respublikanın və tərəfdaş dövlətlərin mavi yanacağa olan tələbatının ödənməsinə imkan verəcək. Hazırda beynəlxalq əməkdaşlıq məkanına çevrilmiş Xəzər hövzəsi malik olduğu zəngin karbohidrogen ehtiyatları hesabına bir sıra qlobal enerji layihələrinin reallaşdırıldığı mərkəz kimi diqqət çəkir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı xüsusi əhəmiyyət kəsb edir. 2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi həlledici mərhələyə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi "Şahdəniz- 2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 20 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. "Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdırsa, "Şahdəniz- 2" XXI əsrin ən iri enerji layihəsidir (34).

Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümünü qeyd edildi. Simvolik haldır ki, məhz həmin gün "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur (34). "Cənub" qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir və bu nəhəng transmilli layihənin icrasında ölkəmiz öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Məhz Azərbaycanın uzun illər ərzində apardığı enerji siyasəti nəticəsində, qətiyyətli siyasət nəticəsində bu böyük layihə artıq reallaşmışdır. "Şahdəniz-2", TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli maraqlarımızı, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək (35). Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihələrdə də liderliyi öz üzərinə götürmüşdür. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulmuşdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Bununla yanaşı, hazırda Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Beləliklə, 2013-cü ildə TAP layihəsi – Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə olmuşdur. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır. Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanın qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir.

Xarici siyasət, mədəni-humanitar və idman sahələrində qazanılan uğurlar

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa Qonşuluq Siyasətinə" qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzalamış, 2008-ci ildə isə İttifaqın "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur (26-28).

Bununla yanaşı, 2011-ci il oktyabrın 24-də Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə

keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır (30). BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Belə ki, Azərbaycan, son illər ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyəti ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasında təmsil olunmaqla yanaşı, 2011-ci ilin may ayında 120 dövlətin daxil olduğu Qoşulmama Hərəkatına üzvü qəbul edildi. 2015-ci il noyabrın 15-16-da Türkiyənin Antalya şəhərində "G-20" sammitində Azərbaycanın "Böyük iyirmilik" tədbirlərində iştirakı mühüm əhəmiyyət kəsb edir kəsb edir və Sammit həm regional, həm də beynəlxalq problemlərin həlli üçün zəruri tədbir kimi yadda qalmışdır (40). Böyük İyirmiliyin hər il keçirilən Zirvə Toplantısı ilin əsas iqtisadi hadisəsi hesab olunur və dünyanın aparıcı iqtisadi, hərbi, siyasi gücə malik dövlətləri bu toplantıda təmsil olunurlar. Belə bir Sammitdə Azərbaycanın da təmsil olunması dövlətimizin beynəlxalq imici, siyasi-iqtisadi qüdrətinin son dövrlər artmasının göstəricisidir. Türkiyənin xüsusi dəvəti əsasında Azərbaycanın iştirak etdiyi Sammit ölkəmizin gələcək inkişafı üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın dövlət başçısının G-20 Liderlər Sammitində iştirakı və diqqəti cəlb edən çıxışı artıq ölkəmizin regionda, eləcə də dünyada əsas aktorlardan birinə çevrildiyini göstərir. Azərbaycan "G-20" çərçivəsində tədbirlərdə iştirak etməklə bu ölkələrin təcrübəsini öyrənir. Eyni zamanda, bu platformaya üzv ölkələr də Azərbaycanın əldə etdiyi nailiyyətlərdən yararlana bilər.

Bu gün ölkəmiz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verməyə calışır. Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində, eləcə də, ölkəmiz coğrafi baxımdan Avropa və Asiya arasında yerləşir. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və təhlükəsizlik şəraitində bir ailə kimi yaşamışlar. Son vaxtlar təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillər baş qaldırmışdır ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olmuşdur. Təəssüflər olsun ki, müasir dövrdə biz daha çox bu barədə danışmalı olur və bu gün dünyanın müxtəlif yerlərində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliyin şahidi olur və bunu xalqların dinc şəraitdə bu cür təhlükələrlə qarşılaşdığını görürük.

Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzim olunması bu gün dünya üçün artıq bəllidir. Bu baxımdan Azərbaycanın nümunələri öyrənilməklə bir sıra addımlar atılır. Məhz, 2008-ci ildə də "Bakı prosesi" ölkəmizin təşəbbüsü ilə başlamış və bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər "Bakı prosesi"nə daxildir. Azərbaycan bu istiqamətdə səylərini davam etdirir və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaratmış və ölkəmiz dostluq, sülh, tərəfdaşlıq, eləcə də mədəni müxtəliflik məsələlərinə töhfələrini verməkdə davam edir.

Regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş, güclü dövlət və etibarlı tərəfdaş imici qazanmışdır. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilmişdir. 2011-ci, 2013-cü, 2015, eləcə də 2017-ci ildə 4 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları yüksək səviyyədə təşkil olunmuş və bu sahədə Azərbaycan tərəfindən reallaşdırılan təşəbbüslər regional

müstəvidən çıxararaq qlobal səviyyəyə qaldırılmışdır (8; 29).

Ölkəmiz III Qlobal Açıq Cəmiyyətlər Forumununda, V Qlobal Bakı Forumunda, Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısında, ümumilikdə 200-ə yaxın ölkədən yüzlərlə fəaliyyətdə olan və keçmiş dövlət və hökumət başçısı, nüfuzlu ictimai-siyasi xadimlər, məşhur iqtisadçılar, elm adamları, dünya mədəniyyətinin tanınmış simaları və digər şəxslər iştirak etmişlər. Bu, Azərbaycanın qlobal məsələlərin müzakirəsi və həllində artan rolunun, dünyada gündəmin formalaşmasında yaxından iştirakının əyani təsdiqidir (9).

Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır. Bakıda və bölgələrdə keçirilən Mədəniyyətlərarası Dialoq, Dünya Bankının Azərbaycan üzrə II İqtisadi Siyasət, "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assamleyasına, Qəbələdə beynəlxalq musiqi festivallarına, "Eurovision" musiqi yarışmasına, Dini Liderlərin Ümumdünya Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səciyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur (31).

Bununla yanaşı, son illərdə "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumuna, Madrid Klubunun toplantısına, Birinci Cənubi Qafqaz Forumuna, Avronest Parlament Assambleyasının Avropadan kənarda ilk iclasına, BMT-nin VII İnternet İdarəçilik Forumuna və digər möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan bir daha göstərdi ki, ölkəmiz Cənubi Qafqazda bütün sahələr üzrə müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu geosiyasi əhəmiyyətli məkandır (24).

Bundan əlavə, 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının paytaxtımızda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi də təsadüfi olmamışdır. Belə ki, "Bakı-2015" ilk Olimpiya Oyunları idman tarixində yeni maraqlı səhifə açamışdır. Bu, həmçinin dörd ildən sonra keçiriləcək növbəti Oyunlara bələdçi hadisə olmuş və Avropa Oyunlarının standartları məhz Bakıda müəyyənləşdirilmişdir. Çox qısa müddətdə yüksək səviyyədə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan Olimpiya hərəkatına verilən dəyərin təzahürü olmuşdur. Bu hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Eyni zamanda, bu Oyunlar Azərbaycanın mədəniyyətinin, zəngin multikulturalizm ənənələrinin, turizm imkanlarının, həmçinin Azərbaycan brendi olan məhsulların təbliği baxımından da çox faydalı olmuşdur. Tarixdə ilk dəfə Azərbaycanda keçirilmiş birinci Avropa Oyunları uğurlu olmuş və ölkəmizin idman tarixində şanlı səhifə olmaqla yanaşı, bu mühüm tədbir Avropanın idman tarixində də layiqli yer tutaraq öz möhtəşəmliyi ilə yaddaşlarda qalmış, xalqlar arasında mühüm dostluq və tərəfdaşlıq tədbirinə çevrilmişdir.

Bununla yanaşı, Azərbaycan artıq istənilən səviyyədə idman yarışlarını qəbul etmək və layiqli şəkildə keçirmək imkanı əldə emişdir. 2017-ci ilin may ayında Bakı şəhəri İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etmişdir. İki il ərzində hər iki mühüm idman tədbirinin Azərbaycanda keçirilməsi rəmzi məna daşıyan nadir tarixi hadisə olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizin sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına verdiyi böyük töhfədir.

Ümumiyyətlə, Birinci Avropa Oyunları zamanı Azərbaycan 56 medal qazanaraq ikinci olmuşdur. Bundan sonra, 2016-cı il Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanılmışdır ki, Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdə olmuşdur. Nəhayət, IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları yarışları birinci pillədə başa vuraraq hamıdan çox - 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazandılar (62).

Bundan əlavə, IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə dair rəsmi qərarın qəbul edilməsi də məhz

bütün bu nailiyyətlərin təcəssümüdür. Dövlət başçısı İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının "OİC Journal" nəşrində dərc olunmuş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsində etnik və dini tolerantlığı "irəliyə doğru inamla getməyin ən optimal yolu" adlandıraraq vurğulamışdır: "Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. "İslam Həmrəyliyi İli"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaqdır" (62).

Nəticədə, 2015-ci ildə Bakı ilk Avropa Oyunlarına, bundan iki il sonra isə IV İslam Həmrəyliyi Oyunlarına uğurla və inamla ev sahibliyi etdi. İstər Avropa, istərsə də İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunması Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanin yorulmaz fəalittətinin nəticəsidir. Hər iki mötəbər idman tədbirinin təşkilat komitələrinə sədrlik edən Mehriban xanımın qüvvələri çox qısa müddətdə səfərbər etmək məharətinin nəticəsində Azərbaycan tarixinə uğurlu səhifələr yazıldı.

Ümumiyətlə, əsası ümummilli lider tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurlu həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə də əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələrə girir. Bütün yuxarıda göstərilənlər önu deməyə əsas verir ki, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı İlham Əliyev qeyd etdiyi kimi "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, ərazilərimizin işğalı faktını nəzərə alaraq ordu quruculuğu prioritet vəzifələrdən biri kimi müəyyənləşdirilmiş və bu gün Azərbaycan ordusu maddi-texniki, silah-sursat təchizatı, döyüş qabiliyyəti göstəricilərinə görə Cənubi Qafqazın ən güclü ordusudur. Yəni, bu, onu göstərir ki, ordu quruculuğu Azərbaycan dövlətinin prioritet məsələsidir. Bununla yanaşı, 2005-ci ildə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi təsis olunmuş, hərbi təyinatlı müəssisələr işə salınmış və həmin müəssisələrdə artıq 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. Hazırda 20-dan çox ölkənin müvafiq qurumlarına Azərbaycanın istehsalı olan hərbi məhsulların ixracı həyata keçirilir (19).

Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin xarici siyasətinin əsas prioritetlərindəni biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan

etmişdir. Ölkəmizin artan bu siyasi fəallığının nəticəsi kimi, 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” adlı qətnamələr qəbul edilmişdir (23, s.788-791). Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqləndi (23, s.406).

Münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, eləcə də Təhlükəsizlik Şurası sədrinin qəbul etdiyi 7 bəyanatda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması bildirilir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə ilə yanaşı, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Dövlət başçısı İlham Əliyev Ermənistanın sülh istəmədiyini, status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istədiyini, işğal olunmuş torpaqlardan çəkilmək istəmədiyini vurğulayaraq, təcavüzkar dövlətin yalnız vaxt uzatmaqla məşğul olduğunu və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istədiyini bildirmişdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamasının əsas səbəbinin təkcə təcavüzkar Ermənistan deyil, eləcə də onun himayədarlarının da rolunun böyük olduğunu bildirmişdir: “...Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi... Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır” (11).

Lakin, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq “Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz” fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha artırmışdır: “Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik”. Eyni zamanda, dövlət başçısı bəyan etmişdir ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır (3).

2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən

Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürülmüşdür (19).

2016-cı ilin aprel döyüşlərini tariximizin şanlı səhifəsi adlandıraraq demişdir: "...Azərbaycan böyük hərbi qələbə əldə etmişdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik... Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik" (15).

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 15 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksələməsini təmin etmiş, bu gün dövlətimiz və xalqımız üçün çox vacib olan problem – işğal olunmuş torpaqlarımızın tezliklə azad ediləcəyinə və ərazi bütövlüyünün bərpa olunacağına olan ümidləri daha da artıraraq perspektivdə Azərbaycanın ən qüdrətli dövlətlər sırasında duracağını şərtləndirmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - "Azərbaycan" qəzeti, 10 oktyabr 2018-ci il.
2. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 29 may 2018-ci il.
3. Azərbaycan Prezidenti İlham Əliyevin 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 27 may 2017-ci il.
4. Azərbaycan Prezidenti İlham Əliyevin 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 27 may 2013-cü il.
5. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda nitqi. - "Azərbaycan" qəzeti, 16 sentyabr 2018-ci il.
6. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda nitqi. - "Azərbaycan" qəzeti, 22 sentyabr 2018-ci il.
7. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda

duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - "Azərbaycan" qəzeti, 11 aprel 2017-ci il.
8. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında çıxışı - "Azərbaycan" qəzeti, 6 may 2017-ci il.
9. Azərbaycan Prezidenti İlham Əliyevin V Qlobal Bakı Forumunun açılışında çıxışı - "Azərbaycan" qəzeti, 17 mart 2017-ci il.
10. Azərbaycan Prezidenti İlham Əliyevin Əl-Cəzirə televiziyasına müsahibəsi - "Azərbaycan" qəzeti, 18 fevral 2017-ci il.
11. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası iclasında ntqi. - "Azərbaycan" qəzeti, 8 oktyabr 2016-cı il.
12. Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın nüfuzlu "The Business Year" jurnalına müsahibəsi. - "Azərbaycan", 4 aprel 2013-cü il.
13. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakının Azadlıq meydanında keçirilmiş təntənəli hərbi paradda nitqi. - "Azərbaycan" qəzeti, 28 iyun 2013-cü il.
14. Azərbaycan Prezidenti İlham Əliyevin, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin yeni hərbi şəhərciyinin açılışında çıxışı.- "Azərbaycan" qəzeti, 24 yanvar 2017-ci il.
15. Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində çıxışı.- "Azərbaycan" qəzeti, 19 mart 2017-ci il.
16. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.
17. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.
18. Mehdiyev R.Ə. Azərbaycan - 2003-2008: Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2009, 240 s.
19. Həsənov Ə.M. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi. - "Azərbaycan" qəzeti, 13 oktyabr 2018-ci il.
20. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.
21. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.
22. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
23. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.
24. Əhmədov E.İ. Heydər Əliyevin xarici siyasət kursu yeni və dinamik inkişaf mərhələsində. - "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2013, №2 (4), səh.121-130.
25. Əhmədov E.İ. Azərbaycanin dinamik inkişaf göstəriciləri: qazanilan nailiyyətlər – 2003-2018. – "İki sahil" qəzeti, 16 oktyabr 2018-ci il.
26. Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.2-3.
27. European Neighbourd Policy EU / Azerbaijan Action Plan 14 november2006. - http://ec.europa.eu/environment/enlarg/pdf/enp_ action_plan_azerbaijan.pdf.
28. Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council, № COM (2008) 823 from 3 December 2008.
29. "Azərbaycan"qəz., 2011-ci il, 8-9 aprel.
30. "Azərbaycan" qəz., 2011-ci il, 25 oktyabr.
31. "Azərbaycan" qəz., 2013, 16 iyul .
32. "Azərbaycan" qəz., 2013, 25 iyul.
33. "Azərbaycan"qəz., 2014, 11 may.
34. "Azərbaycan" qəz., 2014, 21 sentyabr.
35. "Azərbaycan" qəz., 2014, 30 sentyabr.
36. "Azərbaycan" qəz., 2014, 3 oktyabr.
37. "Azərbaycan" qəz., 2014, 9 oktyabr.
38. "Azərbaycan" qəz., 2015, 21 avqust.
39. "Azərbaycan" qəz., 2015, 16 sentyabr.
40. "Azərbaycan" qəz., 2015, 19 noyabr.
41. "Azərbaycan" qəz., 2016, 27 aprel.
42. "Azərbaycan" qəz., 2018, 27 sentyabr

43. “Azərbaycan” qəz., 2018, 13 oktyabr.
44. “Azərbaycan” qəz., 2018, 14 oktyabr.
45. “Azərbaycan” qəz., 2018, 16 oktybr.
46. “Xalq qəzeti”, 2014, 17 yanvar.
47. “Xalq qəzeti”, 2014, 29 iyun.
48. “Xalq qəzeti”, 2014, 7 iyul.
49. “Xalq qəzeti”, 2014, 14 iyul.
50. “Xalq qəzeti”, 2015, 20 noyabr.
51. “Xalq qəzeti”, 2015, 6 dekabr.
52. “Xalq qəzeti”, 2015, 10 dekabr.
53. “Xalq qəzeti”, 2016, 28 aprel.
54. Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.2-3.
55. European Neighbourd Policy EU / Azerbaijan Action Plan 14 november2006. - http://ec.europa.eu/environment/enlarg/pdf/enp_ action_plan_azerbaijan.pdf.
56. Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council, № COM (2008) 823 from 3 December 2008.
57. http://www.heydar-aliyev.org
58. http://www.president.az
59. http://www.mehriban-aliyeva.org/ru/
60. http://www.heydar-aliyev-foundation.org
61. http://www.aliyev-heritage.org
62. http://azertag.az/xeber/Baki_2017_dunyaya_idman_dili_ile_oturulen_sulh_tolerantliq_ve_hemreylik_mesajlari-1064195


***Açar sözlər:*** *Azərbaycan Respublikası, dövlət siyasəti, enerji təhlükəsizliyi, dinamik inkişaf, xarici siyasət*

**Elchin Ahmadov**
*Professor, Department of International Relations and Foreign Policy, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan,PhD in Political Science*

## DYNAMIC DEVELOPMENT INDICATORS OF AZERBAIJAN SUCCESSES AND ACHIEVEMENTS (2003-2018)

### SUMMARY

The article points out that 1993-2003 were crucial for our country, a firm foundation of our statehood was laid down exactly in those years. The strategic course of domestic and foreign policy of Azerbaijan was defined in those years, Azerbaijan integrated into the world community.

Priority directions of the state policy of Azerbaijan in 2003-2018 and the key indicators of dynamic development in all spheres are analysed in the article.The sustainable development of the economy of Azerbaijan during the global crisis in the world, implementation of all social programs are analyzed according to the facts in mentioned years.

The article substantiates the successful implementation of the security system of our country, first of all, the full provision of energy security of Azerbaijan, especially it is justified that Azerbaijan is a leading country in the region in terms of economic potential in the South Caucasus economy. In addition, the article explores the implementation of the Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum, Baku-Tbilisi-Kars, TANAP, TAP and other projects on the initiative of Azerbaijan.

At the same time, the article analyzes the achievements gained in the field of foreign policy, cultural-humanitarian and sport according to the facts. Also, cultural diversity, multicultural and tolerant values in domestic and foreign policy of Azerbaijan are explored. The article examines the

territorial integrity of Azerbaijan as a key priority in the foreign policy of our state. Ensuring the territorial integrity of Azerbaijan is studied in the article as the main priority direction in the foreign policy of our state.

***Key Words:*** *The Republic of Azerbaijan, State Policy, Energy Security, Dynamic Development, Foreign Policy*

**Эльчин Ахмедов**
*Профессор кафедры Международные отношения и внешняя политика*
*Академии Государственного Управления при Президенте*
*Азербайджанской Республики, доктор политических наук*

## ПОКАЗАТЕЛИ ДИНАМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА: УСПЕХИ И ДОСТИЖЕНИЯ (2003-2018)

### РЕЗЮМЕ

В статье указывается, что 1993-2003 годы были решающими для нашей страны, именно в эти годы была заложена прочная основа государственности. В те годы был определен стратегический курс Азербайджана, связанный как с внутренней, так и с внешней политикой, началась интеграция страны в мировое сообщество.

В статье широко исследуются приоритетные направления государственной политики Азербайджана в 2003-2018 годах и важные показатели динамичного развития во всех сферах. На фактах анализируются устойчивое развитие экономики Азербайджана, своевременное выполнение всех социальных программ на фоне происходившего в эти годы в мире глобального кризиса.

В статье обосновывается успешное осуществление стратегии безопасности нашей страны, в первую очередь, полное обеспечение энергетической безопасности Азербайджана, в частности то, что в экономике Южного Кавказа Азербайджан является лидирующей страной с точки зрения экономического потенциала. Кроме того, в статье исследуются реализация по инициативе Азербайджана проектов Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Эрзурум, Баку-Тбилиси-Карс, TANAP, TAP и других глобальных проектов, а также их геополитическое, геоэкономическое значение.

Наряду с этим, в статье на фактах широко демонстрируются успехи, достигнутые во внешнеполитической, культурно-гуманитарной и спортивной сферах. Также исследуются культурное разнообразие, мультикультуральные и толерантные ценности во внутренней и внешней политике Азербайджана. Обеспечение территориальной целостности Азербайджана изучается в статье как основное приоритетное направление во внешней политике нашего государства.

***Ключевые слова:*** *Азербайджанская Республика, государственная политика, энергетическая безопасность, динамичное развитие, внешняя политика*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

**ADİL VƏLİYEV**
**Azərbaycan Respublikası Milli Məclisi Aparatının**
**Sosial qanunvericilik şöbəsinin sektor müdiri,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİK SİSTEMİNDƏ SOSİAL VƏ ƏMƏK QANUNVERİCİLİYİ MÜHÜM KOMPONENT KİMİ

Müasir parlamentimiz 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Xalq Cümhuriyyəti Parlamentinin varisidir. Məhz bu illərdə Cümhuriyyət parlamenti tərəfindən qəbul edilən və hüquqi dövlətin əsas atributları olan dövlət bayrağı, gerbi, himni 1991-ci ildən müstəqil Azərbaycan parlamenti tərəfindən yenidən qəbul edildi. Eyni zamanda, həmin illərdə qanunvericilik fəaliyyətində rəhbər tutulan demokratik prinsiplər, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu dəyərləri Milli Məclis tərəfindən tanındı, qanunvericilik yaradıcılığında bu dəyərlər əsas götürüldü. Buna görə də Xalq Cümhuriyyəti Parlamentinin tarixi müasir dövrümüzdə hüquqi dövlət və vətəndaş quruculuğu yolunda inkişaf edən ölkəmiz üçün önəmlidir.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın qədim və zəngin dövlətçilik tarixinin ən önəmli hadisələrindən biridir. Xalq Cümhuriyyəti və onun parlamenti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə çox qısa müddət ərzində fəaliyyət göstərsə də, onun demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində həyata keçirdiyi tədbirlər xalqımızın dövlətçilik ənənələrinin inkişafında mühüm rol oynamışdır.

Cümhuriyyətin parlamenti 17 aylıq fəaliyyəti dövründə qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Məclisi-Məbusanın (Parlament) xüsusi diqqət ayırdığı sahələrdən biri də sosial məsələlər olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən 270-dən artıq qanun layihəsi müzakirəyə çıxarılmış, onlardan 230-a yaxını təsdiq edilmişdir. Bunlardan 10-u bilavasitə sosial sahə ilə bağlı idi [7].

1918-ci ildə ermənilərin Azərbaycana qarşı ərazi iddialarını genişləndirmələri, Şamaxıda, Qubada, Naxçıvanda, Qarabağda və digər yerlərdə soyqırımı cinayətləri törətmələri minlərlə azərbaycanlını qaçqın vəziyyətinə salmışdı. Təsadüfi deyil ki, Xalq Cümhuriyyəti hökumətinin ilk günlərdən diqqət yetirdiyi əsas məsələlərdən biri qaçqınlarla bağlı olmuşdu. Qaçqınların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsi hökumətin xüsusi diqqət mərkəzində idi. Belə ki, hökumət 1918-ci il iyulun 13-də "Qaçqınlara yardımın təşkil edilməsi haqqında", 1919-cu il fevralın 17-də "Qaçqınların yerləşdirilməsi məsələsini nizama salmaq üçün Şamaxı qəzasına komissiya göndərilməsi haqqında", həmin il iyunun 23-də "Qaçqın və köçkünlərin vəziyyətinin, onların daimi yaşayış yerlərinə qayıtması məsələsinin aydınlaşdırılması üçün mərkəzi komissiyanın yaradılması haqqında", noyabrın 8-də isə "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" qərarlar qəbul etmişdi.

Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə pensiya məsələləri də diqqət mərkəzində olub və bununla bağlı iki əsas qərar qəbul edilib. Bunlardan ən mühümü 1918-ci il avqustun 28-də verilən "Pensiya haqqında qanun layihəsinin tərtib olunması üçün komissiya yaradılması haqqında" qərar idi. Qərarda istefaya çıxanlara xidmət illərinə görə pensiya təyin olunması nəzərdə tutulurdu.

İlk parlamentin fəaliyyətində sosial siyasətin əsas komponentlərindən sayılan əmək münasibətləri və onun tənzimlənməsi məsələləri xüsusi yer tutmuşdur. Belə ki, ağır, kataklizmlərlə dolu bir şəraitdə parlament əmək qanunvericiliyini tənzimləmək məqsədilə bir sıra qanunlar qəbul edib, təxirəsalınmaz tədbirlər həyata keçirib. "İşçi məsələsi"nə dair bəyannamə ilə fəhlələrə 8 saatlıq iş gününün müəyyən edilməsi, həftədə bir günlük istirahətin verilməsi parlamentin vətəndaşların əmək hüquqlarının qorunması məsələsinə həssas münasibətini göstərirdi. Bəyannamə işçilərin qanunla müəyyən edilmiş vaxtdan artıq, eləcə də axşam saat 9-dan səhər saat 6-dək işlədilməsinə qadağa qoyurdu. 16 yaşına qədər yeniyetmələrin işləməsinin qadağan olunması, 16 yaşından 18 yaşınadək gənclər üçün 6 saatlıq iş gününün müəyyənləşdirilməsi, qadınların zərərli işlərdə çalışmasının yasaq olunması, hamilə qadınlara doğuşdan əvvəl 4 həftə, sonra isə 6 həftə ərzində əvəzi ödənilməklə məzuniyyətin verilməsi insan hüquqlarına yüksək hörmətin bariz təcəssümü idi.

Əmək Nazirliyinin tələbi ilə 1919-cu il martın 10-da parlament həmin nazirliyin nəzdində fəhlə məsələsinə aid xüsusi məşvərət Şurasının təsis olunması haqqında qanun qəbul edib. Məşvərət şurası əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olurdu. Məşvərət şurası on nəfərdən – beş fəhlə və beş sahibkardan ibarət idi. Onun əməyin mühafizəsinə və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən bütün tədbirlər üzrə qüvvədə olan qanunların icra olunmasına nəzarət etmək hüququ var idi.

O dövrdə Xalq Cümhuriyyətinin rəhbərliyi dövlətin sosial siyasətini həyata keçirmək üçün ümumi daxili məhsulda istehlak fondunun payının, milli gəlirin, məşğulluğun səviyyəsinin və əhalinin hər nəfərinə görə istehlak fondunun artırılmasını, əmək şəraitinin yaxşılaşdırılmasını, təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsinə nail olmağı qarşıya qoymuşdu. İnflyasiya ilə əlaqədar olaraq əhalinin müxtəlif təbəqələrinin maaşlarının artırılması məsələsi də AXC hökumətinin sosial siyasətinin mühüm istiqamətini təşkil edirdi. Cümhuriyyət hökumətinin 1918-ci il iyulun 3-ü, sentyabrın 21-i və oktyabrın 13-də, 1919-cu il fevralın 10-da, aprelin 21-də və 1920-ci il yanvarın 5-də verdiyi qərarlarla hökumət qulluqçularının maaşlarının artırılması nəzərdə tutulurdu. Həmin məqsədlə parlament 1919-cu il yanvarın 10-da "Qulluqçulara müavinət verilməsi haqqında", fevralın 4-də "Dəmir yolu qulluqçularının vəziyyətini yaxşılaşdırmaq haqqında", aprelin 7-də "Daxili İşlər Nazirliyi işçilərinin əməkhaqqının müvəqqəti artırılması haqqında", mayın 12-də "Hökumət qulluqçularının maaşlarına müvəqqəti əlavələr haqqında", 1920-ci il martın 15-də isə "Bahalıqla əlaqədar mülki və hərbi təyinatlı hökumət idarələrində qulluqçuların maaşlarına əlavələr haqqında" qanunlar qəbul edib.

Bütün bunlar göstərir ki, cümhuriyyət parlamentində qəbul olunmuş qanunlar insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir, hər bir fərdin sosial mənafeyinin təminatına yaxşı imkanlar yaradırdı. Parlamentin 1920-ci il yanvarın 8-də qəbul etdiyi "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" qanunları bu sahədə atılan mühüm addımlardan idi.

Beləliklə, xalqımızın dövlətçilik şüurunun inkişafında misilsiz rol oynamış Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti sübut etdi ki, Azərbaycan xalqı demokratik prinsiplərə əsaslanan milli dövlətini qurmağa qadirdir. Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, bu dövlət qurumu xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu [4].

SSRİ dövründə əsasən "Sovetlər qurultayı" və "Ali Sovet" adları ilə fəaliyyət göstərən

qanunvericilik orqanı məhdud səlahiyyətlərə malik olmuşdur. Bu illər ərzində Azərbaycanda parlamentin fəaliyyəti demokratik parlamentarizm ənənəsindən uzaq idi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəlişə xidmət edən siyasətin reallaşmasına yönəldə bilmişdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədəki xaotik vəziyyətin real mənzərəsi özünü ilk növbədə, parlamentdə büruzə verirdi. Qanunverici orqan parlament mədəniyyətindən uzaq olan, dövlətin və xalqın maraqlarına cavab verməyən dartışma ünvanına çevrilmişdi. Atdığı səhv addımlar ucbatından parlament xalqın dəstəyindən tamamilə məhrum olmuşdu [3].

Yalnız 1993-cü ildə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn və Ali Sovetin Sədri seçilən ulu öndər Heydər Əliyev ölkədə qanunçuluğun bütün sahələrdə möhkəmlənməsini təmin etməklə yanaşı, qanunverici orqanın cəmiyyətdəki nüfuzunu yüksəltdi, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratdı. Xalqın və dövlətin ən ağır və taleyüklü məqamında Ali Sovetin Sədri kimi məsul bir vəzifəni üzərinə götürərək şərəflə daşıdı, bir-birindən çətin və mürəkkəb problemləri böyük ustalıq və məharətlə yoluna qoydu. Ulu öndər Ali Sovetin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında bəyan etdi: "Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını vəhdət tutaraq əlimdən gələni edəcəyəm” [1].

Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bir yandan inflyasiya, iqtisadiyyatın güclü böhran yaşaması, əvvəlki iqtisadi əlaqələrin dağılması və yenilərinin yaranmaması, bir yandan isə ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda əhali yoxsulluq həddinə düşmüş, özlərinin minimal sosial tələbatlarını ödəmək imkanlarından məhrum olmuşdu. Təbii ki, cəmiyyət həyatının bütün sahələrində olduğu kimi yenə də bütün yük sosial siyasətin başlıca subyektinin – dövlətin üzərinə düşürdü.

1993-2003-cü illərdə sosial müdafiə sahəsində konkret və məqsədyönlü işlər görüldü. Ulu öndərin imzaladığı onlarla sənəd müstəqil Azərbaycanda sosial sahədə sabitliyin və inkişafın təmin olunmasına xidmət etmişdir. Bunun nəticəsi olaraq ölkədə sosial müdafiə sisteminin köklü surətdə yenilənməsi, yeni milli modelin yaradılması məsələsi gündəmə gəldi. Ümummilli lider ilk növbədə, özünü maliyyələşdirmə məqsədi güdən sığorta-pensiya modelini qurmaqdan ötrü pensiya təminatı mexanizmini modernləşdirmək istiqamətində ciddi addımlar atdı.

Ulu öndər müharibə gedən dövlətdə hüququn aliliyini, idarəetmə strukturunun təkmilləşməsini, sosial-iqtisadi islahatları və sabitliyi təmin edən qanunlar, qərar və sərəncamlar imzaladı. Heydər Əliyev bir qayda olaraq sosial siyasət məsələlərini ehtiva edən normativ-hüquqi aktların əhəmiyyətini xüsusi vurğulayır, bu hüquqi sənədlərin hazırlanmasına birbaşa rəhbərlik və nəzarət edirdi. Ulu öndərin bir çox fundamental hüquqi aktlarla yanaşı, 1994-cü ildə “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi haqqında”, "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” sənədləri imzalaması deyilənlərə bariz nümunədir.

Ölkəmizdə diqqət yetirilən mühüm məqamlardan biri sosial müdafiə sahəsində ünvanlılıq prinsipinin gözlənilməsi olmuşdur. Bunun nəticəsi olaraq ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar qəbul olunaraq icraya yönləndirilmiş, sosial müdafiəyə daha çox ehtiyacı olanlara

dövlət tərəfindən yardımların göstərilməsi əsas məqsədlərdən birini təşkil etmişdir. Bu xüsusda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qəbul edilmiş qanunların adını çəkmək olar.

Sosial müdafiənin və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə dair atılan növbəti addımlar, bu istiqamətdə həyata keçirilən siyasətin elmi-nəzəri dəyərlərə və dünyanın ən mütərəqqi təcrübəsinə əsaslanması vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması ilə müşayiət olunmuşdur.

Əməkhaqlarının, pensiya və digər sosial müavinətlərin vaxtaşırı artırılması, yoxsulluq probleminin həlli ilə bağlı görülən tədbirlər ölkənin sosial müdafiə modelinin daha güclü bir hala gəlməsinə yol açmışdır. Bu zaman ulu öndər müvafiq islahatların həyata keçirilməsini xüsusi diqqət mərkəzində saxlayır, sözügedən kontekstdə əhalinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə zəruri tədbirlər görürdü. 2002-ci il yanvarın 1-dən ölkəmizin sosial siyasətində yeni bir mərhələnin başlanğıcı qoyuldu. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 15 noyabr 2001-ci il tarixli qanunla güzəşt və imtiyazlardan istifadə edən əhali kateqoriyasının dairəsinə yenidən baxıldı, həmçinin kommunal və nəqliyyatdan istifadəyə görə güzəştlər müavinətlərlə əvəz olundu [6].

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasət, məqsədyönlü islahatlar proqramı ölkəmizin yeni nailiyyətlər əldə edərək sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Əhalinin sosial rifahının yüksəldilməsi əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasətinin strateji hədəflərindən biridir.

Qürurla qeyd etmək olar ki, ötən 15 il Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, dövlət proqramlarının icrasının uğurla davam etdirilməsi ilə yanaşı, əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı tədbirlərin həyata keçirilməsi ilə əlamətdardır. Həyata keçirilən düşünülmüş sosial siyasət əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusən aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən birini də əhalinin sosial müdafiəsinin gücləndirilməsi təşkil edir. Elə buna görə də neçə illərdir geniş miqyasda həyata keçirilən sosial müdafiə tədbirləri hətta dünya iqtisadiyyatının böhranlı günlərində belə, uğurla davam etdirilmişdir.

Ölkəmizdə aztəminatlı əhaliyə ünvanlı sosial yardımların verilməsindən başlamış əlillərin, müharibə veteranlarının, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına qədər bütün sosial müdafiə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycanın sürətli iqtisadi inkişafı və büdcə gəlirlərinin davamlı artımı sosial xərcləri də müntəzəm artırmağa, yoxsulluğun səviyyəsini son 15 ildə dəfələrlə aşağı salmağa, sosial təminat sistemini möhkəmləndirməyə imkan yaratmışdır.

Ümumilikdə, Prezident İlham Əliyevin təxirəsalınmaz, uğurlu siyasəti əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məşğulluq imkanlarının artırılması, əmək və sosial hüquqlarının təminatı istiqamətində qarşıdakı dövrdə də mühüm nailiyyətlərin əldə olunmasına imkan verəcəkdir.

Prezident İlham Əliyevin aztəminatlı vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə 21 oktyabr 2005-ci il tarixdə təsdiqlədiyi "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, artıq 13 ildir ki, ölkəmizdə ünvanlı dövlət sosial yardımı sistemi tətbiq olunur.

Sosial müdafiə sisteminin ardıcıl təhlili son illər onu göstərdi ki, müavinət, yardım və digər buna oxşar üsullarla əhalinin aztəminatlı hissəsinin vəziyyətini yüksək səviyyədə yaxşılaşdırmaq çox çətin olur. Ünvanlı yardımın və

müavinət ödəmələrinin passiv formatdan fəal, istehsalat, xidmət, özünüməşğulluq yönümünə keçməsi daha faydalı olur. Bunun üçün də əsas hədəf ilk növbədə, xəstəliklərin, aztəminatlılığı törədən səbəblərin aradan qaldırılmasıdır. Təkcə əlilliyin qismən aradan qaldırılması məqsədilə son illər 15 maliyyə tutumlu proqram təsdiq olunaraq həyata keçirilmişdir. Bu baxımdan, 0-18 yaşda uşaqların məcburi dispanserizasiyası haqqındakı qanun və yerlərdə əhalinin kütləvi dispanserizasiyası xəstəliklərin vaxtında aşkarlanıb, müalicəsinə əsaslı kömək edir.

Bu istiqamətdə növbəti bir addım atılmış, istehsalatda bədbəxt hadisələrin qarşısının alınması məqsədilə İnzibati Xətalar Məcəlləsində cəzaları ciddiləşdirən maddələr əlavə edilmiş və profilaktik tədbirlərin icrasına nəzarət güclənmişdir.

Bütün görülən işlərin nəticəsidir ki, son on beş ildə əhalinin sayı 1,5 milyon nəfər artsa da, əlillərin sayı demək olar ki, dəyişməyərək 620 min civarında qalmaqdadır. Bu rəqəm faiz olaraq dünya göstəricilərindən təxminən iki dəfə azdır. Eyni zamanda, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanununda əlillər üçün hər 100 iş yerindən 5-nin kvota olaraq bu qrup insanlar üçün məcburi ayrılması təsbit olunmuşdur.

Prezident İlham Əliyev bu kateqoriyadan olan insanların müdafiəsinin hüquqi bazasının beynəlxalq və milli qanunvericiliklə daim təsbit olunması üçün ardıcıl işlər görür. Belə ki, 2 oktyabr 2008-ci il tarixli "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu və aparılan genişmiqyaslı sosial islahatların nəticəsi olaraq bu qrupdan olan bütün stratların sosial müdafiəsi sahəsində önəmli dəyişikliklər baş vermişdir [5].

2018-ci ilin may ayında Milli Məclisdə qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu" əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir, əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir. [10]

Mütərəqqi müddəalarla zəngin olan bu fundamental hüquqi sənəddə əlilliyi olan şəxslərə qarşı ayrı-seçkilik qadağandır və qanunla təqib edilir. Qanuna görə dövlət əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol vermədən əlilliyi olan şəxslərə cəmiyyət həyatının bütün sahələrində iştirak etmək üçün digər şəxslərlə bərabər imkanlar, öz fərdi qabiliyyətlərinə və maraqlarına uyğun həyat sürməsi üçün lazımi şərait yaradılmasına, əlilliyə səbəb olan risklərin aradan qaldırılmasına və ya azaldılmasına, əlilliyi olan şəxslərin reabilitasiyasına və hərtərəfli inkişafına təminat verir.

Dövlət əlilliyi olan şəxslərə müstəqil həyat tərzi keçirmək və həyatın bütün aspektlərində hərtərəfli iştirak etmək imkanının yaradılması üçün, onların digərləri ilə bərabər səviyyədə fiziki mühit, nəqliyyat, informasiya və rabitədən, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemlərindən, əhaliyə açıq olan və ya təqdim olunan digər obyekt və xidmətlərdən istifadəsinin təmin olunması üçün zəruri tədbirlər görür.

Azərbaycan ərazisində və yaşayış məntəqələrində infrastruktur obyektlərinin layihələndirilməsi və tikintisi zamanı universal dizayn əsasında bu obyektlərin əlilliyi olan şəxslərə maneəsiz müyəssər olması, onların infrastrukturlardan sərbəst istifadə etməsi üçün ağlabatan uyğunlaşma təmin edilir.

"Yol hərəkəti haqqında" qanuna uyğun olaraq təşkil edilən parklanma yerlərinin 5 faizi (bir parklanma yerindən az olmayaraq) əlilliyi olan şəxslər üçün ayrılır. Əlilliyi olan şəxslər üçün ayrılan parklanma yerlərində

yalnız əlil avtomobili nişanı ilə nişanlanmış nəqliyyat vasitələri dura bilərlər.

İcra hakimiyyəti orqanları, müəssisələr və təşkilatlar tabeliklərində olan yol-nəqliyyat, rabitə, informasiya, mədəniyyət, məişət və digər sosial infrastruktur obyektlərini əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırırlar.

Əlilliyi olan şəxslərin problemlərinin həlli istiqamətində çox önəmli olan bir məqamı vurğulamamaq mümkün deyil. Belə ki, deputat olduğu 12 il müddətində ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qızların nikah yaşının 18-ə çatdırılması və nikaha girənlərin tibbi müayinədən keçərək, VVAQ şöbələrinə müvafiq arayış təqdim etməsi uşaqlıqdan əlil olanların sayının təkcə bu hesabla 30% azaltmışdır.

Sosial müdafiə məsələlərinin ən ağrılı tərəfi işsizlik və onun törətdiyi fəsadlardır. Dünyada sosial siyasətin göstəricilərindən başlıcası əhalinin əmək qabiliyyətli hissəsinin neçə faizinin məşğulluğa cəlb olunmasıdır. Bütün bunları nəzərə alaraq son iki-üç ildə prezident İlham Əliyev cənabları yeni iş yerlərinin yaradılması məsələlərini ön plana çəkmiş, bu sahənin inkişafını həvəsləndirən 34 fərman, sərəncamı və proqramlar təsdiqləmişdir. Ümumilikdə isə, ölkəmizdə son 15 ildə yaradılmış möhkəm baza əsasında işsizliyin faizi 50-dən 5-ə enmişdir. [8]

Əhalinin məşğulluğu, işçi-işəgötürən münasibətin tənzimlənməsi, hər iki tərəfin hüquqlarının müdafiə olunması ölkə prezidenti cənab İlham Əliyevin Milli Məclisə ünvanlandığı çox işlək və beynəlxalq normalara cavab verən "Məşğulluq haqqında" Qanunla bu ilin iyun ayında təsbit olundu. [9]

Mütərəqqi prinsiplərə əsaslanan Qanunun bir sıra əhəmiyyətli yeniliklərini diqqətə çatdırmaq faydalı olardı. Bu sənəddə ilk növbədə iş axtaran və işsiz şəxslərin müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınması qaydası tamamilə yenidən müəyyən edilib. Qeydiyyata alınma prosedurunun elektron qeydiyyat üzərində həyata keçirilməsi təsbit edilmişdir. İlk dəfə olaraq işaxtaran və işsiz şəxslərə əvvəlcə vakansiya bankından münasib işin onlar tərəfindən seçilməsi hüququ verilir. Onlar bu hüquqdan istifadə etmədikdə isə sistem tərəfindən bu edilir. Münasib iş təklifi üzrə müddət isə 11 gündən 5 günə endirilir.

Qanunda aktiv məşğulluq tədbirlərindən biri hesab olunan və hazırda tətbiqinə önəm verilən özünə məşğulluğa dair yeni maddə daxil edilib. Əvvəlki qanunda bu tədbiri tənzimləyən müvafiq maddələr olmadığından, yeni maddə ilə özünə məşğulluq tədbirlərinin mərhələləri və müddətləri monitorinq, əmlakların qaytarılması və s. prosedurlar müəyyən edilib. Digər müsbət məqamlardan biri də odur ki, "Məşğulluq haqqında" Qanuna əsasən, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub digər məşğulluğu olmayan şəxslər də, müvafiq şəxslərin ümumi sayının 50 faizindən çox olmamaq şərtilə, özünüməşğulluğa cəlb edilirlər.

Qanunun əsas hədəfi humanizm ruhunu və ədalətlilik prinsiplərini bərqərar etmək və cəmiyyətə aşılamaqdır. Belə ki, sənəddə işsiz şəxslərin özünüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalan şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir.

Nəhayət, bu gün əmək bazarında kifayət qədər ağrılı problem olan qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması sahəsində Qanunda radikal addımlar atılıb, belə ki, bu problemin qarşısının alınmasına dair preventiv tədbirlər görülməsi və risk qiymətləndirilməsi sisteminin müvafiq icra hakimiyyəti orqanları tərəfindən tətbiqi Qanuna əsasən "qeyri-formal məşğulluğa nəzarət"in vahid elektron informasiya ehtiyatı vasitəsilə həyata keçirilir.

Son illərdə qəbul etdiyimiz digər iki qanun da bu baxımdan çox önəmlidir. Yeni iş yerlərinin yaradılması, işsizliyin qarşısının alınması və məşğulluq sisteminin təkmilləşdirilməsi məqsədilə 2017-ci ildə parlamentdə qəbul edilmiş "İşsizlikdən sığorta haqqında" Azərbaycan

Respublikasının Qanunu, habelə ilk dəfə olaraq "İşsizlikdən sığorta fondu"nun yaradılması və büdcəsinin təsdiq edilməsi barədəki hüquqi sənədlər də olduqca əhəmiyyətli olmuşdur. Təkcə fondun bu ildə toplayacağı təxminən doxsan milyon manat vəsaitin otuz beş milyonu özünüməşğulluğa bir o qədəri də işsiz vətəndaşlara kompensasiya ödənişinə yönələcəkdir. [11]

Bu gün müstəqil dövlətimizin uzunmüddətli inkişaf strategiyası ölkəmizi uğurla siyasi və iqtisadi modernləşməyə doğru aparır. Bununla bağlı, Azərbaycan milli mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin və turizm potensialının tanıdılmasına, ölkəmizin dünyanın mədəniyyət və turizm məkanına inteqrasiyasına, milli-mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılmasına xidmət edən bir sıra tədbirlər həyata keçirilmiş, mühüm nəticələrə nail olmuşdur.

Xüsusilə, son illər ərzində ölkəmizdə turizm sahəsində geniş islahat xarakterli tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə ən mühüm tədbirlərdən biri kimi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ni qeyd etmək olar.

Milli Məclisdə artıq konseptual baxımdan birinci oxunuşdan keçmiş "Turizm haqqında" yeni qanun layihəsi qəbul olunduqdan sonra bu sahədə beynəlxalq qanunvericiliyin ən müasir tələblərinə cavab verməklə, yaxın gələcəkdə turizm sektorunun inkişafında təkmil hüquqi bazanı ehtiva edəcək.

Beləliklə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf konsepsiyası ölkəmiz qarşısında böyük perspektivlər açır. Keyfiyyətcə yeni mərhələdə ölkə Prezidenti vətəndaş cəmiyyətinin yaradılmasını, demokratikləşmə prosesinin möhkəmlənməsini Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərt hesab edərək demişdir: "Həm iqtisadi sahədə, həm sosial məsələlərin həlli işində, həm də siyasi islahatların dərinləşməsində Milli Məclis tərəfindən qəbul edilmiş qərarlar xüsusi rol oynayır. Mən çox şadam ki, bizim ölkəmizin inkişafı üçün hakimiyyətin bütün qolları öz töhfələrini verirlər. Siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda, Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq". [2]

Bugünkü reallıqda sürətli iqtisadi inkişaf vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasında əks olunur. Xüsusilə də yoxsulluq səviyyəsinin aşağı salınması və əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən fundamental tədbirlər bu istiqamətdə qarşıya qoyulan məqsədlərin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu siyasətin davamlı xarakter alması üçün dövlətimiz bütün uğurlu vasitələrdən istifadə edir və atılan addımların yaxın gələcəkdə daha çox səmərə verəcəyini artıq indidən proqnozlaşdırmaq olar. Belə ki, hər bir azərbaycanlı ölkədə yürüdülən uğurlu sosial siyasətin bəhrəsini görür.

**Ədəbiyyat:**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyənatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun 1993 - may 1994 / Bakı: Azərnəşr, 1997. 612 s.
2. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağındakı nitqi (19 iyun 2008-ci il). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. Azərbaycan respublikası prezidentinin işlər idarəsinin prezident kitabxanası. 2008, s.168-171
3. Ramiz Mehdiyev XXI əsrdə milli dövlətçilik // Bakı, "Qızıl Şərq Mətbəəsi", 2003. 248 s.
4. Əli Həsənov. Azərbaycanın geosiyasəti // Bakı, "Zərdabi LTD" MMC, 2015. 1056 s.
5. Hadi Rəcəbli. Azərbaycan Respublikasının sosial müdafiə sistemi // Bakı, MBM, 2012, 408 s.
6. Hadi Rəcəbli. Sabitlikdən sosial rifaha // Bakı, "MBM", 2013, 280 s.
7. Azərbaycan Xalq Cümhuriyyətinin quruculları. (portret-oçerklər və məqalələr) // Bakı, "Elm və təhsil", 2018, 248 s.
8. Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər) // Azərbaycan Respublikasının qanunvericilik toplusu. 2005, № 10, maddə 956.
9. http://www.e-qanun.az/framework/39846 // "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu (29.06.2018-ci il; № 1196-VQ)
10. http://www.e-qanun.az/framework/39591 // "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu (31.05.2018-ci il; № 1153-VQ)
11. http://www.e-qanun.az/framework/36310 // "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu (30.06.2017-ci il; № 765-VQ)


***Açar sözlər:*** *Parlament, qanunvericilik, sosial siyasət, məşğulluq, əlilliyi olan şəxslər*

**Adil Valiyev**
*Head of the Sector of Department for Social Legislation,*
*Milli Majlis Administration,*
*Associate Professor, PhD in Political Sciences*

# SOCIAL AND LABOR LEGISLATION AS AN IMPORTANT COMPONENT IN THE LEGISLATIVE SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN

## SUMMARY

Improving people's living standards and working conditions, implementing fair social protection, and regulating interracial and inter-ethnic relations are one of the main objectives of social policy. This is one of the main goals of our state. Today, surely it can be said that the Azerbaijani Model of Social Policy appears to be a progressing and improving one which is based on long-term development and improvement carrying civil and perfect traditions and values of the world.

In the scientific article while looking back to the history of the Social Policy of the Azerbaijan Democratic Republic which gained its independence 100 years ago it is determined that the laws adopted by the Parliament of the Republic were related to social protection and served the interests of the people. National Leader Heydar Aliyev's activities in the social sphere is studied on the basis of theoretical-experimental provisions and the indicated approach enables deeper understanding of its scale and significance.

The article examines and analyzes the problem of refugees and internally displaced persons, the concerns of persons with disabilities, employment of the population and unemployment insurance mechanism which are on the constant spotlight of the President of the Republic of Azerbaijan, Ilham Aliyev.

Furthermore, the recently adopted efficient laws sent to the Milli Majlis by the head of the state as a legislative initiative which is related to the social sphere and meet international standards, are subject to research on the basis of factual materials.

Moreover, the paper justifies the necessity of elaborating new fundamental legal documents in terms of political and legal context in order to give continuous character to successful social policy as well as explores the current situation and perspectives of the mentioned field.

***Key words:*** *Parliament, Legislation, Policy, Employment, Persons with Disabilities, Social Benefits*

**Адиль Велиев**
*Заведуюший сектором отдела по Социальному законодательству*
*Аппарата Милли Меджлиса Азербайджанской Республики,*
*доктор философии по политическим наукам, доцент*

# СОЦИАЛЬНОЕ И ТРУДОВОЕ ЗАКОНОДАТЕЛЬСТВО КАК ВАЖНЫЙ КОМПОНЕНТ ЗАКОНОДАТЕЛЬНОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

Улучшение уровня жизни и условий труда людей, проведение в жизнь справедливой социальной защиты, урегулирование межнациональных и межэтнических отношений - основная задача социальной политики. Именно это является одной из главных целей, стоящих перед нашим государством.

Сегодня с уверенностью можно сказать, что модель социальной политики Азербайджана опирается на долгосрочно развивающуюся и совершенствующуюся модель, основанную на мировых традициях цивилизации и безупречности и мировых ценностей.

В научной статье проводится экскурс в историю обретшей 100 лет назад независимость АДР, подчеркивается, что первые принятые Парламентом республики законы были связаны с социальной защитой и служили интересам народа.

В статье на основе теоретико-экспериментальных положений проводится анализ деятельности общенационального лидера Гейдара Алиева в социальной сфере, что позволяет еще глубже осознать масштаб и значение его личности.

Так же в статье доказательно анализируется постоянное внимание Президента Ильхама Алиева к проблемам беженцев и вынужденных переселенцев, лиц, имеющих инвалидность, занятости населения, регулированию страхования от безработицы. На основе фактологических материалов анализируются направленные главой государства в порядке законодательной инициативы в Милли Меджлис и принятые им законопроекты, относящиеся к социальной сфере и отвечающие требованиям международных норм.

Наряду с этим, в политическом и правовом контексте обосновывается необходимость подготовки новых фундаментальных юридических документов для неуклонного проведения успешной социальной политики.

***Ключевые слова:*** *Парламент, законодательство, социальная политика, занятость, лица, имеющие инвалидность, социальные пособия*

## BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI
## INTERNATIONAL LAW; HUMAN RIGHTS

**СВЕТЛАНА НЕСМЕЯНОВА**
**Директор Института государственного и международного права Уральского государственного юридического университета (Россия)**
**доктор юридических наук, профессор**
*e-mail: nesmeyanova@yandex.ru*

# ДЕПОРТАЦИЯ В НАЦИОНАЛЬНОМ ПРАВЕ (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА И РОССИИ)

Депортация – термин, давно применяемый в международном и национальном праве, но при этом, и сегодня не получивший однозначного понимания в современном правовом регулировании. Прежде всего депортация в современных государствах применяется наравне с такими институтами, как выдворение, экстрадиция, реадмиссия, репатриация и др. Поэтому необходимо четко отличать не только само понятие, но и процедуру осуществления, в частности депортации. Кроме этого необходимо иметь ввиду, что депортация, замененная термином «выдворение», применяется в ряде международных актов, например, таких, как Европейская конвенция о защите прав человека и основных свобод, Международный пакт о гражданских и политических правах, Конвенция о правах и основных свободах человека Содружества Независимых государств и др. Названные акты направлены на обеспечение соблюдения прав и свобод лиц, подлежащих депортации или выдворению. Так, в частности закрепляется запрет высылки любого, кто законно находится на территории государства. Прежде всего подобное ограничение касается граждан страны. В отношении лиц, не имеющих национального гражданства запрещены массовые высылки. При этом, национальным законом могут быть предусмотрены условия, при которых выдворение все-таки допускается (обеспечение государственной безопасности, общественного спокойствия, поддержание общественного порядка, предотвращение преступлений, охрана здоровья или нравственности, защита прав и свобод других лиц). Такие возможности предусмотрены, например, протоколом №4 к Европейкой конвенции. Практика Европейского Суда по правам человека допускает возможность депортации за совершенные преступления («Салем против Дании» от 1 декабря 2016 года [15]), массовой высылки, если в отношении каждого субъекта принималось отдельное решение (дело о репатриации Данией группы вьетнамских детей «Becker против Дании» от 03.10.1975 [13], дело о депортации «Hirsi и другие против Италии» от 22.06.2011 [13] и др. решения). Но при этом, не допускается выдворение лиц, имеющих стойкие семейные отношения в государстве пребывания.

Азербайджанская Республика, защищая свои интересы, установила невозможность изгнания из Республики или выдачу своих граждан иностранному государству (ст. 53 Конституции [8]). В отношении иностранцев и лиц без гражданства не допускается выдача другому государству лиц, преследуемых за свои политические убеждения, а также за деяние, не считающееся преступлением в Азербайджанской Республике (ст. 70). Тем не менее, права этих лиц все-таки могут быть ограничены, но только в соответствии с нормами международного права и законами Республики (ст. 69). Как результат, недавно принятый Миграционный

кодекс Азербайджанской Республики [9] содержит отдельную главу «Выдворение иностранных граждан и лиц без гражданства», которой предусмотрено, что выдворение возможно, как мера уголовного наказания, как мера административного наказания (ст. 78). Кроме этого, выдворение допускается при аннулировании визы или решения о продлении срока временного пребывания, либо разрешения на временное или постоянное проживание, при принятии решения о нежелательности их пребывания на территории Азербайджанской Республики (ст. 79).

Уголовным кодексом Республики [14], при условии запрета на депортацию или принудительное переселение населения (ст. 107), предусмотрено выдворение за пределы Республики (ст. 42). Выдворение, применяемое только к иностранным гражданам и лицам без гражданства, приговоренным к наказанию в виде лишения свободы на срок свыше одного года, и приводится в исполнение после отбывания ими основного наказания, т.е. используется только как дополнительный вид наказания (ст.43). При условии таких ограниченных возможностей применения выдворения, законодатель предусмотрел дополнительные условия. Принудительное выдворение за пределы Азербайджанской Республики не назначается лицам:

– прожившим на территории Азербайджанской Республики пять лет к моменту вступления приговора в законную силу;

– состоящим в браке с гражданином (гражданкой) Азербайджанской Республики к моменту вступления приговора в законную силу;

– родившимся в Азербайджанской Республике;

– одним из родителей которых является гражданин (гражданка) Азербайджанской Республики;

– имеющим статус беженца или получившим политическое убежище в Азербайджанской Республике;

– на иждивении которых находится являющийся гражданином Азербайджанской Республики несовершеннолетний ребенок, недееспособное лицо или инвалид I группы;

– в отношении которых имеются достаточные основания предполагать, что они будут подвергаться пыткам или преследованиям в стране, куда прибудут после выдворения, или принудительное выдворение которых противоречит интересам обеспечения национальной безопасности.

В российском национальном законодательстве рассматриваемым вопросам уделено также значительное внимание, при этом можно констатировать, в отличие от Азербайджанской Республики, использование на законодательном уровне самых разных терминов (депортация, высылка, выдача, выдворение). Прежде всего, Конституция Российской Федерации [10], не применяя термин депортация, допускает возможность выдачи, но только в отношении иностранных граждан и апатридов обвиняемых в совершении преступления, а также для передачи осужденных для отбывания наказания в других государствах (ст. 63), особо обращая внимание, что выдача граждан Российской Федерации другому государству, как и высылка не допускаются (ст. 61). В Федеральном законе «О правовом положении иностранных граждан в Российской Федерации» [4] вводится термин депортация, как принудительная высылка иностранного гражданина из России в случае утраты или прекращения законных оснований для его дальнейшего пребывания (проживания) в Российской Федерации (ст. 2). Однако, в Кодексе об административных правонарушениях [5] кроме основания – принятие решения о нежелательности пребывания (проживания) в Российской Федерации, названа другая причина депортации - принятие решения о неразрешении въезда в Российскую Федерацию. Кроме этого расширен круг субъектов: иностранный

гражданин или лицо без гражданства, не покинувшие территорию Российской Федерации в установленный срок, подлежат депортации (ст. 25.10). Следует обратить внимание, что Кодекс, как и Федеральный закон «О правовом положении иностранных граждан в Российской Федерации» содержит еще и понятие выдворение (ст. 3.10), применяемое также к иностранным гражданам и лицам без гражданства (принудительное или самостоятельное, но контролируемое перемещение указанных лиц через Государственную границу Российской Федерации за пределы страны). В развитие приведенных нормативных положений Федеральный закон "О предупреждении распространения в Российской Федерации заболевания, вызываемого вирусом иммунодефицита человека (ВИЧ-инфекции)" [7] предусматривает, что в случае выявления ВИЧ-инфекции у иностранных граждан и лиц без гражданства, находящихся на территории Российской Федерации, они подлежат депортации из Российской Федерации (ст. 11).

Dənli və dənli paxlalıların istehsalı 1995-ci ildə 1993-cü ilə nisbətən 19.7%, pambıq istehsalı 3.7%, tütün istehsalı 74%, tərəvəz istehsalı 13%, meyvə istehsalı 6.4% azalmışdır. Ət istehsalı 10 min ton, yumurta istehsalı 128.7 milyon ədəd azalmışdır (10, s.89).

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı.

1994-2003-cü illər ərzində ÜDM 90.1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə , ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25.2%, kənd təsərrüfatı istehsalının həcmi 53.9%, xarici ticarət dövriyyəsi 4 dəfə, Əhalinin orta aylıq real əmək haqqı 5.1 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə endi, iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dolları oldu.

Əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı.

Belə bir vəziyyətdə respublikanın kənd təsərrüfatını böhran vəziyyətindən çıxarmaq üçün mövcud istehsal və iqtisadi potensialdan səmərəli istifadə edilməli, spesifik xüsusiyyətlər nəzərə alınmaqla iqtisadi mexanizm təkmilləşdirilməli idi. Bunun üçün aqrar bölmənin bazar münasibətlərinə keçilməsi, köklü islahatların həyata keçirilməsi, müxtəlif təsərrüfat formalarının təşkili və mülkiyyət formalarının təkmilləşdirilməsi, çevik qiymət, vergi və kredit siyasəti, əkinçilik və heyvandarlığın elmi əsaslarla inkişaf etdirilməsi, idarəetmədə iqtisadi amillərə üstünlük verilməsi vacib problem idi.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə ölkənin rəhbəri kimi fəaliyyətə başlayandan sonra aqrar sahənin mövcud problemlərini dərindən təhlil edərək, yaranmış şəraitdə sahənin böhrandan çıxarılmasının yeganə yolunun ancaq köklü aqrar islahatların aparılması yolunu müəyyən etdi.

Məlumdur ki, aqrar-sənaye kompleksi mürəkkəb və çoxsahəlidir. Kənd təsərrüfatı məhsulları istehsalı müəssisələri, emal sənayesi, xidmət qurumları, torpaq fondu və s. üzrə islahatları eyni çərçivədə həyata keçirmək qeyri-mümkündür. Buna görə aqrar-sənaye kompleksinə daxil olan istehsal, emal və xidmət sahələri üzrə ayri-ayrılıqda, torpaq islahatı üçün isə başqa yanaşma tələb olunurdu.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən qətiyyətli səyləri nəticəsində birinci növbədə aqrar və sonra torpaq islahatları aparıldı. 1995-ci ildən aqrar və torpaq islahatına başlandı. İqtisadi islahatların aparılmasının zəruriliyi qərarına gəlinməsi sonradan onun hüquqi bazasının yaradılmasına səbəb oldu. 1995-2004-cü ildə aqrar islahatları tənzimləyən bir çox qanun, fərman, sərəncam, qərar və digər normativ hüquqi aktlar qəbul olundu. “ Aqrar islahatların əsasları haqqında”, “Sovxoz və kolxozların islahatı haqqında” və “ Torpaq islahatı haqqında” qanunlar aqrar islahatların hüquqi bazasının əsasını təşkil etdi (4, 5).

Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar nəticəsində sahədə xüsusi mülkiyyətçilik prinsiplərinin və sərbəst istehsal münasibətlərinin təsbit olunmasl ilə yeni sahibkarlıq fəaliyyətinin əsası qoyuldu. Aqrar sahədə müxtəlif təsərrüfatçılıq formalarının təşkili və müasir tələblərə uyğun istehsal formalarının təşkili və müasir tələblərə uyğun istehsal növü ilə məşğul olmaq üçün imkanlar yaradıldı. Aqrar sahədə bazar münasibətinin, dövlətin aqrar siyasətinin müasir bazar iqtisadiyyatı prinsiplərin uyğunlaşdırılması, sahibkarlığın inkişaf etdirilməsinə hər tərəfli şərait yaradıldı.

Kənd təsərrüfatında aparılan aqrar islahatların birinci mərhələsinin, yəni torpaq və əmlakın özəlləşdirilməsinin başa çatması aqrar sahənin inkişafına səbəb olmuşdur.

2002-ci ildə respublikada 219.7 min ton taxıl, 694.9 min ton kartof, 967.3 min ton tərəvəz, 380.2 min ton bostan məhsulu, 223.6 min ton ət, 1119.8 ton süd, 561.6 min ədəd yumurta, 11.8 min ton yun istehsal edilmişdir. 01 yanvar 2003-cü ilə ölkədə iribuynuzlu malqaranın sayı 2153.0 min baş, davarların sayı 6849.0 min başa çatmışdır.

Məhsul istehsalının artması ölkənin məhsul ixracetmə imkanlarını artırmış, 2002-ci ildə respublikadan 84.0 mln ABŞ dolları məbləğində kənd təsərrüfatı və emal sənayesi məhsulları ixrac edilmişdir. Bu da 2001-ci illə müqayisədə 18.0mln ABŞ dolları çoxdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə 2002-ci ildə Respublikaya daxil olan əsas kənd təsərrüfatı məhsullarının həcmi 2001-ci ilə nisbətən 9.1 mln ABŞ dolları miqdarında azalmışdır (8).

Respublikamızda aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsində Heydər Əliyev misilsiz xidmət göstərmiş və O, bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin həm banisi, həm də təşkilatçısı olmuşdur.

Heydər Əliyev siyasəti Azərbaycanı möhkəmləndirdi və onun uğurlu dinamik inkişafının əsasını qoydu. Bu görkəmli siyasi xadimin zəngin irsi çoxşaxəlidir və bu gündə son dərəcə aktualdır. Ulu Öndər müstəqil Azərbaycan dövlətini yaratmaqla yanaşı, onun işini məharətlə davam və inkişaf etdirən ləyaqətli bir varis də yetirmişdir.

Ümummilli liderin respublikaya rəhbərliyinin 1993-2003-cü illəri əhatə edən ikinci dövründə ölkədə möhkəm ictimai-siyasi sabitlik, qanunçuluğun aliliyinin təmin olunması ilə müstəqilliyin möhkəmləndirilməsinin strateji istiqamətləri müdrik uzaqgörənliklə müəyyənləşdirilərək həyata keçirildi. Azərbaycanın milli iqtisadi inkişaf modeli formalaşdırıldı.

Dahi alman mütəfəkkiri Fridrix Nitşe yazır: “Şəxsiyyətləri tarix yaratmır, şəxsiyyətlər tarixi yaradır”. Bu həqiqət bu gündə öz aktuallığını itirməmişdir.

Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 il müddətin, Azərbaycanın isə Ulu Öndərin simasında özünə tarixi şəxsiyyət, fitri istedada malik rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın xoşbəxtliyinin başlanğıc və dinamik inkişaf tarixi yarandı.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla və sədaqətlə davam etdirərək, onun rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində son dərəcə yüksək nailiyyətlər əldə edilmişdir.

Prezident İlham Əliyev hər şeydən əvvəl çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin – dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir. Bu məktəbdə o, dahi siyasətçidən məğlub edilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmiş, doğma xalqına xidmət etmək üçün atası ilə birlikdə çiyin-çiyinə addımlamış, 15 ildə şərəfli mübarizə yolu keçmişdir. İlham Əliyev əsl vətənpərvər və qurucu lider əzmi ilə xalq qarşısında verdiyi vədlərinə əməli işi ilə doğruldaraq hər bir vətəndaşın layiqlı Prezidentı olduğunu sübuta yetirdi. 15 illik fəaliyyəti ilə xalqın seçimini doğrultmağa qadir, qətiyyətli, peşəkar və milli maraqlara bağlı rəhbər və xalqın sevimlisi olduğuna inam

yaratdı. Bunun bariz sübutu olaraq 11 aprel 2018-ci il Prezident Seçkilərində xalq bu məqamı şəxsi təcrübəsində inamla müəyyən edərək, Heydər Əliyev siyasətinin alternativsizliyini və xalqın İlham Əliyevi dəstəkləməklə ən doğru addım atdığını göstərdi.

Xalq İlham Əliyevə səs verməklə əslində Heydər Əliyev siyasi kursunun davamına, Azərbaycanın dünya birliyində özünə layiqli yer tutaraq söz sahibinə çevrilməsinə, Azərbaycanın Qafqazdakı lider rolunun daha da möhkəmlənməsinə, bütövlükdə Azərbaycanın sürətli və davamlı inkişafının yeni mərhələyə qaldırılmasına, ölkə vətəndaşlarının xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi.

Bu gün ölkəmizin bütün sahələrini əhatə edən dinamik və tarixi nailiyyətlər cəmiyyətdə adi fəaliyyət norması, dünyada isə unikal təcrübə kimi qəbul edilir.

Prezident İlham Əliyev tərəfindən formalaşdırılmış iqtisadi-siyasi model öz həyatiliyini, səmərəliliyini və aktuallığını son 15 ildə parlaq şəkildə nümayiş etdirmişdir. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu müvaffəqiyyətlə davam etdirməklə, dünya siyasəti və diplomatiyasında yüksək peşəkarlıq nümayiş etdirir.

Ulu Öndərin xalqa xidmət missiyasını layiqincə və təşəbbüskarlıqla davam etdirən cənab İlham Əliyevin müəllifi olduğu ölkənin bütün bölgələrinin tarazlı inkişafını, qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının inkişafı prioritet istiqamət olaraq özünü bariz şəkildə göstərir. Uğurlu iqtisadi siyasət qeyri-neft sektorunun sürətli inkişafında öz əksini tapır. Son illərdə ölkənin ÜDM artım tempi 6%, qeyri-neft sektorunun artımı isə təqribən 10% olmuşdur. 2017-ci ildə kənd təsərrüfatı 4,1 % artmışdır.

Bütün bunlar düşünülmüş və məqsədyönlü siyasətin ardıcıl həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Hörmətli Prezident İlham Əliyev ölkənin kənd təsərrüfatını 1982-ci ildə Ulu öndər Heydər Əliyev tərəfindən əldə edilmiş rekord göstəricilərə çatdırmaq məqsədilə Respublikada pambıqçılığın, üzümçülüyün, baramaçılığın, tütünçülüyün, çayçılığın, çəltikçiliyin, fındıqçılığın inkişaf etdirilməsi haqqında bir neçə dövlət proqramları qəbul etmiş, bölgələrdə müşavirələr keçirilmişdir.

Aparılmış uğurlu tədbirlər nəticəsində 2015-ci ildə 35 min ton pambıq yığılmışdırsa, 2017-ci ildə 207 min ton və ya səkkiz dəfə çox, barama tədarükü müvafiq olaraq 200 kq və 275 tona çatdırılmışdır və s. (9).

Ölkədə kənd təsərrüfatının inkişafına innovativ və davamlı münasibət yaradılmışdır. Bunlarla bərabər bölgələrdə optimal əkin strukturunun və məhsul istehsalı həcminin ölkəmizin milli maraqlarına və ərzaq təhlükəsizliyi strategiyasına uyğun müəyyənləşdirilməlidir.

Ölkədə kənd təsərrüfatının inkişafının dayanıqlı və innovativ strateji məqsədlərə çatmaq prioritet sahələrin müasir tələbata cavab verməsini təmin etmək məqsədilə əsas prioritet sahələr: torpaq, toxum, suvarma suyu, gübrə, bitki mühafizəsi, maddi-texniki baza, müasir elmi-texniki nailiyyətlərdən və qabaqcıl təcrübələrdən daha geniş istifadə etmək üçün və bütün bunları nəzərə alan və balanslaşdıran iqtisadi inkişaf modeli hazırlanmalı və icra edilməlidir.

Bu vacib məsələlərdən ən başlıcası bütün maddi nemətlərin mənbəyi, milli sərvətimiz olan torpağa münasibət amili həlledici rol oynayır.

Respublikanın vahid torpaq fondu – 8641 min hektardır. Bunun 4756 min hektarı (55,0%) kənd təsərrüfatına yararlı bundan 1684 min hektarı (35,4%) əkinə yararlı, 163,3 min hektarı (3,4%) çoxillik bitkilər altında olan, 110,7 min hektarı isə biçənək sahələridir.

Kənd təsərrüfatında istifadə olunan torpaqların əsas hissəsini, yəni 2574 min hektarını (54,1 %) yay, qış otlaq və örüş sahələri təşkil edir.

Respublikanın vahid torpaq sahəsinin 3765 min hektarı və ya 45,0%-i kənd təsərrüfatında istifadə edilməyən torpaqlar, bundan 1038 min hektarı və ya 12,0%-i meşə torpaqları, 2849 min hektarı və ya 33,0 %-i kənd təsərrüfatına

az yararlı və şərti yararsız torpaqlardır (15, s.178).

Torpaqların müasir istifadə vəziyyətinin təhlili və Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən kənd təsərrüfatına yararlı torpaq sahəsinin 565511 hektarı və ya 12,5%-i müxtəlif dərəcədə şorlaşmış, 42500 hektarı və ya 7,5%-i isə şoran torpaqlardır. Müxtəlif dərəcədə şorakətləşmiş torpaq sahələri isə 508270 hektar və ya 11,2% təşkil edir.

Torpaq fondunun 3,5 milyon hektarı müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardır.

Məlum olduğu kimi, şoran və şorakət torpaqlar qeyri-münbit torpaqlar hesab olunur. Bu torpaqlardan yalnız kompleks aqromeliorativ tədbirlər aparılmaqla keyfiyyəti yaxşılaşdırıldıqdan sonra istifadə oluna bilər.

Kənd təsərrüfatına yararlı torpaq sahəsinin 1493 min hektarı və ya 29,9%-i suvarma suyu ilə təmin olunmuş, 3341 min hektarı və ya 70,1%-i dəmyə şəraitində istifadə olunur.

Dövlət mülkiyyətində olan torpaqların 13,8%-i, bələdiyyə mülkiyyətinə verilən torpaqların 6,7%-i, özəlləşən xüsusi mükiyyətə verilən və həyətyanı torpaqların isə 79,5%-i suvarılan torpaqlardır.

Eroziya, şorlaşma, şorakətləşmə və digər amillərin milli sərvətimiz olan torpaq üçün nə qədər ciddi problemlər yaratdığı məlumdur.

Bu problemlərin qarşısını almaq məqsədilə hörmətli prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət proqramında eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi və yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verilmişdir (10; 15, s.74,115).

Ölkənin regionlarının spesifik xüsusiyyətlərinə uyğun torpağın rekultivasiyası, kompleks arqomeliorativ tədbirlərin aparılması və münbitliyinin artırılması, bitkilərin vegetasiya dövründə suvarma suyu ilə fasiləsiz olaraq təmin edilməsi vacib və təxirəsalınmaz məsələlərdir. Çox təəssüf ki, bugün həmin problemlərin həlli öz əksini lazımınca tapmamışdır.

Ata-babalardan qalmış belə bir kəlam var: "Torpaq deyər öldür məni, dirildim səni."

Regionların spesifik xüsusiyyətlərinə uyğun becərilən hər bir bitkinin özünəməxsus qida maddələrinə tələbatı var. Torpaqda olan və bitkilər tərəfindən mənimsənilən əsas qida maddələrinə bitkilərin vegetasiya müddətində tələbatının ödənilməsini bilmədən mineral gübrələrdən istifadə edilməsi effekt verməz.

Bunun üçün birinci növbədə torpaqda olan əsas qida maddələrinin (mənimsənilən azotun, fosforun, kaliumun) ehtiyatı və becərilən bitkilərin bu qida maddələrinə tələbatını müəyyənləşdirdikdən sonra hektara veriləcək gübrələrin verilmə üsulları, müddətləri və normaları dəqiqləşdirilməlidir. Bunun üçün hər regionun qida maddələri ilə təmin olunma kartoqrammaları və bonitirovka xəritələri hazırlanmalıdır. Əks halda hər il respublikaya 99,7 milyon manat dəyərində 257919 ton miqdarında gətirilən və güzəştli qiymətlərlə torpaq istifadəçilərinə verilən mineral gübrələrin səmərəliliyi tələb olunan səviyyədə olmayacaqdır.

Respublikanın əsasən fosfor və kalium mineral gübrələrinə olan tələbatının ödənilməsi üçün Sumqayıt fosfor və kalium gübrəsi istehsal edən Gəncə alüminium zavodlarının fəaliyyətlərinin bərpa olunması vacibdir. Bu da hər il xaricə valyuta axınının qarşısını alar, daimi iş yerləri yaranar və torpaq istifadəçilərinin gübrəyə olan tələbatı fasiləsiz təmin olunar.

Toxumçuluq kənd təsərrüfatının ən mühüm sahəsidir. Uzun illərdən aparılmış elmi araşdırmalar və təcrübələr göstərmişdir ki, düzgün qurulmuş toxumçuluq sistemində yetişdirilmiş yüksək keyfiyyətli toxumlarla əkin, səpin aparıldığı və aqrotexniki tədbirlərin düzgün həyata keçirildiyi şəraitdə becərilən bitkilərin məhsuldarlığının azı 20-30% artmasına səbəb olur.

Respublikada aqrar-torpaq islahatına qədər dövlət toxumçuluq təsərrüfatlarında ildə 80-100 min ton yüksək reproduksiyalı rayonlaşdırılmış taxıl sortlarının toxumu istehsal edilirdi. Bundan əlavə SSRİ-nin əsas toxum-

çuluq bölgələrindən 25-30 min ton toxum gətirilirdi. Respublikada taxıl istehsal edən təsərrüfatların tələbatı rayonlaşdırılmış, yüksək reproduksiyalı toxumla tam təmin olunurdu (10, 14).

1969-cu ildən sonra Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və uzaqgörən, məqsədyönlü fəaliyyəti ilə kənd təsərrüfatının bütün sahələrinə, o cümlədən pambıqçılığın, tərəvəzçiliyin, bostançılığın və kartofçuluğun kökündən dəyişdirilməsinə və bu bitkilərin toxumçuluğunun yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmiş və bu sahədə çalışan alimlərdən toxumçuluğun yaxşılaşdırılmasını tələb etmişdir. Tezliklə respublikada 8 ixtisaslaşdırılmış tərəvəz-toxumçuluq sovxozu yaradıldı, kartofçuluq üçün əlverişli torpaq-iqlim şəraitinə malik olan Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz və Qusar rayonlarının təsərrüfatları ixtisaslaşdırıldı, tərəvəz, bostan və kartof toxumçuluğunun yaxşılaşdırılması və respublikanın təsərrüfatlarının rayonlaşdırılmış və yüksək reproduksiyalı toxumla təmin edilməsi üçün əməli tədbirlər görüldü. Respublikanın tərəvəz, bostan və kartof toxumlarına olan tələbatı demək olar ki, tamamilə ödənildi.

Bunun nəticəsi olaraq 1982-ci ildə 1969-cu ilə nisbətən dənli bitkilərin məhsuldarlığı 2,6 dəfə, pambığın məhsuldarlığı 2,4 dəfə, üzümün məhsuldarlığı 2,3 dəfə, tərəvəzin məhsuldarlığı 5,2 dəfə, bostan bitkilərinin məhsuldarlığı 3,8 dəfə və kartofun məhsuldarlığı 2,6 dəfə artmışdır, tərəvəz istehsalı bir milyon tona çatmışdır.

Respublikada aparılmış aqrar-torpaq islahatı zamanı toxumçuluq, tingçilik və damazlıq təsərrüfatlarının özəlləşdirilməməsinin nəzərdə tutulmasına baxmayaraq, 2006-cı il tarixə 41 təsərrüfat toxumçuluq, tingçilik və damazlıq məqsədi ilə dövlət mülkiyyətində saxlanılmış və dövlət kənd təsərrüfatı istehsal müəssisəsinə çevrilmişdir. Bugün onların da fəaliyyətləri ölkənin müasir tələbatına tam cavab vermir.

Toxumçuluq, tingçilik, damazlıq təsərrüfatları məhsuldarlığın artırılmasında, keyfiyyətinin yüksəldilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında xüsusi əhəmiyyətə malikdir. Bu təsərrüfatlar yalnız dövlətin nəzarətində saxlanmalıdır.

Ölkədə dənli və dənli-paxlalı bitkilərin toxumçuluğunda müəyyən irəliləyiş olsa da, ümumilikdə pambıqçılıq, tərəvəz, bostan, kartof və yem bitkilərinin toxumçuluğunda, habelə tingçilik sahəsində xeyli həllini gözləyən problemlər mövcuddur.

Aqrar islahatla əlaqədar ixtisaslaşdırılmış toxumçuluq təsərrüfatları ləğv edilmiş, eyni zamanda dövlət toxumçuluq təsərrüfatlarının əkin sahəsi 73 min hektardan, 10,8 hektara endirilmiş, elmi-tədqiqat institutlarının təcrübə təsərrüfatlarında 6,8 min hektar torpaq sahəsi qalmışdır.

Hazırda respublikada 650 özəl və cəmi 20 dövlət toxumçuluq və tingçilik təsərrüfatı fəaliyyət göstərir (10, s.72,107).

Təhlillər göstərir ki, bir çox hallarda özəl təsərrüfatlarda istehsal olunan toxumlar tələbatı ödəmir. Fermerlər və başqa torpaq istifadəçiləri özlərinin istehsal etdiyi və kənardan aldığı sortu və keyfiyyəti məlum olmayan, standartlara cavab verməyən toxumlarla səpin aparırlar. Bu da məhsuldarlığın azalmasına, xəstəlik və zərərvericilərə tez tutulmasına, istehsal edilən məhsulun keyfiyyətinin, qidalıq dərəcəsinin aşağı düşməsinə səbəb olur.

Respublikada istehsal olunan və kənardan gətirilən bütün növ toxumlar Dövlət Komissiyasının yerlərdəki sort-sınaq məntəqələrində ən azı 3 il müddətində sınaqdan keçirilərək, bitkinin torpaq-iqlim şəraitinə, qida maddələrinə tələbatı, xəstəlik və zərərvericilərə qarşı davamlılığı öyrənildikdən sonra həmin zonada geniş sahələrdə əkilməsinə rəsmi icazə verilməlidir.

Ölkədə qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının inkişaf etdirilməsi üçün məhsuldarlığın artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına təsir edən ən vacib amil müasir tələblərə cavab verən toxumçuluq sisteminin yaradılmasıdır. Ərzaq bolluğunun təmin edilməsində toxumçuluğun inkişaf etdirilməsinin əhəmiyyətini nəzərə alaraq “To-

xumçuluq haqqında" qanuna əlavələr və dəyişikliklər edilməlidir.

Heyvandarlıqda son illərə nisbətən müəyyən irəliləyişlərin olmasına baxmayaraq, ölkədə ət və süd istehsalı sahəsində tələbatın tam ödənilməsi baxımından hələlik gerilik mövcuddur.

Heyvandarlıqda geriliyin aradan qaldırılması üçün naxırda cins mal-qaranın (inəklərin) sayının artırılması, onun cins tərkibinin dəyişdirilməsi, istehsal olunan ət və süd məhsullarının keyfiyyətinin yaxşılaşdırılması və onun əhalinin istehsalına verilməsi ən əsas vəzifələrdən biridir.

Lakin, hazırda emal müəssisələrinin gücü əhalinin artan tələbatını ödəmir. Süd emalı müəssisələrinin kifayət qədər olmamasına görə hər il ən azı 286min ton süd keyfiyyətini itirir. Kəsilmiş ətin 80 faizi və ya 140 min tonu sənaye üsulu ilə emal edilmədən satılır. İstehsal olunan südün yalnız 21.4 faizi və ya 300 min tonu sənaye üsulu ilə emal edilirki, bu da əhalinin kərə yağına, pendirə, kəsmiyə və xamaya olan ehtiyacının böyük hissəsinin idxal hesabına ödənilməsinə gətirib çıxarır.

Bundan başqa ölkədə yun və dəri tədarükü və emalı ilə məşğul olunmadığından yüz min tonlarla yun və dəri hər il atılır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən ildə hər inək və camışdan sağılan südün 1132 kq olması onu göstərir ki, mal-qara arasında damazlıq işi də tələb olunan səviyyədə aparılmır, qısırlığa qarşı mübarizə işi zəif həyata keçirilir (6, 9).

Cənubi Qafqazda ilk dəfə olaraq, Azərbaycanda akademik F.Ə.Məlikov adına Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunun nəzdində Respublika Süni Mayalanma Mərkəzi yaradılmış və beynəlxalq standartlar səviyyəsində maddi texniki bazası qurulmuşdur (11, s.158).

Akademik E.Bəşirovun və başqa Azərbaycan alimlərinin elmi və təcrübəsinin əsasında Çili, Hindistan, Əlcəzair, Fransa Bolqarıstan, İtaliya, Əfqanıstan və başqa ölkələrin damazlıq-heyvandarlıq və "Bəşirov" metodu ilə süni mayalanma sistemləri qurulmuşdur (12, s.3).

Ölkəmizdə də belə sistemlərdən istifadə edilməsinə üstünlük verilməlidir. Respublika prezidentinin "Kən təsərrüfatı məhsulları istehsalçılarının damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" 2009-cu il 28 dekabr tarixli sərəncamının icrası ilə əlaqədar Avstriya və Almaniyadan 902 baş cins damazlıq heyvanların gətirilməsi müsbət haldır.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" 2008-ci il 21 avqust tarixli 3000 nömrəli sərəncamına müvafiq olaraq buğda istehsalçılarına "Aqrolizinq" ASC tərəfindən 70 faiz güzəştlə 9215 ton superfosfat gübrəsi satılmışdır. Bu məqsədlə "Aqrolizinq" ASC-nə 25 milyon manat vəsait ayrılmışdır(10. s-72,107).

Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaqla təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədi ilə Cənab İlham Əliyev tərəfindən "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" nın təsdiq edilməsi barədə 25 avqust 2008-ci il tarixli 3004 nömrəli sərəncam imzalamışdır.

Göstərilən başlıca və mühüm vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrukturunun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə yönəldiləcəkdir.

Bu strateji məqsədlərin davamı olaraq, ölkə prezidenti tərəfindən aqrar elmin maddi-texniki bazasının möhkəmləndirilməsi və kənd təsərrüfatının müxtəlif sahələri üzrə elmi- fundamental araşdırmaların təşkili məqsədilə artıq tədbirlər görülməkdədir. Bu barədə Cənab Prezident 2011-ci il 3 may tarixdə "Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı xüsusi komissiyanın yaradılması barədə" sərəncam imzalamışdır.

Göstərilən başlıca və mühüm vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək

kompleks tədbirlər ölkədə sabit, səmərəli istehsal, emal, satış və nəzarət sisteminin təkmilləşdirilməsinə yönəldiləcəkdir.

Qəbul edilmiş dövlət planlarının hədəf göstəricilərinin yerinə yetirilməsi istiqamətində aşağıdakı konkret kompleks işlər həyata keçirilməlidir:

– Kənd təsərrüfat nəhsullarının istehsalının yeganə və əvəz olunmayan milli sərvətimiz torpaqlardan səmərəli və təyinatı üzrə istifadəsinin təmin edilməsi əsas şərtdir. Bunun üçün müxtəlif səbəblərdən deqradasiyaya uğramış (şoran, şorəkət, erroziya, bataqlanmış və s.) torpaqların keyfiyyətinin yaxşılaşdırılması məqsədilə kompleks aqromeliorativ tədbirlər planı hazırlanıb yerinə yetirilməlidir. Şərti yararsız və az yararlı torpaqların mütərəqqi üsullarla münbitliyini artırmaq və məhsul istehsalı dövriyyəsinə cəlb edilməlidir. Əkinə yararlı torpaqların yalnız təyinatı üzrə istifadəsi təmin edilməlidir. İslahat vaxtı əhaliyə verilmiş pay torpaqlarında kompleks aqromeliorativ və aqrotexniki tədbirləri həyata keçirmək və torpaqlardan səmərəli və təyinatı üzrə istifadəsini təmin etmək məqsədilə həmin pay torpaqlarında formalaşmış xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında iri kənd təsərrüfatı kəndli fermer və kooperasiyalarda birləşdirilməsi məqsədə uyğun olardı.

Yay və qış otlaqlarının məhsuldarlığının bərpa olunması üçün əlavə tədbirlər görülməlidir və yalnız təyinatı üzrə istifadə edilməlidir.

– Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı əsasən suvarılan torpaqlarda cəmləşmişdir. Pambıq, üzüm, çay, tütün, tərəvəz-bostan, intensiv meyvə bağları və s. gəlirli bitkilər tamamilə suvarılan torpaqlarda becərilir.

Azərbaycan arid zonada yerləşdiyindən onun su ehtiyatı məhduddur. Azərbaycanda irili-xırdalı 8350 çay vardır. Onların ən böyüyü Kür və Arazdır. Ölkənin yerüstü su ehtiyatları 32.2 milyard kub metr, quraqlıq illərdə isə 22.6 milyard kub metrə qədər azalır. Ölkənin su ehtiyatlarının yalnız 10 milyard kub metri və ya 30%-öz ərazimizdə, qalan 70%-i isə qonşu ölkələrin ərazisində formalaşır.

Son hesablamalara görə respublikada bütün su mənbələrindən orta hesabla 10-14 milyard kub metr su götürülür. Bunun 3-11 mil kub metri (80-92%) kənd təsərrüfatı, 0.6-2.0 mil.kub metri (6-14%) sənaye müəssisələri, 0.4-0.5 mil.kub metri (3.5-4%) mənzil-kommunal təsərrüfatı, qalan hissəsi isə digər təsərrüfat sahələrində istifadə edilir. Əkin sahələrinin suvarılmasında və içməli-məişət məqsədlərində yeraltı sulardan istifadə edilir. Bu məqsədlə ölkə ərazisində 7200-dən çox subartezian quyusu qazılıb istifadəyə verilmişdir (10, s.65).

Respublikada heyvandarlığın, xüsusən qoyunçuluğun inkişafı üçün 1025 min hektarı əhatə edən qış otlaqlarının su təminatı yaradılmasına baxmayaraq, hazırda suvarma sistemi tamamilə dağıdılmışdır. Qış otlaqlarının su təminatının bərpası və yenidən qurulmasına ehtiyac var.

Ümumiyyətlə ölkədə olan mövcud vəziyyətin təhlili göstərir ki, əksər əkinçilik rayonlarında becərilən və dövlət proqramlarına əsasən prioritet sayılan pambıq, çay, tütün, üzüm, tərəvəz, bostan və cavan meyvə bağlarının vegetasiya dövründə tələb olunan vaxtda və normada suvarma suyu ilə lazımı dərəcədə təmin edilmir.

– Toxumçuluq və tingçilik kənd təsərrüfatının ən mühüm sahələrindəndir. Burada əsas məqsəd Respublikanın torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış, xəstəlik və zərərvericilərə qarşı davamlı, Dövlət standartlarının tələblərinə tam cavab verən toxum və tinq istehsal edib, Respublikanın tələbatını ödəməkdir. Bu günkü vəziyyətin təhlili göstərir ki, ölkədə toxumçuluq və tinqçilik sahəsində xeyli problemlər var və onlar həll olunmalıdır. Bunun üçün toxumçuluq və tinqçilik sistemi əvvəlki vəziyyətinə qaytarılmalı və dövlət nəzarətində olmalıdır. Şəxsi və özəl təsərrüfatlarda yetişdirilən və sertifikaslaşdırılmış toxumlar Dövlət standartlarına tam cavab verməklə taxıl, pambıq, tərəvəz, bostan, kartof, tütün və başqa bitkilərin istehsalının dayanıqlı və qəbul edilmiş Dövlət proqramlarının yerinə yetirilməsinin tələblərinə cavab verə bilsin. Bu

sahədə əlaqədar elmi-tədqiqat institutlarının fəaliyyətləri artırılmalıdır. Onlar yeni sortların alınması və istehsalata tətbiq edilməsi haqda müasir tələbata cavab verən təkliflər verməlidirlər.

– Optimal əkin strukturunun və kənd təsərrüfatı məhsulları istehsalı həmçinin ölkəmizin milli maraqlarına və ərzaq təhlükəsizliyi strategiyasına uyğun müəyyənləşdirilmiş prioritetləri ciddi şəkildə öyrənilməlidir. Bu sahədə alimlərimizin yeni bitki sortları və başqa ölkələrdən gətirilmiş yeni məhsuldar sortların sınaqdan keçirilməsi və rayonlaşdırıması işləri genişləndirilməlidir.

– Respublikada heyvandarlığın və yem bazasının inkişaf etdirilməsi stimullaşdırılmalıdır. Ətlik və südlük mal-qaranın baş sayı optimal həddə çatdırılmalıdır, genetik ehtiyatlar qorunub saxlanmalıdır. Rayonlarda mal-qaranın kütləvi qırılmasının səbəbləri müəyyənləşdirilməli, xəstəliklərə qarşı müalicə-profilaktika vasitələrinin keyfiyyəti öyrənilməli, Dövlət baytarlıq xidmətinin və Dövlət damazlıq təsərrüfatlarının işlərinə ciddi nəzarət olunmalı, süni mayalanmanı genişləndirməli, yem bitkilərinin – yonca, silosluq qarğıdalı, yem çuğunduru və başqa yem bitkilərinin əkin sahələri genişləndirilməli, yay və qış otlaqlarının məhsuldarlığı bərpa olunaraq, təyinatı üzrə istifadəsinə əməl olunmalıdır.

– Məhsuldarlığın artırılması zərərli orqanizmlərə qarşı kompleks tədbirlərin vaxtında və səmərəli aparılmasından çox asılıdır. Kənd təsərrüfatı bitkilərinin xəstəlik və zərərvericilərdən, alaq otlarından qorunması üçün aqrotexniki, fiziki, mexaniki, bioloji, kimtəvi və karantin tədbirlərinin vaxtında, ardıcıl və məqsədyönlü aparılmalıdır.

Uzun illər ölkə ərazisində bitki örtüyünə ziyan vuran Amerika ağ kəpənəyinə , kolorado kartof böcəyinə, mərakeş çəyirtkəsinə, siçanabənzər gəmiricilərə və digər karantin və xüsusi təhlükəli zərərli orqanizmlərə qarşı səmərəli mübarizə tədbirləri aparilmalıdır.

– Respublikada qarışıq və quş yemi istehsal edən yeganə Giləzi yem zavodunun fəaliyyəti bərpa olunmalıdır.

– Ölkədə meyvə, tərəvəz, çay, üzüm, tütün məhsullarının istehsalının rekord səviyyəyə çatdırılacağını nəzərə alaraq konserv zavodlarının, püre sexlərinin, çay, tütün fabriklərinin, şərab zavodlarının fəaliyyətləri müasir standartlara cavab verməklə bərpa edilməsi məqsədə uyğundur.

– Regionlarda kiçik emal müəssisələrinin, xüsusi ət , süd, meyvə-tərəvəz, yun, dəri və s. tədarük məntəqələrinin yaradılması məqsədə uyğundur. Burada məhsul itkisinin qarşısı alınar və yeni iş yerləri yaradılar.

– Aqrar sahə üçün yeni şəraitə uyğun müxtəlif ixtisaslı mütəxəssislər hazırlanmasına, ixtisasların təkmilləşdirilməsinə və peşə səviyyəsinin artırılması üçün ciddi tədbirlər hazırlanmalı və həyata keçirilməlidir.

Dövlət proqramının yerinə yetirilməsi ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin, əlaqədar dövlət və özəl təşkilatların, elmi tədqiqat institutlarının üzərlərinə düşən vəzifələr vaxtında, səmərəli və keyfiyyətlə yerinə yetirilməlidir.

Görülmüş və görüləcək işlər haqqında hesabatlar məlumat və arayış xarakterli yox, əsl real vəziyyəti əks etdirməlidir.

Cənab Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafına yönəldilmiş ardıcıl tədbirləri aqrar sahədə idarə edən, çalışan mütəxəssislər, alim və sahibkarlar qarşısında çox məsuliyyətli və şərəfli vəzifələr qoymuşdur. Bu vəzifələrin yerinə yetirilməsinə əməli və konkret işlə cavab vermək məqamı çatmışdır.

Ölkənin aqrar sənaye kompleksinin davamlı inkişaf etdirilməsinə, əhalinin rifahının daha da yaxşılaşdırılmasına göstərilən qayğı bizdə bir daha əminlik yaradır ki, Ulu Öndər Heydər Əliyevin bənzərsiz aqrar islahatları zaman keçdikcə daha yüksək nəticələr verəcək, Azərbaycan kəndini firavanlığa qovuşduracaqdır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009-cu il.
2. İlham Əliyev – Nazirlər Kabinetində 2017-ci ilin yekunlarının müzakirəsindəki cıxışı.
3. Azərbaycan Respublikası Prezidentin 21 avqust 2008-ci il tarixli 3000 nömrəli sərəncamı.
4. “Torpaq islahat haqqında” Azərbaycan Respublikasının Qanunu(16 iyul 1996, №155-İQ)
5. “Aqrar islahat haqqında” Azərbaycan Respublikasının Qanunu (18 fevral 1995-ci il, №976).
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi - Azərbaycan kənd təsərrufatı, Bakı, 2010
7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020:Gələcəyə Baxış” İnkişaf Konsepsiyası.
8. Dövlət Statistika Komitəsi - Azərbaycanın statistik göstəriciləri. Bakı, 2012.
9. Dövlət Statistika Komitəsi - Azərbaycanın statistik göstəriciləri. Bakı, 2017.
10. Abasov İ. Azərbaycanın kənd təsərrüfatı, Bakı: Elm və təhsil, 2010.
11. Əliyev Ş. İlham Əliyev və kənd təsərrüfatı elmi-praktik konfransın materialları. Sumqayıt, 2011-ci il.
12. Bəşirov E.B. Kənd təsərrfüfatı heyvanların süni mayalandırılması. Bakı: Adiloğlu, 2013.
13. İbrahimov İ.A. Heydər Əliyevin aqrar islahatlarının nailiyyətləri. Dövlət İdarəçiliyi. Bakı, 2016
14. Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: Elm, 2006.
15. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatlarının səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı: Elm, 2007.
16. Mircavadov S. Suvarılan torpaqların şorlaşması ilə mübarizə. Bakı, 1984.
17. Zeynallı Ə. Azərbaycanın kənd təsərrüfatı coqrafiyasının müasir problemləri. Bakı: Elm, 2005.


***Acar sözlər:*** *Məhsul, istehsal, tədarük, torpaq, su, gübrə, pambıq, çay, barama, üzüm*

**Ibrahimkhalil Ibrahimov**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate professor of the Department of Public Administration and Management, PhD in Agricultural Sciences*

## THE PAST, PRESENT AND FUTURE SITUATION OF THE MANAGEMENT OF AGRICULTURE IN AZERBAIJAN

### SUMMARY

The reasons of the recession in the development of Azerbaijan non-oil sector were analyzed and state measures for their elimination were prepared and implemented as a result of the great life experience and demand of the national leader HAydar Aliyev and his worthy follower, the esteemed incumbent President Ilham Aliyev.

The national leader of Azerbaijan Haydar Aliyev defined the forms and ways of using land resources-the indispensable wealth of our people, proved the possibility of rapid development of agriculture in Azerbaijan.

Over the past 15 years, the rationality and relevance of the model of the country's political and economic development worked out by President Ilham Aliyev, has been brilliantly confirmed. In recent years, GDP growth rates have been 6%, while the numbers for the non-oil sector have been 10%. In 2017, the growth rate in agriculture was 4.1%.

All these success turn into reality due to the implementation of a deliberate and purposeful coherent policy.

***Key words:*** *product, production, supply, land, water, fertilizer, cotton, tea, cocoon, grape*

**Ибрагимхалил Ибрагимов**
*Доцент кафедры Государственного управления и менеджмента*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по сельскохозяйственным наукам*

# УПРАВЛЕНИЕ СЕЛЬСКИМ ХОЗЯЙСТВОМ АЗЕРБАЙДЖАНА В ПРОШЛОМ, НАСТОЯЩЕМ И В БУДУЩЕМ

## РЕЗЮМЕ

В результате огромного жизненного опыта и требовательности общенационального лидера Гейдара Алиева и его достойного преемника, многоуважаемого Президента Ильхама Алиева были проанализированы возникшие в развитии ненефтяного сектора причины упадка, подготовлены и претворены в жизнь государственные меры по их устранению.

Общенациональный лидер Гейдар Алиев определил формы и способы использования земельных ресурсов – незаменимого богатства нашего народа, доказал возможность ускоренного развития сельского хозяйства в Азербайджане.

Модель политико-экономического развития страны, разработанная Президентом Ильхамом Алиевым, за 15 лет блестяще продемонстрировала свою рациональность и актуальность. В последние годы темпы роста ВВП в стране составили 6%, в ненефтяном секторе 10%, в 2017 году темпы роста в сельском хозяйстве составили 4,1%.

Всё это стало возможным в результате последовательного осуществления продуманной и целенаправленной политики.

***Ключевые слова:*** *продукция, производство, закупка, земля, вода, удобрение, хлопок, чай, кокон, виноград*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

**GÜNAY PİRİYEVA**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Humanitar fənlər kafedrasının dosenti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru**
*e-mail: gunay75piriyeva@gmail.com*

## QƏRB VƏ ŞƏRQ MƏDƏNİ ƏNƏNƏLƏRİNDƏ TOLERANTLIQ İDEYASININ TƏCƏSSÜMÜ

XX əsrin sonu XXI əsrin əvvəlində bəşəriyyət cəmiyyətin sürətli inkişafının heç də birmənalı olmayan nəticələri ilə üzləşməkdədir. Keçmişin bir çox mütəfəkkir və alimlərin iddialarına görə bu inkişaf şübhəsiz ümumdünya birliyinə və müxtəlif mədəniyyətlərin harmoniyasına aparan bir yoldur, lakin reallıq bizə bunun tam əksini nümayiş etdirir. Bu gün dünyada qloballaşma prosesi nəticəsində ayrı-ayrı dövlətlərin xalqlarının və sərhədlərinin vahid, ziddiyyətli bir cəmiyyətə transformasiyası baş verməkdədir. Bir tərəfdən qloballaşma sosial təcrübələrin transmilli formalarının inkişafına yol açır, digər tərəfdən isə, ictimai münasibətlərin qlobal səviyyəyə çatan bir vaxtda, lokal muxtariyyətdə və regional mədəni identiklikdə də tələbatın artması ilə müşahidə olunmaqdadır. Beləliklə, qloballaşma sosial təcrübələrin qlobal və lokal ölçülərinin mürəkkəb qarşılıqlı əlaqəsidir, üstəlik, heç də birmənalı proses olmadığı üçün, müxtəlif cür münaqişələrin, ayrı-seçkiliyin və bərabərsizliyin yeni formalarını yarada bilər. Təsadüfi deyil ki, tanınmış ingilis sosioloqu E.Qiddens hələ XX əsrin sonlarında yoxsulluqla zənginlik arasında tarazlığın, həmçinin istər siyasi inteqrasiyanın, istərsə də millətlər və regionlar arasında həmrəyliyin olmadığını və bunun da özü-özlüyündə beynəlxalq gərginliyin artmasına səbəb olduğunu nəzərdə tutaraq, müasir qlobal sistemi "qurama yorğana" ("patchwork quilt" – Giddens A.) bənzədir [23 s.389-390].

Obyektiv səbəblərin nəticəsi olaraq, miqrasiya prosesləri güclənir, sərhədlər açılır, vahid ünsiyyət dili ilə ortaq əxlaq prinsiplərinin müəyyən olunmasına zərurət yaranır ki, bu isə öz növbəsində müxtəlif dini inanclara və mədəniyyətlərə sahib olan xalqların sülh və əmin-amanlıq şəraitində yaşamasına imkan yaratmalıdır. Ancaq təəssüflər olsun ki, çağdaş dünyada beynəlxalq və etnoslararası gərginlik gündən günə artır, hərbi münaqişələr və müharibələr, terror müasirliyin ayrılmaz əlamətinə çevrilir.

Məlum olduğu kimi müasir dünya fərdilik və unikallıq istiqamətində irəliləyir. Keçmiş dövrlərdə qəbilə, cəmiyyət, dövlət və s. naminə yaşamış insan bu gün daha çox özü dəyər kimi cıxış edir. O, ilk növbədə, öz aləmində və özü üçün mövcuddur; makrososiuma meyllilik mikrososiuma, Şəxsiyyətin özünün kainatına istiqamətləndirilib. İnsanın hüquq və azadlıqlarının bərqərar olması, dövlət idarəçiliyinin liberallaşdırılması, ənənədən, dini, fəlsəfi, elmi, mədəni paradiqmalardan azadolma – bütün bunlar normativ təlimatlardan, davranış və təfəkkür stereotiplərindən imtina etmiş müasir dövrlə həmahənglik təşkil edir. Eyni zamanda fərdi, şəxsi kultu qaçılmaz surətdə başqasına, özgəsinə demokratik, liberal münasibətin zərurətini doğurur. Ənənəviçilik dövründən modern, sonra da postmodern cəmiyyət dövrünə keçidlə fərdi həyat təmayüllərinin mühüm rol oynadığı yeni dəyərlər sistemi formalaşdı. Artıq subyektin ənənəvi

inanclarla ümumbəşəri dəyərlərin qəbul edib-etməməsi cəmiyyətin təzyiqindən deyil, özünün şəxsi niyyət və məqsədlərindən asılıdır.

Müasir dövrdə dünyada təxminən197 dövlət və 3-4 minə yaxın etnos vardır. Bu dövlətlərin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcud olduğuna görə də mədəniyyətlərin qarşılıqlı təsiri və əlaqəsi problemi bütün çoxmədəniyyətli cəmiyyətlərə xasdır. Danılmaz faktdır ki, Yer kürəsində yaşayan insanlar fərqli-fərqli mədəni, dini, etnik, tarixi dəyərlərin daşıyıcılarıdırlar, lakin bunlarla yanaşı zamanı və məkanı aşan, sülhü və xeyirxahlığı təbliğ edən ümumbəşəri dəyərlər də mövcuddur. Avropada, Yaxın Şərqdə gedən proseslər onu göstərir ki, dünya sivilizasiyasının bünövrəsini təşkil edən, millətlərarası münasibətlərə çox ciddi təsir göstərən qarşılıqlı hörmət prinsipi artıq aradan götürülübdür. Məhz bu səbəbdəndir ki, müasir dövrdə cəmiyyətin sosial və mədəni müxtəlifliyinin artması şəraitində tolerantlıq problemi daha da aktuallaşır. Bu gün artıq elə bir dövrün vaxtı gəlib çatıbdır ki, toleranlıq adlanan ünsiyyət və kommunikasiya prinsipi əksəriyyət üçün normaya çevrilməlidir, əks halda bəşəriyyətin Yer kürəsində həyatda qalması mümkün olmayacaqdır.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin preambulasında tolerantlıq belə izah olunur: "dözümlülük göstərmək, mehriban qonşular kimi bir-birimizlə sülh içində və birlikdə yaşamaq"[31]. UNESCO Baş Məclisinin 16 noyabr 1995-ci ildə qəbul etdiyi "Dözümlülük (Tolerantlıq) Prinsipiləri haqqında Bəyannamə" isə dünyada sülhun genişlənməsi, xalqların iqtisadi və sosial rifahının təmin olunması üçün tolerantlıq prinsiplərinin vacibliyini elan edir. Bəyannamənin 1-ci maddəsində göstərilir: "Dözümlülük (tolerantlıq) dünyamızın zəngin, rəngarəng mədəniyyətlərinin, insan fəaliyyətinin özünü ifadəetmə və büruzəvermə formalarının qəbulu, düzgün dərki və onlara hörmət deməkdir. Ona bilik, aşkarlıq, ünsiyyət və fikir, vicdan və məslək azadlığı xidmət edir. Dözümlülük rəngarəng xüsusiyyətlərin birliyidir. Bu təkcə mənəvi borc deyil, həm də siyasi, hüquqi tələbatdır. Dözümlülük sülhə nail olmağı mümkün edir və müharibə mədəniyyətindən sülh mədəniyyətinə aparır" [24].

Bu tərif çox genişdir. Tərifə görə tolerantlıq – başqa millətlərə, irqlərə, dəri rənginə, cinsə, seksual orientasiyaya, yaşa, əlilliyə, dilə, dinlərə, siyasi fikirlərə, milli və ya sosial mənsəbə, mülkiyyətə və s.-yə dözümlü münasibəti nəzərdə tutur. Beləliklə, tolerantlığın sosial həyatın müxtəlif aspektlərini əhatə edən çoxşaxəli və mürəkkəb bir fenomen olduğu aşkardır. Lakin, bu anlayışın etimoloji mənası (latın sözü olan "tolerantia" - hərfi mənada "dözümlülük"deməkdir) "dözümlülük" anlayışı ilə bağlı olduğundan nəinki onu tam əks etdirmir, hətta bəzi hallarda ona qarşı dura da bilir. Məsələn, bir neçə dildə "dözmək" sözü neqativ çalara malikdir: dözmək həmişə passivliyi bildirib, öz münasibətini xaricən bildirməmək deməkdir, bu zaman insanın əsl pozisiyası dəyişməz qalır. Bəyannamədə isə, tolerantlıq insanın azadlığı və universal hüquqlarının qəbulu əsasında formalaşan aktiv münasibət kimi izah olunur. Əsl tolerantlığın qayəsini məhz bütün insanların bərabər hüquqlara və fərqli düşünmək hüququna malik olduğunu dərketmə təşkil edir. Tolerantlıq geniş mənada başqasına – istər başqa insana, istərsə də başqa mədəni ənənəyə qarşı hörmət deməkdir. Bundan əlavə, tolerantlıq insanın başqasının da onun özü qədər dəyərli olmasını qəbul etməsi, başqasına, onun nəzər nöqtəsinə xeyirxah münasibəti, dialoqa açıq olması, həqiqətə aparan yolların müxtəlif olduğunu dərk etməsidir. Tolerantlıq insanın digər fərdlər və sistemlərlə ünsiyyətə və qarşılıqlı əlaqəyə hazır olmasını nəzərdə tutur. Lakin bu, heç də onun yaramazlığa, zorakılığa, təcavüzkarlığa yol verməsi demək deyil. Tolerantlığın mahiyyəti çirkinliklə barışmaqdan deyil, kimsənin həyatına və azadlığına xətər yetirmədən, başqasının fərqli olması hüququnun tanınmasından ibarətdir.

Tolerantlıq anlayışı bəşər tarixinin ayrı-ayrı inkişaf mərhələlərində formalaşaraq müxtəlif məzmunlar kəsb etmiş və müxtəlif mənalarda

işlənmişdir. Müxtəlif mədəni ənənələrdə tolerantlığın anlamında özünəməxsus xüsusiyyətlər mövcuddur. Belə ki, bu anlayış müxtəlif dillərdə müxtəlif mənalar kəsb edir. Məsələn: azərbaycan dilində – "dözümlülük", rus dilində – "səbrlik", çin dilində – "başqa adamlara münasibətdə alicənab olmaq", ərəb dilində – "bağışlamaq", "yumşaqlıq", "rəhmlilik", fransız dilində -"başqalarının azadlığına, fikrinə və davranışına hörmət", ispan dilində – "özününkindən fərqli olan ideya və fikirləri qəbul etmək bacarığı" mənasında işlədilir. Müxtəlif dillərdə və mədəniyyətlərdə tolerantlığın belə çoxşaxəli izahını ümumiləşdirsək, deyə bilərik ki, tolerantlq özündə insan hüquqları əsasında yaranan prinsipləri və şəxsiyyətə hörməti ehtiva edir, laqeydliyi istisna edir.

Tolerantlıq ideyası qədim tarixə malikdir, onun kökləri antik dövrə gedib çıxır. Qeyd etmək lazımdır ki, tolerantlıq antik filosofların fikir və mühakimə predmeti olmasa da, onlar öz əsərlərində kifayət qədər nəzəri istiqamətlər işləyib hazırlamışdılar ki, sonrakı nəsillərin mütəfəkkirləri onları öz əsərlərində inkişaf etdirmişlər. Dahi yunan filosofu Aristotel əxlaq məsələlərinə həsr olunan "Nikomax Etikası" əsərində yazırdı ki, özünə qarşı xeyirxah hərəkət edən adam yox, başqalarına qarşı xeyirxah hərəkət edən adam yaxşı adam hesab olunur [21 s.173]. Maraqlıdır ki, tolerantlıq problemi ilk dəfə Qərb sivilizasiyasında dini mövzuda meydana gəlmişdir, dini tolerantlıq isə vətəndaş cəmiyyətinin nail olduğü bütün digər azadlıqların əsasını qoymuşdur.

Qərb tolerantlığı öz cəmiyyətinin tərkib hissəsinə çevirən unikal sivilizasiya nümunəsidir. Məşhur "Le Petit Larousse" ensiklopediyasında tolerantlıq (tolerance) sözünün izahı verilərək göstərilir ki, müasir anlamda bu anlayış ilk dəfə 1361-ci ildə işlədilmişdir [16]. Qeyd etmək lazımdır ki, bu dövrə qədər "tolerance" anlayışı passiv "iztirab" mənasında işlədilirdi. İngilis etimologiyasının Oksford lüğətində göstərilir ki, bu anlayış (tolerance) XV əsrdə, "toleration" anlayışı isə XVI əsrdə işlədilmişdir [20]. Beləliklə, əgər XV əsrdə tolerantlıq dözümlülük, iztiraba tab gətirmək mənalarında işlənirdisə, artıq XVI əsrdə tolerantlıq həm də "izn vermək", "təmkinlik", "özünü ələ ala bilmək" mənalarında işlənirdi. Avropa vətəndaşlığa əsaslanan tolerantlıq variantını irəli sürmüşdür və ilk öncə söhbət xristianlıq dözümlüyündən gedirdi. Xristian dünyagörüşünün Qərbdə qələbəsi tarixdə dini dözülməzliyin başlanğıcını qoydu. Xristianlıq «düşmənlərinizi sevin, sizə lənət oxuyanlara xeyir dua verin, sizə nifrət edənlərə yaxşılıq edin, sizə əziyyət verib, təqib edənlər üçün dua edin"[30] kimi prinsipləri elan etməklə, firavanlığa nail olmaq yolunda müxtəlif mənşəli insanları, fərqli-fərqli millətlərin nümayəndələrini tənləşdirdi. Lakin xristian kilsəsi tolerantlığın əməli mücəssəməsi olmadı və ilk əsrlərdə qnostiklər, manixeistlər kimi müxtəlif xristian məzhəblərə, daha sonra dindən dönənlərə və bütün fərqli düşüncələrə qarşı şiddətli mübarizə aparırdı. Orta əsrlər dövründən fərqli olaraq İntibah dövrü dini etiqad məsələləri də daxil olmaqla, azadlıq dövrü kimi yadda qaldı. Məhz bu dövrün filosof və ilahiyyatçısı N.Kuzanski «Etiqadın həmrəyliyi» (1453) adlı əsərində bütün dinlərin əsas müddəalarının vahidliyini inandırıcı surətdə irəli sürmüşdür [26].

Ümumi qəbul olunmuş fikrə görə tolerantlıq ideyasının inkişafı XVI əsrdən – reformasiya dövründən başlayır. Bu dövr dini zəmində qarşıdurmaların güclənməsi ilə səciyyələnirdi, katoliklərlə protestantlar düşərgələrinə parçalanmış xristianların dini fanatizmi minlərlə insanın tələfatına səbəb oldu və bunun nəticəsi olaraq tolerantlıq dini dözümlülük kimi nəzərdən keçirilməyə başlandı. Qeyd etmək lazımdır ki, həmin tarixi dövrdə Avropa qızğın polemika meydanına çevrilmişdir. Humanistlər "kafirləri" başqa dini qəbul etməyə məcbur etməyi və xüsusilə də buna görə ölüm cəzası tətbiq etməyi qəbul etmirdilər. XVI əsrin dini debatları üçün rəhmli olmağa və başqasının fikrinə hörmət etməyə çağırış səciyyəvidir.

Avropada dini doqmatizm və fanatizm dövründə tolerantlıq mövzusu M.Montenin azad vicdanın müdafiəsi haqqındakı mühakimələrində özünə yer almışdır. «Ləyaqətlə

yaşamaq sənəti haqqında” adlı əsərində o, yazırdı ki: “Heç bir mühakimə məni təəccübləndirməz, heç bir mülahizə məni təhqir etməz, mənə nə qədər də yad olsalar belə” [29 s.545]. M.Montenə görə insan müstəqil düşünən fərddir. Onun şəxsi təcrübəsi unikaldır və insan xarici aləm və özü haqqında bilikləri öz təcrübəsindən hasil edir. M.Monten insanın sosial mühitdən və ənənələrdən asılılığını təhlil edərkən şəxsiyyətin şüurunu yüksək qiymətləndirirdi. O, “Təcrübələr” (1580) əsərində Amerikada xristianlığı zorla qəbul etdirən ispan qəsbkarlarını tənqid etmişdir.

XVII əsrdə İngiltərədə tolerantlıq mövzusu bu ideyanın inkişafında həlledici mərhələ kimi nəzərdən keçirilir. Lakin tolerantlıq heç də hər bir kəsin fikri olmayıb bir qrup insanın ideyası şəklində özünü göstərirdi. Bu nöqteyi-nəzərə görə heç bir əqidə o dərəcədə kamil ola bilməz ki, cəmiyyətdə mövcud olan başqa əqidələri ona qurban verəsən. Tolerantlıq istər İngiltərədə, istərsə də Amerikada ideal prinsip şəklində deyil, cəmiyyətin yekcins birliyi pozulanda zəruri bir hal kimi yaranmışdır. Aydın olmuşdur ki, əgər cəmiyyətdə dini homogenlik yaratmağa məcburiyyət olmazsa, həmin cəmiyyətdə daha çox sülh olacaqdır.

XVII-XVIII əsrlərin sosial fəlsəfəsinin ümumi ənənəsi mərkəzləşdirilmiş güclü dövlətin qorunması ideyasında öz əksini tapırdı. Məhz buna görə də o dövrdə tolerantlıq siyasi utilitarizm mövqeyindən təhlil olunurdu. Maarifçilik dövrünün C.Lokk, F.Volter, P.Beyl kimi filosofları vicdan azadlığı və dini dözümlülüyün hüquqi və qanuni əsaslarının formalaşdırılmasında böyük rol oynamışlar.

İngilis filosofu və pedaqoqu C.Lokk “Dini dözümlülük təcrübəsi” (1667) və “Dini dözümlülük haqqında məktubu” (1685) əsərlərində dözümlülük probleminin geniş şərhini vermişdir. O, hesab edir ki, hər bir insan qeyri-məhdud fikir və dini etiqad azadlığına malikdir. C.Lokka görə, tolerantlıq ikili xarakter daşıyır. Bir tərəfdən o, müxtəlif dinlərə mənsub olan insanlar arasında münasibətlərdə əsaslanması gərəkli olan, dəyər kimi çıxış edir. Digər tərəfdən, tolerantlıq hüququn tərkib elementidir, fikir, vicdan, sərbəst toplaşma azadlıqlarını əsaslandıran ictimai müqavilənin nəticəsidir. Filosofun fikrincə, şəxsiyyətin mənəvi axtarışlarına kobudcasına müdaxilə etmək, ona yad dini zorla qəbul etdirmək qətiyyən yolverilməzdir. Belə yolun sonu yoxdur, bu yolun sonu ancaq məğlubiyyətlə bitə bilər. C.Lokk “Dini dözümlülük haqqında məktubu” (1685) əsərində tolerantlığı əsl, həqiqi kilsənin mühüm səciyyəsi kimi əsaslandırmağa çalışmışdır. C.Lokk hesab edirdi ki, əgər dində məhəbbət, iltifat və mərhəmət yoxdursa, o, həqiqi sayıla bilməz. İsa Məsih naminə başqasını təqib edənlər onun təlimini eybəcərləşdirirlər. Səmimi və namuslu insanlar müxtəlif dinlərə itaət edə bilər. Başqa sözlə, digər dinə etiqad edənlərə düşmən gözü ilə baxmaq doğru deyil və yalnız dini müxtəlifliyə hörməti bərqərar etməklə cəmiyyətdə sülh yaratmaq mümkündür [8 s.21]. Qeyd etmək lazımdır ki, C.Lokk özünün “Tərbiyə haqqında fikirlər” (1693) əsərində qeyd edir ki, başqalarına qarşı hörmətcil, tolerant yanaşmanı lap uşaq yaşlarından formalaşdırmaq lazımdır. O, əmin idi ki, «uşaqları bir-birinə güzəştə getməyə, mərhəmət və ədəblə davranmağa öyrətmək gərəkdir. O halda ki, uşaqlar heç bir üstünlüklərindən məhrum olmadan, bu davranışın hörmət, sevgi və nüfuz qazandırdığını görəcəklər, ondan kobudcasına əmr etməkdən daha çox zövq almalı olacaqlar [27s.504].

Tolerantlıq mövzusu fransız publisisti və filosofu P.Beylin yaradıcılığında da öz əksini tapmışdır. Onun fikrincə, insanların təbiətən bir-birinə oxşamaması fikirlərin müxtəlifliyinə səbəb olur. P.Beyl yazır: “Başqa insan şeylərə biz baxdığımız kimi baxmır, onun şeyləri anlamaqda vasitəçi olan orqanları bizim orqanlarımızın uğradığı modifikasiyaya uğramır” [15]. P.Beylin vicdan azadlığı tələbləri və dövlət hakimiyyətinə rəğbətsizliyi C.Lokkdan daha güclüdür. Onun əsərlərində tolerantlıq doqmatik idarəetməyə qarşı silah kimi çıxış edir və dini inancına görə qisas alan hakimiyyətin məhvinə yönəldilir. O, başa düşürdü ki, baxmayaraq ki, filosofların tolerantlıq ətrafında mübahisəsi dini əsaslar üzərində gedirdi,

əslində isə dini intolerantlıq (tolerantlığa əks olan vəziyyətdir, dözümsüzlüyə və digərlərindən üstün olmaq ideyasına əsaslanır) altında dövlətin intolerantlığı gizlənirdi. Dövlət universal kilsəyə arxalanaraq öz hakimiyyətini təsdiq edir və həmən vaxtda böhtan, inkvizisiya, başkəsmə kimi üsullardan istifadə edir. Dövləti heç nə məhdudlaşdırmırdı, və ona tam sərbəstlik verilmişdir, çünki o özü də həqiqətən dini təbliğatın xeyrinə olan hər bir şeyin qanuniliyinə inanırdı. P.Beylin fikrincə, belə vəziyyət bütün hallarda xristianlıq üçün utandırıcıdır.

XVIII əsrdə tolerantlığı ardıcıl şəkildə müdafiə edənlərdən biri fransız filosofu və maarifçisi F.Volterdir. “ Fikirləriniz ilə razı deyiləm. Ancaq onları ifadə etmə haqqınızı axıra qədər müdafiə edəcəm” – bu Voltera isnad edilən aforizm tolerantlığın klassik anlamını ifadə edir. Tolerantlıq problemi filosofun “Fəlsəfi məktublar” (1734), “Fəlsəfi lüğət” (1766) əsərlərində işıqlandırılmışdır. F.Voltera görə tolerantlıq bir tərəfdən bütün demokratik azadlıqların əsası, digər tərəfdən mənəviyyatın qızıl qanununun nəticəsidir: “özünə rəva bilmədiyini başqasına etmə”[18]. F.Volter “Dini dözümlülük traktatında” (1763) mövcud olan dinin heç birini tənqid etmir, dözümsüzlüyü doğuran dini müxtəliflik və ədalətsizlik ətrafında fəlsəfi polemika aparır [19 s.353]. Filosofların, xüsusilə də F.Volterin fəaliyyətinin nəticəsi olaraq, tolerantlıq ümumi dəyər və dinlər və müxtəlif sosial qruplar arasında sülhün əsas komponenti kimi qəbul edilirdi. F.Volterin ölümündən on bir il sonra 1789-cu il avqustun 26-da Fransanın Təhsisat Yığıncağı bütün dünyaya fikir və söz azadlığını elan etdi və “İnsan və vətəndaş hüquqları Bəyannaməsini” qəbul etdi. F.Volter məhz bunun uğrunda mübarizə aparırdı.

Tolerantlıq problemi məşhur ingilis filosofu, XIX əsrdə liberal fikrinin görkəmli ideoloqlarından biri olan C.S.Millin “Azadlıq haqqında” (1859) adlı məqaləsi ilə yeni impulsu qazanır. C.S.Mill tərəfindən azad cəmiyyətin ayrılmaz elementi kimi elan edilən dözümlülük ənənəvi dini anlamda deyil, daha geniş olan sosial və mədəni mənada nəzərdən keçirilir. Filosofun fikrincə insanların əqli sağlamlığı üçün şəxsi fikir və onu ifadə etmə azadlığı olduqca vacibdir, heç kəsin insanı şəxsi fikrindən məhrum etmək və ona yad fikri qəbul etdirmək hüququ yoxdur. Mill bu haqda belə yazır: “Praktiki həyatda həqiqət ziddiyyətlərin barışması və birləşdirilməsi məsələsindədir... Fikir müxtəlifliyi faydalıdır” [28 s.15]. Bu fikir bizə onu fərz etməyə imkan verir ki, C.S.Millə görə dözümlülük azadlıq, söz, fikir, həyat tərzi seçmək azadlığı, və nəhayət fərdin azadlığı kimi anlayışlarla bağlıdır. O, əmindir ki, məhz fərdlərin fikirlərində olan müxtəliflik faydalıdır. C.Millin tolerantlıq lehinə arqumentasiyası iki müddəyaya əsaslanır. Bir tərəfdən tolerantlıq cəmiyyətin mükəmməlləşməsinin, intellektual tərəqqinin və biliyin artmasının şərtidir. Digər tərəfdən isə tolerantlıq fərdin mənəvi və əqli inkişafı üçün zəruridir.

Fərdi azadlıq, C.S.Millə görə o halda məhdudlaşdırıla bilər ki, fərd cəmiyyətə və yaxud başqa fərdlərə ziyan gətirmiş olsun. “Fərdin digər hərəkətlərinə onun cəmiyyət qarşısında müəyyən öhdəliklərinin pozulması ilə bağlı olmayan, onun yalnız özü üçün zərərli olan, lakin bu və ya digər fərdə birbaşa ziyan gətirməyən hərəkətlərinə gəldikdə isə, bu hərəkətlərin cəmiyyətə gətirə biləcəyi bəla yalnız təsadüf nəticəsində ola bilər, yaxud əgər belə demək mümkündürsə, bu bəla ―yozulandır (başa düşüləndir – G.Piriyeva)və cəmiyyət digər Ali Xeyrin ― fərdi azadlığın qorunub saxlanılması naminə bu bəlaya dözməlidir..” [28 s.4].

Tolerantlıq ideyasının inkişafı sonrakı dövrlərdə yaşayıb yaratmış filosofların əsərlərində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, tolerantlığın özünəməxsusluğu təkcə Qərb sivilizasiyasında deyil, həmçinin Sərqdə də öz əksini tapmışdır. Belə ki, Qərbdə tolerantlıq lap əvvəlcədən xristian cəmiyyəti ilə müqavilə xarakteri daşıyırdı, ancaq Şərqdə isə tolerantlığa mövcud dünyagörüşünün tərkib hissəsi kimi baxılırdı. Sözsüz ki, Şərqdə “tolerantlıq”sözü işlənilmirdi, lakin insanlar bir çox hallarda başlıca ideyası məhz başqasını

bağışlama və bütün mövcudata sevgi olan dünyağörüşünü təqib edirdilər. Şərq üçün ənənəvi əhəmiyyət daşıyan tolerantlıq prinsipi həm hind, həm də ərəb mədəniyyətlərində eyni şəkildə təzahür edir. Hind ənənəsi istənilən idrak növünə, dünyagörüşünə dözümlülük qayəsini təqib edirdi, yəni ilk növbədə dünyanın dərk edilməsi sahəsində təzahür edirdi. Ərəb-müsəlman dünyası tolerantlığı dərk olunmayana və anlaşılmayana dözümlülük, müəyyən bir nəzər nöqtəsinin üstünlük təşkil etməsi əsasındakı dözümlülük, fərziyyə ehtimalı kimi təsdiqləyirdi.

Məlum olduğu kimi, buddizm Tanrı ideyasını inkar edərək, iddia edir ki, "karma" (ümumi səbəbiyyət əlaqəsi) və "sansara" (sonsuz ölüm və yenidən doğuş zənciri, reenkarnasiya çarxı) – Kainatın obyektiv qanunlarıdır. İnsanın bu qanunları aradan qaldırması mümkün deyil, əks halda bu fövqəl-təbii, mistik, ezoterik xarakter daşımağa başlayır. Şəxsi "Mən"in bir dəyər olmadığını anlamaq buddizm təliminin dərk edilməsinin birinci pilləsidir. Bütün canlılar arasında olan ümumi mənəvi bağlılığın və bundan irəli gələn başqasının ağrısının və mərhəmətin, özgə həqiqətin mövcud olmaması ideyasının dərk edilməsi mənəvi inkişafın mühüm mərhələsi kimi çıxış edir. Bu ümumi vəhdət ideyası aximsa (qeyri-zorakılıq) və karuna (rəhm) kultunu formalaşdırır. Məhz bu prinsiplər biddizmi hər bir canlıya hörməti, ümumi tolerantlığı təsdiqləyən təlim kimi, nəzərdən keçirilməsinə imkan yaradır.

Qədim hind dini və fəlsəfi təlimlərində (buddizm, caynizm, yoqa, induizim) "aximsa" ("zərər yetirməmək", "zor tətbiq etməmək") anlayışı başlıca məziyyət kimi çıxış edir və bu təlimlərin praktikasına daxildir. Buddizm mütəfəkkirləri aximsa prinsipinin vacibliyini əsaslandırarkən belə analogiyanı irəli sürürlər – " insan üçün hər şeydən əziz olan – onun özüdür, necə ki, başqa insanlar üçün də – onların özləridir. Buna görə də, özünə əziz olan insan başqalarına zərər yetirməməlidir." Bu fikir insana davranışın başlıca "qızıl qaydasını" öyrədir. XX əsrdə qeyri-zorakılıq fəlsəfəsinin görkəmli ideoloqu M.Qandi "zorakılığı ("ximsa") insanda heyvani başlanğıc, qeyri-zorakılığı isə ("aximsa") onun ilahi mahiyyətinin əlaməti hesab edirdi [6 s.95]. Böyük mütəfəkkir ümumbəşəri dəyəri – müqəddəs nemət olan həyata hörməti ön plana çəkərək bildirirdi: "Qeyri-zorakılıq yolu işıq saçan elə bir məşəldir ki, o bəşəriyyəti qaranlıqda məhv olmağa qoymur" [22 s. 65-66]. Aximsa anlayışı ilə yanaşı hind fəlsəfəsində "maytri" ("dostluq", "mehribanlıq") anlayışı da böyük əhəmiyyət kəsb edir. Bu anlayışın mahiyyətini buddistlər belə açıqlayırlar: "Necə ki, mən özümü sevirəm və özümə xoşbəxtlik arzulayıram, eynilə başqaları üçün də bunu istəyirəm, qoy onlar da xoşbəxt olsunlar".

Həyatın bütün formalarına şəfqət və tolerantlığı aydın ifadə edən digər hind fəlsəfi məktəbi caynizmdir. Bu təlimə görə, bütün kainatın qurluşunu sonsuz olan "civa"(ruh) və "aciva" (ruhu olmayan) anlayışları vasitəsi ilə təsvir etmək gərəkdir. Qeyd edək ki, caynizmdə civaların (canlı varlıqların ruhları) eyniyyəti deyil, əksinə plüralizmi təsdiq olunur və burada eyni zamanda onların hər birinə hörmətin vacibliyi də əsaslandırılır. Caynizmdə aximsa anlayışının başa düşülməsi məntiqli olaraq bütün ruhların potensial bərabərliyi ideyasından və "geri dönmə" prinsipindən (yəni bir insanın digərinə olan münasibəti başqasından özünə qarşı görmək istədiyi, arzuladığı kimi olmalıdır) irəli gəlir. Beləliklə, həyata bütün forma və inkişaf səviyyələrdə hörmət əsas davranış prinsipi kimi çıxış edir.

Çin fəlsəfəsində tolerantlıq ideyası böyük mütəfəkkir Konfutsinin "jen" ("insansevərlik") anlayışında ifadəsini tapır. Konfutsi "jen" məfhumuna "insanlara qarşı sevgi", "başqalarına özünə arzulamadığını etməmək" mənasını daxil edir. Təsadüfi deyl ki, bu anlayış Konfutsinin məşhur olan "Üç vəsiyyətində" də əks olunur: "insansevərlik", "qızıl hədd", "qarşılıqlı olma". Mütəfəkkirə görə şərin əsas səbəbi bu vəsiyyətlərin gözlənilməməsindədir. O, "Lun Yuy" (e.ə. Vəsr) kitabında insanların fikir müxtəlifliyinə olan hüququnu müdafiə edərək, bildirir ki, "başqa cür düşünən insana

hücum etmək – zərərlidir". "Yaxşılığa nə ilə cavab vermək lazımdır ?" sualına Konfutsi belə cavab verir: "Yaxşılıqla". "Bəs onda pisliyə nə ilə cavab vermək lazımdır ?" sualına o, belə cavab verir: "Ədalətlə" [25 s.116]. İnsansevərliyin bu cür anlamı dialoqa yol açan, universal insani dəyərdir.

Digər monoteist dinlərdə olduğu kimi İslam da bütün insanların və xalqların əzəli vəhdətini tanıyır, bu isə öz növbəsində insanlar arasında tolerant münasibətin əsasını təşkil edir. İslam dözümlülük mədəniyyəti bir sıra xüsusiyyətlərə malikdir, lakin onlardan ən başlıcası: onun ilahi mənbəyi və dini mahiyyətidir. Bu mədəniyyət bir sıra dini və ideoloji sütunlara əsaslanır. Onlardan biri, və ən əsası müxtəlifliyin, fərqliliyin təbii hadisə və universal norma olduğunu təsdiqləyir (yəni Allahın yaratdığı məxluqlar müxtəlifdir). Qurani Kərimdə deyilir ki, : "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır" [9 Hucurat (49:13)] "Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır!" [ 9 Rum(30:22)] "Əgər Rəbbin, istəsəydi bütün insanları (eyni dində olan) tək bir ümmət edərdi. Onlar (yəhudi, xaçpərəst, atəşpərəst və i. a. olmaqla dinləri barəsində) hələ də ixtilafdadırlar. Rəbbinin mərhəmət etdiyi kimsələr istisnadır. (Rəbbin) onları bunun üçün (belə bir ixtilafa düşdüklərinə görə xoşbəxt və bədbəxt, mömin və kafir, cənnət və cəhənnəm əhli) yaratmışdır" [9 Hud (11:118-119)]

Şərqin böyük mütəfəkkiri Mövlanə Cəlaləddin Rumi həyatı boyunca kin-küdurət, qürur və nifrəti yanına yaxınlaşdırmayıb, kayınatı bürüyən dözümlülüyü və insan sevgisini din, dil, irq, məzhəb və siniflərdən üstün bir hala gətirərək bütün bəşəriyyəin diqqətini cəlb etməyə bacarmışdır. Mövlanənin böyüklüyü, firkimizcə ondadır ki, irqindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir insan onun müdrükliyindən faydalana bilər, hər kəs onda hətta bir parça olsa belə özü uçün tapa bilər. "Divanı-Kəbir" əsərində o, insanlara universal yanaşmanı belə dilə gətirir: "Dünyada müxtəlif dillər, lügətlər var, lakin onların hamısının anlamı birdir, fərqli qablara tökulən sular, qablar qırılınca birləşir bir su halında axarlar"[12]. Sözsüz ki, böyük Mövlanə su dedikdə insanı nəzərdə tutur, o demək istəyir ki, hər birimiz qəliblərimizin içində başqa başqa şəkillərdə olsaq da qabığımızdan çıxıb, identikliyimizi tərk etdiyimiz anda hamimiz bir və bərabər oluruq. Onun məhşur yeddi nəsiyyəti [12] hər bir dövr üçün aktuallıq kəsb etməkdədir:

*Şəfqət və mərhəmətdə günəş kimi ol,*
*Başqalarının qüsurunu örtməkdə gecə kimi ol,*
*Hiddət və əsəbilikdə ölü kimi ol,*
*Təvəzö və itaətkarlıqda torpaq kimi ol,*
*Hoşgörürlüktə dəniz kimi ol,*
*Ya olduğun kimi görün,*
*ya da göründüyün kimi ol!*

Dahi Azərbaycan şairi Nizami Gəncəvi öz poemaları ilə həm Şərqi, həm də Qərbi fəth etmişdir. Buna səbəb onun yaradıcılığındakı insanpərvərlik, humanizmdir. Tolerantlıq, dözümlülük, özgəyə acıma şairin, demək olar ki, bütün əsərlərində aparıcı xətləri təşkil edir. Nizami "insan" dedikdə dinindən, irqindən və dilindən asılı olmayaraq bəşər övladını – müxtəlif millətlərin nümayəndələrini nəzərdə tutur[5]. Böyük şair yaratdığı obrazlarda dini, etnik fərq qoymamış, onları sevərək tərənnüm etmiş, bəşəri problemlər üçün narahatlıq keçirmiş, onlara münasibət bildirmişdir.

*Bu dünyanın nəbzini kim tutsa İsa kimi,*
*İnsafı, mürvətiylə olar dünya hakimi*

[11, s.48].

***

*Ey müsəlman, öyünmə, atəşpərəst deyilsən,*
*Bir günəşin eşqindən zərrəcə məst deyilsən*

[11, s.81].

Humanist şair müxtəlif dinlərə mənsub qəhrəmanların heç birinin dini görüşlərinə, milliyyətinə qarşı çıxmır, fərqli fikir və mədəniyyətlərə göstərilən hörmətlə yanaşır. Nizami xalqların adını çəkərək də onların mənsubiyyətinə hörmətlə yanaşır. "İskəndərnamə" əsərində Nizami qara dərili zəncini açıq qəlbə və möhkəm xüsusiyyətə malik olduğunu qeyd edərək oxucunu irqi mənsubiyyəti əsasında insana qiymət verməkdən çəkindirir.

*Zəncinin zahiri qaradır ancaq,*
*Sən ağzından çıxan saf sözlərə bax,*
*Zənci dəmir kimi qara, parlaqdır,*
*Üzü qaradırsa, ürəyi ağdır* [10, s.88].

"Yeddi gözəl", "İskəndərnamə" və "Xosrov və Şirin" kimi poemalarında Nizami Gəncəvi müxtəlif din və təriqətləri bir araya gətirir, onlara eyni doğmalıqla yanaşır. "Yeddi gözəl" poemasında təsvir olunana müxtəlif inancları olan yeddi gözəl qız, "Xosrov və Şirin" poemasında insanın xoşbəxt olması üçün müxtəlif inancların – atəşpərəstlik, bütpərəstlik və xristianlığın heç bir sədd yaratmaması ideyası, "İskəndərnamə" poemasında başqa xalqların nümayəndələrinin də eyni şövqlə təsvir etməsi Nizami Gəncəvinin tolerant dəyərlərə malik olmasını göstərir:

*Bizdə bərabərdir hamının varı,*
*Bərabər bölərik bütün malları,*
*Bizdə artıq deyil heç kəsdən heç kəs,*
*Bizdə ağlayana heç kimsə gülməz*
[10, s.180].

Tolerantlıq ideyası görkəmli Azərbaycan alimi və mütəfəkkiri N.Tusinin "Əxlaqi-Nasiri" əsərində də öz əksini tapır. Şəhər-dövlətlərin təsnifatını verərkən, mütəfəkkir onların arasında "hüriyyət - icması"nı ("camaat şəhəri") təsvir edir. Tusiya görə bu şəhər-dövlətdə "hər kəs özü üçün hakimi-mütləqdir, hərənin ixtiyarı tam öz əlindədir, kim nə istər, onu da edər. Bu şəhərin adamları azad yaşayırlar, onların arasında hüriyyət çoxluğdan başqa heç bir fərq, artıq-əskiklik yoxdur.... Bu şəhərdə ixtilaflar çox, maraqlar müxtəlif, istəklər fərqli, məqsədlər rəngarəng olar, onların sayı həddi-hüdudu aşar. Hamı belə şəhərdə yaşamağı sevər, çünki hər kəs burada istədiyi kimi dolanıb öz məqsədinə çatır. Bu səbəbdən bütün xalqlar və tayfalar üz tutub bu şəhərə axışmağa başlayır... Belə bir şəhərdə gəlmə ilə yerli arasında fərq olmaz" [13 s.316-317]. Baxmayaraq ki, böyük filosof bu şəhər-dövləti "cahiliyyət icmalarına" aid edir, o göstərir ki, "bir müddət keçdikdən sonra bu şəhərdə alimlər, filosoflar, şairlər, xətiblər, çox sayda müxtəlif sənətkarlar sinifi meydana çıxacaq. Bunların qayğısına qalıb, onlara qiymət verilsə, "fəzilət şəhəri"əmələ gələr" [13 s.316-317].

Azərbaycanın tanınmış filosofu Şeyx Mahmud Şəbüstəri öz əsərlərində dini inancına görə insanlara fərq qoyanları tənqid etmiş, insanları sülhə, birliyə çağırmış, "Gülşəni-raz" əsərində insanpərvərlik ideyasını inkişaf etdirərək, yazırdı:

*Bunu mən demirəm, Qurandan eşit,*
*Allahın yaratdığında fərq yoxdur* [5, s.48].

Bütün türk dünyasının dahi şairi, Azərbaycanın fəxr etdiyi böyük şair, alim, filosof Məhəmməd Füzuli XVI əsrdə yaşayıb-yaratmışdır. O, əsərlərini fars, ərəb və türk dillərində yazırdı. Ona dünya şöhrəti gətirən məhz türk dilində yazdığı qəzəlləri və şedevr əsər olan "Leyli və Məcnun"dur. Tənqidçilərin qeyd etdiyi kimi, Füzulinin əsərlərində şiə təəssübkeşliyi hiss olunsa da, o, əsasən bəşəri idealları tərənnüm etmiş, insanlara din, dil, məzhəb fərqinə görə deyil, qəlblərdəki məhəbbət hissinə görə yanaşmışdır. Məhəmməd Fizuli əsərlərində İsa peyğəmbər, və Məryəmin adlarını böyük hörmətlə çəkərək, onları vəsf etmişdir:

*Nola gər Məryəmdən əfzun görsə nəqdi-pakını,*
*Ol ki, İsa bir kəminə bəndeyi-fərmandır*
[5, s.81].

Çox əsirli klassik Azərbaycan ədəbiyyatının nümunələri onu göstərir ki, tolerantlıq xalqımızın dəyərlər sistemində olduqca böyük yer tutur, onun dünyagörüşünə çevrilmişdir. Bu ədəbi nümunələr bizə Azərbaycan cəmiyyətində müxtəlif dövrlərdə multikultural əhval və tolerant münasibətlərin necə "hakimi-mütləq"' olmasından xəbər verir [5, s.4]. Azərbaycan özünü artıq tolerantlığın ideoloji

mərkəzi və praktik təcəssümü kimi sübut etmişdir. Tolerantlıq əsrlərdir xalqımızın yol yoldaşıdır – sərvətimizdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu çoxəsrlik dəyəri mənəvi qatdan siyasi müstəviyə qaldırmaqla Azərbaycan xalqının özündə hansı ali meyarları yaşatdığını bütün dünyaya nümayiş etdirdi. Ulu öndər Heydər Əliyev vaxtilə belə söyləmişdir: "Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür" [14, s.4] , "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstün- lüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" [1, s.34] və o, bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanda tolerantlığın tarixən mövcud olduğunu və indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Prezident İlham Əliyev bu fikri aşağıdakı kimi şərh etmişdir: "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır" [2, s.3-4].

Azərbaycanda tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz xidmətləri vardır. Azərbaycanın zəngin tolerantlıq ənənələrinə diqqət çəkən Mehriban xanım ölkəmizdə yaşayan xalqların öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək, tarixən mövcud olmuş tolerantlıq mühiti barədə fikirlərini bölüşərkən demişdir: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar" [7].

Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Uğurla həyata keçirilən "Tolerantlığın ünvanı Azərbaycan" [3] layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, Romada Müqəddəs Marçellinio və Pietro katakombalarının, Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsəni, Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin bərpasını, həmçinin Həştərxanda Müqəddəs Knyaz Vladimir abidəsinin ucaldılmasını həyata keçirib, bu da öz növbəsində ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Azərbaycan Respublikası müstəqilliyin əldə edilməsi ilə Şərq və Qərb sivilizasiyaların toqquşması ideyasına qarşı özünün tarixən formalaşmış tolerantlıq modelini irəli sürdü. Belə bir vəzifənin öhdəsindən gəlməyi mümkün edən əsas şərtlər içərisində ölkəmizdə mövcud olan tolerantlıq öndə durur. Azərbaycan xalqının dini və milli dəyərlərinə söykənən tolerantlıq faktoru dünyaya bir örnək, bir nümunədir. Tolerantlığın qədim ənənəsi bu gün indiyə kimi görülməmiş bir dərəcədə

aktual və tələb olunandır. Dünyada qlobal dəyişikliklər dövründə məhz tolerantlıq insanlara sülh və əmin-amanlığın möhkəm olmadığı, siyasi və iqtisadi proseslərin mürəkkəbləşməsi şəraitində gələcəyə ümidlərini qoruyub saxlamağa imkan verən nicatverici teldir.

**Ədəbiyyat:**


1. Heydər Əliyev, "Müstəqillik yolu", Seçilmiş fikirlər. Bakı, 1997,s.34. URL: http://ebooks.preslib.az/pdfbooks/azbooks/independ.pdf
2. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı, "Əbilov, Zeynalov və oğulları" NPE, 2007, s.3-4
3. Heydər Əliyev Fondu //http: www.heydar-aliyev-foundation.org/az
4. İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir: çıxışlar, nitqlər, görüşlər, təbriklər / bur. məsul S. Salahlı; tərt.: N.Məmmədov, C. Əlifzadə; ön söz müəl. M.Qurbanlı.- Bakı: Elm və Təhsil, 2015.- 616s.
5. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları /elmi red. Abdulla Kamal; tərt.: M.Nağısoylu, F.Ələkbərli, Ə.Bağırov, İ.Quliyev. Bakı: BBMM, 2016.- Kitab I.- 288. s.
6. Aşirov A. Sosial konfliktlərin həllində konsensusun rolu və yeri.// Mədəniyyət dünyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXII buraxılış, Bakı, 2011.
7. Əliyev Ə.Müasir qloballaşma şəraitində multikulturalizm və insan hüquqlarının müdafiəsi// Azərbaycan qəzeti,03 Aprel 2016. URL: http://www.azerbaijan-news.az/index.php?mod=3&id=93767
8. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı: Nurlar, 2014, -240s.
9. Qurani-Kərim. URL:http://quran.az/
10. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı: Lider, 2004, -256s.
11. Nizami Gəncəvi. Sirlər xəzinəsi. s.48. URL: http://kkoworld.com/kitablar/Nizami_Gencevi_SirlerXezinesi_az.pdf
12. Mövlanə Cəlaləddin Rumi. Divanı Kəbir.: URL:http://mevlanafoundation.com/mevlana_works_tr.html
13. Tusi N. "Əxlaqi -Nasiri". Bakı: 2009, s.316-317. URL: http://heydar-aliyev-foundation.org/ru/content/view/90/724/%E2%80%9C%C6%8Fxlaqi-Nasiri%E2%80%9D-kitab%C4%B1/
14. Tolerantlıq. Respublika Uşaq Kitabxanaları üçün tövsiyə biblioqrafiyası. Bakı, 2015.-32s.
15. Bayle P. Tarihsel ve Eleştirel Bir Sözlük, Londra, C. Harper, 1710, cilt. II, s. 1059-62; Dictionmaire Historique et Critique, Rotterdam, R. Leers, 1697, cilt I. URL: http://www.dusuncetarihi.com/makale/tarihsel-ve-elestirel-soezluek/1600.html.
16. Le Petit Larousse illustré 2007. Paris: Larousse, 2006.
17. Michel de Montaigne. Denemeler. İstanbul, Cem Yayın evi, 2006, 365s.
18. Voltaire. Felsefi Sözlük. Boston, J.P.Mendum, 1836, s.360-363. URL: http://www.dusuncetarihi.com/makale/hosgoerue/1700.html
19. Voltaire. Felsefe Kitabı. İstanbul/ Türkiye: Alfa yayınları, 2012, 353s.
20. The oxford dictionary of English Etymology.Oxford, Clarendon Press, 1982.
21. Аристотель. Никомахова этика. Электронная библиотека Гражданское общество». URL:https://www.civisbook.ru/files/File/Aristotel_Nikomakhova.pdf
22. Ганди К. Махатма. Моя вера в ненасилие. // Вопросы философии. М., 1992, №3, с. 65-66
23. Гидденс Э. Социология. М.: Эдиториал УРСС, 1999, - 704.

24. Декларация принципов терпимости. URL: http://www.un.org/ru/documents/decl_conv/declarations/toleranc.shtml
25. Конфуций. Лунь Юй (Беседы и Суждения). Восточная литература; 2001 -180с. URL:http://opentextnn.ru/data/files/konfut.pdf
26. Кузанский Н. О мире веры. (Nicolai de Cusa. De pace fidei (1453)) //«Вопросы философии», 1992, № 5. Перевод и примечания — В. В. Бибихина. URL: http://www.bibikhin.ru/o_mire_very
27. Локк Дж. Сочинения в трех томах: Т. 3.- М.: Мысль, 1988.- 668 с. URL: http://filosof.historic.ru/books/item/f00/s00/z0000460/index.shtml
28. Милль Дж. О свободе. Электронная библиотека «Гражданское общество». URL: https://www.civisbook.ru/files/File/Mill_O%20svobode.pdf
29. Почебут Л.Г., Мейжис И.А. Социальная психология. СПб.: Питер, 2010. — 672 с.
30. Св. Евангелие от Матфея (5:44) URL: https://www.bibleonline.ru/bible/rus/40/01/
31. Устав ООН. URL: http://www.un.org/ru/sections/un-charter/preamble/index.html

***Açar sözlər:*** *tolerantlıq, dözümlülük, Qərb, Şərq, mədəni müxtəliflik, ümumbəşəri dəyərlər, humanizm, insan hüquqları, qarşılıqlı hörmət*

**Gunay Piriyeva**
*Associate Professor of the Department of "Humanitarian disciplines" of the Azerbaijan State University of Economics (UNEC),*
*Senior lecturer of the department of "Philosophy and social psychology", the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Philosophy*

## REALIZATION OF THE IDEA OF TOLERANCE IN THE WESTERN AND ORIENTAL CULTURAL TRADITIONS

### SUMMARY

The article focuses on the study of the idea of tolerance in the context of the Western and Oriental cultural traditions with the point of the equivalence of different philosophical views. Characterizing the social level of interrelationships among the people, tolerance represents the norm of civilized compromise between the different cultures, the openness to adopting new views, and promotes the preservation of secular diversity and uniqueness in the globalized world.

The nature of the tolerant mind lies deeply in the ethics of the great Western and Oriental civilisations, their cultural traditions, which today form the basis of many modern ideas.

The study of views and methods of tolerance perception from the Western philosophical point of view (Aristotle, N. of Cusa, M. Montaigne, J. Locke, P. Bayle, J.S.Mill) allows to conclude that the Western culture initially proclaimed religious (Christian) tolerance and then offered an absolutely new rational type of tolerance that was primarily based on the principle of citizenship, the respect of human rights and freedom. The specificity of perception of tolerance in the Oriental culture is primarily conditioned upon the fact that tolerance is the non-essential part of the existing worldview which is evidenced by the basic principles of religious and philosophical studies.

The views of the famous Azerbaijani philosophers and poets (N.Ganjavi, M.Shabustari, N.Tousi, M.Fuzuli) clearly reflect tolerance holds significant place in the national-spiritual values of the

Azerbaijani people. Azerbaijan being a unique country, where people of different religions and nationalities have lived for ages, consequently shaped the traditions and the sole model of tolerance which today can serve as a decent example for the modern world.

***Key words:*** *Tolerance, West, East, Cultural Diversity, Universal Values, Humanity, Human rights, Mutual Respect*

**Гюнай Пириева**
*Доцент кафедры «Гуманитарные дисциплины» Азербайджанского Государственного Экономического Университета (UNEC), старший преподаватель кафедры Философии и социальной психологии Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по философии*

## ВОПЛОЩЕНИЕ ИДЕИ ТОЛЕРАНТНОСТИ В КУЛЬТУРНЫХ ТРАДИЦИЯХ ЗАПАДА И ВОСТОКА

### РЕЗЮМЕ

Статья посвящена рассмотрению с точки зрения равноценности различных философских подходов идеи толерантности в контексте культурных традиций Запада и Востока. Характеризуя социальный уровень взаимоотношений между людьми, толерантность представляет собой норму цивилизованного компромисса между различными культурами, готовность к принятию иных взглядов, выступает как условие сохранения разнообразия и уникальности в условиях глобализирующегося мира. Природа толерантного сознания заложена в глубинах этики великих цивилизаций Запада и Востока, их культурных традиций, которые сегодня являются основанием для многих современных идей.

Рассмотрение подходов и способов понимания толерантности с позиций западного типа философствования (Аристотель, Н.Кузанский, М.Монтень, Дж.Локк, П.Бейль, Дж.С.Миль) позволяет заключить, что западная культура первоначально провозгласив религиозную (христианскую) терпимость, в последствии выдвинула совершенно новый рациональный тип толерантности основанный в первую очередь на принципе гражданственности, уважения прав и свобод человека. Специфика осмысления толерантности в восточной культуре обусловлена прежде всего тем, что в ней терпимость выступает в качестве неотъемлемой части существующего мировоззрения о чём свидетельствуют базовые положения религиозных и философских учений.

Воззрения выдающихся азербайджанских мыслителей и поэтов (Н.Гянджеви, М.Шабустари, Н.Туси, М.Физули) отчётливо демонстрируют насколько значительное место в системе национально-духовных ценностей азербайджанского народа занимает толерантность. Азербайджан будучи уникальной страной, где испокон веков жили люди различных вероисповеданий и национальностей, в результате чего сформировались традиции и особая модель толерантности, сегодня может послужить достойным примером для современного мира.

***Ключевые слова:*** *толерантность, терпимость, Запад, Восток, культурное многообразие, общечеловеческие ценности, гуманизм, права человека, взаимоуважение*

# SOSİAL PSİXOLOGİYA
# SOCIAL PSYHOLOGY

**BAYRAM HAQVERDİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru**
*e-mail: bayram_haqverdiyev@mail.ru*

## İNSAN İNKİŞAFININ SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİ

İnsanın davamlı inkişafı neft kapitalının insan kapitalına çevrilməsi haqqında dövlət strategiyasının mühüm istiqamətlərindən biridir. İnsanın davamlı inkişafının səmərəli mexanizmlərinin hazırlanmasında elmi-metodoloji əsas kimi müasir insanşünaslıq elmlərinin birgə iştirakı ilə formalaşmış insan konsepsiyası çıxış edir.

İnsan probleminin kompleksli elmi tədqiqinin əsas istinad nöqtəsi və ideyası, tanınmış insanşünas alimlərin qeyd etdikləri kimi, - “ insanda insanlığın “ öyrənilməsindən ibarətdir (7, s. 3).

Yüksək ümumbəşəri hissləri, milli-mənəvi dəyərləri özündə əks etdirən “insanlığın”, yeni nəslin formalaşmasında və tərbiyəsində istifadə olunması insanların varislik prinsipinə əsaslanan davamlı inkişafının ən etibarlı və səmərəli mexanizmlərindən biri kimi çıxış edir.

Mürəkkəb və çoxcəhətli hadisə olan insan probleminin sosial, iqtisadi, bioloji, antropoloji, mənəvi-psixoloji, etnik-mədəni və s. aspektlərinin və struktur səviyyələrinin sistemli təhlili, insan inkişafının elmi-metodoloji əsası kimi çıxış edir.

İnsan inkişafının idarə olunmasının səmərəli mexanizmlərinin hazırlanmasında problemin psixoloji qanunauyğunluqlarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Psixoloji yanaşma insanı inkişaf prosesinin təkcə obyekti deyil, həm də bu proseslərin fəal iştirakçısı – subyekti kimi dəyərləndirməyə imkan verir. Hər bir insanın inkişafının özünəməxsusluğunu başa düşmək üçün subyektlərin (sosial qrupların, fərdlərin və s.), fərdi-psixoloji xüsusiyyətlərinin inteqrativ ifadəsi olan fərdi üslublarının prizmasından təhlil olunması mühüm əhəmiyyət kəsb edir. Üslub insanın mürəkkəb və çoxcəhətli mahiyyətinin təkrarolunmaz inteqrativ ifadəsi kimi çıxış edir.

Görkəmli fransız təbiətşünaş alimi J.L.Byufonun təbirincə desək, “ Üslub – insandır “ (6).

Müasir təhsildə gənclərin davamlı inkişafının sosial-psixoloji qanunauyğunluqlarının insan şəxsiyyətinin formalaşmasında təlim-tərbiyə prosesində nəzərə alınması və istifadə olunması təhsildə şəxsiyyətyönlü inkişaf texnologiyalarının hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir.

Hər bir insanın inkişafına təsir edən amillər ona fərdi-psixoloji xüsusiyyətlər prizmasından təsir edərək onların özünəməxsus inkişaf perspektivlərini və xüsusiyyətlərini müəyyən edir.

İnsanın sosial, bioloji, antropoloji, fizioloji və s. parametrləri onun fərdi-psixoloji xüsusiyyətləri prizmasından inteqrasiya olunması psixologiya elminin müasir elmlər sistemindəki yeri haqqında mülahizə söyləməyə əsas verir. Görkəmli rus filosofu - akademik Kedrovun təklif etdiyi müasir elmlərin - təbiət, ictimai və fəlsəfə elmlərinin təsnifatını ifadə edən üçbucağın mərkəzində psixologiya elmini yerləşdirimişdir (5).

Psixoloji tədqiqatlar insan inkişafının müxtəlif peşələr üzrə daha intensiv baş verdiyi yetkinlik dövrlərini də müəyyən etməyə əsas vermişdir. Tanınmış rus psixoloqu B.Ananyev və onun əməkdaşlarının tədqiqatlarının nəticələri göstərmişdir ki, müxtəlif peşələrdə çalışan insanların, (məs., elm adamlarının, dövlət

məmurlarının, musiqi və incəsənət sahəsində çalışanların, idmançıların və s. peşələrdə çalışanların ) peşəkarlığının intensiv inkişaf dövrləri müxtəlifdir (4, s. 226).

Bu tədqiqatlarda həyata keçirilən statistik-psixoloji təhlillər nəticəsində elmi yaradıcılığın kulminasiya dövrünün və zirvəsinin 35-40 və 40-45 yaşlara təsadüf etdiyi müəyyən olunmuşdur. Ancaq elm sahələrinin strukturundan və istifadə etdikləri metodlarından asılı olaraq, bu parametrlər müxtəlif olur. Belə ki, kimyaçılarda, riyaziyyatçılarda; fiziklərdə peşəkarlığın zirvəsi və məhsuldar yaradıcılıq dövrü, erkən yaşlarda, daha çox – 30 yaşa qədər; elektronika sahəsində çalışan yaradıcı mühəndislərdə 30-34 yaş ; astronomlarda, geoloqlarda, patoloqlarda nisbətən gec – 30-39 yaşlara təsadüf edir. Digər təhlillərin nəticələrinə görə, əksər ixtisaslarda inkişafın kulminasiya zirvəsi kimi – 37 yaş göstərilir.

Analoji hesablamalar elm, texnika, incəsənət sahələrində çalışanlar üçün də həyata keçirilmişdir. Bu təhlillər insanın ontogenetik (fərdi həyatında) inkişafının – bioloji, tarixi və psixoloji amillərin qarşılıqlı əlaqəsinin və təsirinin nəticəsində baş verdiyini söyləməyə əsas vermişdir. Həmçinin insanın həyat yolunun sonrakı mərhələsində müşahidə olunan, yaradıcı potensialın və əmək fəaliyyətlərinin məhsuldarlığının aşağı düşməsinin, onların həyatında və elmi-yaradıcılıq fəaliyyətlərində əldə etdikləri zəngin təcrübəsi, peşəkarlığı, yetkinliyi və müdrikliyi hesabına yenidən yüksəliş dövrü ilə əvəz olunmasını şərtləndirir.

Psixoloji təhlillərin nəticələrini nəzərə almaqla gənclərin bilik, qabiliyyət və maraqlarına uyğun olan peşədə onların gələcək inkişaf perspektivlərini proqnozlaşdırmaq mümkün olur. Gənclərin seçdikləri ixtisasa maraqları, müsbət münasibətləri, motivasiyaları və lazım olan peşə keyfiyyətlərinin və qabiliyyətlərinin olması onların seçdikləri peşədə inkişafının və uğurlarının mühüm psixoloji əsası kimi çıxış edirlər.

Fərdi inkişaf strategiyasına və üslubuna görə, gənclərin müxtəlif tipoloji qruplarının müəyyən olunması onların davamlı inkişafının ünvanlı şəkildə həyata keçirməyə imkan verir. Fərdi-psixoloji xüsusiyyətlərindən və üslubundan asılı olaraq, mövcud şəraitin insan inkişafına təsiri bir mənalı olmur. Belə ki, bir qrup insanlar mövcud şəraiti düzgün dəyərləndirir və bu dəyərlərə yaradıcı, rasional və fəal-seçici münasibətləri ilə fərqlənir, mövcud imkanlardan öz inkişafları üçün düzgün və səmərəli istifadə edirlər.

Psixoloji parametrlərinə görə, müəyyən olunmuş tipoloji qruplara, fərdi inkişaf strategiyası olan və inkişafa meyilli olan və ya əksinə, özünün inkişaf konsepsiyası olmayan, bu haqda düşünməyən və buna əhəmiyyət verməyən insanları göstərmək olar. İnkişafa meylli gənclər mənəvi-intellektual cəhətdən daha yetkin, iradəli, hazırlıqlı və özlərinə məxsus həyat fəlsəfəsi, konsepsiyası və mövqeyi olub, həyat tərzləri daha düşünülmüş, praqmatik və mütəşəkkil olması ilə fərqlənirlər.

Özünün dayanıqlı həyat konsepsiyası olmayan, çox hallarda iradəsi zəif olan, ancaq bu günün qayğıları ilə yaşayan insanların həyat tərzləri daha çox situativ amillərin təsiri ilə formalaşır. Bu insanlar sosial-iqtisadi, mənəvi-mədəni inkişafları üçün yaradılmış imkanları lazımınca dəyərləndirmir, əyləncə xarakterli işlərə üstünlük verir və həyatdan həzz almağa daha çox meyillidirlər. Bunlar cəmiyyətdə baş verən hadisələrlə maraqlanmayan, rast gəldikləri çətinliklərin, nöqsanların aradan qaldırılması üçün cəhd etməyən, bunun üçün səmərəli, rasional fikir söyləməyən və əməli təşəbbüs göstərməyən insanlardır.

Davamlı insan inkişafının müasir insanşünaslıq elmlərinin nailiyyətləri əsasında məqsədyönlü şəkildə həyata keçirilməsində, müasir təhsil sistemi mühüm rol oynayır. Təhsildə gənclərin davamlı inkişaf prosesinin və səmərəli inkişaf texnologiyalarının hazırlanmasında, psixoloji metodlardan istifadə olunması və davamlı inkişafın psixoloji qanunauyğunluqlarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Müasir təhsilin fəaliyyətinin, gənclərin davamlı inkişafı baxımından

təşkili və dəyərləndirilməsi, gənclərin təhsil aldığı müddətdə əldə etdikləri bilik, bacarıq və vərdişlərin onların gələcək peşə fəaliyyətlərində tətbiq etmələrinə imkan verən peşəkarlıqlarının formalaşması və inkişafı nöqteyi-nəzərindən qiymətləndirilməsini tələb edir.

Pedaqoji prosesin səmərəliliyinin, keçilən dərslərin gənclərin bilik və bacarıq, nəzəri və praktiki təfəkkürünün formalaşması prosesinin idarə olunması və pedaqoji tənzimləmə mexanizmlərindən biri pedaqoji qiymətləndirmədir. Pedaqoji qiymətləndirmə pedaqoji proseslərin və bütövlükdə təhsilin idarə olunmasının mühüm mərhələsi və vacib funksiyası olan nəzarət funksiyasını yerinə yetirməklə gənclərin aldıqları təhsilin, onların inkişafının hansı istiqamətlərdə baş verdiyini və verilən təhsilin inkişaf etdirici potensialını və imkanları haqqında mühakimə yürütməyə əsas verir.

Pedaqoji proseslərin əsas subyekti olan müəllim, təlim-tərbiyə prosesinin planlaşdırılması, təşkili, gənclərin təlim fəaliyyətinin həvəsləndirilməsi ilə yanaşı, onların təhsildəki nailiyyətlərini qiymətləndirməklə, pedaqoji proseslərin idarə olunmasında nəzarət funksiyasını yerinə yetirir. Pedaqoji qiymətləndirmə prosesində, gənclərin nailiyyətlərini təkcə imtahan sessiyasının nəticəsinə görə deyil, həm də onların seminar və praktiki məşğələlərindəki qiymətlərinin də nəzərə alınması, gənclərin nailiyyətləri haqqında daha dolğun və obyektiv informasiya əldə etməyə imkan verir. Belə qiymətləndirmənin nəticəsində gənclərin təhsildəki nailiyyətləri ilə yanaşı, onların şəxsiyyəti, yaradıcı, nəzəri və praktiki təfəkkürü, müxtəlif bacarıq və vərdişləri – kommunikativ keyfiyyətləri, ünsiyyət mədəniyyəti və şəxsiyyətin inkişafını əks etdirən digər parametrlər haqqında daha dolğun informasiya əldə etmək mümkün olur.

Pedaqoji qiymətləndirmənin şəxsiyyətyönlü təhsil strategiyasının prinsiplərinə və tələblərinə uyğun olan metodiki vasitələr və üsullarla həyata keçirilməsi, gənclərin inkişafını arzu olunan istiqamətə yönəltməyə və bu istiqamətdə mühüm pedaqoji nəticələr əldə etməyə imkan verir. Bu yanaşmada əsas hədəf, imtahanlarda gənclərin bilikləri və yaddaşı ilə yanaşı, dərslərdə mənimsənilən nəzəri biliklərin onların praktiki təfəkkürünə, fəaliyyətlərinin motivlərinə və digər psixoloji tənzimləyicilərinə çevrilməsi nöqteyi-nəzərindən qiymətləndirməsindən ibarətdir. Bu mühüm pedaqoji vəzifələrə nail olmaq üçün, keçilən dərslərin məzmunu ilə yanaşı, mənimsənilən biliklərin praktiki problemlərin həllində istifadə etmək bacarıqlarının, gələcək peşə fəaliyyətlərində lazım olacaq keyfiyyətlərin və praktiki vərdişlərin formalaşmasına nail olunmasını tələb edir.

Müasir təhsildə tətbiq olunan pedaqoji qiymətləndirmənin nəticələri təkcə imtahan sessiyasında deyil, həmçinin gənclərin pedaqoji prosesin gedişində, dərslərdə keçilən mövzular barədə biliklərinin və yaddaşının dəyərləndirilməsi ilə yanaşı onların şəxsiyyətini, mənəvi-əxlaqi keyfiyyətlərini, praktiki, yaradıcı təfəkkürünün inkişaf səviyyəsini və meyllərini müəyyən etməyə imkan verməlidir.

Psixoloji təhlillər gənclərin inkişafının idarə olunması və optimallaşdırılması istiqamətində müasir təhsilin qarşısında duran vəzifələrin həllinin və təhsilin keyfiyyətinin artırılmasının mühüm amilləri olan tələbə-müəllim arasında işgüzar və qarşılıqlı-əməkdaşlıq münasibətlərinin auditoriyada sağlam rəqabət və mənəvi-psixoloji, pedaqoji mühitin formalaşması haqqında tövsiyələr hazırlamağa imkan yaradır. Beləliklə, təlim-tərbiyə prosesinə psixoloji yanaşma, təhsildə gənclərin inkişafında arzu olunan nəticələrə nail olmaq üçün, onların fərdi-psixoloji xüsusiyyətlərini nəzərə alan daha səmərəli və ünvanlı təlim-tərbiyə metodlardan, pedaqoji üsul və vasitələrdən düzgün istifadə olunmasına imkan verir.

Davamlı insan inkişafının psixoloji təhlili, şəxsiyyətin həyat və fəaliyyətlərinin məzmunu, məqsədləri ilə yanaşı, bu məqsədlərə nail olmaq üsullarına, yəni fəaliyyətin prosessual-dinamik parametrləri, məs. məqsədə çatmaq prosesinin cəlb edici, maraqlı olması kimi, funksional tələbatların nə dərəcədə təmin olunması baxımından tədris prosesinin inkişaf etdirici imkanlarını qiymətləndirmək mümkün

olur. Müasir gənclərin təhsilində, dərslərin funksional-prosessual elemenentlərinə lazım olan diqqətin verilməsi, dərslərin daha maraqlı, canlı, təsirli və emosional cəhətdən zəngin və cəlb edici keçməsinə şərait yaradır. Dərslərin gənclərdə maraq və razılıq hissi yaradan xüsusiyyətlərindən biri məhz onların dərslərdə prosessual-yaradıcı potensiallarını ifadə və özlərini təsdiq etmələri üçün əlverişli pedaqoji mühitin yaradılmasından ibarətdir. Gənclərin dərslərin fəal iştirakçısına və subyektinə çevrilmələri, pedaqoji proseslərin inkişaf etdirici təsirini artırmaqla, dərslərin maraqlı və səmərəli keçməsinə zəmin yaradır.

Pedaqoji proseslərin gənclərin inkişafına təsirinin mühüm təzahürlərindən biri müəllimlərin dərslərdə tətbiq etdikləri demokratik pedaqoji üslub, aşılanan elmi informasiyaların və interaktiv təlim metodlarının, fəal-işgüzar oyunların və digər fəal təlim metodlarından geniş istifadə olunması, tələbə-müəllim arasında işgüzar və qarşılıqlı, şəxsiyyətlərarası münasibətlərin xarakterinə müsbət təsiri edərək və auditoriyada mənəvi-psixoloji və sağlam rəqabət mühitin formalaşmasına səbəb olmasıdır.

Eyni zamanda gənclərdə aşılanan biliklərin, onların mənəvi-psixoloji vəziyyətində, dərslərə müsbət münasibət, motivasiya və maraq yaratması, keçilən dərslərin gənclərin yaddaşında möhkəmlənməsi ilə yanaşı, bu biliklərin onların praktiki təfəkkürünə çevrilməsi dərslərin səmərəliliyinin mühüm sosial-psixoloji parametrləridir. Dərslərin inkişaf etdirici imkanlarını və potensialını dəyərləndirmək üçün, keçilən dərslərin gənclərin mənəvi-psixoloji aləmində müsbət əhval-ruhiyyə və motivasiya yaratmasını, gənclərin dərslərə maraqlarının və fəallıqlarının dinamikasını müəyyən etmək tələb olunur.

Davamlı insan inkişafının idarə olunmasının mühüm psixoloji tənzimləmə vasitələrindən biri də, şəxsiyyətin inkişafına mane olan və onların özünə inamını, iddia səviyyəsini aşağı salan, pessimist əhval-ruhiyyə yaradan obyektiv və subyektiv maneələrin aradan qaldırılması və eyni zamanda, bu təsirlərə qarşı gənclərdə psixoloji immunitetin yaradılmasından ibarətdir. Zərərli təsirlərə və vərdişlərə qarşı neqativ münasibətin formalaşması və bunun gələcək fəsadlarının dərk olunmasına nail olmaq üçün, profilaktik- psixoloji tədbirlərdən, maarifləndirmə, psixoloji təsir vasitələrindən, məs., inandırma, təlqin etmə, izah etmə, şəxsi nümunə göstərmək, sosial psixoloji və psixo-terapevtik mahiyyət daşıyan treninqlərdən və s. istifadə etmək olar.

Gənclərin həyatında və təhsilində yüksək mütəşəkkilliyə nail olmağın mühüm amillərindən biri onlarda yüksək vaxt duyumunun olması, ictimai və şəxsi vaxtlarından səmərəli istifadə etmələri, bugünkü həyatlarını, problemlərini, qayğılarını gələcək – strateji məqsədləri ilə əlaqələndirmələri və s. onların şəxsiyyətinin inkişafının mühüm psixoloji parametrləri kimi çıxış edir.

Müasir dövrdə insanların həyat səviyyəsinin yüksəlməsi onların sosial-mədəni və mənəvi-psixoloji inkişafı ilə müşayiət olunmazsa, onlarda bəzi arzu olunmayan meyllərin və keyfiyyətlərin, məs. ələbaxımlıq, istehlakçı psixologiyasının və s. formalaşmasına gətirib çıxara bilər.

Müasir dövrdə insan inkişafına təsir edən mühüm amillərdən biri də informasiya texnologiyalarının və vasitələrinin ictimai həyatın bütün sahələrinə geniş daxil olması ilə bağlıdır. Həyatın bütün sahələrində informasiya vasitələrindən və texnologiyalarından geniş istifadə olunduğu bir şəraitdə insanların cəmiyyətdə yaranmış informasiya mühitindən səmərəli istifadə etmələri üçün, onların müvafiq mənəvi-psixoloji və peşə hazırlığına, yüksək informasiya mədəniyyətinə və səriştəliliyinə malik olmaları tələb olunur. Bununla yanaşı, müasir dövrdə informasiya vasitələrindən və mənbələrindən istifadəyə həddən artıq vaxt sərf olunması insanlarda, xüsusilə də gənclərdə, informasiya mənbələrinə və vasitələrinə həddən artıq aludəçilik və onlardan asılılıq sindromunun formalaşmasına səbəb ola bilər.

Daima artmaqda olan informasiya yükünün təsirindən həmçinin, insanların fiziki və psixi sağlamlığı üçün risklərin, psixoloji gərginliyin, stresslərin çoxalması müşahidə

olunur. Bundan başqa, informasiya proseslərinin intensivliyinin artması fonunda insanların həyatında və inkişafında müsbət meyllərlə yanaşı, şəxsiyyətlərarası münasibətlərin və ünsiyyətin insanların həyatında xüsusi çəkisinin azalması, onların özlərinə qapanması, insanların bir-birindən yadlaşması kimi arzu olunmayan sosial-psixoloji meyllərin yaranmasına gətirib çıxarda bilər.

Müasir dövrdə artmaqda olan informasiya yükünün və proseslərinin, insanların davamlı inkişafına, həyat və fəaliyyətlərinə, sağlamlığına mənfi təsirlərinin zəiflədilməsi və aradan qaldırılması, onların şəxsiyyətinin, mənəvi və fiziki inkişafının mühüm sosial-psixoloji amilləri olan, şəxsiyyətlərarası münasibətlərə və ünsiyyətə olan təbii insani tələbatlarının dolğun təmin olunmasına nail olunmalıdır.

Beləliklə, sosial-psixoloji təhlillər müxtəlif sosial qrupların, subyektlərin, insanların fərdi-psixoloji xüsusiyyətlərinə əsaslanan, onların daha optimal və ünvanlı inkişaf texnologiyalarının hazırlanması üçün, elmi-psixoloji əsas və oriyentir kimi çıxış edir.

**Ədəbiyyat:**


1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. 2012
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013
3. Ələkbərov U. İnsan inkişafının əsasları. Bakı: Azpoliqraf, 2016.
4. Ананьев Б. Г. О проблемах современного человекознания. М.: Наука , 1977.
5. Кедров Б.М. Классификация наук, т. 11. М., 1965.
6. Речь Л.Бюффона (1707-1788) 25 августа 1763 г. при избрании его в члены Французской академии.
7. О человеческом в человеке / Под общ. ред. И.Т.Фролова. М.: Политиздат, 1991. -384 с., с. 3.


***Açar sözlər:*** *insan, fərdi üslub, təhsil, insan inkişafının özünəməxsusuğu, insan inkişafının psixologiyası*

**Bayram Hagverdiyev**
*Associate Professor of Philosophy and Social Psychology,*
*the Academy of Public Administration under the President*
*of the Republic of Azerbaijan, PhD in Psychology*

## SOCIAL AND PSYCHOLOGICAL PROBLEMS OF HUMAN DEVELOPMENT

### SUMMARY

Sustainable human development is one of the key directions of the strategy of the government for transforming oil capital into human capital. It is crucial to study the psychological laws of sustainable human development in order to establish a mechanism for sustainable human development. Psychological approach allows people to view themselves not only as an object, but also as an active participant and subject of their development.

Consideration of human development throughntheir particular qualities and styles allows us to understand each individuals' path of development. According to the French philosopher Buffon, who strongly supports the idea «The Style is the Man Himself» explains us considering and

purposefully influencing the lifestyle, the style of thinking of a person can achieve the desired result in its development. In order to achieve the desired improvement in young people, they need to achieve the formation of their knowledge and skills, practical thinking and professional qualities. At the same time, the development of young people finds its own psychological expression as a result of their knowledge acquired in education, their psychological regulators and motives. For the development of students in the desired direction, it is necessary to ensure that the knowledge gained in the educational process contributes to the formation of their practical thinking and professional qualities. The psychological parameters of the development of students are expressed in the transformation of the knowledge they have mastered, into psychological regulators and the motives of their behavior.

***Key words:*** *Human, Individual Style, Education, The Originality of Human Development, Psychology of Human Development*

**Байрам Ахвердиев**
*Доцент кафедры Философии и социальной психологии*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по психологии*

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ЧЕЛОВЕЧЕСКОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

Устойчивое развития человека является одним из направлений реализации стратегии государства по превращению нефтяного капитала в человеческий капитал. Для создания эффективных механизмов управления устойчивым развитием человека важное значение имеет изучение его психологических закономерностей. Психологический подход позволяет рассматривать человека не только объектом, но и как субъектом, активно участвующем в своем развитии. Рассмотрение развития человека через призму его индивидуальных особенностей и стилей позволяет понимать индивидуальные пути развития отдельных людей. По выражению французского естествоиспытателя Бьюфона, «стиль - это человек», а это значит, что, учитывая и целенаправленно воздействуя на стиль жизни, стиль мышления человека, можно добиться желаемого результата в его развитии. Для развития студентов в желаемом направлении необходимо добиваться, чтобы полученные знания в учебном процессе способствовали формированию у них практического мышления и профессиональных качеств. Одновременно, развитие молодежи находит свое психологическое выражение в превращении полученных ими во время образования знаний в психологических регуляторов и мотивов их деятельности.

***Ключевые слова:*** *человек, индивидуальный стиль, образование, своеобразие человеческого развития, психология человеческого развития*

# SOSİOLOGİYANIN NƏZƏRİYYƏSİ, METODOLOGİYASI VƏ TARİXİ
# THEORY, METHODOLOGY AND HISTORY OF SOCIOLOGY

**İNŞALLAH QAFAROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəetməsi və menecment kafedrasının dosenti, sosiologiya üzrə fəlsəfə doktoru**
*e-mail: qafarov_az@mail.ru*

## AZƏRBAYCAN KƏNDİNİN SOSİAL-İQTİSADİ MƏNZƏRƏSİ (1920-1926-cı illər)

Öz müstəqilliyini bərpa etdikdən dərhal sonra Azərbaycan bütün dünyaya sivilizasiyanın ən böyük nailiyyətlərindən olan demokratik dövlət və vətəndaş cəmiyyətinin qurulması yolunu seçdiyini bəyan etdi və Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dərin islahatlara başladı. Tarix üçün çox da böyük dövr hesab edilməyən zaman çərçivəsində regionun ən qüdrətli dövlətlərindən birinə çevrildi. «Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrət çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur. Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqilliyinə nail olmaq üçün xalqımız çox çətin yollardan keçmişdir» [1, s.209].

Ulu öndərin qeyd etdiyi kimi çətin yollar sovet dövrünün ilk illərində Azərbaycan kəndində özünü qabarıq şəkildə göstərmiş, xalqımızı ağır sınaqlara çəkmişdir. Təhlil olunan dövrün araşdırılması zamanı əsas vəzifəmiz kənd ahalisinin o dövrki sosial-iqtisadi vəziyyətini təhlil etməkdən ibarət olmuş və yalnız sosioloji araşdırmalara məxsus spesfik yanaşma metodlarından (kontent analiz, bioqrafik metod və s.) istifadə edilmişdir.

Təhlillər zamanı sosioloqların əksəriyyəti tərəfindən qəbul edilmiş belə bir müddəa əsas götürülmüşdür ki, iqtisadi sosiologiya və iqtisadi nəzəriyyələr bir birindən tədqiqat obyekti və hətta tədqiqat metodlarına görə deyil, öz vəzifələri və sosial-iqtisadi münasibətlərin araşdırılmasına spesifik yanaşma tərzinə görə fərqlənirlər [9, N:1, s.12].

1920-ci illərin I yarısı (1921-1926-cı illər) Azərbaycan kəndinin tarixinə olduqca ziddiyyətli sosial-iqtisadi münasibətlər, ağır məşəqqətlər və dərin iqtisadi böhranlar dövrü kimi daxil olmuşdur. Bütün bu çətinliklər iki mənbədən qidalanırdı: 1. Daşnak-bolşevik birləşmələrinin Azərbaycan ərazilərində xalqımıza qarşı əsl soyqırım törətməsi. 2. Lenin hökumətinin başlıca istehsal vasitəsi olan torpağa yeni münasibəti.

Qeyd edildiyi kimi, təhlil olunan dövürdə Azərbaycan kəndinin vəziyyəti olduqca acınacaqlı idi. Sovet tarixçilərinin vətəndaş müharibəsi adlandırdıqları erməni-azərbaycan müharibəsi əslində xalqımıza qarşı əsl soyqırım idi. Belə ki, Ermənilər Zəngəzurda, Qarabağda, Bakıda, Qubada, Lənkəranda, Şamaxıda, Naxçıvanda və s. yerlərdə saysız-hesabsız Azərbaycan kəndini darmadağın etmişlər. Daşnaklar əhalini kütləvi surətdə qırır, kəndləri yandırır, mal-qaranı sürüb aparırdılar. Tevonun başçılıq etdiyi belə bandalar hətta 1921-ci ildə də Qarabağda və Zəngəzurda bu vəhşilikləri davam etdirirdi. Bu dəstələrdən biri Qubadlı qəzasında kəndlilərdən 6 min baş heyvanı və 25 min puddan artıq taxılı zorla almışdır. Ümumən, təkcə Zəngəzur qəzasında 100-dən artıq müsəlman kəndi darmadağın edilmiş, bağlar, əkin sahələri məhv edilmiş, 50 mindən

çox qaçqın kütləsi meydana gəlmişdir. Təxmini hesablamalara görə ölkəyə milyard manata yaxın maddi zərər vurulmuşdur. Bu qırğınlar xüsusilə bolşevik maskası geymiş daşnakların nüfuzlu olduğu Bakı Kommunasının Bakı quberniyasında hökmranlıq etdiyi dövrdə (aprel 1918 – iyul 1918) özünün ən yüksək zirvəsinə çatmışdı. Məhz bu vaxt 636 azərbaycanlı kəndi darmadağın edilmiş, 30 min ev yandırılmışdır. Bakıda 6 mindən çox müsəlman öldürülmüşdü.

Suvarma sistemi bərbad hala düşmüşdür. Məsələn, Muğanda suvarma kanallarının su buraxılışı 4 dəfə azalmışdır. Nəticədə, suvarılan torpaqlar Muğan üzrə 1917-ci ildəki 102 min desyatindən 1920-ci ildə 8 min desyatinə enmişdir. Əgər 1915-ci ildə Azarbaycanda 900 min desyatin torpaq suvarılırdısa, 1920-ci ildə bu rəqəm 615 min desyatinə düşmüşdür. Azərbaycan üzrə ümumi əkinə yararlı torpaq sahəsi 1914-cü illə müqayisədə 42% azalmışdır. Kənd təsərrüfatında xüsusi yeri olan pambıqçılıq öz fəaliyyətini demək olar ki, dayandırmışdır. Belə ki, 1921-ci ildə pambıq əkilmiş sahə müharibəyə qədərkinin cəmi 2,3%-ini təşkil etmişdir. Bağçılıq və üzümçülük təsərrüfatlarında da məhsuldarlıq müharibəyə qədərki dövrə nisbətən 9 min desyatin azalmışdır. İri buynuzlu heyvanların sayı 1921-ci ildə 1913-cü ilə nisbətən 40% aşağı düşmüşdür [6, N:3, s.139].

Azərbaycan kəndinin ağır məşəqqətlərə və dəhşətli zülmlərə məruz qalmasının digər səbəbi isə bolşeviklərin 1920-ci il aprel çevrilişindən sonra kənddə həyata keçirdikləri və yalnız siyasi məqsədlərə xidmət edən zorakılıq siyasəti idi. Belə ki, Lenin hökuməti milyonlarla kəndlisi olan ölkədə əhalinin əsas hissəsini öz tərəfinə çəkmək üçün hələ 1917-ci ilin oktyabrın 25-də «Torpaq haqqında dekret» vermişdir. Qanuna görə Rusiyadakı torpaqlar müsadirə edilməli və əvəzsiz olaraq kəndlilər arasında bölüşdürülməli idi. Lakin həmin qanun nə konstitusiya ilə təsbit olunmuş, nə hüquqi cəhətdən qüvvəyə minmiş, nə də həyata keçirilmişdir. Bir qədər sonra isə bütün torpaqlar Dövlət Fondu elan edilmiş, milliləşdirmə adı ilə kəndlilər faktiki olaraq torpağın əsl mülkiyyətçisi olmaq imkanından məhrum edilmiş, başlıca istehsal vasitəsi olan torpaq onlardan alınmış, kənddə kommunalar, artellər yaradılmaqla kənd əhalisinin proletarlaşdırılması siyasəti həyata keçirilməyə başlanmışdır.

Leninin kəndliyə elliklə, bir tam kimi xüsusi mülkiyyətçi qismində yanaşılması prinsipi bolşeviklərin aqrar sahədə həyata keçirdiyi tədbirləri qeyri-ardıcıl və qeyri-məntiqi şəkilə salırdı. Məsələn, 1920-ci il aprel çevrilişindən sonra Azərbaycan kəndində çoxukladlılıq hökm sürürdü. Lakin kənddə həyata keçirilən siyasət çoxukladlı strukturun ziddinə olaraq bu və ya digər silkin, sinfin və ya təbəqənin, xüsusilə hakimiyyətin aysberq zirvəsində özünə yuva qurmuş totalitar rejimin dövlət-inhisarçı mənafeyinə xidmət edirdi. Hökumət kənddə gedən ictimai təbəqələşməni nəyin bahasına olursa olsun, öz xeyrinə həll etməyə çalışırdı. Odur ki, öz siyasətində bütöv bir sinfə və ya təbəqəyə qarşı əsl vətəndaş müharibəsi elan edir və bunu gizlətmirdi. Lenin yazırdı: "Qolçomaqlar bizim qəddar düşmənlərimizdir. Onlara qarşı... bizim ancaq bircə siyasətimiz - "...zorakılıq" vardır." Burada orta bir şey, "barışıq" ola bilməz. Qolçomağın mülkədar və keşişlə arası dəymiş olsa da onları barışdırmaq olar və barışdırmaq asandır, lakin qolçomağı fəhlə sinfi ilə barışdırmaq olmaz" [4, c.38, s.8]. Başqa bir əsərində o, kənddə qanlı mübarizəyə çağırarkən bunu belə əsaslandırırdı: "Bizim şəraitimizdə qolçomaqlar müharibə zamanı xalqın ehtiyacından istifadə edərək varlanmışdılar, taxıl və başqa məhsulların qiymətini qaldıraraq yüz minlərlə pul toplamışlar, müharibə üzündən var-yoxdan çıxmış kəndlilər hesabına daha çox varlanmışlar, mülkədar torpaqlarını öz əllərinə keçirmişlər, yoxsul kəndliləri əsarət altına almışlar. Bütün bunlar qolçomaqlara qarşı amansız olmağı, onları bir sinif kimi ləğv etməyi tələb ediridi” [2, c.38, s.44-45].

Özünü "Proletar diktaturası" adlandıran hökumətin kənddə yeritdiyi siyasət həmişə şəhərə nisbətən özünün daha çox kobudluğu

və qəddarlığı ilə fərqlənirdi. Bu zənnimizcə onunla izah edilməlidir ki, kənddə özünün bütün varlığı ilə torpağa bağlı olan varlı kəndlilərdən torpağı alıb başqasının istifadəsinə vermək kütləvi narazılığa səbəb olur, sinfi düşmənçiliyi alovlandırırdı. Həyata keçirilən siyasət Rusiyanın ayrı-ayrı regionlarında, Ukraynada və başqa yerlərdə kütləvi kəndli ixtişaşları ilə müşahidə olunurdu. Ukraynada Maxonun, Tambov quberniyasında Antonovun başçılıq etdiyi kəndli qiyamları amansızlıqla yatırılmışdır. Bu dəstələrin hər birində 50 mindən çox kəndli döyüşürdü. Qərbi Sibirdə belə qiyamlarda 60 min kəndli iştirak edirdi. Lakin heyətinin tərkibinin 80%-i kəndlilərdən ibarət olan və tarixə «Naməlum inqilab» adı ilə daxil olan Kronştat dənizçilərinin qiyamı da geniş miqyas almış və xüsusi qəddarlıqla yatırılmışdır. Ümumiyyətlə, 1921-1923-cü illərdə Qızıl ordu kəndli üsyanlarını yatırmaqla məşğul idi. Bolşevik hökumətinin uzun illər tarixçilər tərəfindən tərənnüm edilən aqrar siyasəti geniş kütlələr tərəfindən belə «alqış-lanırdı».

Aprel çevrilişindən dərhal sonra Sovet hökuməti Rusiyada əldə etdiyi «təcrübəni» Azərbaycanda tətbiq etməyə başladı. Hökumət qərar və qətnamələrində Rusiyada həyata keçirilən aqrar siyasətin burada da həyata keçirilməsini tələb edirdi. [4, f.1, siy.1, iş 14, N:13] Şübhəsiz ki, qədim tarixə, əkinçilik mədəniyyətinə, özünün zəngin adət-ənənəsinə dərin hörmət bəsləyən Azərbaycan kimi məmləkətdə belə tədbirlər daha böyük faciələrə və narazılıqlara səbəb olurdu.

Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 5-də «Torpaq haqqında dekret» verdi. Dekretdə deyilirdi: Xanların, bəylərin, mülkədarların bütür torpaqları, həmçinin bütün monastr, kilsə, vəqf və məscid torpaqları, bütün canlı və cansız əşyaları ilə birlikdə heç bir ödənc (gizli və ya açıq) alınmadan, torpaqdan bərabər istifadə edilməsi əsasında dərhal zəhmətkeş xalqa verilsin. Bu dekreti sürətlə və tam şəkildə həyata keçirmək, ümumdövlət əhəmiyyəti kəsb edən təsərrüfatların toxunulmazlığını təmin etmək, torpaqları və avadanlığı planlı surətdə bölmək məqsədi ilə yerlərdə qəza və kənd komitələri təşkil edilir. 1920-ci ilin mayın 15-də Azərbaycan İnqilab Komitəsi «Meşələrin, su və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında» dekret imzaladı. Həmin dekretə əsasən isə meşələr, su və yeraltı sərvətlər Azərbaycan İnqilab Komitəsinin sərəncamına verilir və dövlət mülkiyyəti elan olunurdu.

Hökumət bu qanunun yerlərdə çox böyük narazılıqlar yaradacağını əvvəldən bilirdi. Odur ki, bu işə yerlərdə rəhbərlik etmək üçün Azərbaycan Xalq Torpaq Komissarlığı tərəfindən «Qəza və kənd torpaq komitələri haqqında əsasnamə təsdiq edildi. Qəbul edilmiş Əsasnaməyə görə Qəza İnqilab komitələri nəzdində Qəza torpaq komitələri yaradılır. Digər ən mühüm tədbir 1920-ci il sentyabrın 23-də Azərbaycan İnqilab Komitəsinin kənddə Yoxsul komitələrinin yaradılması haqqında qərar verməsi idi. Yoxsul komitələrinin əsas vəzifəsi varlı kəndlilərdən, mülkədarlardan, məscid və monastırlardan bütün əşyaları, taxılı, torpağı, ərzağı, bağları, üzümlükləri, mal-qaranı, bütün daşınan və daşınmaz əmlakı müsadirə etmək, onları torpaqsız va aztorpaqlı kəndlilər arasında bərabər surətdə bölüşdürmək idi. Hökumətin əsl vətəndaş müharibəsinə səbəb olan bu siyasətinin yeganə məqsədi kənddə özünə dayaq tapmaqdan və kənddə sinfi təbəqələşməni Proletariat inqlabının xeyrinə həll etməkdən ibarət idi. Kənddə həyata keçirilən vergi, kredit, qiymət və s. iqtisadi siyasət ölkədəki real vəziyyətlə uzlaşdırılmır, yalnız sinfi xarakter daşıyır və qeyd olunan məqsədlərə xidmət edirdi.

Kənddə həyata keçirilən siyasət özünün acı nəticələrini Rusiyada hələ Müvəqqəti hökumət zamanından tətbiq olunan "Hərbi kommunizm" siyasətinin Azərbaycanda İnqilab Komitəsinin 1920-ci il 26 avqust va 22 oktyabr tarixli qərarları ilə həyata keçirilməyə başlandığı vaxtdan etibarən daha güclü surətdə təzahür etdirməyə başladı. Hakimiyyət orqanları kənddə əsl soyğunçuluq edirdilər. Məsələn, Azərbaycan “Fövqəladə komissiyası"nın məlumatına görə Qazax qəzasında sapalaq

normasında nəzərdə tutulmuş 49.500 pud əvəzinə 72.772 pud ət, 2500 puda qarşı 128.110 pud taxıl tədarük etmişdir. [4, f.1, siy.125, iş 45, v.80] Lənkəran qəzasında isə ərzaq saplağı həttə üç dəfə artıqlaması ilə alınmışdır [4, f.1, siy.125, iş 45, v.192].

"Hərbi kommunizm" siyasəti dövründə kəndlilərin xeyli hissəsi "artıq taxılı alacaqlar”-deyə təsərrüfatdan lazımi səviyyədə istifadə etmirdilər. Bu isə nəticədə bir çox əkin sahələrinin xam qalmasına, becərilməməsinə gətirib çıxarırdı. Məsələn, Gəncə qəzasında kəndlilər arasında bölüşdürülmüş 264547 desyatin torpağın 83% -dən çoxu həm də məhz həmin səbəbdən becərilməmiş qalmışdır [8, s.25]. Hökumətdən narazı olan kəndlilər məhsulu gizlədir, onu təhvil verməkdən imtina edirdilər [3, f. 2478, siy. 1, iş 53, No 82].

Ərzaq sapalağı sahəsindəki ağır qarət əkinçilikdə olduğu kimi heyvandarlıqda da özünü “parlaq" göstərirdi. Artıq heyvanlar kəndlilərdən zorla alınırdı. Buna görə də kəndlilər heyvanları ya kəsir, ya da sürüb sərhəddən o tərəfə - İrana keçirirdilər. Nəticədə respublikada iribuynuzlu heyvanların sayı 1917-ci ildəki 960 min başdan 1921-ci ilin sonunda 600 min başa, qoyunların sayı isə 2 mln. 400 min başdan 700 min başa enmişdir. [4 , f.1, siy.125, v.192]

Ümumiyyətlə, hökumətin ucqarlarda həyata keçirdiyi siyasət mərkəzə nisbətən daha amansız idi. Ərzaq sapalağı qanunlarına görə nəinki məhsul artıqlığı, hətta istehsalçının istehlakı üçün zəruri olanın da bir hissəsi dövlət tərəfindən alınırdı. Azərbaycanda isə bu məhsul sadəcə olaraq müsadirə edilirdi. Şübhəsiz ki, bütün yuxarıda göstərilən tədbirlər məhsuldarlığın artırılmasına olan maddi maraq prinsipinə zidd idi.

Şübhəsiz qeyd olunan siyasət kəndin sosial strukturunun bu və ya digər ukladın xeyrinə dəyişməsinə öz təsirini göstərməli idi. Mərkəzdən diktə edilən təbəqələşmə prosesi Rusiyaya nisbətən Azərbaycanda bir qədər başqa idi. Belə ki, Rusiya başdan-başa aqrar ölkə idi. Burada kəndlilərin böyük əksəriyyəti taxılçılıqla məşğul olurdular. Azərbaycanda isə kəndlilər taxılçılıqla yanaşı türk-oğuz etnosunun tarixi təkamülündən doğan köçəri maldarlıqla da məşğul olurdular. Maldarlıq aparıcı sahələrdən biri idi. Odur ki, Azərbaycanda iri torpaq sahələri olan və mal-qara saxlamaq üçün böyük sahələri icarə edən kəndli-maldar qolçomaqlar var idi. Məhz buna görə də Azərbaycan kəndində gedən sosial təbəqələşmə prosesini tədqiq edərkən üç təsərrüfat tipini - taxılçılıq, maldarlıq və pambıqçılığı bir birindən fərqləndirmək vacibdir. Kollektivləşməyə qədərki dövrdə bu təsərrüfat tiplərinin hər birində gedən təbəqələşmənin özünəməxsus xüsusiyyətləri var idi. Qolçomaq təsərrüfatı xüsusilə pambıqçılıq və heyvandarlıqla məşğul olan qəzalarda inkişaf etmişdi.

Lakin zaman göstərirdi ki, iqtisadiyyatı hərbi metodlarla uzun zaman ərzində idarə etmək olmaz. L.D.Trotskinin hələ 1920-ci ilin fevral ayında irəli sürdüyü ərzaq sapalağını ərzaq vergisi ilə əvəz etmək haqqında rədd edilmiş təklifinin əhəmiyyətini həyat təkidlə tələb edir və dönə-dönə təsdiqləyirdi.

Azərbaycanda Yeni iqtisadi siyasətə keçid İnqilab Komitəsinin 1921-ci il 17 may tarixi "Bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında" dekreti ilə başlandı. Qanuna görə ərzaq sapalağı bütövlükdə ləğv edilir, ərzaq vergisi tətbiq olunurdu. Lakin o vaxt Azərbaycan kəndində mövcud olan dağıntı, yolsuzluq, pərakəndəlik, eyni zamanda, demoqrafik, siyasi və iqtisadi vəziyyət vergi toplamaq üçün külli miqdarda xərc tələb edirdi. Fikrimizcə on illər ərzində bir çox nüfuzlu tarixçilərimizin iddia etdiklərinin əksinə olaraq, Azərbaycan kəndlilərinin YİS-in ilk ilində hər hansı bir vergidən azad edilmələrinin səbəbi heç də Moskva bolşeviklərinin azərbaycan kəndlisinə “məhəbbəti” ilə deyil, burdakı həmin obyektiv va subyektiv çətinliklərlə izah edilməlidir. Hökumətin sonralar həyata keçirdiyi vergi siyasətinin praktik ağırlığı bunu bir daha sübuta yetirdi. Belə ki, tezliklə Azərbaycan SSRİ Sovetlər qurultayının qərarı ilə adambaşına 20 girvənkə miqdarında könüllü "çanaq” müəyyən edilmişdir. Keçmiş Sovet hökumətinin indiki nəslinə "könüllülük" prinsipinin

nə demək olduğu çox yaxşı məlumdur. Qırmızı bolşevik qaydası ilə 1922-ci ilin əvvəlinə qədər Şamxor qəzasında Bakıya 125 vaqon taxıl, 180 vaqon heyvan yola salınmışdır [5, N: 3, səh.88] Ancaq, bu metod da hökuməti qane etməmişdir. Odur ki, Azərbaycan K(b)P MK-nin siyasi təşkilat bürosu 1921-ci il iyulun 31-də könüllü surətdə "çanaq" verilməyən yerlərdə onun məcburi surətdə alınması haqqında qərar verdi. Lakin çox çəkmədi ki, bu qərar Azərbaycanın bütün yerlərində tətbiq olunmağa başlandı. Vergi toplanmasındakı özbaşınalıq YİS dövründə də özünü bariz şəkildə göstərirdi. Məsələn, AzSSR-nin 1923-cü il may ayında hazırlanmış İqtisadi məlumatında deyilirdi ki, keçən il ərzaq vergisinin miqdarı 1 mln. pud idi, ancaq 2 mln. pud alınmışdır [9, s.20].

Kəndli - torpaq münasibətlərinə, kəndin iqtisadi və siyasi həyatına güclü təsir edən və yalnız proletariat diktaturasının mənafeyinə xidmət edən ən mühüm qanunvericilik aktlarından biri də 1923-cü ildə Azərbaycanda yeni torpaq məcəlləsinin qüvvəyə minməsi idi. Həmin qərara əsasən Azərbaycan İnqilab Komitəsinin "Torpaq haqqında" və "Meşə, su və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında" 1920-ci il 5-15 may tarixli qərarları, Xalq Torpaq Komissarlığının "İstifadəsiz qalmış torpaqların (kənd təsərrüfatı əhəmiyyətinə malik olan) icarəyə verilməsi haqqında" 1922-ci il 1 mart tarixli qərarı və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin “Torpaqdan istifadə və torpaq mübahisələrinin həll edilməsi haqqında" 1922-ci il 26 aprel tarixli qərarları ləğv edilirdi. Yeni torpaq məcəlləsinin əsas prinsipi ondan ibarət idi ki, ümumiyyətlə torpaq üzərində xüsusi mülkiyyət birdəfəlik ləğv edilir, torpaq kimin ixtiyarında olmasından, kim tərəfindən becərilməsindən asılı olmayaraq vahid Dövlət fondu hesab olunurdu. Beləliklə, bolşeviklər uzun illər kəndliyə vəd etdikləri torpağı dövlət mülkiyyəti elan etdilər.

Hökumətin kənddə qolçomaqların müqavimətini qırmaq və kəndin sinfi tərkibini öz xeyrinə dəyişmək üçün həyata keçirdiyi siyasət öz nəticələrini verməkdə idi. O dövrki statistik məlumatların analizi 1921-1926-cı illərdə Azərbaycan kəndinin sosial-iqtisadi strukturunun iş heyvanlarına əsasən dinamikasının aşağıdakı mənzərəsini əldə etməyə imkan verir.

| Hər 100 təsərrüfat üçün: | | | | |
|---|---|---|---|---|
| **Təsərrüfat qrupları** | **İş heyvanı olmayanlar 1921-1925** | **1 baş iş heyvanı olanlar 1921-1925** | **2-3 baş iş heyvanı olanlar 1921-1925** | **4 başdan olanlar 1921-1925** |
| **Torpaqsızlar** | 76,4 – 87,6 | 14,1 – 8,4 | 8,8 – 3,8 | 0,5 – 0,2 |
| **Aztorpaqlılar** | 46,0 – 54,0 | 27,4 – 20,0 | 25,4 – 23,9 | 1,2 – 1,0 |
| **Ortabablar** | 21,9 – 11,1 | 28,5 –16,9 | 43,9 – 59,4 | 6,2 – 12,6 |
| **İri torpaq sahəsi olanlar** | 13,6 – 3,5 | 23,9 – 4,4 | 49,2 – 38,8 | 13,2 – 53,3 |

Cədvəldən göründüyü kimi, zaman keçdikcə iş heyvanlarının sayı bütün qruplarda azalırdı. Maraqlıdır ki, hökumətin siyasətinin əksinə olaraq az torpaqlı təsərrüfatlarda da surətlə azalma baş vermişdir. Belə təsərrüfatlarda iş heyvanlarının sayı 1921-ci illə müqayisədə 50% qalmışdır. Torpaqsız və aztorpaqlı təsərrüfatlarda iş heyvanı olmayanlarının sayının artmasının mühüm səbəbi o idi ki, buradakı kəndlilər öz təsərrüfatlari ilə birlikdə ortabab qrupa keçirdilər. Göründüyü kimi, ortabab kəndlilərdə isə əksinə iş heyvanı olmayan və ya bir heyvanı olan təsərrüfatların sayı azalmış, 2-3-4 və daha çox iş heyvanı

olanların sayı isə artmışdır. Nəhayət, iri torpaqlı təsərrüfatlarda iş heyvanı olmayanlar 2 dəfə, bir baş iş heyvanı olanlar 6 dəfə azalmış, çoxqoşqulu təsərrüfatların sayı isə 4 dəfə artmışdır.

Beləliklə, o dövrdəki materialları araşdırarkən məlum oldu ki, bolşevik hökumətinin kənddə yeritdiyi siyasət kənddəki bütün təsərrüfat formalarına, sosial təbəqələrə münasibətdə sivilizasiyalı bazar iqtisadiyyatı istiqamətində bərabər şərait yaratmaq məntiqinə deyil, siyasi səciyyə daşımış və bütün bunlar kəndlilərin içərisində kütləvi narazılığa səbəb olmuşdur. Qeyd edək ki, kəndli sinfinə belə münasibət sonrakı illərdə də davam etdirilmiş və ağır nəticələr vermişdir. Lakin zaman sübut etdi ki, sənayedə tətbiq edilən ictimailəşmənin kənd təsərrüfatına şamil edilməsi çox böyük tarixi səhv idi. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi təsdiqləyir ki, kənd təsərrüfatı inkişafının yeganə düzgün yolu müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadiy-yatıdır, xüsusilə də fərdi fermer təsərrüfatlarının inkişafıdır. Hazırda respublikamızın tam müstəqillik yolu ilə irəliləməsi, demokratiyanın inkişafı, mülkiyyətə yeni münasibət, başlıca istehsal vasitəsi olan torpağın özəlləşdirilməsi və istehsalçının mülkiyyətinə verilməsi sübut edir ki, respublikamızın kənd əhalisi arasında sosial-iqtisadi təbəqələşmə öz təbii inkişaf yolunu tapmaqdadır.

**Ədəbiyyat:**


1. Heydər Əliyev «Müstəqilliyimiz əbədidir», Bakı, 1997
2. Lenin V.İ. ƏTK
3. Azərbaycan Respublikası Dövlət Arxivi
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA)
5. Zeynalov K.Ş. «Azərbaycanda «Hərbi kommunizm» və Yeni iqtisadi siyasətə keçidin xüsusiyyətləri haqqında» // Azərb. Respublikası EA Xəbərləri. Tarix, Fəlsəfə və Hüquq seriyası, 1986
6. Azərbaycan Respublikası E.A Xəbərləri. Tarix, Fəlsəfə va Hüquq seriyası 1989, N:3
7. Гусейнов А.Ф. «Преобразование социально-экономической структуры Азербайджана», Баку, 1981
8. Радаев В.В. «Еще раз о предмете экономической социологии» Социологические исследования, 2002, N:1
9. Экономическая сводка АССР за май 1923 года. Экономический Вестник Азербайджана N: 11 (40), июнь 1923.


***Açar sözlər:*** *yeni iqtisadi siyasət, erməni şovonizmi, bolşevik-daşnak birliyi, torpaq islahatı, hərbi kommunizm siyasəti*

**Inshallah Gafarov**
*Associate Professor of Public Administration and Management*
*Department of the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan, PhD in Sociology*

## SOCIO-ECONOMIC IMAGE OF THE AZERBAIJANI VILLAGE (1920-1926)

### SUMMARY

The article researches the socio-economic situation of the Azerbaijani village in the early years of its existence. According to the analysis of archival materials, the author concluded that there are two reasons for unbearable conditions of the Azerbaijani village.

1. The policy of genocide which was nationally carried out by the Dashnaks and the Bolsheviks. This policy of genocide has resulted in the destruction of hundreds of villages and the entire massacre of the population. So, for a long time, even until the mid-1920s, the Azerbaijani village could not recover itself and it was impossible to restore the former situation.

2. Miserable and negligent land policy of the Soviet government in the village. The policy was often changed and the little progress made by farm leaders was destroyed and as a result peasants lost their possessions and was left without land.

Thus, acquaintance with the article gives a complete socio-economic image of the Azerbaijani village in 1920-1926.

***Key words:*** *New Economic Policy, Armenian Chauvinism, Bolshevik-Dashnak Solidarity, Land Reform, Military Communist Policy*

**Иншаллах Гафаров**
*Доцент кафедры Государственного управления и менеджмента*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по социологии*

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ КАРТИНА АЗЕРБАЙДЖАНСКОЙ ДЕРЕВНИ (1920-1926-е годы)

### РЕЗЮМЕ

В данной статье исследовано социально-экономическое положение азербайджанской деревни в первые годы своего существования. Основываясь на анализах архивных материалов, автор приходит к такому выводу, что существуют две причины неприемлемого положения Азербайджанской деревни.

1.Политика геноцида на национальной почве, проводимая дашнаками и большевиками. Эта политика геноцида привела к уничтожению сотен деревень и высылке населения. Долгое время, до середины 20-х годов, азербайджанская деревня не могла выйти на первый план, было невозможно восстановить прежнюю ситуацию.

2.Извращенная и бесспорная земельная политика советского правительства в деревне. Эта политика часто менялась, и происходило разрушение класса руководителей ферм, которые мало продвинулись в своей жизни, исчезли из деревни, и в конечном итоге, крестьяне остались без земли.

Таким образом, ознакомление со статьей дает полную социально-экономическую картину азербайджанской деревни в 1920-1926 годах.

***Ключевые слова:*** *новая экономическая политика, армянский шовинизм, большевистско-дашнакское единство, земельная политика, политика военного коммунизма*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

**BƏXTİYAR NƏBİYEV**
**Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix elmləri üzrə fəlsəfə doktoru**
*e-mail: bextiyar030@hotmail.com*

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN STRATEJİ YANAŞMA METODU

Ümummilli Lider Heydər Əliyevin strateji yanaşma metodunun geosiyasi miras kimi araşdırılması olduqca böyük əhəmiyyətə malikdir. Təbii ki, milli dövlətçilik məsələlərini diqqətdə saxlayan bütün siyasi xadimlər və elmi fəaliyyət insanları bunu xüsusi olaraq vurğulayırlar. Azərbaycanın strateji geosiyasi, ideoloji, sivilizasion vektorlarının seçilməsi, dövlət yaradıcılığının hansı institutsional genezis formalarına önəm verilməsi, intellektual, siyasi, iqtisadi resursların səfərbər edilməsi, cəmiyyətin siyasi palitrasındakı ən müxtəlif mənbələrdən idarə olunan, ziddiyyətli siyasi maraq və oriyentasiyaları bir nüvədə cəmləməyə, bir hədəfə vurmağa nail olmaq siyasət dahisinin – Heydər Əliyevin xidmətlərinin yekunudur (5, 10). Ümummilli lider Heydər Əliyev öz möhkəm iradə və dühası ilə XX əsrin iki qüdrətli super gücündən birinin idarəçiliyində yüksək vəzifələr tutmuşdur (8, 17).

Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin milli inkişafı ilə bağlı praktiki addımları - ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi inkişafının məqsəd və vəzifələrinin müəyyən edilməsi, ölkə həyatının bütün sahələrində keçmiş sosialist normalarından imtina edilməsi və yeni prinsiplərə söykənən dövlət quruculuğu proseslərini həyata keçirməsi, milli dövlətin əsas atributlarının yaradılması və s. də SSRİ-nin dağılmasından bir qədər əvvəl, 1991-cü ilin sentyabr ayında Naxçıvan MR Ali Məclisinə sədr seçilməsi ilə başlamış və 1993-cü ildən isə Azərbaycan Respublikasının Prezidenti kimi davam etdirilmişdir. Müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçəndən sonra Ümummilli Lider Heydər Əliyev ölkənin milli ruhlu, qlobal düşüncəli və dövlət təfəkkürlü vətəndaşlarını, bütün sağlam qüvvələri öz ətrafına toplayaraq, dövlətin gələcək iqtisadi, ictimai-siyasi və sosial-mənəvi inkişafının prinsiplərini, məqsəd və vəzifələrini müəyyənləşdirdi, onun keçmiş sosialist ictimai-siyasi və iqtisadi sistemindən yeni hüquqi dövlət quruluşuna, azad bazar iqtisadiyyatı və çoxmülkiyyətli iqtisadiyyata, demokratik normalara və siyasi plüralizmə əsaslanan vətəndaş cəmiyyəti modelinə keçidinin konseptual əsaslarını yaratdı və 1995-ci ildə qəbul olunmuş ölkə Konstitusiyasına daxil etdi. Ümummilli Lider Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici azərbaycançılıq ideyasının – ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, Vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın - Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu (1, 98).

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın milli inkişaf strategiyası mədəniyyət tutumlu suverenlik ideyasına əsaslanırdı. Bu mənada mədəniyyət tutumlu suverenliyin Azərbaycan Respublikasının daxili və xarici siyasətinin özəyi olması fikrini qəbul etmək

lazım idi. Postsovet məkanı üçün bu kurs kifayət qədər yeni olmaqla kreativ siyasi təfəkkür tələb edir. Problemin mahiyyəti də məhz bundadır. Çünki müstəqilliyinə yenicə qovuşan və hər tərəfdən əsassız ittihamlara məruz qalan gənc bir dövlətin xarici siyasətinin möhtəşəm binasının bünövrəsinə bədxah-ların gözünə ox kimi batan zəngin milli mədəniyyəti qoruyub, demokratik dövlət qurmaq olduqca mürəkkəb bir iş idi. Başqa geosiyasi şərtlərlə yanaşı, həm də ona görə ki, Azərbaycana qarşı olan əsassız hiddətin kökündə məhz zəngin, təkrarolunmaz milli mədəniyyət və dövlətçilik ənənələrimizin varlığını bəzilərinin qəbul etmək istəmədiyi dururdu. Ümummilli Lider Heydər Əliyev bütün risklərə sinə gərərək dövlətçilik kursunun əsasına milli mədəniyyət amilini qoydu. Mədəniyyət tutumlu suverenlik ideyası qlobal kontekstdə Azərbaycan üçün çox əhəmiyyətli idi (6, 21). Bundan başqa Ümummilli lider Heydər Əliyev Azərbaycan diasporunun yenidən qurulması siyasətinin müəllifidir (10, 1).

Ulu öndərin müstəqil dövlətçilik, demokratik vətəndaş cəmiyyətinin qurulmasına dair ideya-siyasi irsi əbədi və aktual olduğu kimi, alim və tədqiqatçılar, siyasi analitik və ekspertlər üçün əvəzsiz nəzəri mənbədir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafında məqsədyönlü fəaliyyəti və liderliyi sayəsində planlaşdırılmış hədəflərin uğurla yerinə yetirilməsini təmin edən dinamik inkişaf templəri təmin olunmuşdur (9, 10). Ümummilli Lider Heydər Əliyevə görə, milli ideologiyanın üzərinə düşən bir vəzifə də daxili və xarici siyasətin ortaq məxrəcə gətirilməsi, dövlətin hər iki istiqamətdə ahəngdar fəaliyyəti üçün zəmin hazırlanmasıdır. Burada ideologiyanın milli-fəlsəfi fikirlə əlaqədar olması və dövlət idarəçiliyinin elmə və ictimai fikrə söykənməsi də mühüm şərtdir. İctimai fikrin formalaşmasında dini şüur, əxlaq və adət-ənənə ilə yanaşı, bədii ədəbiyyat, teatr, kino və incəsənətin digər növlərinin də iştirak etdiyi nəzərə alınmalıdır. Bu məsələdə kütləvi informasiya vasitələrinin də üzərinə böyük yük düşür.

Müasir qloballaşma və demokratiya şəraitində informasiya dövlətin nəzarətindən kənara çıxdığından, milli ideologiya prinsipinə əməl edilməsi və onun yad ünsürlərdən qorunması vəzifəsi bütün ictimaiyyətin, hər bir vətəndaşın üzərinə düşür. Milli ideologiya bəşəri dəyərlərlə uzlaşan ümumi qəbul edilmiş mədəni dəyərlərə zidd olmamalıdır. Bu anlayış müasir fəlsəfi, sosioloji, siyasi və s. anlamlarda müəyyən fərqli yanaşmalarla dəyərləndirilsə də, ümumilik təşkil edən əsas və ortaq cəhətlər bunlardır: milli ideologiya millətin mənəvi vahidliyi və ümumiliyi prinsiplərinə və ictimai həyatın bütün sahələrində onun üstün maraqlarına əsaslanan baxışların, təsəvvürlərin və dəyərlərin sistemidir; milli-mədəni mövcudluğun dərk edilməsi və milli ideologiyanın formalaşması bir sıra mühüm komponentdən asılıdır. Buraya tarixi yaddaş, milli mənlik şüuru, mentalitet, milli mədəniyyət, din, inam amili, milli maraqlar, dövlət, geosiyası amillər daxildir (7, 220).

Qeyd edilənlər əsasında onu demək olar ki, məhz Ümummilli Lider Heydər Əliyevin strateji yanaşma metdonun həyata keçməsi Azərbaycan dövlətçiliyinin müasir uğurlarının təməlidir. Azərbaycan Respublikası regional və dünyəvi siyasi, iqtisadi və hərbi proseslərin fəal iştirakçısıdır. Regional müstəvidə ən fəal və müəyyənləşdirici xüsusiyyətlərə malik olması Azərbaycan üçün üstünlüklərə səbəb olur.

1. Bu üstünlüklərin birincisi Cənubi Qafqazın demoqrafik potensialına görə ən böyük ölkə olmasıdır. Milli tərkibinin rəngarəngliyinə baxmayaraq ölkə əhalisi daxilində dövlətçilik şüurunun dominantlığı formalaşdırıla bilmişdir.

2. Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir. Eyni zamanda daha çox ölkə ilə həmsərhəddir. Beynəlxalq tranzit yolları ölkəmizin ərazisindən keçməkdədir.

3. Azərbaycanın iqtisadi potensialı onun dünya bazarında ən yüksək səviyyədə təmsil etməyə imkan verir. Ölkəmiz strateji mahiyyətə malik olan neft-qaz məhsulları ixracatçısıdır. Qeyd edilən üstünlüklərə heç bir region ölkəsi malik deyildir.

Regional proseslərdə Azərbaycan bir sıra hallarda aparıcı və dominant mövqedədir. Yuxarıda göstərilmiş üstünlüklər Azərbaycanın proseslərin mahiyyətinə, gedişatına, forma və xüsusiyyətlərinə təsir etməsinə imkan verir. Buna səbəb kompleks dəstəkliyi amillərdir: ən böyük ölkə, ən zəngin ölkə və dünya siyasi proseslərində "düyün" ölkələrdən olması xüsusiyyəti.

Ölkəmiz nəinki prosesdə iştirak edir, proseslərin bir çoxuna "müəlliflik" edir, onun gedişatını şəkilləndirir, prosesdə iştirak edəcək aktorları müəyyən edir, yaxud müəyyən edilməsində aparıcı söz sahiblərindən biri olur. Məhz bu səbəblə, Azərbaycan torpaqlarını müvəqqəti olaraq işğal edən Ermənistan faktiki olaraq geosiyasi müstəvidə ölkəmizin siyasi kursunun reallaşdırılması nəticəsində "zərərsizləşdirilmişdir". Bütün bunlar ilk növbədə ümummilli lider Heydər Əliyevin konseptual yanaşmasının real təzahürləridir. Ümummilli lider Heydər Əliyev ölkədə sabitlik və dirçəliş prosesini relslərə saldıqdan sonra Ermənistanın "mərhələli və dinc cəzalandırılması" siyasətini ortaya qoydu. Azərbaycan xarici siyasəti ilk öncə Ermənistanı siyasi və diplomatik forpostlarından çıxarmağa başladı. Azərbaycan erməni mifizminə qarşı dünyaya real tərəfdaşlıq təklif etdi.

Ümummilli Lider Heydər Əliyevin konseptual yanaşmaları dərin zəka, faydalı təcrübə, zamanında hərəkət etmə metodikası üzərində qurulmuşdu.

1. Dərin zəka. Ümummilli Lider Heydər Əliyevin dərin zəkası onun məsələlərin mahiyyətini anlamasında, eləcə də gələcək üçün proqnoz xüsusiyyəti daşıyan qənaətlərində özünü göstərirdi. Ümummilli Lider davamlı, sistemli və dərininə işləyən siyasi kursu tələsik, zahirən tez uğur kimi görünən fəaliyyətlərdən üstün saydı. Məhz buna görə bu gün Azərbaycan Cənubi Qafqaz geosiyasi mənzərəsinin müəyyən edicisidir.

2. Faydalı təcrübə. Ümummilli lider Heydər Əliyev keçmiş SSRİ-də ən strateji məsələlərə nəzarət etmiş, daxili və xarici irtibatlarda olmuş geosiyasi təfəkkürün zəka elementini tamamlayacaq faydalı təcrübə əldə etmişdi.

3. Digər önəmli məqam isə dərin zəka və faydalı təcrübəni birləşdirərək istənilən bir hərəkəti zamanında etməkdir. Xarici siyasət və geosiyasi planlama ilə bağlı olaraq ümummilli lider tərəfindən həyata keçirilmiş bütün addımlar yerində və vaxtında atılmışdı.

Azərbaycanın tərəfdaşlıq mövqeyi birinci növbədə ölkənin iqtisadi potensialının reallaşdırılması üzərində quruldu. Belə demək mümkündürsə Azərbaycanın geosiyasəti geoiqtisadi modellər üzərində quruldu. Azərbaycanın milli iqtisadi mənafelərinin həyata keçirilməsi, geoiqtisadi inkişaf səviyyəsində uğur qazanmasının əhəmiyyəti daha çox müasir beynəlxalq iqtisadi münasibətlər səviyyəsində üzə çıxır. Bu mənada, ölkəmizin geoiqtisadi inkişafını özündə əks etdirən neft strategiyası milli iqtisadi mənafelərlə yanaşı, koalisiya (dövlətlərarası) mənafeyini də özündə əks etdirir. Bu da ölkənin milli iqtisadi mənafelərinin nəinki bu gün və sabah, habelə yaxın və uzaq perspektivdə reallaşması diapazonunu genişləndirir. Belə şəraitin özü ölkənin iqtisadi diplomatiyasının formalaşmasına və inkişafına yol açır. Təsadüfi deyil ki, 1994-cü ildən etibarən Azərbaycanda "neft diplomatiyası" deyilən anlayış özünə geniş yer tapdı (4, 131). Azərbaycana investisiya qoyuluşları edən dövlətlər nəinki qarşılıqlı olaraq iqtisadi maraqlarını təmin etdilər, həm də real olaraq gördülər ki, erməni təbliğatı daha çox miflərə əsaslanır. İqtisadi imkanlardan sonra Azərbaycan özünün mədəni inkişafının imkanlarından məharətlə istifadə etməyə başladı. Təcrübəli lider və potensiallı ölkə tandemi Azərbaycanın ilk uğurlarının səbəbi oldu. Bütün bu proseslər Azərbaycanı Qafqaz lideri roluna gətirdi. Bu hətta ölkəmizə o qədər də isti munasibəti olmayanların belə qarşısında aciz qaldığı bir fakta çevrildi. Bir sözlə, müstəqilliyin əldə olunmasının, demokratik Azərbaycan dövlətinin qurulmasının, möhkəmləndirilməsinin digər mühüm şərti isə tarixi şəxsiyyət olan ümummilli lider Heydər Əliyev fenomeninin varlığı idi (2, 6).

Ümumilli lider Heylər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əmək-

daşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirilmişdir. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etmək və səmərəli əməkdaşlıq ölkəmi-zin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin xatirəsini yad edir (11).

Daha sonra ümummilli liderin bu siyasi kursu Azərbaycan Respublikası prezidenti İlham Əliyev tərəfindən davam etdirildi. Artıq dirçəlmiş və potensial enerjisini kinetikləşdirmə imkanlarını qazanan respublika xarici siyasət fəaliyyətində mövqelərin möhkəmləndirilməsindən təsir dairəsinin genişləndirilməsi mərhələsinə keçid etdi. Azərbaycan Respublikası regional inteqrasiya proseslərini katalizator rolunda intensivləşdirdi və bu işin mərkəzində dayandı. İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Fransa, Rusiya, Ukrayna, İsveçrə, Qazaxıstan, Özbəkistan, Slovakiya, Polşa, Gürcüstan və b. ölkələrdə rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir.

Regional inteqrasiya proseslərində Azərbaycanın tərəfdaşları olaraq nəinki Gürcüstan kimi Cənubi Qafqaz ölkəsi, hətta Rusiya kimi dünya dövləti və eləcə də regional liderlər Türkiyə və İran iştirak etdi. Bununla birgə Azərbaycan geosiyasi müstəvidə bir sıra Qərb ölkələrinə, ABŞ da başda olmaqla ədalətli və proporsional iştirak imkanları da verdi. Bu nə demək idi? Dominant olmağa öyrəşmiş aparıcı dövlətlər coğrafi sərhədləri elə də böyük olmayan Azərbaycan ilə qarşılıqlı mənfəətlərin reallaşdırılması dilində danışmağın düzgün olduğunu anladılar. Azərbaycan Respublikası regional "fəaliyyət torlarının düyünlərini" balans siyasətində məharətlə istifadə etdi. Nə zaman ki, bir sıra dünya dövlətlərinin dərin doktrinalarında latent imperializm və eləcə də neokolonializm ruhu işə düşürdü Azərbaycan diplomatiyası həmin ölkələri fakt qarşısında qoyurdu. Bu fakt nə idi? Bu fakt elə həmin dövlətlərin xarici siyasi fəaliyyətinin imperativləri və prioritetləri idi. Azərbaycan dünyavi siyasi və iqtisadi proseslərə, eləcə də şərti ifadə ilə desək özünü təsbit və özünü təsdiq deyilən "oyuna" xaotik deyil, prinsipial və konseptual daxil oldu. Qeyd edək ki, Cənubi Qafqaz ölkələri içərisində bu yalnız Azərbaycana xasdır.

Azərbaycanın bölgəsəl siyasəti zamanı nəzərə alacağı önəmli məsələlər sırasına geosiyasi risklər də daxildir. Geosiyasət ölkənin coğrafi mövqeyini nəzərə alaraq dövlət siyasətinin aparılmasıdır. Bu, mürəkkəb prosedurdur və avtomatik olaraq özündə çoxlu sayda faktoru birləşdirir. Öz növbəsində həmin siyasətin yeridilməsi zamanı meydana çıxan risklər də bir çox faktorları özündə birləşdirir. Bunlar dövlətin xarici təcavüzə məruz qalması (hətta zəbt edilməsi) riski, daxili qüvvələrin təsiri altında dövlətin dağılması riski, dövlətin öz maraqlarını beynəlxalq aləmdə müdafiə etmək qabiliyyətinin azalması – suverenitetin aşağı düşməsi riski, siyasi risk, ölkə daxili riskləridir. Beləliklə, geosiyasi risklər strateji mahiyyətlidir və zərər miqyasına görə qlobaldır. Öncələr bu riskləri fundamental risklərə aid edirdilər ki, nəticəsi olaraq "fors-major" vəziyyətlər kateqoriyasında idilər. Qloballaşmanın müasir səviyyəsi isə bu risklərin idarə edilməsi məsələsini aktuallaşdırır. Geosiyasi risqlərin idarəedilməsi subyektləri kimi beynəlxalq təşkilatlar (BMT, MAQATE, ÜTT, ATƏT və s.), dövlət hakimiyyəti orqanları, transmilli korporasiyalar, milli elitalar, etnoslar, diasporalar, siyasi partiyalar çıxış edə bilərlər. Geosiyasi riskləri idarəetmə vasitələri kimi xarici siyasəti, demoqrafik siyasəti, hüququ, maliyyə-büdcə siyasətini, sənaye siyasətini qeyd etmək olar. Ona görə də geosiyasi riskləri tədqiq edəndə ideoloji, etnopsixoloji, etniklərarası münasibətləri, mental özəllikləri, geomədəni və s. faktorları da nəzərə almaq lazım gəlir. Geosiyasi risklər və onların idarə-

edilməsi zərurəti ilə bağlı yuxarıda qeyd edilənlər Cənubi Qafqazda bu risklərin anatomiyasını müəyyənləşdirməyə və ona uyğun xarici siyasət formalaşdırmağa imkan verir. Cənubi Qafqaz regionunda bu risklər üç səviyyədə özünü göstərirlər: 1. Qlobal geosiyasi risklərin müəyyən regionda konkret təzahürü formaları, 2. Regionun tarixi, etnosiyasi, sosial-mədəni, dövlətçilik ənənəsinin xüsusiyyətlərindən qaynaqlanan risklər, 3. Konkret ölkənin siyasi, coğrafi, etno-demoqrafik, sosial-mədəni, iqtisadi və ərazi bütünlüyünə cəmiyyətdə yetişən təhlükələrdən qaynaqlanan risklər (3, 46). Cənubi Qafqazın region olaraq özündə yaranan risk parametrləri kimi Cənubi Qafqaza qonşu olan böyük dövlətlərlə yerli dövlətlərin qarşılıqlı münasibətlərindən qaynaqlanan riskləri, regional inteqrasiyaya olan təhlükələri, region dövlətləri arasındakı münasibətlərin inkişafına təcavüzkar xarici siyasətin yaratdığı təhlükələri, region dövlətlərinin ərazisinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə qonşusunun iddialarından yaranan riskləri, Cənubi Qafqazda enerji təhlükəsizliyi ilə təhlükəsizliyin digər sahələri arasındakı ziddiyyətlərdən yaranan riskləri və həmçinin dondurulmuş münaqişələrin yaratdığı riskləri seçmək olar.

Bölgəmizdə mövcud olan risklər şəraitində Azərbaycanın xarici siyasətində risklərin nəzərə alınması asan məsələ deyil. Diplomatiya müxtəlif səviyyələrdə özünü göstərən risklər arasında bağlılığı da nəzərə almalıdır. Dövlətin xarici siyasətinin konkret zaman kəsimində prioritetləri olduğundan geosiyasi risklərin nəzərə alınmasında müəyyən iyerarxiya gözlənməlidir. Məsələn, müasir tarixi mərhələdə Azərbaycanın xarici siyasətində Dağlıq Qarabağ məsələsi prioritet istiqamətdir. Bu məsələnin həll edilməsi yolunda mövcud olan geosiyasi risklərin bir-biri ilə əlaqələndirilməsi, onların vahid strukturda birləşdirilməsi və həmin keyfiyyətdə Azərbaycanın dövləti maraqları müstəvisində idarəedilməsi siyasi və diplomatik yaradıcı münasibət tələb edir. Cənubi Qafqazın geosiyasi dinamikasına təsirini necə və hansı dərəcədə nəzərə almaq lazım gəldiyini müəyyənləşdirmək gərəkdir. Eyni məntiqlə Qərbdə maliyyə sferasında yaranan yeni faktorların bölgəyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə təsiri mexanizmlərinin siyasi aspektləri təhlil edilməlidir. Cənubi Qafqazda geosiyasi dinamikanı aktivləşdirən bu kimi parametrlərin təsirinin xarici siyasətin istiqamətlərində nəzərə alınması özlüyündə dinamik siyasət modelinin qurulması zərurətini ortaya qoyur. Bu baxımdan, Azərbaycanın xarici siyasətinin formalaşmasında risk faktorlarının yerini regionda sosial-mədəni və iqtisadi inteqrasiyanı intensivləşdirmək prizmasında müəyyənləşdirməyin daha perspektivli olduğunu düşünürük. Ancaq bunun üçün diplomatiyamız dondurulmuş münaqişənin həllinə mane olan geosiyasi məqamların zərərsizləşdirilməsi kimi çətin bir işin də öhdəsindən gəlməlidir. Müşahidələr göstərir ki, Azərbaycan diplomatiyası məhz bu aspektdə fəallığını xeyli artırıb və bir çox uğurlar əldə edib. Bu da ölkə prezidentinin xarici siyasət konsepsiyasının sistemli şəkildə həyata keçirildiyini göstərir.

**Ədəbiyyat:**


1. Həsənov Ə. Azərbaycan geosiyasəti. Bakı 2015, 1056 s.
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, «Təhsil», 2004, 472s.
3. Xudiyev A. Geosiyasi risklər şəraitində xarici siyasətin formalaşması və dialoq diplomatiyası. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin jurnalı, №25, 2009, s.45-50.
4. Kərimli İ. Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası və milli iqtisadi mənafelər problemi // Azərbaycan vergi jurnalı, №3, 2012, s.131-144.
5. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. B., 2006, 584 s.
6. Məmmədov N. Xarici siyasət: Reallıqlar və Gələcəyə Baxış. Bakı, Qanun Nəşriyyatı, 2013, 264 s.
7. Miraləm E. Milli ideologiya və onu formalaşdıran amillər // Dirçəliş XXI əsr, 2006, №104-105, s.220-225.
8. Adil Abdullah Al-Falah. Heydar Aliyev and national-spiritual values. Baku, Gismet, 2007, 108 p.
9. Ализаде А. Роль общенационального лидера Гейдар Алиева в развитии науки // Экономист, №5-Травень-2013 №5-May-2013, с.6-10.
10. Румянцев С. Диаспорастроительство в постсоветском Азербайджане //Карим. Январь, 2012, с.1
11. http://uploads.gocdn.us/24_1031_Press%20 Release-Azerbaijani%20people% 20commemorate%2 0National% 20Leader%20Heydar%20Aliyev.pdf


***Açar sözlər:*** *Azərbaycan, geosiyasi, xarici, strateji, miras*

**Bakhtiyar Nabiyev**
*Baku State University, Associate Professor*
*of the Department of International Relations,*
*PhD in Historical Sciences*

# NATIONAL LEADER HEYDAR ALIYEV'S STRATEGIC ATTITUDE METHOD IN THE DEVELOPMENT OF STATEHOOD OF AZERBAIJAN

## SUMMARY

In the article the strategic approach is explored as a geopolitical heritage which was formed by National Leader Heydar Aliyev, the founder of the modern Azerbaijan Statehood and its conceptual foundations.

The peculiarity of the model of national state and in terms of the supremacy of national interests in the implementation of foreign policy, National Leader Heydar Aliyev's approach is perceived as a theoretical basis in the article. At the same time, it is also mentioned that the National Leader Heydar Aliyev's political course is being continued by President Ilham Aliyev in a decent manner and our country becomes a regional leader. It is also emphasized that possessing leadership characteristics and will, National Leader could do determined actions in order to support the sovereignty of Azerbaijan in the international arena.

Being historical figure and personality also possessing unique characteristics who is also an example to many people in the history, National leader Heydar Aliyev could convince the world that Azerbaijan is a country being loyal to independent and humanistic ideas. The systematic measures taken by him led to the intensification of Azerbaijan's foreign policy.

The established system founded by him can constructively react to unexpected situations that occur regularly.

National Leader Heydar Aliyev shaped Azerbaijan's long-term development model-national ideology and national statehood. He was a charismatic leader, a politician with state experience, and a personality that could be peculiar to each issue. After being elected in 1993, National Leader Heydar Aliyev adopted strategy to strengthen the country's sovereignty.

That was a prerequisite for the welfare of the people and the sustainable development of the country.

The National Leader Heydar Aliyev, the architect of modern independent Azerbaijan, improved state institutions, expanded important foreign relations, implemented energy strategies and laid foundations for the long-term development of the country.

Only after Heydar Aliyev's return to political power, Azerbaijan could use its geopolitical capacities. After this event there was also a progress in the socio-political, socio-economic, scientific and cultural life of the country and a secular state was established. Moreover, important steps were taken in the formation of the National Army, the establishment of regular armed forces, the protection of the lands, achieving the cease-fire. Heydar Aliyev's special importance to foreign policy issues and the implementation of internationally recognized successful and determined steps was crucial in terms of perspective.

***Key words:*** *Azerbaijan; Geopolitical, Foreign, Strategic Heritage*

**Бахтияр Набиев**
*Доцент кафедры Международных отношений*
*Бакинского Государственного Университета,*
*доктор философии по историческим наукам*

# МЕТОД СТРАТЕГИЧЕСКОГО ПОДХОДА ОБШЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

## РЕЗЮМЕ

В статье рассматривается стратегический подход национального лидера Гейдара Алиева, основателя современного азербайджанского государства и его концептуальных основ как геополитического наследия. Здесь отмечается особенность модели национального государства, а подход национального лидера Гейдара Алиева воспринимается как ее теоретическая основа. В то же время стоит отметить, что политический курс национального лидера Гейдара Алиева достойно продолжен Президентом Ильхамом Алиевым и что наша страна становится региональным лидером. В статье говорится, что общенациональный лидер принял решительные меры для поддержки суверенитета Азербайджана на международной арене. Национальный лидер Гейдар Алиев, который является примером для многих в истории как личность и руководитель государственного управления, убедил мир в том, что Азербайджан является независимой страной, преданной и гуманистическим идеалам. Систематические меры, предпринятые им, привели к активизации внешней политики Азербайджана. Установленная им система может конструктивно реагировать на непредвиденные ситуации, которые происходят регулярно. Национальный лидер Гейдар Алиев сформировал модель долгосрочного развития Азербайджана - национальную идеологию, национальную государственность. Он был харизматичным лидером, политиком с государственным опытом. После избрания национального лидера Гейдара Алиева в 1993 году была принята успешная стратегия укрепления суверенитета страны. Это было необходимым условием для обеспечения благосостояния народа и устойчивого развития страны. Национальный лидер Гейдара Алиев – архитектор современного независимого Азербайджана – улучшил государственные институты, расширил жизненные связи, реализовал энергетические стратегии и заложил основы для долгосрочного развития страны. Только после возвращения Гейдара Алиева Азербайджан смог использовать свои геополитические возможности. После возвращения Гейдара Алиева в социально-политическую, социально-экономическую, научную и культурную жизнь страны было создано светское государство. Важные шаги были предприняты в создании Национальной армии, создании регулярных вооруженных сил, защите земель, прекращении огня. Особое значение политика Гейдара Алиева в области внешнеполитических вопросов имеет большое значение с точки зрения перспективы.

***Ключевые слова:*** *Азербайджан, геополитические, иностранные, стратегические, наследие*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

**ALMAZ ƏLİYEVA**
**Bakı Avrasiya Universitetinin Humanitar fənlər və regionşünaslıq kafedrasının müəllimәsi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: mecidovna@mail.ru*

## QARABAĞ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

**Qarabağın tarixi həqiqətləri.**

1700-1721-ci illərdə Rusiya Skandinaviya ölkələri ilə apardığı Şimal müharibəsi nəticəsində Baltik dənizinə çıxış əldə etdi və Rusiya "İmperatorluq" elan edildi. (8) Lakin Baltik dənizi ilin çox hissəsini donduğundan ucuz və sərfəli dəniz ticarəti üçün əlverişli deyildi. Ona görə də Rusiya imperatorluğu isti dənizlərə yiyələnmək planlarını həyata keçirməyə başlayır. Rusiya Şimali Azərbaycan ərazisində Dərbənd, Şirvan, Gəncə və digər bölgələrə diplomatik missiyalar, kəşfiyyat məqsədi güdən ekspedisiyalar göndərməyə başladı. I Pyotr Xəzərsahili ərazilər və Qafqaz üzərinə böyük yürüşlər üçün planlar hazırlamışdır. Çarizim Qafqazda həm Osmanlı, həm də Səfəvi şahları ilə separat danışıqlar aparır, onların arasında mövcud ziddiyyətlərdən istifadə etməyə çalışırdı. Rusiya 1722-1723-cü illərdə Dərbənd, Bakı və Rəşt üzərinə yürüş edərək Xəzərboyu Azərbaycan vilayətlərini işğal etdi. Bu vəziyyət regionun coğrafiyasında yeni geosiyasi dəyişikliklər əmələ gətirdi.

Səfəvilərin zəifləməsi və baş verən hakimiyyət dəyişiklikləri Qafqaz uğrunda Osmanlı və Rusiya imperatorluqları arasında rəqabətin güclənməsinə gətirib çıxardı. Nəticədə 1724-cü ildə İstanbulda sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Türkiyə Səfəvi şahlarının "Rusiyaya güzəştə etdiyi Xəzərsahili" Şimali Azərbaycan torpaqlarının yeni statusunu təsdiq etdi. Bunun əvəzində isə Rusiya Şirvan istisna olmaqla Səfəvilərə məxsus digər Qərbi Azərbaycan ərazilərinin və Cənubi Qafqazın bir hissəsinin Osmanlı dövləti tərəfindən tutulmasına etiraz etməyəcəyinə təminat verdi.

Beləliklə, Rusiya və Osmanlı dövlətləri Səfəvilər dövlətinin Azərbaycan ərazilərini öz aralarında bölüşdürmək barədə razılığa gəldilər ki, bu da Azərbaycanın siyasi coğrafiyasında və geosiyasi xəritəsində yeni dəyişikliklər əmələ gətirdi. Xəzərətrafı əraziləri işğal etdikdən sonra Rusiya müvəqqəti olaraq Qafqazda sakitləşdi. Bu zaman Osmanlı dövləti ilə Səfəvi şahları arasında yenidən 1724-1725-ci illərdə Cənubi Azərbaycan və Cənubi Qafqaz uğrunda ciddi mübarizə başladı. Görkəmli sərkərdə Nadir şah Osmanlı dövlətini bütün Cənubi Azərbaycan və Cənubi Qafqazdan çıxarmağa nail oldu, 1735-ci ildə isə Rusiyanı "Gəncə müqaviləsi"ni imzalamağa məcbur etdi.(9) Müqaviləyə görə Rusiya öz ordularını bütün Xəzərsahili ərazilərdən geri çəkməyə məcbur edildi. Beləliklə, Azərbaycanın və Cənubi Qafqazın siyasi coğrafiyasında yenidən dəyişiklik baş verdi. Nadir şah 1747-ci ilə qədər Səfəvilərin səltənətində tam hökmranlıq etdi. Onun ölümündən sonra yaratdığı hökumət XVIII əsrin ortalarında yenidən parçalandı. Daxili idarəçilik sistemi quran xanlıqlar müstəqil siyasət yürütməyə, Rusiya, Osmanlı və digər qonşu dövlətlərlə əlaqələr yaratmağa başladılar. Bu dövlətlərin hər biri yerli xanlıqdan öz siyasi və strateji maraqları naminə istifadə edərək Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənməyə çalışırdılar. Rusiya gürcüləri və erməniləri, Osmanlı dövləti isə azərbaycanlıları və digər müsəlman xalqlarını öz hima-

yəsi altına alaraq, onların xarici aləmlə təmaslarına nəzarət edirdilər.

**Yeni geosiyasi vəziyyətin yaranması**

XIX əsrdə Azərbaycan torpaqlarının geosiyasi vəziyyətində yeni ciddi dəyişikliklər baş verdi. Rusiya–İran, Rusiya–Osmanlı və Osmanlı-İran arasında aparılan bir neçə qanlı müharibə nəticəsində Qafqazda və Azərbaycanda yeni geosiyasi vəziyyət yarandı. 1804-1813 və 1826-1828-ci illərdə Rusiya-İran, 1806-1812 və 1828-1829-cu illərdə Rusiya-Osmanlı müharibələri nəticəsində Rusiya Azərbaycanın şimalındakı xanlıqları və Qara dənizin şərq hissəsi də daxil olmaqla Cənubi Qafqazın digər ərazilərini tam işğal edərək öz tərkibinə qatdı.

12 oktyabr 1813-cü il Gülüstan və 10 fevral 1828-ci il Türkmənçay sülh müqavilələrindən sonra ermənilərin torpaqlarımıza kütləvi köçürülməsi başladı. 1828-ci il Türkmənçay sülhündən sonra, yəni 3 il ərzində İrandan 40 min, Türkiyədən 84 min erməni ailəsi Cənubi Qafqaza köçürüldü. (1) Köçürülənlərin hesabına ermənilərin sayı xeyli artdı. İrandan köçən 40 min erməni ailəsi Azərbaycanda məskunlaşdırıldı. Onlar Qarabağ, İrəvan və Naxçıvan xanlıqları ərazilərində yerləşdirildi. 14 sentyabr 1829-cu ildə Rusiya ilə Osmanlı arasında imzalanan Ədirnə sülh müqaviləsindən sonra 84000 erməni ailəsinin Cənubi Qafqaza köçürülüb Yelizavetpol (Gəncə), İrəvan, Tiflis quberniyalarında yerləşdirilmələri bir daha ermənilərin sayının xeyli dərəcədə artmasına səbəb oldu. Borçalı, Axalkalak, Axaltsıx qəzalarının ən yaxşı torpaqlarında erməni ailələri yerləşdirildi. Ermənilər Yelizavetpol quberniyasının bütün ərazilərinə deyil, quberniyanın ancaq Göyçə gölündən başlamış dağlıq zonalarına paylanmışdı. 1828-1830-cu illərdə Yelizavetpol quberniyasının dağlıq zonasına 200000 erməni köçürülmüşdü. 1908-ci ildə Cənubi Qafqazda ermənilərin sayı gəlmələrin hesabına 1300000-ə çatmışdır. Bunların 1000000 nəfəri Rusiya imperiyası tərəfindən Cənubi Qafqaza gətirilənlər idi. Çarizm işğal etdiyi əraziləri imperiya ilə daha sıx bağlamaq üçün Cənubi Qafqazın daha etibarlı ünsürləri ilə (ruslar, polyaklar, xüsusilə ermənilər köçürülməyə başladılar) Azərbaycanın demokrafik şəraitini dəyişdirdilər. Rusiyanın Osmanlı və İran ilə sərhədləri boyunca öz tarixi vətənlərində yaşayan azərbaycanlıların torpaqlarına çoxsaylı ermənilər planlı şəkildə yerləşdirildi. Bu erməniləşdirilmə siyasəti səbəbsiz deyildir.

Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi, regiona özü ilə bərabər çoxlu, o cümlədən gələcəkdə baş verə biləcək geosiyasi dəyişiklərə zəmin yaradan problemlər də gətirdi.

Böyük güzəştlər hesabına torpaqlarımızda yerləşdirilən ermənilər xalqımıza qarşı amansız cinayətlər törətmişdilər.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr çevrilişi nəticəsində, Stepan Şaumyanın başçılıq etdiyi Bakı Soveti Bakıda hakimiyyəti ələ keçirmişdir. Etnik erməni olan Stepan Şaumyan, Bakıda azərbaycanlılara qarşı bolşeviklərlə erməni milliyyətçilərinin əməkdaşlığını təmin etmişdir. Beləliklə, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı Soveti və erməni silahlı dəstələri Bakı şəhərində, sonradan isə Bakı quberniyasının qəzalarında azərbaycınlalara qarşı qırğın törətmişdilər. Azərbaycan Milli Şurası tərəfindən 28 may 1918-ci ildə “İstiqlal bəyannaməsi” qəbul edilməklə, Azərbaycanın dövlət müstəqilliyi elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınları təhqiq etmək üçün qısa müddət ərzində xüsusi komissiya yaratmışdı. Komissiya külli miqdarda material toplamışdı. AXC dövründə 1919 və 1920-ci illərin mart ayının 31-i iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir. Lakin Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bu hadisə unudulsa da, qanlı tariximiz Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

XX əsrin ikinci yarısında azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi (deportasiyası) haqqında SSRİ Nazirlər Sovetinin qərarları İkinci dünya müharibəsindən sonra

Sovet İtifaqının Türkiyəyə qarşı ərazi iddiaları, habelə bu prosesdə ermənilərin fəal iştirakı nəticəsində faciəli hadisələrə səbəb oldu. SSRİ Xarici İşlər Komissarlığında 1945-ci ilin avqustunda hazırlanmış sənədlərə əsasən Türkiyədən ümumi sahəsi 26 min kv.kilometr olan ərazi alınmaı idi. Ərazinin 20,5 min kv. km Ermənistanın, 5,5 min kv.km. Gürcüstanın payına düşürdü. 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşdular. 1988-1989-cu illərdə son etnik təmizləmə vaxtı isə yerdə qalanlar qovuldular.

1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha yeddi rayon – Laçin, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları işğal olunmuşdur.(17) 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuşdur. 4750 adam əsir və itkin düşmüş, girov götürülmüşdür. 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Ermənistan respublikasından və Azərbaycanın işğal edilmiş bölgəsindən qovulub didərgin salınmış azərbaycanlıların sayı 1 milyondan çoxdur.(10)

**Soyqırım.**

XX əsrin əvvəllərində azərbaycanlıların məruz qaldıqları fəlakətlərin əsrin sonlarında yenidən təkrar olunmasının bir çox səbəbləri vardır. Belə ki, 1920-ci ildə Azərbaycanda və Ermənistanda sovet hakimiyyətinin qurulması, yeni nəsillərin saxta beynəlmiləlçilik ruhunda tərbiyə olunması, "xalqlar dostluğu"nun tərənnüm edilməsi erməni təcavüzkarlığının qarşısını ala bilməmişdir.

Azərbaycan xalqının başına gətirilmiş faciələri unutdurmaq üçün sovet ideoloqları xalqımızın xeyirxahlıq, alicənablıq, rəhmdillik, sülhsevərlik, düşmənçiliyi unutmaq kimi yüksək mənəvi keyfiyyətlərindən məharətlə istifadə etmişdilər. Lakin erməni millətçiləri Azərbaycan xalqına nifrət hissini sovet hakimiyyəti illərində də yaddan çıxarmamışlar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hərbçilər dinc əhaliyə divan tutdular. Bu qırğın nəticəsində 613 nəfər həlak olmuşdur,onların arasında uşaqlar, qadınlar və qocalar vardır, 8 ailə isə tamamilə məhv edilmişdir. 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 5 mlrd.rubl dəyərində ziyan vurulmuşdur. (13)

Bu rəqəmlər SSRİ rəhbərlərinin səhlənkarlığı ilə 1988-ci ildə Ermənistan SSR tərəfindən başlamış və Azərbaycan SSR-in tərkib hisəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi iddiasının gerçəkləşdirilməsi əsasında yaranmış Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli, qanlı faciəsindən xəbər verir.

Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar aparılır. Erməni tərəfi sülh arzusunda olduğunu göstərməyə çalışsa da, münaqişənin dinc vasitələrlə həllini çətinləşdirən bəyanatlara və hərəkətlərə yol verməklə yanaşı, təcavüzü davam etdirir,o cümlədən "erməni soyqırımı" haqqında əfsanənin daha çox ölkədə yayılmasına cəhd göstərir. (6)

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində qeyri-müəyyənlik davam etməkdədir. Nəzərdən keçirdiyimiz problemin ətrafında səngimək bilməyən diskussiyalarda əsas mübahisə doğuran Dağlıq Qarabağın statusu məsələsidir. Məlumdur ki, Azərbaycan tərəfi Dağlıq Qarabağa ən yüksək status təklif edir və bildiyimiz kimi ermənilər bunu qəbul etmir, Dağlıq Qarabağla Ermənistan arasında üfüqi müna-sibətlərin təmin olunmasında israr edirlər. Beləliklə, beynəlxalq vasitəçilər bu mürəkkəb vəziyyətdən çıxış yolu tapmaq üçün müzakirələri davam etdirirlər.

**Müasir Azərbaycan**

Bu il Azərbaycan prezidenti İlham Əliyev Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı

(İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşündə qeyd edib ki, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanla Azərbaycan arasında torpaqlarımızın 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edib: "Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkünə çevrilib. Biz etnik təmizləməyə məruz qalmışıq. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Hazırda bu soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınır. Biz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan qardaşlarımızın Azərbaycana göstərdikləri davamlı dəstəyə görə çox minnətdarıq. Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarda hər şeyi dağıdıb. ATƏT iki dəfə işğal olunmuş ərazilərə faktaraşdırıcı missiyalar göndərib. Onların hesabatı bizim tarixi və dini abidələrimizə qarşı vandalizm aktı törədildiyini göstərir. Məscidlərimiz Ermənistan tərəfindən dağıdılıb. Məzarlarımız, tarixi abidələrimizin hamısı dağıdılıb. Hər şey dağılıb. Xalqımız, həmçinin mədəni soyqırımına məruz qalıb. Lakin hər zaman dediyim kimi, onlar bizim yaddaşımızı, inamımızı məhv edə bilməzlər. İşğal olunmuş torpaqların bir hissəsi iki il bundan əvvəl azad ediləndən sonra Azərbaycan həmin ərazini yenidən qurmağı qərara aldı və hazırda orada insanlar yaşayır. Biz orada 150 evdən ibarət qəsəbə tikdik, məktəb, tibb mərkəzi və məscid inşa etdik. Bu məscid ermənilərin qədim Şuşa şəhərində dağıtdığı məscidin eynisidir. Bunu etməklə biz bir daha barbarlara göstəririk ki, onlar bizim taleyimizi məhv edə bilməzlər. Biz işğal olunmuş bütün ərazilərə qayıdacağıq və oraları yenidən quracağıq. Biz o ərazilərə həyatı qaytaracağıq".

BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnamə qəbul edib. (7) Həmin qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Bu barədə Azərbaycan prezidenti İlham Əliyev İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində çıxış edərkən bildirib. Dövlət başçısı bildirib ki, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı və digər mötəbər beynəlxalq təşkilatlar bənzər qətnamə və qərarlar qəbul ediblər: "İslam Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və son olaraq, 2016-cı ilin aprel ayında Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzlə bağlı nazirlər səviyyəsində kontakt qrupu yaradılıb. Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".

Azərbaycan Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin, Avrasiyanın və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyət kəsb edən bir bölgəsində yerləşir. Odur ki, bir dövlət olaraq onun milli maraqları, milli təhlükəsizliyi region və qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz. Azərbaycanın, Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin və bütövlükdə Avrasiyanın təhlükəsizlik məsələlərinə müxtəlif yanaşmalar, qlobal, regional və milli maraqlar, onlar arasında üst üstə düşən və kəsişən məqamlar hazırda geniş müzakirə olunan mövzulardandır. Azərbaycanın təhlükəsizlik problemi, onun təmin olunması yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması və regional dövlətlərin təhlükəsizlik siyasəti ölkənin ictimai fikrini də ciddi düşündürməkdədir.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Bu problem nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, həm də keçən bu dövrdə regionda (Qafqaz,

Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Qafqazda, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən problemlərdən biri hesab olunur.

**Münaqişənin həllində beynəlxalq təşkilatların rolu.**

1992-ci ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. 1992-ci ilin yanvarın 30-da Azərbaycan Respublikası Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü oldu (2) və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı. ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə Ermənistanın qeyri konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə məhz Prezident Heydə Əliyevin qətiyyətli və gərgin fəaliyyəti sayəsində 1994-cü ilin mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir bəyanat qəbul edildi. Bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısında Minsk qrupunun həmsədləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət – Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair 3 təkliflə çıxış etmişlər. (11) Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variant Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdi) həlli, 1997-ci ilin sentyabrında irəli sürülmüş ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan Prezidenti həmin planlarla tam razı olmasa da, sülh prosesində müəyyən dinamika yaratmaq məqsədilə həmsədrlərin hər iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək təkliflərlə razılaşmadı.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçiniin Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilə "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə

toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşmanın göstəricisi idi. (3)

“Ümumi dövlət” prinsipi nizamlanma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqelərindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

1994-cü ildə Kasablankada,1997-ci ildə Tehranda, 2000-ci ildə Dohada keçirilən İslam Konfransı Təşkilatının Zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. (18) Onu da qeyd etmək vacibdir ki, İKT Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilatdır.

Azərbaycan 2001-ci il yanvarın 25-də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olunması onun mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə çıxarılması üçün ölkəmizə yeni və çox mötəbər bir tribuna qazandırdı. Həmin illərin müxtəlif tarixlərində AŞPA-nın plenar sessiyalarında Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən rəsmi əhəmiyyətli sənədlər yayılmışdır.

2002-ci ilin yayında BMT Baş Assambleyasının 49-cu sessiyası keçirildi. Azərbaycan Prezidenti Heydər Əliyev də bu sessiyada iştirak edirdi. O, nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərə geniş yer ayıraraq BMT-nin qətnamələrinin yerinə yetirilməməsindən narahatlığını ifadə etdi. Sessiyanın gedişində Azərbaycanın Xarici İşlər Nazirliyi BMT-nin Baş katibi Kofe Annana məktub göndərərək BMT qətnamələrinə Ermənistanın məhəl qoymadığını və Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin bu ölkə tərəfindən pozulduğunu bildirdi. K. Annan Azərbaycan Xarici İşlər nazirinə göndərdiyi məktubda BMT-nin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha vurğuladı. 2003-cü ilin sonuna qədər danışıqlar prosesi o qədər də fəal keçməmişdi. Bunun əsas səbəblərindən biri Azərbaycanda və Ermənistanda keçiriləcək prezident seçkiləri ilə bağlı idi. Seçkilərdən sonra isə danışıqlar yenidən fəallaşmağa başladı. 2003-cü ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Prezidenti R.Koçaryan arasında ilk görüş keçirildi. Bu görüş əsasən tanışlıq xarakteri daşıyırdı və onun əsas nəticələrindən biri bundan ibarət oldu ki, hər iki tərəf danışıqları davam etdirməyə hazır olduğunu və prosesin daha intensiv şəkil almasına çalışacağını bəyan etdi. bu müddət ərzində ABŞ-ı ATƏT-in Minsk qrupunun tərkibində Azərbaycanla isti münasibətlərə malik yeni həmsədr - Stiven Mənn təmsil etməyə başladı. (14)

24-27 aprel 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyəti prezident İlham Əliyevin rəhbərliyi ilə ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etmişdir. Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində nümayəndə heyətimiz tərəfindən elə ilk sessiyadan başlayaraq Ermənistanın işğalçılıq siyasətinin nəticələri uğurla avropalıların diqqətinə çatdırılmışdır. Belə ki, sessiya zamanı 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış «Ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması» adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış «Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları» adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarında uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər xüsusi vurğulanmışdır (5).

2004-cü ildə Avropa Şurası, ATƏT və Avropa İttifaqı münaqişənin dinc vasitələrlə həlli istiqamətində öz səylərini xeyli artırmışdır. Belə ki, Avropa Şurası Parlament Assamble-

yasının qış sessiyasında Ermənistanın işğalçı dövlət olması bir daha təsdiq edildi. Münaqişənin aradan qaldırılması istiqamətində Ermənistanın heç bir addım atmaması AŞPA-nın sənədlərində öz əksini tapdı.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələyə dünyanın nüfuzlu beynəlxlaq təşkilatlarından biri olan Şimali Atlantika Alyansında (NATO) da baxılmış və onun 2006-cı ilin noyabrında Riqada keçirilən sammitində müzakirə olunmuşdur. 26 dövlətin nümayəndələrinin iştirak etdiyi sammitdə qəbul olunmuş "Yekun bəyannaməsi"ndə Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır. Baxmayaraq ki, NATO ATƏT çərçivəsində həyata keçirilən nizamlama prosesində bilavasitə iştirak etmir, lakin bəyannamədə göstərilir ki, NATO bu məsələnin tezliklə və sülh yolu ilə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin və bölgədə sabitliyin yaranmasının tərəfdarıdır.

Ümumiyyətlə, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzuolunan nəticəni verməmişdir. Buna səbəb bir tərəfdən Ermənistan Respublikasının qeyri konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətini davam etdirməsi, digər tərəfdən beynəlxalq təşkilatların, qarşılıqlı güzəşt prinsipini üstün tutmasıdır. Bundan istifadə edən Ermənistan Respublikası ərazini ələ keçirmək məqsədilə başladığı təcavüz üçün daşıdığı məsuliyyətdən qaçmağa can atır, Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməyə çalışır. Bununla yanaşı, keçən dövr ərzində ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin ədalətli həll olunmasında məsuliyyət daşımayıblar və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmayıblar. Bundan əlavə, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, işğal etdiyi ərazilərdən çıxmasını tələb etmədən və qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirmişdir.

Eyni zamanda, Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları öz nəticələrini çıxararkən Ermənistan silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməkdən çəkinir və ya bunu etmək istəmirlər. Halbuki beynəlxalq təşkilatların məlum sənədlərində Ermənistan Respublikasının münaqişədə iştirakı etiraf olunub, təcavüz faktları öz əksini tapmışdır. Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin VII fəslinə müvafiq surətdə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər. Bununla yanaşı, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir (19). Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola

bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha artırmışdır. Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti ilə heç vaxt barışmayacağını və torpaqlarımızı azad etmək üçün əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq edildiyini vurğulamışdır. Ona görə ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini bildirməklə yanaşı qeyd etmişdir ki, "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq". Bu baxımdan, ümummili lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan Prezident İlham Əliyevin münaqişənin nizama salınması prosesində hücum taktikasına üstünlük verməsi və bu istiqamətdə ardıcıl, qətiyyətli diplomatik addımların atılması problemin Azərbaycanın milli maraqları təmin olunmaqla aradan qaldırılması və uğurlu nəticələrin əldə edilməsinə möhkəm zəmin yaratmışdır.

**Aprel döyüşləri**

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin qondarma "Dağlıq Qarabağ Respublikasının" hərbi birləşmələri arasında hərbi münaqişə baş vermişdir. Aprel döyüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Bu dördgünlük müharibə zamanı, Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən "Lələ təpə" adlandırılan yüksəkliyə nəzarəti ələ keçiriblər. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi. Hərbi əməliyyatlar zamanı Azərbaycan Silahlı Qüvvələrinin 88 hərbi qulluqçusu həlak olub, 1 Mi-24 helikopteri vurulub və 1 tank mina partlayışı zamanı sıradan çıxıb. Döyüşlərdə ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, 320 döyüşçüsü öldürülüb və 500-dən artıq döyüşçüsü yaralanıb. (16).

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı.(4) Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilib. Nəticədə ermənilərə məxsus 6 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən yüzdən çox hərbi qulluqçusu ölüb və yaralanıb. Azərbaycan Silahlı Qüvvələrinin isə 12 hərbi qulluqçusu şəhid olub. Döyüş nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi erməni qüvvələrindən tam təmizləndi Horadiz şəhərinin erməni təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də Azərbaycan qüvvələrinin nəzarətinə keçdi .

2 aprel 2016-cı ildə beynəlxalq qurumların təkidli müraciətləri və Azərbaycan dövlətinin sülhsevər siyasət yürütməsinin nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini saat 15:00-dan başlayaraq birtərəfli qaydada dayandırmaq barədə qərar qəbul edir.(12) Azərbaycan tərəfinin razılığa əməl etməsindən istifadə edən qarşı tərəf, Ermənistandan işğal altında olan

ərazilərə əlavə hərbi qüvvə cəmləşdirməklə işğaldan azad edilən mövqelərin, ərazilərin geri qaytarılmasına cəhd göstərib və nəticədə 10-a yaxın tank, həmçinin canlı qüvvə sarıdan xeyli itki verib. Qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələrindən tam azad olundu.

Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. 5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən separatçı qüvvələr atəşkəs imzalanmasından bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir, ancaq Ermənistan tərəfi bu ərazinin ölçüsünün sadəcə 800 hektar olduğunu və heç bir strateji əhəmiyyətə malik olmadığını iddia edir.

Amerika Birləşmiş Ştatları Dövlət Departmentinin hesablamalarına görə, dörd gün davam edən döyüşlər zamanı həm hərbi, həm də mülki olmaqla təxminən 350 nəfərin həyatını itirdiyini açıqlamışdır (15)

**Nəticə**

İqtisadi və hərbi imkanlarını artıran Azərbaycan dövlətinin yürütdüyü siyasət öz müsbət nəticələrini verməkdədir. Eyni zamanda, mütəmadi olaraq Ermənistanın cəbhə xəttində yaratdığı təxribatların qarşısının Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınması nəticəsində baş verən toqquşmalar, müharibə xofu da erməniləri indiki vəziyyətdə canlarını həm zəbt olunmuş ərazilərdən, həm də Ermənistandan götürüb qaçmağa vadar edir. Aydındır ki, bu gedişlə Ermənistandan əhalinin kütləvi şəkildə köç etməsinin, xarici ölkələrə axının qarşısını almaq mümkün olmayacaq. Əslində, bu reallığı Ermənistan hakimiyyəti daxil olmaqla, ölkə cəmiyyəti də aydın görür. Hakimiyyətdən fərqli olaraq, cəmiyyətdə müəyyən insanlar tərəfindən artıq fikirlər səslənir ki, problemlərin həllinə nail olmaq üçün Dağlıq Qarabağ konfliktinin çözümünə nail olunmalıdır. Ermənistanın Azərbaycanla danışıqlar masası arxasında razılıqlar əldə etməsi çox mühümdür. Yalnız bu halda Ermənistanda yaşanan problemlərin həlli istiqamətində real addımlar atmaq olar.

**Ədəbiyyat:**


1. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi I cild , Bakı, 2015
2. AR TN Azərbaycan Dövlət İqtisad Universiteti, Dərs vəsaiti, 2010
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Dağlıq Qarabağ problemi beynəlxalq təşkilatların müzakirəsində
4. AZƏRTAC Bakı, 10 oktyabr, 2016
5. Bakı Universitetinin Xəbərləri. Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətləri yeni mərhələdə. Bakı,2015
6. Süleymanov E. və Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri, Bakı, 2012
7. Əhmədov E. Ermənistanın dövlət terrorizmi siyasəti və Azərbaycana qarşı təcavüzünün nəticələri, 19 oktyabr, 2012
8. Həsənov Ə. Azərbaycanın geosiyasəti, Bakı, 2015
9. Həsənov Ə. Azərbaycanın geosiyasəti, Bskı, 2015
10. Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı, 24 fevral 2017-ci il
11. Soyqırım siyasəti (Beynəlxalq aktlar, normativ sənədlər,müraciətlər və şərhlər toplusu) Bakı, 2010
12. Vahid Mərkəzləşdirilmiş Kitabxana Portalı. yasamal.cls.az/more/text/62588
13. Məhəmmədoğlu Y., YaqubovE.. Tarix qan ağlayır, Bakı, 2014
14. ATƏT-in Lissabon sammiti anl.az/el/emb/QARABAQ/.../atet(lissabon-sammiti).pdf; https://az.wikipedia.org/wiki/AT%C6%8FT-in_Minsk_qrupu
15. Background Briefing on the Nagorno-Karabakh Conflict. ABŞ Dövlət Departamenti. 16 may 2016.
16. XİN, 10.09.2016 http://www.mfa.gov.az
17. http://www.tarix.gov.az/rayonlar.php
18. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_aprel2009/73388.htm
19. anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/atet.pdf


***Açar sözlər:*** *Azərbaycan, Gülüstan müqaviləsi, Türkmənçay müqaviləsi, deportasiya, təcavüz, soyqırım, ATƏT*

**Almaz Aliyeva**
*Baku Eurasian University, Department of Humanitarian Sciences and Regional Studies, Teacher, PhD in Political Science*

## KARABAKH: REALITIES AND PERSPECTIVES


### SUMMARY

Azerbaijan's security problem, the ways and means of ensuring it, the coordination of global and local security interests, the security policy of regional states are seriously reflected in the public opinion.

Despite the adoption of resolutions on the aggression of Armenia against Azerbaijan at many international conferences and summits, the spread of official documents reflecting the facts of Armenia's aggression against Azerbaijan at the PACE plenary sessions there are still contradictions between the parties in the negotiations within the framework of the Minsk Group.

Thus, the non-constructive position of Armenia, the lack of common position on the attitude of the member states of the Minsk Group lead to the delay in the peace process and as a result, the conflict remains frozen.

Armenian demonstrated that they do not have the ability to operate fully in the war in April 2016.

The Azerbaijani people will not reconcile with the occupation and loss of these territories and finally the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict will be solved fairly.


***Key words:*** *Treaty of Gulistan, Treaty of Turkmenchay, Deportation, Aggression, Genocide, OSCE, Azerbaijan*

**Алмаз Алиева**
*Преподаватель кафедры Гуманитарных наук и регионоведения
Бакинского университета Евразии,
доктор философии по политическим наукам*

## КАРАБАХ: РЕАЛИИ И ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

Безопасность Азербайджана, пути и средства ее обеспечения, сочетание интересов глобальной и региональной безопасности и влияние проблемы региональной и международной безопасности на общественную мысль.

На многих международных конференциях, на встречах в верхах военная агрессия Армении осуждена, и приняты соответствующие резолюции. В том числе на пленарных сессиях ОБСЕ нашли свое отражение факты агрессии Армении против Азербайджа, приняты и распространены официальные документы ОБСЕ, Минской группы в рамках ОБСЕ. Несмотря на все это, противоречия между противоборствущими странами не устранены. Неконструктивная позиция занятая Арменией, отсутствие единой согласованной позиции стран участников Минской группы привели к замораживанию конфликта, к отсутствию прогресса в решении данного конфликта. А это все устраивает только армянскую сторону.

4-х дневняя война в апреле 2016 года показала, что Азербайджан в состоянии решить проблему освобождения захваченных Арменией территорий военным путем. Разговоры об несокрушимости ВС Нагорного Карабаха, Армении сильно преувеличены, а руководство Армении не имело и не имеет достаточного умения управлять ВС и не пользуется авторитетом в обществе.

Азербайджанский народ никогда не смирится с потерей Нагорного Карабаха, и поэтому эта проблема рано или поздно найдет свое справедливое разрешение.

***Ключевые слова:*** *Азербайджан, Гюлистанский договор, Туркменчайский договор, депортация, агрессия, геноцид, ОБСЕ*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

**ЭЛЬДАР АМИРОВ**
**Старший научный сотрудник НИЛ Россиеведения Азербайджанского университета языков, доктор философии по политическим наукам**
*e-mail: eldar_amirov@list.ru*

# ПРОЦЕСС ОБРАЗОВАНИЯ КАРАБАХСКОГО ХАНСТВА И ЕГО ЗНАЧЕНИЕ В КОНТЕКСТЕ ТРАДИЦИЙ ПРЕЕМСТВЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ В КАРАБАХЕ

## Предыстория образования азербайджанских ханств: смерть Надир-шаха и начало феодальной межусобицы на территории исторического Азербайджана

После вероломного убийства Надир-шаха Афшара (1747 г.) могущественного правителя и выдающегося полководца, которого западные историки прозвали такими эпитетами как «Наполеон Востока» или «Последний завоеватель Востока» Азербайджан и Иран вступили в сложнейший этап своей истории, полный кровавых испытаний и длительных междоусобиц. Так, огромная держава образованная силой меча сразу же после смерти своего создателя Надир-шаха развалилась как карточный домик, политическая слава и влияние Азербайджана и Ирана на всем Ближнем и Среднем Востоке канула в лету.

На местах, бывшие наместники одночасий обрели самостоятельность, превратившись в независимую военную и политическую силу. Заговорщики, завладевшие троном Надир-шаха, не были в состоянии обеспечить единство империи и не обладали консолидирующим авторитетом среди армии и народа. Именно этим объясняется факт постоянной смены власти и углубление политического кризиса охватившего Азербайджан и Иран после 1747 года. Правда, поначалу очень многие местные правители, высказали свою преданность Адиль шаху, сыну брата покойного шаха, вошедшего на престол вслед, но это подчинение, как показали дальнейшие события, было скорее символическим, номинальным, рассчитанным обезопасить себя от лишних проблем и выиграть время для укрепления своих позиций, нежели фактическим.

Не прошло и полгода после смерти Надир-шаха, как Азербайджан, и Иран превратились в арену внутренней феодальной войны, ибо против Адиль шаха восстал его младший брат, правитель Исфахана Ибрагим хан, объявивший о своей независимости. Адиль шах решившийся применить силу против родного брата в итоге потерпел сокрушительное поражение, и был ослеплен. Но и на сей раз спокойствию, не было суждено продержаться длительно. Дело в том, что для полного триумфа Ибрагим хану требовалось устранить последнее законное препятствие – внука Надир-шаха – Шахруха. Основоположник современной азербайджанской историографии, видный ученый, государственный деятель и просветитель Аббас-кули-ага Бакиханов (1794-1846) отмечает, что сначала Ибрагим хан пытался заманить Шахруха хитростью: «Ибрагим хан попытался заполучить царевича Шахруха вместе с казной Надир-шаха. Он послала своего брата Гусейн – бека с некоторыми вельможами в Хорасан с разъяснением, что он

так действует для того, чтобы возвратить – де царевичу наследственный престол и поэтому приглашает его в Ирак. Но курдские ханы и хорасанские вельможи не соглашались на отправление Шахруха и против его желания. 17 августа 1748 г. возвели его на престол. Ибрагим хан ушел в Тавриз и 24 ноября того же года объявил себя шахом под именем Адил (правосудный)» [7, с.152-153].

В результате в стране образовалось двоевластие, которое Ибрагим хан на сей раз попытался устранить силой, что в итоге обернулось для него трагической гибелью. Армия во главе, которой он двинулся на Шахруха в Хорасан, по дороге разбежалась, оставив своего предводителя на произвол судьбы. Ибрагим хан из соображений безопасности был вынужден запереться в одной из крепостей. Он остановился в Калапуре, однако насилие и произвол его воинов против местного населения вызвали возмущение и волнения. В итоге жители подняли восстание и пленили Ибрагима, которого впоследствии отправили в Мешхед, к Шахруху, в качестве заложника. Шахрух обошелся с пленными беспощадно – Ибрагим хан и ослепленный им Адил шах были казнены. [7, с.153].

Казалось бы, смута уже позади, и до стабильности подать рукой, но вновь все повернулось в спять. На сей раз восстали сановники и военачальники Шахруха, который не имел никакой реальной власти и авторитета для усмирения бунтарей. В результате мятежники ослепили Шахруха, тем самым добились и его отстранения. Вместо него был возведен на престол Мирза – Сеид Мухаммед Садр, глава мешхедского духовенства. А.Бакиханов отмечает, что Мухаммед Садр был сыном дочери последнего сефевидского шаха Хусейна, и восставшие короновали его как законного продолжателя этой династии, прозвав его II Сулейманом. [7, с.153].

Но как показало время, Мухаммед Садр был далек от политического и военного таланта своих предков, и желание восстановить власть Сефевидов осталось лишь мечтой. Вскоре выяснилось, что и новый шах не устраивает чиновников и военачальников, и он подобно своему предшественнику пал жертвой придворной интриги. Спустя 2 месяца после воцарения Мухаммед Садру выкололи глаза, и соответственно лишили трона. Вновь власть доверили слепому и свергнутому Шахруху, который по известным причинам являлся скорее пугалом, нежели реальным властителем. Правда, после этих событий он почти 50 лет (1748-1795), до окончательного подчинения Каджарам, оставался номинальным владыкой Хорасана, однако за все это время он находился в стороне от бурных политических событий, происходящих в Иране и Азербайджане. Сложившаяся вокруг Шахруха ситуация означала еще и то, что наследникам Надир-шаха путь к трону закрыт навсегда. Так как, Шахрух являлся последним законным наследником Надир-шах Афшара, оставшимся в живых во время преследований имевших место сразу же после устранения великого завоевателя. Все остальные сыновья и внуки Надир-шаха в 1747 году были перебиты его племянником Адиль шахом. [18, с.210].

Известный исследователь Надир-шаха, английский историк Л.Локкарт пишет, что решив покончить с родом Надир-шаха, Адиль шах истребил даже беременных вдов и женщин своего дяди. Помилование же Шахруха имело исключительно политический мотив, и было связано с генетической принадлежностью Шахруха к роду Сефевидов: «Он пощадил только Шахруха, внука Надир-шаха. Гюлистана отмечает, что Адиль шах, не убил его, потому, что он посчитал, что народ Персии может захотеть иметь монархом человека принадлежавшего к древнему сефевидскому роду (Шахрух являлся сыном Фатимы бегим, был внуком Шаха Султана Хусейна)» [11, s.315].

Эти события парадоксальны еще и тем, что Али Гули хан, который прозвал себя Адиль шахом (то есть «справедливый») и впервые же дни своей власти издавший указ, осуждающий жестокости Надир-шаха, впоследствии сам вошел в историю как палач и детоубийца. Вдобавок, ко всему судьба распорядилась так, что Адиль шаху, как мы уже отмечали выше, было суждено погибнуть от рук Шахруха, у которого не дрогнула рука перед палачом его родных и близких.

Будучи восстановленным на троне Шахрух, не только не имел возможности восстановить порядок в стране, но и не был в состоянии самостоятельно управлять даже Хорасаном. На этот раз он попадает в вассальное положение от афганского правителя Ахмед хана Содазая, чья держава также возникла на руинах империи Надир-шаха. Ахмед хан - бывший полководец Надир-шаха, прибывавший в его шаха во время его убийства, воспользовавшись суматохой и паникой, завладел артиллерией и частью казны покойного правителя и отошел на территорию Афганистана, где объявил о своей независимости. [12, с.86].

Хорасан оказался в числе тех провинций, на которых распространялась воля Ахмед хана, соответственно Шахрух при таком раскладе оказался вассалом афганцев. Тем самым на огромной территории на длительный срок полностью были парализованы даже формальные институты центральной власти. Местным правителем не осталось ни малейшей необходимости высказывать центру даже видимую, символическую покорность и уважение.

Итак, к 1751 году, Азербайджан и Иран полностью оказались раздробленными на множество мелких государств. На землях Южного Азербайджана объявил о своей независимости Азад хан, бывший полководец Надир-шаха, Астарабад и Мазандаран были подчинены Мухаммед Хасан хану Каджару. В Гиляне образовалось феодальное государство во главе с Хедояттолла ханом. В Исфахане возникло двоевластие, городом правили Керим хан Зенд и Али Мардан хан. [18, с.211].

В северном Азербайджане, (территория современной Азербайджанской Республики) и Южном Азербайджане (территории современного иранского Азербайджана) образовались ряд самостоятельных государств – ханств, наиболее могущественными из которых были Карабахское, Кубинское, Шекинское, Гянджинское, Нахчыванское, Иреванское, Тебризское и Урмийское. В общей сложности количество ханств возникших на территории Южного и Северного Азербайджана равнялось 22.

halbuki ilk mərkəzləşmiş Akkad imperiyası zamanında şəhərlərarası hərbi qarşıdurmalar adi hal idi. I Sarqondan miras qalan mərkəzləşmiş hakimiyyət idarəçiliyi qutilərin hegemonluğu dövründə bir qədər də möhkəmləndi. Daha yüksək inkişaf mərhələsində duran Şumer-Akkad şəhərlərinin vahid mərkəzdən idarə olunmasının mümkünsüzlüyünü dərk edən quti liderləri ilk vaxtlardan idarəçiliyi yerli əhalinin nüfuzlu nümayəndələrinə həvalə etmişlər. Fəaliyyətlərini yerli özünüidarə prinsipinə uyğun tənzimləyən şəhər başçıları sərbəst siyasət yürütmək, o cümlədən, tikinti-quruculuq işləri aparmaq, kənar ərazilərlə xammal mübadiləsinə qoşulmaq, hətta oralarda hərbi əməliyyatlar həyata keçirmək səlahiyyətinə malik idilər. Qutilər, hətta, Şumer şəhərlərində oturuşmuş idarəçilik ənənəsini pozmayaraq hakimiyyətin irsi yolla atadan oğula keçməsinə də müdaxilə etmirdilər. İ.M.Dyakonov qutilərin Şumer şəhərlərində yerli idarəçilik sisteminə toxunmamalarının səbəbini onlarda bu funksiyanı öz üzərinə götürməyə qabil olan liderlərin olmaması ilə izah edir. Qeyd olunmalıdır ki, qutilər Şumer şəhərlərini işğal etməmişdən xeyli əvvəl də dövlət idarəçiliyinin prinsipləri ilə tanış idilər. Lakin onlara məlum inzibati idarəçilk qanunları ilə Mesopotamiyanın cənubunda yüzillər ərzində oturuşmuş sosial-iqtisadi münasibətləri tənzimləmək qeyri-mümkün idi və öz idarəçilik üsullarını tətbiq edəcəkləri təqdirdə qutilər yerli əhalinin narazılığı və müqaviməti ilə qarşılanacaqlarını dərk edirdilər. Yerli hakimlərə dövlət idarəçiliyində yüksək statusun verilməsində məqsəd onlardan alınacaq xəracın qutilərə vaxtında və maneəsiz çatdırılmasını təmin etmək idi. Laqaşın baş kahini Qudea və oğlu Ur-Ninqirsu quti çarlarına və onların ailə üzvlərinə qiymətli hədiyyələr (qızıl külçə, qiymətli metallardan hazırlanmış əşyalar, taxt, çarpayı, silah və s.) göndərirdilər [25, №№221-223]. Ən əhəmiyyətli mərkəzlərdə qutilərin hərbi kontingenti yerləşdirilmişdi. Məsələn, Erridupizir hələ sağlığında Akkad şəhərinin idarəçiliyini Duduya həvalə etmiş, 21 ildən sonra bu səlahiyyətlər onun oğlu Şu-Durula keçmişdir. Məhz Akkad şəhərində dislokasiya olunmuş qoşunun gücü hesabına Erridupizir Simurru çarı İnima-Nişbanı dəstəkləyən qiyamçıları cəzalandıra bilmişdir. Nüfuzlu yerli liderlərdən biri də Laqaş şəhərinin baş kahini Qudea idi. Onun adından tərtib olunmuş çoxsaylı mətnlərdə Laqaşda məbəd tikintisi ilə əlaqədar kənar yerlərdən ustaların və tikinti materiallarının gətirilməsindən, hətta Elamın uzaq Anşan (indiki Şiraz yaxınlığında Təli-Məlian) vilayətində hərbi əməliyyatlar aparılmasından bəhs olunur [5, c.79]. Habhumun oğlu Puzur-Suenin zamanında qutilərin dövlət idarəçiliyi sistemində stabil vəziyyət bərqərar olur və çarlar üçün 7 illik hakimiyyət müddəti rəsmiləşdirilir. Onun varisi Yarlaqanın zamanında inzibati idarəçilik sistemində daha bir yenilik qanuniləşdirilir; rəsmi sənədlər çarın hakimiyyət ili ilə tarixlənməyə başlayır.

Kutiumun özündə tətbiq olunan idarəetmə sistemi haqqında yalnız ehtimal etmək olar. Məsələn, İ. M. Dyakonov hesab edirdi ki, qutilər öz çarlarını 6-7 ildən bir toplanan hansısa kollegial orqanda (nəzəri baxımdan ağsaqqallar məclisində, icma rəhbərlərinin və ya qoşun komandanlarının yığıncağında) qəbul olunan qərarla seçirdilər [3, c.108-109; 4, c.238]. Quti icmalarını bir araya gətirə biləcək hər hansı şəkildə kollegial orqanın mövcudluğu şübhə doğurmur; tayfalararası hərbi ittifaqlara qoşulmaq haqqında qərar belə ümumi toplantılarda qəbul oluna bilərdi. Lakin yeni üzə çıxarılmış mənbələr əsasında apardığımız araşdırmalar göstərir ki, İ.M. Dyakonovun müddəası quti işğalının yalnız son 21 ilinə şamil oluna bilər; hər halda yazılı qaynaqlarda əvvəlki dövrlərdə kollegial orqanın fəaliyyətinə işarə edə biləcək informasiya yoxdur və bunu yalnız ehtimal etmək olar. Məsələn, xronoloji hesablamalardan göründüyü kimi, İnima-Nişbanın legitimliyinin Şumer ənənəsində qəbul olunmamasına səbəb onun əvvəlki çarın, yəni Enridapizirin, kollegial orqan tərəfindən rəsmiləşdirilmiş hakimiyyət müddəti tamamlanmadan koalisiya tərkibindən (bəlkə də tayfa ittifaqından) çıxması, yəni

faktiki olaraq, qanunu pozması ola bilərdi [2, c.122-124].

Məsələ ilə əlaqədar İ. M. Dyakonovun digər fikri də mübahisə doğurur. Adların səs bənzərliyinə əsaslanaraq o, bəzi çarların təkrar seçildiyini iddia edirdi [3, c.109; 4, c.239]. Məsələn, o, hökmdar siyahılarında sadalanan “Yarlaqab” və “Yarlaqan”, “Habilkin” və “Hablum”, “İnkişuş” və “İqeşauş” kimi oxşar adların eyni şəxslərə aid olduğunu söyləyirdi və guya təkrar seçildikləri üçün onların adları siyahılara fərqli qramatik göstəricilər əlavə olunmaqla daxil edilmişdir. Bu halda, nədənsə, onların “xidməti müddətdən” (6-7 il) əvvəl hakimiyyətdən “kənarlaşdırıldıqları” nəzərə alınmır. Nəzəri baxımdan onların çarlıq müddəti ya ölüm, ya da kollegial orqanın “impiçmenti” səbəbindən başa çatmaya bilərdi. Mövcud qeyri-stabil siyasi vəziyyətdə, bəzən də hadisələrin qutilərin əleyhinə cərəyan etdiyi vaxtlarda, səlahiyyətlərini yetərincə icra etmədiyindən hakimiyyətdən kənarlaşdırılan keçmiş liderin yenidən hakimiyyətə gətirilməsi inandırıcı görünmür. İkihakimiyyətliyin ləğvindən sonra da çarların səlahiyyət müddətindən az xidmət göstərmələri onların hakimiyyət uğrunda gedən mübarizənin qurbanları olduğunu söyləməyə əsas verir.

Qutilərin yaratdığı siyasi qurum ayrı-ayrı liderlər tərəfindən müxtəlif mərkəzlərdən idarə olunurdu. “Akkadın lənətlənməsi” eposundan məlum olur ki, Naram-Suenlə müharibə ərəfəsində qutilərin siyasi mərkəzi Qubin vilayətində yerləşirdi. Qutilərin dövləti bir müddət Avan şəhərindən (İraqda indiki Dərbəndi-Belula kəndi) idarə olunub. Ehtimal olunur ki, qutilərin digər siyasi mərkəzi Arrapha şəhərində (indiki Kərkük) yerləşirdi. Bu fikir Babilistan çarı Nabonidin (e.ə. 556-539) bazalt daş üzərindəki mətninə istinadən söylənilib. Həmin mətndə vaxtı ilə Nerqalşarusurun (e.ə. 561-556) Sippar şəhərinin qoruyucu ilahəsi Anunitumun heykəlini Arrapha şəhərindən geri qaytardığı bildirilir [7, p.215-216]. Ehtimal olunur ki, Akkad çarlığının süqutundan sonra qutilər bu heykəli qənimət kimi öz ölkələrinə aparmışlar. [3, c.356, прим.1; 4, c.240]. Həmin mətndə “Kutium” termini Madanın sinonimi kimi çıxış edir.

Bəzi tədqiqatçılar quti çarlarının siyahılarda fərqli isimlərlə qeydə alınmalarının səbəbini onların taxta çıxandan sonra yeni adlar qəbul etmələri ilə izah edirlər [8, ss.27-28, 35]. Belə bir ehtimal da var ki, qutilərin birinci çarının ismi Yarlaqan olmuş, sonralar bu isim “hökmdar” tituluna çevrilərək digərlərinə də şamil edilmişdir [15, p.711; 8, s.26]. Bu fikir siyahıların Suzdan tapılan variantında birinci çarın isminin **[Iarlag]ande** kimi bərpasına əsaslanırdı. Müqayisə üçün deyək ki, hetlərin birinci çarı Tabarnanın (və ya Labarna), Yuli Sezarın adları sonralar hökmdar titullarına çevrilmişdir.

E.ə. 2130-2109-cu illəri qutilərin Cənubi Mesopotamiyada ağalığının “intibah dövrü” və ya “qızıl çağı” adlandırmaq olar. Məhz həmin dövrdən innovativ nailiyyətlərin tətbiqi nəticəsində Şumer şəhərlərinin təsərrüfat həyatında canlanma müşahidə olunur. Təsərrüfat hesabatlarının dəqiqliyini və operativliyini təmin etmək məqsədilə sənədlərdə uçot əməliyyatlarının ilini, ayını və gününü göstərməyə başlayırlar. İlkin hesablamalara görə 175 belə sənəd məlumdur. Lakin müxtəlif nəşrlərə səpələnmiş bu sənədlərin toplanması və tədqiqi istiqamətində lazımi səviyyədə iş görülməyib. İlkin səthi araşdırmalar göstərir ki, ərzaq ödənişləri ilə bağlı sənədlər, bəzən, ərzaq məhsullarının növünə görə qruplaşdırılırdı; məsələn, **še-ba** “arpa ödənişi”, **ì-ba** “yağ ödənişi”, **ku$_6$-ba** “balıq ödənişi” [15, p.713]. Kutiuma arpa göndərilməsinin qeydə alındığı 2 sənəd İ.Gelb tərəfindən dərc olunub [12, p.52, texts TA 1931, A13]. Ödənişlərin ərzaq formaları ilə yanaşı, paltarlıq parça, hətta tunc və gümüşlə aparılması halları da qeydə alınıb. Elamda isə Suziananın azad iqtisadi zona kimi fəaliyyəti genişlənirdi. Suzdan tapılmış sənədlərdə bərabər hüquqlu təsərrüfat subyektləri qismində Anşan, Huhnur, Akkad, Umma, Qubba (Qubin?) və digər qabaqcıl mərkəzlər xatır-lanır [23, pp.77-81]. O dövrün şumerdilli hesabat sənədlərində lazımi məhsullarla, hətta ev heyvanları ilə təmin olunanlar arasında qutilərə



**Şəkil 2.** Qutilərə göndərilən mal-qaranın uçotu

Gil lövhənin üz tərəfi:
1. 15 lid al 2. 1 ab2 3 3. 2 ab2 2 4. 3 gud 2 5. 4 ab2 1 6. 3 gud 1

Gil lövhənin arxa tərəfi:
1. 3, 2 udu ab2 a 2. erin-it 3. ki-nu-nirki 4. ud udu lugal kam 5. gu-ti-um-e 6. mu a-ba-gi

Mətnin tərcüməsi:
"[Cəmi] 15 baş qaramal, [o cümlədən]1 yaşar inək – 3 baş, 2 yaşar inək – 2 baş, 3 yaşar öküz – 2 baş, 4 yaşar inək – 1 baş, 3 yaşar öküz – 1 baş, 3 [və] 2 qoyun [və] öküz güclü qoşun [üçün] Kinunir ölkəsindən qaramal [və] qoyun Gutium hökmdarı üçün (?). "Su qayıdan" il" [21, p.15, № 4].

də təsadüf olunur. Məsələn, 2-ci şəkildə təsviri verilən gil kitabədə deyilir:

Başqa bir sənəddə Umma şəhərindən 6 gəmi ilə Kutiuma adları göstərilməyən malların göndərilməsindən bəhs olunur [6, c.XXXII]. Adab şəhərindən (indiki İraqda Bismaya) ötən əsrin əvvəllərində ABŞ arxeoloqu E. Benksın başçılıq etdiyi qrupun aşkara çıxardığı sənədlərdə quti canişinlərinə (şumercə: **gìr nita**) və onları müşayiət edənlərə (şumercə: **gìr genna**) gündəlik ərzaq rasionu ayrılmasına dair qeydlər nəzərə çarpır [28, texts A.655, A.809. A.919. A.970, p.110-111]. S.Lenqdonun başçılıq etdiyi digər qrupun İnqarrada (qədim Kiş şəhərinin kvartalı) qazıntılarında tapılan arpa ödəmələri ilə bağlı sənədlərdə də Kutium ölkəsi xatırlanır [13, pp.12-15].

Kutium-Şumer münasibətləri vergilərin yığılması ilə məhdudlaşmırdı. Kutiumdan və onun cənub qonşusu Marhaşidən Şumer şəhərlərinə tikinti daşı [19, p. 10], meşə materialı [15, p.713], yun [27, s.90], küncüt yağı [24, p.642], mal-qara, eşşək [11, p.14] və s. daxil olurdu. Hesabatların birində Umma şəhərinin baş kahini Luqalannatumun oğlu üçün qutilərin ölkəsindən 1 baş qoyun və 1 baş çəpiş gətirildiyi qeyd olunub [15, p.712].

Təbii ki, təsərrüfat sahələrinin inkişafı Şumer şəhərlərində siyasi sabitlik şəraitində mümkün ola bilərdi. Qutilərin hegemonluğu dönəmində bu sabitliyin mövcud olduğuna dair mənbələrdə ara-sıra məlumatlar verilir. Məsələn, Qudeanın "A Silindri" adlanan yazılı abidəsində o dövrün siyasi-ictimai sabitliyi belə təsvir olunur: **ki-mah uru-ka al-nu-gar lú-úš ki-ni-túm gala-e balag nu-túm ér nu-ta-é ama ere-ke$_4$ ér nu-bi-u$_{11}$** "Şəhər məzarlığında qəbir qazılmadı, cəsəd basdırılmadı, kahin arfa daşımadı, ondan musiqi səsi çıxmadı, ana ağlayıb, ağı söyləmədi" [26, s.29].

E.ə. 2009-cu ildə qutilərin Şumerdə ağalığının sona yetməsi ilə siyasi-inzibati idarəet-





**Şəkil 3.** Qutilərin Sium vilayəti təsərrüfat sənədində

mədə vəziyyət dəyişir. Urbilum, Hamazi, Karda, Sabum kimi vilayət və şəhərlərlə yanaşı, qutilərin ölkəsi də III Ur-Şumer dövlətinin canişinlik idarə sisteminə qatılır. Bu barədə məlumat verən mətnlərin birində Şu-Suenin və İbbi-Suenin zamanında (e.ə. 2036-2003) III Ur-Şumer dövlətinin vəziri **(sukkal-mah)** Varad-Nannanın titulları sırasında **ensi ma-da Gu-te-bu-um$^{ki}$-ma** ("qutilərin ölkəsinin baş kahini") ifadəsi də yer alır [22, s.106].

Həmin dövrdə qutilərə məxsus bəzi yer adları, məsələn, Sium vilayəti, təsərrüfat əməliyyatlarının subyektləri qismində III Ur-Şumer dövlətinin rəsmi sənədlərində xatırlanırlar (bax: şəkil №3).

E.ə. 2003-cü ildə Elam-Simaşki hərbi koalisiyasının təzyiqi ilə şumerlilərin sonuncu siyasi birliyi, Ur şəhərinin III sülaləsi devrilir. "Şumerin və Urun dağıdılmasına ağı"dan məlum olur ki, Ur şəhərinə yürüş edən koalisiyanın tərkibində quti dəstələri də fəal iştirak etmişlər [20, pp.7, not.40, 40-41, 44-45]. Qələbədən sonra Urmiya gölü hövzəsində yaşayan qutilər bərabər hüquqlu subyekt kimi elamlıların yaratdığı Simaşki konfederasiyasına daxil olurlar.

**Ədəbiyyat:**

1. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S. Qaşqay). Bakı, 2006.
2. Алимирзоев А. Борьба царей Кутиума за власть (К новой интерпретации старых источников) // Азербайджан и азербайджанцы, Баку, 2011, № 1-2, с.119-128.
3. Дьяконов И.М. История Мидии от древнейших времен до конца в. до н.э. М.-Л., 1956.
4. Дьяконов И. М. Общественный и государственный строй древнего Двуречья. Шумер. М., 1959.
5. Хинц В. Государство Элам. М., 1977.
6. Шилейко В. Вотивные надписи шумерийских правителей. Петроград, 1915
7. Adalı S. F. The Umman-manda and its Significanse in the First Millennium B.C. Sydney, 2009.
8. Balkan K. Eski Önasiya'da Kut (ve ya Gut) halkının dili ile eski türkce arasındakı

benzerlik // Erdem, Cilt: 6/1, Ocak, 1990, Sayı: 16. Ayrıbasım. Ankara, 1992.
9. Edzard D. O. “Zweite Zwischenzeit” Babyloniens. Wiesbaden, 1957.
10. Foster B.R. People, land, and produce at Sargonic Gasur / Studies on the Civilization and Culture of Nuzi and the Hurrians. Vol. 2. General Studies and Excavations at Nuzi. 9/1, Winona Lake, Eisenbrauns, Copiring 1987, pp.89-107.
11. Foster B. Archives and record-weeping in Sargonic Mesopotamia // Zeitschrift für Assyriologie und verwandte Gebiete. Berlin, 1982, Vol. 72.
12. Gelb I. J. Sargonic Texts from the Diyala Region. Chicago, 1952.
13. Gelb I. J. Sargonic Texts in the Ashmoleon Museum, Oxford, / MAD. 5, Chicago, 1970.
14. Green M. W. The Uruk Lament // Journal of American Oriental Society, Boston, 1984, Vol. 104, pp. 253-279.
15. Hallo W. W. Gutium // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. Berlin, Leipzig, New York, III, Berlin, 1971, pp. 708-720.
16. Langdon S. Lamentation over Ruin of Keš and Nippur. Historical and Philological Texts from Nippur. München, 1914.
17. Langdon S. Sumerian Liturgical Texts. Philadelphia. 1917.
18. Langdon S. The Dynasties of Akkad and Lagash / Cambridge Ancient History. Vol. I, London, Oxford University Press, 1924.
19. Leemans W. F. Foreign Trade in the Old Babylonian Period. Leiden, 1960.
20. Michalowsky P. The Lamentation over the destruction of Sumer and Ur. Winona Lake, 1989.
21. Pinches T. G. The Amherst Tablets. Vol. I. Texts of the period extending and including the reign of Bursin. London, 1908.
22. Scharaschenidze D. Die Sukkal-mah des alten Zweistromlandes in der zeit der III dynastie von Ur // AAASH, XXII Acta Antiqua Academiai Scientiarum Hungaricae. Tomus XXII, Budapest, 1974.
23.Scheil V., Legrain L. Textes élamites-semitiques (cinquiéme sèrie). / Mémoires de la Mission Archéologique de Perse. Paris,Tom XIV, 1913.
24. Steinkeller P. On Editing Ur III Economic Texts // Journal of American Oriental Society, 1982, Vol. 102.
25. Thureau-Dangin F. Recueil des Tablettes Chaldéennes. Paris, 1903.
26 Tosun Yalvaç Sumer dili ve grameri. I cilt. Sumerceden örnekler. Ankara, 1981.
27. Ungnad A. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde. Berlin, Leipzig, 1936.
28. Zhi Yang A Study of the Sargonic Archive from Adab. Vol. I, Part 1, Chicago, 1986.

***Açar sözlər:*** *mixiyazılı mənbələr, quti tayfaları, qədim Azərbaycan, Şumer şəhərləri, qutilərin xərac sistemi*

**Allahverdi Alimirzayev**
*Institute of History of the Azerbaijan National Academy of Sciences*
*Head of the Department "Ancient History of Azerbaijan"*
*Leading Researcher, PhD in History*

# FEATURES OF THE ADMINISTRATION OF THE GUITANS IN SUMER

## SUMMARY

With the collapse of the Akkadian dynasty in the middle of the XXII century B.C. in the south part of Mesopotamia, dominance of kutiyskih (otherwise gutiyskih) conquerors–aborigines of Urmian zone of Azerbaijan was established.

The guitian society, where tribal relations were strong, the Council of Elders as a collegial body had the authority to appoint or remove the supreme ruler.

The importance of the Council of Elders was determined by administrative functions, which made possible to control and distribute accumulated wealth and food reserves. But in the conquered cities of southern Mesopotamia, the gutians met with another administration. Without violating the existing administrative system of gutians, local rulers were allowed to pursue an independent policy and limited themselves to collect tribute. We got reports that Sumerian scribes sent kutiyam livestock, grain, gold bars, handicrafts, etc. In exchange Kutium and neighboring Marhashi, the Sumerian cities were supplied with building blocks, wood, wool, sesame oil, and etc. Administrative documents of that period were dated, which are not observed in previous documents. To maintain order in the major cities the military mines of the gutians were functioned.

***Key words:*** *Cunei Form Sources, Gutians Tribes, Ancient Azerbaijan, Sumer Cities, Tribute system of Gutians*

**Аллахверди Алимирзоев**
*Заведующий отделом «Древней истории Азербайджана»*
*Института Истории Национальной Академии Наук Азербайджана,*
*ведущий научный сотрудник, доктор философии по истории*

## ОСОБЕННОСТИ АДМИНИСТРАТИВНОГО УПРАВЛЕНИЯ КУТИЕВ В ШУМЕРЕ

### РЕЗЮМЕ

С падением Аккадской династии в середине XXII века до н.э. на юге Месопотамии устанавливается господство кутийских (иначе гутийских) завоевателей – аборигенов Приурмийской зоны Азербайджана. Совет старейшин, как коллегиальный орган в кутийском обществе, где родоплеменные отношения были сильны, имел полномочия назначать или отстранять верховного правителя. Значимость совета старейшин обуславливалось административными функциями, что позволяло контролировать и распределять накопившиеся богатства и продовольственные запасы. Но в завоеванных городах Южной Месопотамии кутии встретились с иным административным управлением. Не нарушая сложившейся там управленческой системы, кутии дали возможность местным правителям вести самостоятельную политику и ограничивались сбором дани. Дошли отчеты шумерских писцов об отправке кутиям домашнего скота, зерна, золотых слитков, ремесленных изделий и т.п. Взамен из Кутиума и соседней Мархаши в шумерские города доставляли строительные блоки, лес, шерсть, кунжутное масло и т.п. Административные документы того периода датировались, чего не наблюдалось прежде. Для поддержания порядка в крупных городах функционировали военные гарнизоны кутиев.

***Ключевые слова:*** *клинописные источники, кутийские племена, древний Азербайджан, города Шумера, податная система у кутиев*

## SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
## POLITICAL INSTITUTES AND SYSTEMS

**ELŞAD HƏSƏNLİ**
**AMEA-nın Fəlsəfə İnstitutunun elmi işçisi,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: xeber36@aztv.az*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ SOSİAL ƏDALƏT VƏ HUMANIZM PRİNSİPLƏRİ

100 il bundan öncə tərəqqipərvər Azərbaycan xalqı tərəfindən yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk ulduz kimi parladı və onun ziyası bugünkü müstəqil Azərbaycan üçün mayak rolunu oynadı. Coğrafi ərazisi nisbətən kiçik, əhalisinin sayı isə az olan bu diyar dünyəvi və bəşəri dəyərləri rəhbər tutaraq həm də dünyanın çox sayda ölkəsinə bir nümunə oldu. Böyük ictimai-siyasi təfəkkürə malik olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, M.H. Hacınski, N.Yusifbəyli və digər onlarca silahdaşın birgə səyi və gərgin əməyi nəticəsində yaradılan Milli Şura, Azərbaycan parlamenti və hökumət tarix baxımından qısa müddət ərzində böyük işlər gördü. Müasir qanunvericilik bazası üzərində formalaşan Azərbaycan Xalq Cümhuriyyəti bir çox aparıcı dövlətlər tərəfindən tanındı, ölkədə hər bir sahədə islahatlara start verildi. Qafqaz İslam Ordusunun köməyi ilə Bakı erməni-bolşevik silahlı dəstələrindən azad edildi, bölgələrdə erməni işğalına son qoyuldu, eləcə də bəzi xarici dövlətlərin Azərbaycana siyasi, iqtisadi və hərbi təzyiqlərinin qarşısı alındı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini dəyərləndirərək bildirmişdi ki, ”müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində-XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır” [5].

Milli dövlətlər milli tərəqqinin, bu isə ümumilikdə ictimai tərəqqinin göstəricisidir. “Tarix təkrar olunur” fikri çox vaxt özünü doğruldur. Milli münaqişələr bəşəriyyətin ən ağrılı problemlərindəndir. Burada mümkün ziddiyyətlərlə süni yaradılmış konfliktlərin sərhədini müəyyənləşdirmək həmişə asan olmur. Buna isə, əsasən siyasi motiv və maraqlar mane olur. Siyasi münaqişələrdən bəhs edərkən alman filosofu Kant göstərir ki, siyasi münaqişələr o yerdə baş qaldırır ki, tərəflərdən biri tarazlığı pozaraq digərinin hesabına üstünlük əldə etməyə çalışır. Təbii ki, bir tərəfin marağı digərinin hesabına ödənildikdə mənafelər toqquşur və əks tərəf cavab reaksiyası hazırlayır. Təəssüf doğuran cəhət budur ki, şəxsi maraqlarını milli maraqlar üzərində quran qruplar da meydana çıxır. Yəni, siyasi divident əldə etmək naminə hər hansı bir siyasətçi və ya siyasi qrup milli məsələdə siyasi diletantlıq edərək kütlələri ifratçılığa, reallığa uyğun gəlməyən məqsədlərə şirnikləndirir. Bu isə hər hansı bir millət üçün acı nəticələrə gətirib çıxara bilir. Başqa millətin tapdanmış maraqları gec-tez tarixin əlverişli məqamından asılı olaraq, “güllə” səslərilə müşayiət olunur. Bu, o deməkdir ki, millətini sevən siyasilər milli maraqları şəxsi motivlər üzərində qurmamalıdırlar. Bunu əsas götürən Cümhuriyyət fəalları idarəçilikdə ədalət prin-

sipini həmişə gözləmiş, mümkün qədər münaqişədən yan keçmişlər.

Cümhuriyyətin fəaliyyəti ümumilikdə demokratiya, ədalət, humanizm və tolerantlıq prinsipləri əsasında qurulmuşdu. Bu, ilk növbədə qanunverici orqanın təşkilində özünü göstərir. Belə ki, Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da keçirilmiş iclasında qəbul edilmiş qanun layihəsində 120 üzvdən ibarət parlament yaradılması qərara alınmışdı. Parlamentdə Milli Şuranın 44 üzvündən əlavə, proporsional şəkildə əhalinin əksəriyyətini təşkil edən yerli müsəlmanların daha 36 nümayəndəsi təmsil olunmalı idi. Ölkənin çoxmillətli tərkibi də nəzərə alınaraq, qurulacaq parlamentdə ermənilərə 21, ruslara 10, gürcü, yəhudi, alman və polyak icmalarının hərəsinə 1 yer verilmişdi. Bundan əlavə, parlamentdə Bakı Həmkarlar Təşkilatı, eləcə də əsas sənaye qurumlarına yerlər ayrılmışdı. Çoxpartiyalı parlamentdə 10 fraksiya mövcud idi və burada istənilən məsələ ilə bağlı fikir mübadiləsi aparılır, tərəflər öz mövqelərini ifadə edirdilər. “Bu bəyanatlarda müəyyən məsələlərdə fikir ayrılıqları olsa da ümumi bir məqsəd var idi: gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli-siyasi hüquqlarını qoruyub saxlamaq, Azərbaycan xalqının, hökumətinin digər xalqlar və dövlətlərlə, xüsusilə qonşu dövlətlərlə əlaqələrini möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü bir ordu yaratmaq” [3].

Qeyd etmək lazımdır ki, ağır ictimai-siyasi şəraitdə qurulan və bir çox problemləri həll edilməmiş, möhkəmlənməmiş dövlətin düşmənləri demokratiyadan istifadə edərək, öz korporativ maraqlarının reallaşması üçün xəyanətdən çəkinmirdilər. Azərbaycanda yaşayan ermənilər milli azlıq olduqları halda kütləvi terror aktları təşkil edir, qırğınlar törədir, aborgen xalqa qarşı soyqırımı həyata keçirirdilər. Onların bu siyasəti gələcəyə hesablanmış, azərbaycanlıların kütləvi məhvi və torpaqlarımızın ələ keçirilməsi məqsədi güdmüşdü. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra M.Ə.Rəsulzadə etiraf edirdi ki, əgər demokratiya ilə yanaşı, dövlətin məcburetmə funksiyasından da sərt şəkildə istifadə olunsaydı Azərbaycan Xalq Cümhuriyyətinin taleyi başqa cür ola bilərdi. M.Ə.Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” kitabında bu haqda yazırdı:”Azərbaycan Demokratik Cümhuriyyəti bütünlüklə ardıcıl parlamentarizm və məsul nazirliklər metodunu rəhbər tutmuşdu. Söz, mətbuat və yığıncaqlar azadlığı tamamilə təmin olunmuşdu. Ola bilsin ki, bəzi tənqidçilər bu baxımdan həddən artıq liberallıq göstərildiyini söyləyəcəklər. Bu siyasi cəhətdən yeni doğulmuş və təşkil olunma dövrünü keçirən körpənin, şübhəsiz ki, səhvləri də az deyildi. Bu səhvlərdən ən böyüyü o idi ki, kifayət qədər belə dövrə müvafiq gələn möhkəm hakimiyyət və güclü hökumət yaradılmamışdı. Əgər müxtəlif fikirləri birləşdirmək naminə inandırma metodlarının həyata keçirilməsi ilə yanaşı, məcburetmə metoduna keçilsə idi, güman ki, hadisələrin nəticəsi başqa cür ola bilərdi”[6].

Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, onun gördüyü işlər bu gün yüksək qiymətləndirilir, əhəmiyyəti etiraf olunur, görülmüş işlərdən qürur duyulur. Xatırladaq ki, ölkə başçısı İlham Əliyev milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə 16 may 2017-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını imzalayıb”[2]. Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS İnformasiya agentliyinin baş direktorunun birinci müavini M.Qusmana verdiyi müsahibəsində də Xalq Cümhuriyyətinin xidmətlərini yüksək qiymətləndirərək deyib: «tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır.

Azərbaycan ədəbiyyatının klassiklərini oxuyanda görürsən ki, onların əsərlərində məhz bu gün aktual olan məsələlərlə bağlı fəlsəfi mövzular kifayət qədərdir. Buna görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir. Biz qanuni qürur hissi keçiririk ki, Şərqdə demokratiyanın əsasını qoyan məhz Azərbaycan xalqı olub. Demokratik respublikanın ənənələri bu gün də yaşayır» [1].

Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi qanunlar,atdığı addımlar, onun ümumilkdə fəaliyyəti bu gün dünyanın aparıcı dövlətləri, tərəqqipərvər bəşəriyyət tərəfindən də yüksək qiymətləndirilir. Məsələn, ABŞ Konqresi və Senatında, eləcə də bu ölkənin ayrı-ayrı ştatlarının qanunverici orqanlarında keçirilən tədbirlərdə, qəbul olunmuş qərarlarda, digər sənədlərdə 100 il bundan əvvəl yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin yürütdüyü ədalətli və humanist siyasət örnək kimi göstərilir, qadınlara seçki hüququnun verilməsi alqışlanır, 28 may tarixi "Azərbaycan Milli Günü" kimi tədbirlərlə qeyd olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aylıq tarixinə nəzər saldıqda görürük ki, bu müddət ərzində parlamentə 270-dən çox qanun layihəsi təqdim olunmuş, onlardan 230-u qəbul edilmişdi. Hökumət o dövrdə 20-dən çox ölkə ilə diplomatik əlaqələr qura bilmişdi. Gənc dövlətin təhlükəsizliyinin təmin olunması üçün gərgin şəraitdə, qısa müddətdə Hərbiyyə Nazirliyi yaradılmış, S.Mehmandarov, Ə.Şıxlinski və S.Sulkeviçin rəhbərliyi altında 3 diviziyadan ibarət milli ordu qurulmuşdu. Bu mürəkkəb siyasi və çətin iqtisadi şəraitdə Azərbaycan hökuməti Xalq Maarif Nazirliyini təsis etdi, Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsinə qərar verdi, milli kadrların hazırlanması üçün sonradan Bakı Dövlət Universiteti də fəaliyyətə başladı. Bununla bərabər, hökumət ilkin olaraq 100 gəncin xarici ölkələrdə təhsil almasına şərait yaratdı, maliyyə vəsaiti ayırdı.

Cümhuriyyət dövründə milli məsələlərdə azərbaycanlılar tərəfindən heç bir problem yaradılmamışdı, əksinə qeyri millətlər tərəfindən azərbaycanlılar üçün daim müxtəlif problemlər yaradılırdı. Digər millətlər yerli azərbaycanlıların hüquqlarını pozur, bir çox hallarda sərbəst şəkildə yerli qanunlara etinasızlıq göstərirdilər. Azərbaycan parlamentində erməni və rus icmalarının boykot siyasəti buna əyani sübutdur. Bütün digər millətlərlə sülh, əmin-amanlıq və bərabərlik şəraitində yaşamaq prinsiplərini həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti milli-mədəni muxtariyyət ideyalarına hörmətlə yanaşırdı. Bunu o dövrdə fəaliyyət göstərən erməni jurnalist A.İ.Petrosyan da etiraf edir. Onun "Obnovlenie" jurnalında dərc olunmuş və 15 sentyabr 1919-cu il tarixində "Azərbaycan" qəzetində verilmiş yazısında bildirilir: "Qısa müddətdə azad dövlətlər sırasında yer alan ilk demokratik müsəlman türk dövləti olan Azərbaycan və onun əhalisini təşkil edən azərbaycanlılar hər şeydən əvvəl siyasi yetginliklərini böyük bir məharətlə bütün dünyaya göstərdilər. Azərbaycan hökuməti xalq və vətən üçün bir çox işlər gördü. Lakin ən başlıcası odur ki, Azərbaycan hökuməti bütün xalqın dini və milli mədəniyyətindən asılı olmayaraq, hər kəsə eyni şəkildə yanaşdı, hər kəsə daima gülər üz göstərdi" [8, s,76].

Yaradıcılıq, quruculuq, idarəetmə tələb edən sahələrdə təbii amillər hökmən nəzərə alınmalıdır. Xalqlar və millətlər arasındakı ziddiyyətlər də bu qəbildəndir. Bu mənada ziddiyyətlərin nizamlanmasından, normallaşdırılmasından, nisbətən dinc rəqabət formasına salınmasından söhbət getməlidir. Yəni, təbii olan ziddiyyətləri tamamilə yox etmək mümkün deyildir. Bu yanaşma təbii seçmə amilinin reallaşmasına şərait yaradır ki, həmin təbii seçmədə bacarıqlılar, qabiliyyətlilər, layiq olanlar, haqqı çatanlar önə çıxa bilərlər. Müasir dövrdə qabaqcıl ölkələrin praktikası göstərir ki, milli münasibətlərin tənzimlənməsi mümkündür. Bu, əsasən, demokratik islahatlar, qonşuların hüquqlarına hörmət və sosial ədalətin qorunması ilə reallaşdırıla bilər. Xüsusilə, ayrı-ayrı xalqların və millətlərin, daha çox mütərəqqi ideyalardan bəhrələnməsi müasir epoxada və gələcəkdə dinc yanaşı yaşamaq

prinsipinin optimal səviyyəsi kimi realizə olunacaqdır. Bu, zəruri prosesdir. Çünki millət birgəyaşayış zamanı formalaşır. Burada əslində müxtəlif irqlər, xalqlar və mədəniyyətlər qarışır.

Sosial ədalətin pozulması da milli hisslərə güclü təsir göstərir. Bu hal nəzərə alınaraq Azərbaycan Xalq Cümhuriyyətində iqtisadiyyat və mülkiyyət münasibətləri sosial ədalət prinsipi üzrərində qurulmuşdu. Bolşeviklərdən fərqli olaraq cümhuriyyətçilər xüsusi mülkiyyətin əleyhinə deyildilər. Hələ o dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri zavod, fabrik və digər istehsal sahələri, eləcə də istehsal vasitələri ilə bağlı sahibkarlığı məqbul sayırdılar. Burada mülkiyyət formaları - dövlət, xüsusi, şəxsi, səhmdar, bələdiyyə idarəçiliyi ilə tənzimlənirdi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi modelində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparıb çıxarmamalıdır. Xüsusən, fabrik və zavodların bu cür xırdalanması qeyri-mümkündür və ”burada çalışan əməkçinin işdəki mövqeyi xüsusi surətdə hazırlanan əmək haqqında qanunların tətbiqi ilə təmin olunmalıdır” [4].

Cümhuriyyətin xüsusi diqqətdə saxladığı digər məsələlər isə pul-kredit siyasəti, ticarət, səhiyyənin təşkili problemləri idi. Hökumət iqtisadi sahənin inkişafı üçün ilk növbədə milli pul buraxılmasını təmin etdi və inflyasiyanın qarşısını almaq, xəzinəni doldurmaq üçün imkanları araşdırdı. Dövlət Bankı yaradıldı, ölkədən əmtəənin ixracı təmin olundu, xəzinənin doldurulması üçün ixrac olunan bəzi növ xammalın dəyərinin 25%-nin rüsum kimi tutulması qərara alındı. Sosial ədalətin təmin olunması vahid, bütöv bir orqanizm olan dövlət və cəmiyyətdə birgəyaşayışın qarantı rolunu oynayır. Bu təminat isə qanunların aliliyinə, onun tələblərinin lazımi şəkildə icrasına söykənir.

1918-1920-ci illərdə aparıcı partiya olan “Müsavat” özünün etiraf etdiyi kimi “bərabərlik” mənasını demək olar ki, bütün məsələlərdə doğruldurdu. Obyektivlik, dünyəvilik prinsiplərinə söykənən Azərbaycan Xalq Cümhuriyyəti dini məsələlərdə də haqq-ədalətə üstünlük verirdi. Belə ki, ümumilikdə İslam dininin təlqin etdiyi dəyərlər elə öz-özlüyündə demokratik prinsiplərə əsaslanır. Sosial ədalət prinsipinin nəticəsi olaraq mülkiyyət və vergi məsələlərində də ədalətlilik və nisbi bərabərlik əsas götürülürdü. Dövlətin daxilində əmin-amanlığın və asayişin təmin olunması üçün zəruri tədbirlər görülmüş və ümumi dövlət quruculuğuna sağlam qüvvələr cəlb olunmuşdu. Bu dövrdə Azərbaycan türkcəsi rəsmi dövlət dili elan olunsa da keçid dövrü üçün rus dilinin istifadəsinə icazə verilmişdi. Ordu quruculuğu hər hansı etnik qrup məhdudiyyəti qoyulmadan həyata keçirilirdi. Bu, torpaq mülkiyyətinin bölünməsində də belə idi. Din məsələsinə gəldikdə isə o, siyasətdən ayrı və tamamilə azad elan olunmuş, əqidə və məzhəb məsələlərində ayrı-seçkiliyə yer verilməmişdi. Cümhuriyyət rəhbərləri başa düşürdülər ki, milli və bəşəri dəyərləri özündə birləşdirən dövlət quruculuğu prosesi bütün millətlərin inkişafına şərait yaratmış olur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaşayıb fəaliyyət göstərən bütün millətlər və xalqlar öz mədəniyyətlərini təbliğ edə və yaya bilərdilər. Təhsil, dil və mədəniyyətin müxtəlif tərəflərini əks etdirən hər hansı fəaliyyət növünə qadağa və məhdudiyyətlər qoyulmamışdı. “Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mədəni-maarif sahəsində gördüyü təqdirəlayiq işlər milli mədəniyyətin və demokratiyanın inkişafına xüsusi təkan vermişdi. Hökumət mətbuatda ona qarşı olan tənqidlərə böyük dözüm və səbr göstərirdi” [7, s.150].

Azərbaycan Xalq Cümhuriyyəti bir sıra obyektiv və subyektiv səbəblər üzündən nəzərdə tutulmuş tədbirlərin bir çoxunu həyata keçirə bilmədi. Ölkə daxilində destruktiv qüvvələrin heç də az olmaması cəmiyyətdə sabitliyin və ardıcıl siyasətin reallaşmasına mane olurdu. Qeyd etməliyik ki, o dövrdə xalqın siyasi elitası ilə cəmiyyət arasında intellektuallıq fərqi hələ yüksək idi. Yəni bir çox hallarda aparılan siyasətin uğurunu təmin etmək üçün bütöv xalqın onu dəstəkləməsi lazım idi.

Cümhuriyyətin süqutu Azərbaycan xalqının faciəvi tarixi olsa da, eyni zamanda bütün dünyaya ibrət ola biləcək acı səhvlərdən biri idi. Tarixən sülhsevərliyi və yüksək mədəni dəyərləri ilə dünya xalqlarına qovuşmaq istəyən Azərbaycan xalqını erməni qisasçılığı və bolşevizmin dəhşətli kabusu ilə üz-üzə, tək və köməksiz qoymaq tərəqqipərvər millətlərə xas olan xüsusiyyət deyildi. Bununla belə, demək olar ki, cümhuriyyət dövrü həm də Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir. Böyük çətinliklərə və müəyyən qüsurlara baxmayaraq, Azərbaycanın müstəqilliyinin elan olunması, dövlətin qurulması və dünya tərəfindən tanınması ən başlıca və taleyüklü məsələ idi. Bir daha qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu daxili səbəblərdən deyil, xarici müdaxilə üzündən baş vermişdi. "1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbulundan sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti qurucularına dövlət səviyyəsində bəraət verildi. Bununla bağlı Heydər Əliyev öz çıxışlarından birində deyir: «Bu gün-bu bayram günü (28 May) biz Azərbaycanda ilk Demokratik Respublikanın qurulmasında və fəaliyyət göstərdiyi xidmətlərə görə M.Ə.Rəsulzadəyə, Ə.Topçubaşova, F.Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır» [5] .

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası daxil olduğu beynəlxalq təşkilatların prinsiplərinə, qoşulduğu beynəlxalq konvensiya və aktların öhdəliklərinə uyğun olaraq üzərinə götürdüyü vəzifələrin layiqincə yerinə yetirilməsi istiqamətində ardıcıl və məqsədyönlü şəkildə iş aparır. İstər milli-etnik sahədə, istərsə də demokratiyanın inkişaf etdirilməsi istiqamətində ölkəmizdə görülən işlər beynəlxalq ekspertlər tərəfindən də əsasən müsbət qarşılanır. Azərbaycan Respublikasının dünyanın ən aparıcı, demokratik ölkələri, tərəqqipərvər xalqları ilə əməkdaşlığa yüksək meylliyi heç də təsadüfü olmayıb, ənənəvilik, varislik kimi qiymətləndirilməlidir.

Şərq və Qərbin mədəni dəyərlərinin Azərbaycan cəmiyyətində əks olunması, qovuşması bu günkü cəmiyyətdə də praktiki surətdə təcəssüm olunur. Təsdiqlənir ki, əslində şərti olaraq Şərq və Qərb qollarına bölünmüş dünya sivilizasiyasi bütöv, vahid, həm də canlı orqanizmdir. Yəni, ayrı-ayrı milli dəyərlər qaynayıb qarışır, yeniləşir, sintez olunur. İnteqrasiya prosesində xalqların və millətlərin ayrılması deyil, onların birləşməsi daha çox mütərəqqi əhəmiyyət kəsb edir. Şübhəsiz, burada söhbət siyasi inteqrasiyadan deyil, daha çox mədənimənəvi yaxınlaşmadan gedir. Heç də təsadüfi deyil ki, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün aparıcı ziyalıları da müasirləşmək ideyasını öz fəaliyyətlərində ön planda saxlayırdılar.

Müstəqil Azərbaycanın dövlət quruculuğu da müasir dünyada mövcud olan demokratik prinsipləri qəbul edir, həm də özü üçün reallığa çevirir. Doğrudan da, hər bir dövlət ümumi rifahın təmin olunmasına xidmət etməli, milli dövlət həm də bəşəri dəyərlərin tarazlaşdırılmasını təşkil etməli, konkret tarixi şərait və zamana uyğun olaraq unifikasiya etməlidir.

Dövlət daxilində milli-etnik və vətəndaş həmrəyliyinə nail olunması, «bir nəfərin azadlığı hamının, hamının azadlığı bir nəfərin azadlığı üçün şərtdir» prinsipinin mövcudluğu dövlətin xarakterini müəyyənləşdirir. Hazırda Azərbaycanda milli-etnik rəngarəngliyin xarakterik olması respublikamızda yaşayan bütün millət və xalqların vahid dövlət quruculuğu prosesini təmin edir. Lakin milli dövlət quruculuğunda iştirak edən hər bir millət çalışmalıdır ki, onun üçün mövcud olan normalar başqaları üçün mövcud olan normalara xələl gətirməsin. Əks təqdirdə münaqişələrin yaranması qaçılmazdır. Münaqişələr isə hər hansı cəmiyyət və millətlər üçün gərginlik mənbəyidir. Süni yaradılmış konfliktlər tərəqqini əngəlləyən hadisədir.

Müstəqil Azərbaycan Respublikası xarici qəsbkarlığın qurbanı olmasına baxmayaraq, öz sülh siyasətini davam etdirir və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə sadiq olduğunu nümayiş etdirir. Əlbəttə, dözümlülüyün də müəyyən hədd daxilində mövcud olması heç kəsə sirr deyildir. Halbuki, Azərbaycan Respublikası qarşısında bütün dövlətlər üçün faydalı ola biləcək əməkdaşlıq və dünya birliyinə inteqrasiya yolunu qoymuşdur. Müstəqil Azərbaycan Respublikasında milli bərabərliyin mövcud olması, dinindən, irqindən və əqidəsindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və vəzifələri ölkə konstitusiyasında təsbit olunmuşdur.

Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında, möhkəmlənməsində baza rolunu 100 il bundan əvvəl bünövrəsi qoyulmuş Azərbaycan Xalq Cümhuriyyəti ənənələri oynayır. Hələ o dövrdə formalaşmış milli şüur və onun sonradan müstəqil dövlətçilik şüuru ilə möhkəmləndirilməsi nəticədə milli birliyə siyasi zəmin yaratdı, zamanın sınaqlarına məharətlə sinə gərən xalqımız özünün layiq olduğu dəyərləri qoruyub saxladı, öz haqqına sahib oldu. Bu gün Azərbaycanda müasir, demokratik və hüquqi dövlətin möhkəm təməl üzərində mövcudluğu dünya çapında qəbul olunan müasir dövlətçilik meyarlarına uyğundur. Ölkəmizdəki demokratik həyat tərzi və insan hüquqlarının qorunmasına verilən təminat həm də onun uğurlu gələcəyi üçün əsaslı və köklü zəmin yaradır.

**Ədəbiyyat:**


1. https://azertag.az/xeber/ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin bas direktorunun birinci muavini Mixail Qusmana müsahibəsi-1150186
2. https://president.az/articles/23701
3. https://kayzen.az/blog/Azərbaycan-tarixi/5541/axc-nin-daxili-siyasəti.html
4. http://xalqqazeti.com/az/news/economy/86631
5. http://www.xalqqazeti.com/az/news/politics/85132
6. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.
7. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991.
8. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: «Azərbaycan» nəşriyyatı, 1997.


***Açar sözlər:*** *dövlət , siyasət, azadlıq, milli məsələ, sosial ədalət, humanizm, milli azlıq, terror, parlament, demokratiya, xüsusi mülkiyyət*

**Elshad Hasanli**
*Researcher, Institute of Philosophy*
*under the Azerbaijan National Academy of Sciences,*
*Doctor of Philosophy in Political Science*

# PRINCIPLES OF SOCIAL JUSTICE AND HUMANISM IN THE PERIOD OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

## SUMMARY

The Azerbaijan Democratic Republic with a hundred years history and heritage in the form of modern and independent Azerbaijan Republic was able to continue the ancient Azerbaijani traditions of creating statehood and build a political and democratic system that could serve as an example both in those times and in the present, carrying out reforms in various fields within 23 months of its existence. The most progressive principles were laid down in the center of this statehood system.

The Azerbaijan Democratic Republic was able to achieve great success in the sphere of statehood where humanism and democracy were set as priorities even at that time.

The research work explores the activities carried out the by the Republic. Moreover, issues of organization of activity in  parliamentary governance, secularity and enlightenment were analyzed from various perspectives.

***Key words:*** *State, Policy, Freedom, National Question, Social Justice, Humanism, National Minority, Terror, Parliament, Democracy, Special Ownership*

**Эльшад Гасанлы**
*Научный сотрудник Института Философии НАНА,*
*доктор философии по политическим наукам*

# ПРИНЦИПЫ СОЦИАЛЬНОЙ СПРАВЕДЛИВОСТИ И ГУМАНИЗМА В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

Азербайджанская Демократическая Республика со столетней историей и наследием в виде современной и независимой Азербайджанской Республики смогла продолжить древние азербайджанские традиции создания государственности и построить политическую и демократическую систему, которая могла бы служить примером как в те времена, так и в настоящем, осуществляя реформы в различных направлениях в течении 23-х месяцев своего существования. В основе этой системы государственности были заложены самые прогрессивные принципы. Азербайджанская Демократическая Республика смогла достичь больших успехов в сфере создания государственности, где даже в те времена приоритетом являлись гуманизм и демократия. В исследовательской работе была проанализирована деятельность Республики. Также были проанализированы с различных ракурсов вопросы организации деятельности в сфере парламентарного правления, секуляризма и просвещения.

***Ключевые слова:*** *государство, политика, свобода, национальный вопрос, социальная справедливость, гуманизм, национальные меньшинства, террор, парламент, демократия, частная собственность*

## SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
## POLITICAL INSTITUTES AND SYSTEMS

**ÜLVİYYƏ HAQVERDİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: ulvihaqverdi@gmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOQRAFİK SİYASƏTİN FORMALAŞDIRILMASININ KONSEPTUAL-HÜQUQİ ƏSASLARI VƏ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dövlət quruculuğu prosesi iqtisadi və siyasi sahələrdə radikal islahatların aparılmasını ehtiva edirdi. Belə ki, sovet inzibati-amirlik sisteminin dağılmasının məntiqi nəticəsi olaraq yeni yaranan ictimai-siyasi və iqtisadi münasibətləri tənzimləmək üçün köhnə idarəetmə prinsipləri artıq yararsız hala düşmüş və innovativ idarəetmə mexanizmlərinin yaradılması və tətbiqinə olduqca böyük ehtiyac yaranmışdır. Məhz belə bir şəraitdə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə cəmiyyətin siyasi, iqtisadi, sosial, mədəni və s. sahələrində köklü islahatların əsasını qoyan fəaliyyət proqramları qəbul olunmağa başlandı və bu gün də həmin siyasi kurs Ulu öndərimizin layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin həyata keçirdiyi siyasət çərçivəsində istiqamətlərdən birini də əhali məskunlaşması və əhali dinamikasının tənzimlənməsini nəzərdə tutan demoqrafik siyasət oldu ki, onun reallaşmasını da şərti olaraq iki mərhələyə bölmək olar:

1. 1993-2003-cu illər – demoqrafik siyasətin formalaşdırılması və həyata keçirilməsinin ilkin mərhələsi;

2. 2003-cü ildən müasir günümüzə qədər-demoqrafik siyasətin daha da inkişaf etdirilərək yeni keyfiyyət səviyyəsində həyata keçirilməsi mərhələsi.

Müasir dövrdə dövlətlərin həyata keçirdikləri demoqrafik siyasət – əhali istehsalının tənzimlənməsi sahəsində dövlət orqanları və digər sosial institutların məqsədyönlü fəaliyyətidir. Bu zaman onların vəzifəsi əhali sayının və strukturunun dinamikasında mövcud tendensiyasını qorumaq və ya dəyişdirməkdir. Başqa sözlə ifadə etsək, demoqrafik siyasət əhalinin doğum, ölüm, nikah və boşanma proseslərinə təsir edən siyasətdir. Demoqrafik proseslər cəmiyyətdə gedən digər ictimai-siyasi və sosial-iqtisadi proseslərlə qarşılıqlı əlaqədədir. Belə ki, demoqrafik proseslər cəmiyyətdə gedən digər proseslərə təsir göstərir, öz növbəsində də həmin proseslərin təsirinə məruz qalır.

Beləliklə, dövlətin demoqrafik siyasəti sosial-iqtisadi siyasətlə birbaşa əlaqəli olsa da, onun özünəməxsus xüsusiyyətləri və cəhətləri var. Demoqrafik siyasətin həyata keçirilməsi bir sıra şərtlərə riayət olunmasını tələb edir ki, bunlardan üçü bir-birindən ayrılmazdır.

Birincisi, demoqrafik siyasətin reallaşmasının məqsəd, vəzifə və zamanını müəyyənləşdirən konsepsiyanın olmasıdır.

İkincisi, qəbul edilmiş konsepsiya çərçivəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün lazım olan vəsaitin olmasıdır.

Üçüncüsü, həyata keçirilən siyasətin əsas strateji ideyasını dəstəkləyən ictimai rəyin olmasıdır.

Demoqrafik siyasət konsepsiyasının həyata keçirilməsi üçün ölkə sabit və davamlı sosial-iqtisadi inkişafa malik olmalıdır. Belə ki, demoqrafik siyasət aparılarkən gözlənilən

nəticələrə nail olunması üçün uzun müddət tələb olunur. Demoqrafik siyasətin həyata keçirilməsi, yəni dövlətin doğum proseslərinə təsir göstərməsi praktiki olaraq bütün dünya dövlətləri tərəfindən qəbul edilmişdir. Demoqrafik şəraitdən asılı olaraq 2 növ siyasət həyata keçirilir:

1. Doğum göstəricilərinin yüksəldilməsinə istiqamətlənmiş populyasion siyasət (əsasən demoqrafik böhran yaşayan inkişaf etmiş ölkələr üçün xarakterikdir)

2. Doğum göstəricilərinin aşağı salınmasına istiqamətlənmiş əkspopulyasion siyasət (demoqrafik partlayış yaşayan inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir) [12, s. 256].

Tarixən Azərbaycanda əhali artımı yüksək olduğuna və demoqrafik böhran yaşanmadığına baxmayaraq demoqrafiya sahəsində aparılan siyasət ümumilikdə populyasion, yəni əhali artımına istiqamətlənmiş xarakter daşımışdır. Müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmiş, lakin bu təsir lazımi səviyyədə öyrənilməmiş və ölkədə demoqrafik proseslərin inkişafı proqnozlaşdırılmamışdır. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində, demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Bu onunla izah edilir ki, demoqrafiya sahəsindəki siyasət hər bir dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir (2, s.1).

Əhalinin məskunlaşması sahəsində fundamental problemlərin həll edilməsi və məqsədyönlü demoqrafik siyasətin həyata keçirilməsi üçün onun elmi-konseptual və hüquqi əsaslarının yaradılması zəruri idi. Məhz həmin zərurətdən çıxış edərək Ulu öndərimiz Heydər Əliyev özünün 9 dekabr 1999-cu il 290№-li Sərəncamı ilə Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasını təsdiq etmişdir. Bu günün reallığı demoqrafiya siyasətinin və əhali sakinliyi sisteminin ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələrinə uyğun olaraq ciddi şəkildə yenidən qurulmasını tələb edir. Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır." (2, s.1).

XX əsrdə Azərbaycan əhalisinin inkişaf templəri dünya əhalisinin inkişaf tempindən sürətli olmasına baxmayaraq (1897-1997-ci illəri əhatə edən 100 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə, yəni 4,3 dəfə artaraq 1807 min nəfərdən 7847,5 min nəfərə gəlib çatmışdır.) dörd dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdir: 1913-1920-ci illərdə Birinci Dünya Müharibəsi zamanı xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və sair hadisələr nəticəsində Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6 faiz azalaraq 2339 min nəfərdən 1952 min nəfərə düşmüş; 1941-1945-ci illər Böyük Vətən Müharisi zamanı Azərbaycan əhalisinin sayı 568,4 min nəfər və ya 17,4 faiz azalaraq 1940-cı ilin əvvəlindəki 3274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüş və bununla əlaqədar Azərbaycan əhalisinin sayı özünün müharibədən əvvəlki səviyyəsinə yalnız 10 il sonra, yəni 1955-ci ildə çatmış; 1948-1953-cü illərdə Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlılarının öz əzəli torpaqlarından deportasiya olunmuş; 1988-ci ildən başlayaraq erməni təcavüzü

nəticəsində torpaqlarımızın 20%-i işğal edilmiş, bir milyon nəfərədək soydaşımız qaçqın və məcburi köçkün olmuş, o cümlədən 250 min nəfərdən artıq azərbaycanlı soydaşımız Ermənistandan qovulmuş və beləliklə, son iki əsr ərzində 1,5 milyon nəfərdən çox azərbaycanlı öz tarixi torpaqlarından məcburi surətdə deportasiya edilmişdir (2, s.2).

SSRİ dağıldıqdan sonra, digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da demoqrafik prosesləri yaradan əsas demoqrafik hadisələr olan doğum, ölüm, nikah və boşanmalarda, miqrasiya sahəsində göstəricilər ürəkaçan deyildi. Tədqiqatlar müstəqilliyin ilk illərində keçid dövrünün çətinlikləri ilə əlaqədar doğum və təbii artımın, nikahların sayının azalması, miqrasiyaların intensiv xarakter alması və ölüm hallarının qismən artmasını göstərirdi. Bunun nəticəsində ölkədaxili miqrasiyalar intensivləşmiş, əhalinin regionlar üzrə paylanmasında böyük dəyişikliklər baş vermişdir. Belə ki, əhali paytaxt Bakıda və onun ətraf zonalarında həddən artıq cəmlənmiş, kənd rayonlarında, əsasən də sərhədboyu və dağlıq ərazilərdə onların sayının azalması baş vermişdir.(8, s.1)

Bu sahədə olan problemlərin həll edilməsi üçün Demoqrafik inkişaf kosepsiyasında demoqrafik siyasətin prioritet vəzifələri müəyyənləşdirildi:

– əhalinin kəmiyyət-keyfiyyətinə normal təkrar istehsal üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması;

– ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;

– nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;

– ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi;

– respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş regionlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaradılması;

– ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və mübadiləsi, sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsi.

Demoqrafik siyasət tədbirlərinin pərakəndə formada deyil, sosial-iqtisadi islahatların tərkibində həyata keçirilməsi artıq dünyanın aparıcı dövlətlərinin təcrübəsində öz əksini tapmışdır. Respublikamızda da 1990-cı illərin II yarısından başlayaraq fəal sosial-iqtisadi islahatlara başlanılması, dövlət proqramlarının reallaşdırılması nəticəsində demoqrafiya sahəsində də müəyyən nailiyyətlər əldə edildi.

Araşdırmalar göstərirdi ki, az vaxtda, böyük sürətlə aparılan sosial-iqtisadi islahatlar regionların inkişafına və bunun nəticəsində də demoqrafik vəziyyətin nizamlanmasına şərait yaratmışdır. XX əsrin sonunda təbii artımın azalması müşahidə edilsə də, iyirmi birinci yüzilliyin ilk illərində bunun tam əksi qeydə alınmışdır. Artıq ölkədə demoqrafik inkişafın sabitləşmə mərhələsi yaranmışdır. Kənd əhalisinin üstünlük təşkil etdiyi inzibati rayonlarda isə təbii artım yüksək olaraq qalır (8, s.1).

Azərbaycan Respublikasında demoqrafik siyasətin həyata keçirilməsinin ikinci mərhələsi Prezident İlham Əliyevin demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq, əhalinin orta ömür yaşını artırmaq, ana və uşaqların sağlamlığını, ailələrin möhkəmləndirilməsini və miqrasiyanın tənzimlənməsini təmin etmək məqsədilə 11 noyabr 2004-cü ildə 517№-li Sərəncamı ilə Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramını təsdiq etməsi ilə başlamışdır (3, s.4).

Dövlət Proqramının əsas məqsədi əhalinin optimal təkrar istehsalına nail olmaq, orta ömür uzunluğunu artırmaq, ana və uşaqların müdafiəsini gücləndirmək, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmaq və miqrasiya proseslərinin tənzimlənməsi yollarını müəyyən etməkdən ibarətdir. Bu

Proqram ölkədə demoqrafik və əhali inkişafının orta müddətli strategiyasını müəyyənləşdirməklə, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş digər dövlət proqramları ilə əlaqəli şəkildə həyata keçirilir.

Bütövlükdə, əhalinin hərtərəfli inkişafına kömək etməyə yönəldilmiş tədbirlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən müxtəlif dövrlərdə təsdiq olunmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, Yoxsulluğun azaldılması və davamlı sosial-iqtisadi inkişafı, Məşğulluq Strategiyası, Məşğulluq Strategiyasının həyata keçirilməsi, Miqrasiya, Azərbaycan Gəncliyi, Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə və digər Dövlət Proqramlarında da əksini tapmışdır.

Əhalinin strukturu və dinamikasında olan göstəricilər milli gücün əsas elementləridir və təbii ki, Azərbaycan xalqının genofondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlər milli təhlükəsizlik baxımından olduqca mühümdür.

Demoqrafik təhlükəsizlik-milli təhlükəsizliyin tərkib hissəsi olub, dövlətin, cəmiyyətin və əmək bazarının demoqrafik təhlükələrdən qorunması vəziyyətidir ki, bu zaman dövlətin, cəmiyyətin və şəxsiyyətin tarazlaşdırılmış demoqrafik maraqlarının məcmuu əsasında inkişaf təmin edilir. Eyni zamanda demoqrafik təhlükəsizlik demoqrafik proseslərin elə bir vəziyyətidir ki, bu cür şəraitdə xarici amillərin təsiri olmadan əhalinin yenidən istehsalı və dövlətin geosiyasi maraqlarının insan resursları ilə təminatı mümkün olsun. Demoqrafik təhlükəsizlik müəyyən dərəcədə əhalinin real gəlirlərindən və dolayısı ilə iqtisadiyyatın inkişaf səviyyəsindən asılıdır. Öz növbəsində də, iqtisadi təhlükəsizliyin təmin olunması demoqrafik şəraitdən törəyən ixtisaslaşmış əmək ehtiyatlarının sayından asılıdır. Bunun məntiqi nəticəsi olaraq "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin 18.2.7-ci yarımbəndində Azərbaycan Respublikasının sosial sahədə milli təhlükəsizliyinin təmin olunması zəruri hesab edilən sahələrdən biri kimi "miqrasiya və demoqrafik proseslərin tənzimlənməsi" göstərilmişdir (1, maddə 18).

Bütün bunlar nəzərə alınaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əhatə etdiyi dövrdə ölkə əhalisinin hər il orta hesabla 1,1 faiz artaraq, 2020-ci ildə təxminən 10,2 milyon nəfərə çatacağı gözlənilir (5, s.12).

Miqrasiya proseslərinin tənzimlənməməsi hər bir dövlət üçün daha çox aktual olan demoqrafik təhdidlərdən biridir. SSRİ-nin süqutundan sonra Azərbaycan beynəlxalq miqrasiya proseslərinin fəal iştirakçısına çevrilsə də həm sosial-iqtisadi vəziyyətin ağır olması səbəbindən əhalinin xaricə, xüsusilə postsovet məkanına axın etməsi, həm də müharibə səbəbindən qaçqın və məcburi köçkün axını kimi ciddi formada xarici və daxili miqrasiya problemi ilə üzləşmişdir. Azərbaycan Respublikasında miqrasiya qanunvericiliyinin yaranması və təkmilləşməsi xeyli müddət davam etmişdir ki, onu şərti olaraq iki dövrə bölmək olar:

• 1990-cı ildən 2000-ci ilədək olan ilkin dövr;

• 2000-ci ildən bu günə qədər davam edən müasir dövr.

İlkin mərhələdə miqrasiya prosesləri 1994-cü il iyunun 14-də qəbul edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar" haqqında Azərbaycan Respublikasının Qanunu ilə, 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrilə və 1998-ci il dekabrın 22-də qəbul edilmiş "İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənmişdir. Bu dövrdə miqrasiya proseslərinin hüquqi əsasının yaradılması çox mütərəqqi və səmərəli olmuş, əhalinin mexaniki

axınlarının tənzimlənməsində müstəsna rol oynamış və miqrasiya saldosunun müsbət olması üçün sabit bir baza yaratmışdır.

Miqrasiya qanunvericiliyinin inkişafının ən məhsuldar dövrü ikinci mərhələyə təsadüf edir. Belə ki, 2004-cü il iyulun 13-də Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının dövlət miqrasiya idarəetmə siyasəti konsepsiyası"nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Konsepsiyanın reallaşdırılmasının davamı olaraq 25 iyul 2006-cı il tarixində 2006-2008-ci illər üçün "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı" qəbul edilmişdir. Proqramda Azərbaycanda miqrasiya proseslərinin xüsusiyyətlərini, miqrasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətlərini və miqrasiya sahəsində həyata keçirilməsi zəruri sayılan tədbirlərin və bu tədbirlərə cavabdeh olan müvafiq dövlət orqanlarının və qurumlarının müəyyən edilməsini əks olunur. Proqramın son nəticəsi kimi 2007-ci il martın 19-da Azərbaycanda miqrasiya siyasətinin həyata keçirilməsini təmin edən, miqrasiya proseslərini tənzimləyən mərkəzi icra hakimiyyəti orqanı kimi Dövlət Miqrasiya Xidməti yaradılmış, bu sahədəki fəaliyyətin tənzimlənməsinə yönələn qanunvericilik təkmilləşdirilmişdir. Bu baxımdan 2 iyul 2013-cü il tarixində qəbul olunmuş "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı huquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycanda miqrasiya sahəsində mövcud olan qanunların mükəmməl unifikasiyasıdır.

Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın icrası nəticəsində əhalinin sosial rifahının yüksəldilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə, ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş və bu tədbirlər hazırda davam etdirilir. (4.səh 2).

Dövlətimiz tərəfindən aparılan uğurlu demoqrafik siyasətin nəticəsidir ki, 2017-ci ilin əvvəlindən ölkə əhalisinin sayı 33050 nəfər və ya 0,3 faiz artaraq 2017-ci il iyun ayının 1-i vəziyyətinə görə 9843031 nəfərə çatmışdır. (7)

Azərbaycan Respublikasında 1990-cı illərin demoqrafik statistikası ilə müqayisədə son illərin demoqrafik göstəriciləri qənaətbəxşdir: əhalinin sayı artmış, reproduktiv yaşda olan qadınların uşaq doğma əmsalı yüksəlmiş, nikahların sayı artmış, boşanma halları azalmış, miqrasiya saldosu müsbətə doğru inkişaf etmişdir. Azərbaycan Respublikasında əmək qabiliyyətinə malik hər 100 sakinin payına düşən asılı şəxslərin sayı 38 nəfərdir. Əgər nəzərə alsaq ki, onlardan 30-u 15 yaşlılar qrupundan olan insanlardır, onda aydın olacaq ki, ölkədə demoqrafik vəziyyət proqressivdir (10.s.137). Azərbaycan 2017-ci ildə dünya ölkələrinin həyat səviyyəsinin reytinqinə görə 80-ci yerdədir (müqayisə üçün qeyd edək ki, Rusiya bu cədvəldə 90-cı, Ermənistan isə 94-cü yerdədilər.) (11, s. 3).

Beləliklə, yuxarıda apardığımız araşdırmadan bu nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında demoqrafik siyasət pərakəndə formada deyil, dünya praktikasına adekvat olaraq ölkədə gedən sosial-iqtiisadi islahatlar kontekstində həyata keçirilmiş, demoqrafik siyasətin əsas məqsədi olan demoqrafik optimallığa, yəni əhali sayının çoxalmasına nail olunmuşdur. Ümumilikdə, dövlətimiz tərədindən uğurla aparılmış siyasətin nəticəsi kimi ölkədəki demoqrafik vəziyyəti doğumun nisbətən yüksək səviyyəsi; əmək qabiliyyətli əhalinin sayının artması; əhalinin strukturunun cavan yaşı ilə; miqrasiya proseslərinin fəallaşması ilə xarakterizə etmək olar.

Bu gün Azərbaycan dövlətinin və Azərbaycan xalqının inkişaf hədəfləri günü-gündən çiçəklənən yüksək bir rifah cəmiyyətidir ki, bu da daha yüksək innovativ sosial-iqtisadi islahatlardan və inkişafdan keçir. Nəzərə alsaq ki, həmin inkişafın şərtləri, bir tərəfdən, demokratik cəmiyyət, səmərəli və innovativ idarəetmə aparatı, maddi və maliyyə resurslarının olmasını ehtiva edirsə, digər tərəfdən də,

əməkqabiliyyətli əhalinin və insan kapitalının inkişaf etməsidir, onda dövlətimizin və cəmiyyətimizin çox yaxın gələcəkdə yüksək templərlə daha da inkişaf edərək sosial-iqtisadi göstəricilərinə, həyat keyfiyyəti və rifah səviyyəsinə görə dünyanın inkişaf etmiş aparıcı dövlətləri ilə bir sırada duracağı şübhəsizdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanunu. - http://e-qanun.az/framework/5455
2. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 290№-li Sərəncamı, Bakı şəhəri, 9 dekabr 1999-cu il
3.Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. Bakı,Qanun, 2004
4. Azərbaycan Respublikasında 2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı , Bakı şəhəri 15 sentyabr 2008-ci il
5. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Fərmanı. Bakı şəhəri, 29 dekabr 2012-ci il. http://www.president.az/articles)5.
6. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı. http://www.president.az/articles/3565 10
7. Dövlət Statistika Komitəsinin məlumatı. https://www.stat.gov.az/
8. Məmmədov.R. Azərbaycanda davamlı inkişaf davamlı şəkildə gedir // Azərbaycan qəzeti, 12 fevral 2017-ci il
9. Məmmədov S. Əmək və məşğulluq sahəsində dövlət siyasəti təhlil sənədi."QHT Nəşriyyatı" mətbəəsi, Bakı, 2014
10.Ələkbərov U.K. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi, Dövlət İdarəçiliyi , nəzəriyyə və təcrübə" jurnalı, Dövlət İdarəçilik Akademiyası nəşriyyatı, 2018, №1, (61), səh.132-143
11.https://newsland.com/community/129/content/reiting-stran-mira-po-urovniu-zhizni-v-2017-godu/5788893
12.Волгина Н.А. Демография, учебник, Москва, РАГС, 2003


***Açar sözlər:*** *demoqrafik siyasət, əhalinin yenidən istehsalı, təbii artım, əhali, demoqrafik təhlükəsizlik*

**Ulviyya Hagverdi**
*Senior Lecturer, Department of Political Science and Political Administration,*
*the Academy of Public Administration under the President of Azerbaijan Republic,*
*PhD in Political Science*

# CONCEPTUAL, LEGAL FOUNDATIONS OF FORMATION AND MAIN DIRECTIONS OF DEVELOPMENT OF POPULATION POLICY OF THE REPUBLIC OF AZERBAIJAN

## SUMMARY

In the article the theoretical and legal bases of the demographic policy of population density and dynamics of regulation, the main directions (tendencies) of its development in the Republic of Azerbaijan are analyzed.

Being a part of national security, demographic security depends on a certain extent on the level of actual incomes of the population and indirectly on the level of economic development. Ensuring demographic security in the Republic of Azerbaijan is directly related to the improvement of the socio-economic status of the population, the elimination of poverty, the implementation of state programs in the field of migration and the provision of employment of the population.

As a result of the study, we came to the conclusion that the demographic policy in the Republic of Azerbaijan was adequately carried out in the world in the context of socio-economic reforms in the country and achieved demographic optimality, which is the main goal of the population policy of increasing population.

***Key words:*** *Population Policy, Reproduction of the Population, Natural increase, Population, Demographic Security*

**Ульвия Хагверди**
*Старший преподаватель кафедры Политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики , доктор философии по политическим наукам*

# КОНЦЕПТУАЛЬНО- ЮРИДИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ДЕМОГРАФИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

В статье исследованы теоретические и правовые основы демографической политики регулирования плотности и динамики населения в Азербайджанской Республике и проанализированы основные направления его развития.

Являясь частью национальной безопасности, демографическая безопасность зависит в определенной степени от уровня реальных доходов населения и косвенно – от уровня развития экономики. Обеспечение демографической безопасности в Азербайджанской Республике напрямую связано с улучшением социально-экономического состояния населения, ликвидацией бедности, проведением в жизнь государственных программ в сфере миграции и обеспечением занятости населения.

В результате проведенного исследования сделан вывод, что демографическая политика в Азербайджанской Республике проведена адекватно мировой практике в контексте реализации в стране социально-экономических реформ и достигла демографической оптимальности, являющейся основной целью демографической политики, которая заключается в увеличении численности населения.

***Ключевые слова:*** *демографическая политика, воспроизводства населения, естественный прирост, население, демографическая безопасность*

# G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G  R E S E A R C H E R S

## S O S İ A L  P R O B L E M L Ə R
## S O C I A L  P R O B L E M S

**GÜNEL ADIGÖZƏLOVA**
**Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, Sosiologiya və Politologiya kafedrasının müəllimi, doktorant**
*e-mail: adigozelli.87@mail.ru*

## AZƏRBAYCAN RESPUBLİKASINDA İŞSİZLİK PROBLEMİNİN HƏLLİ İSTİQAMƏTLƏRİ (2004-2014-cü illər)

Azərbaycan Respublikası 2004-2014-cü illərdə öz iqtisadi inkişaf strategiyasında yeni uğurlara imza atmışdı. Bu strategiyanın əsas məqsədi bütün resurslardan, xüsusilə də, əmək ehtiyatlarından səmərəli istifadəni təmin etməklə, iqtisadi cəhətdən yüksək standartlara malik cəmiyyət qurmaq idi. İqtisadiyyatda müşahidə olunan sabit artım tempi aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsində, bazar prinsiplərinin və sahibkarlığın təşəkkül tapmasında, əlverişli işgüzar mühitin yaranmasında mühüm addımlar atmağa imkan yaratmışdır. Ona görə də müasir dövrdə dövlətimizin məşğulluq siyasətinin əsasını mövcud problemlərin həlli və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətləri təşkil edir. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası 2006-2015-ci illəri əhatə etməklə, məşğulluq siyasətinin əsaslarını müəyyən edir. Ölkənin məcmu işçi qüvvəsinin keyfiyyət tərkibini müəyyənləşdirən əsas amil cəmiyyətin intellektual potensialı, onun təkrar istehsal səviyyəsinin yüksəldilməsidir. Son illərin müşahidələrinə əsasən məşğul əhalinin yalnız 19,2 faizini ali ixtisas təhsilli, 50,8 faizini tam orta təhsilli insanlar təşkil etmişdir. [1, s.23].

Sovetlər Birliyi dağılandan sonra çox təəssüf ki, hazırlıq və ixtisasartırma şəbəkəsi, texniki peşə məktəbləri sistemi dağılmışdır. Ancaq son illər ölkədə aparılan uğurlu islahatlar müvafiq işçi qüvvəsinin peşə və ixtisas səviyyəsində yeni meyarların əsasını qoymuşdur. Hətta son dövrlərdə başlayan iqtisadi canlanma mühəndis-texniki təhsili, informasiya-telekommunikasiya texnologiyaları üzrə peşələrə diqqətin çoxalmasına gətirib çıxarmışdır. Azərbaycan Respublikasında müasir dövrdə aparılan bazar yönümlü islahatlar və struktur dəyişikliklər nəticəsində məşğul əhalinin özəl sektorda payı çoxalmışdır. 2000-ci ildə rəsmi işsiz statusu alan şəxslər, 2005-2011-ci illərdə Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən bütün işsizlər hesablanmışdır. Kəndlərdə torpaq islahatının başa çatması, fermerlərə azad torpaq paylarının verilməsi yeni bir əhali təbəqəsi yaratmışdır [2, s.45].

Dövlətin məşğulluq siyasətinin əsas müddəaları ilkin olaraq, öz hüquqi, iqtisadi və təşkilati əsaslarını 2001-ci il iyulun 2-də qəbul olunmuş, "Məşğulluq haqqında " Azərbaycan Respublikasının Qanununda və həmin qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli Fərmanında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2006-2015) "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il tarixli fərmanına, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına (2004-2008), 2005-ci il 20 iyun tarixli sərəncamına

uyğun hazırlanmış “2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”na əsaslanmışdır.

Torpaqlarımızın işğal altında olması, 4 mindən artıq sənaye və kənd təsərüffatı müəssisəsinin və 300 mindən artıq iş yerinin işğal altında qalması, 1 milyondan çox qaçqın və məcburi köçkünün öz yerlərindən didərgin salınması sosial vəziyyətə öz mənfi təsirini göstərən amillər sırasında olmuşdur. Ancaq sevindirici haldır ki, bu məsələ daim dövlətin diqqətindən yayınmamış, hətta Cənab Prezidentin də birbaşa nəzarəti altında olmuşdur. [3, s 56]

2003-cü ilin may-iyun aylarında BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi və Beynəlxalq Əmək Təşkilatının texniki yardımı ilə ölkənin bütün ərazisində əhalinin iqtisadi fəallıq məsələləri üzrə ilk dəfə müşahidə aparılmışdır. Qeyd olunmuşdur ki, əsas problemlərdən biri əmək bazarında xarici işçi qüvvəsinin mövcudluğunun olmasıdır. Ancaq son illərdə qeyri-qanuni əmək miqrasiyasının qarşısının alınması, əməkçi miqrantların sosial müdafiəsi, əmək bazarına uyğun yerli kadrların hazırlanması, miqrasiya qanunlarının sərtləşdirilməsi və ciddi rejimdə işlənməsinə nəzarət edilməsi bu sahədəki problemlərin qarşısını almaqda davam edir. [4, səh 23]

2006-2015-ci illərdə qəbul olunmuş məşğulluq strategiyasının əsas fəaliyyət istiqamətləri bunlardır; məşğulluğun inkişafında səmərəli investisiyanın rolunun artıtılması, kiçik və orta sahibkarlığın inkişafı üçün şərait yaratmaq, işsiz vətəndaşların sosial müdafiəsinin qayğısına qalmaq, kadr hazırlığı və peşə istiqamətlərini düzgün seçmək.

Məşğulluq strategiyası mövcud şəraiti nəzərə alaraq, əsasən iki mərhələdə öz əksini tapır. Birinci mərhələ 2006-2010-cu illəri əhatə edərək, mövcud olan işsizliyi nəzərə çarpacaq dərəcədə azaldılması, əhalinin işsiz, xüsusilə də həssas təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyət göstəricilərinin artırılması kimi prinsipləri özündə birləşdirirdi. Bu mərhələnin davamı olan 2011-2015-ci illəri əhatə edən ikinci mərhələnin əsas istiqamətləri isə işçi qüvvəsinə tələbatın stimullaşdırılması, beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması, struktur islahatların dərinləşdirilməsi, investisiya fəallığının artırılması, insan kapitalının ön plana çəkilməsi olmuşdur.

2006-2015-ci illərdə dövlətin əsas sosial strategiyası olan məşğulluq siyasətinin inkişafı bir sıra istiqamətlərdən ibarətdir:

Birinci istiqamət əsasən yaranmış makroiqtisadi sabitliyi stabil saxlamaq və kiçik və orta sahibkarlığın inkişafına dəstək vermək idi. Bu istiqamətin əsas məzmunu dövlətin tənzimləmə mexanizmindən istifadə edərək, fiskal və monetar siyasətin səmərəli şəkildə həyata keçirilməsi, işsizliyi yaradan amilləri məhdudlaşdıraraq, kiçik və orta sahibkarlığın inkişafını təmin etmək idi. Sahibkarlığın inkişafına mane ola biləcək amillərin aradan qaldırılması, xarici investisiya sahiblərinə sağlam rəqabət mühitinin yaradılması, Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatında üzvlüyünün əmək bazarına və məşğulluğa təsirindən maksimum istifadə etmək, tenderlərdə yerli mallar, iş, xidmət təklif edən şirkətlərə üstünlük verilməsi, sığorta sisteminin təkmilləşdirilməsi, sığorta bazarında investisiyaların artması, beynəlxalq maliyyə qurumlarının orta və kiçik sahibkarlığın inkişafına yönləndirilməsi, kiçik sahibkarlıq subyektlərinə yeni texnologiyaların tətbiqindən faydalanmağa şərait yaradılması kimi məsələlər xüsusi əhəmiyyət kəsb etmişdir [5, s.51].

İkinci mühüm istiqamət məşğulluq sahəsində qanunvericilik bazasının institusional inkişafıdır. Bu bazanın inkişafını təmin etmək üçün müəyyən tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb etmişdir: həyata keçiriləcək tədbirlərin Avropa Sosial Xartiyasının müddəalarına uyğun hazırlanması, Avropa Sosial Təminat Məcəlləsinin tələblərinin milli qanunvericiliyə uyğun müəyyənləşdirilməsi, sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşları həvəsləndirmək məqsədilə mövcud qanunvericiliyə dəyişiklik və düzəlişlərin edilməsi, kiçik və orta sahibkarlığın inkişafını təmin etmək

məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi, Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununda məşğulluğun inkişafına zəmin yaradan və nizama salan müddəaların əlavə olunması və s.

Üçüncü əsas istiqamətlərdən biri də əmək bazarının təkmilləşdirilməsidir ki, bu təkmilləşdirilmə tələb olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığın təmin edilməsi, işsiz vətəndaşların işlə təmin olunması üçün axtarış-informasiya sisteminin yaradılması, neft ixracından əldə olunan gəlirlərin müəyyən hissəsinin insan amilinin inkişafına yönləndirilməsi, iqtisadiyyatın qeyri-dövlət bölməsində əmək qanunvericiliyinə riayət olunmasına nəzarət edilməsi, ixtisarda olan işçi qüvvəsinin də sosial müdafiəsinin təmin edilməsi, miqrasiya sahəsində vahid informasiya sisteminin yaradılması kimi tədbirlərin həyata keçirilməsini zəruri edir.

Digər mühüm istiqamətlərdən biri də təhsil siyasəti və onun əmək bazarına uyğunluğudur. Əmək bazarı və ona uyğun düzgün ixtisaslı kadrların yetişdirilməsi həmişə ən aktual problemlərdən biri olmuşdur. Dünya ölkələri arasında inteqrasiya meyllərinin güclənməsi, beynəlxalq əmək bazarı və onun müasir tələbləri, dinamik və funksional iqtisadi inkişaf və onun yüksək təhsil səviyyəsinə malik kadr potensialına ehtiyacı həlli vacib problemlərdəndir. Əmək bazarında yaranmış vəziyyətin dəyərləndirilməsi müxtəlif ixtisaslı kadrlara olan tələbatın düzgün müəyyənləşdirilməsi, peşə təhsili sisteminin təkmilləşdirilməsi, iş prosesini dayandırmadan təhsilin davam etdirilməsi və daha müasir təhsil sistemlərinə keçid (distant təhsil, modul tədrisi), texniki peşə təhsili üçün yeni mütərəqqi metodların və proqramların hazırlanması, insan amilinin inkişafına istiqamətlnmiş investisiyaların səmərəliliyinin artırılması təhsil və məşğulluğun qarşılıqlı şəkildə inkişaf etdiyini göstərmişdir [6, s.34].

Digər bir istiqamət kimi regional əmək bazarının inkişafıdır ki, bu da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) və digər məşğulluq proqramları çərçivəsində həyata keçirilmişdir. İşaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə gəldikdə, isə ünvanlı sosial yardım sistemində minimum yaşayış standartlarının müəyyənləşdirilməsi və ünvanlılığının dəqiqləşdirilməsi, sosial müdafiəyə ehtiyacı olan insanlar üçün yeni iş yerlərinin açılması, ixtisasına görə işdən çıxma ehtimalı olan vətəndaşların peşə təhsilinin əvvəlcədən müəyyənləşdirilməsi, boş vakansiyalar haqqında informasiyaların dəqiqləşdirilib vahid mərkəzdə birləşdirilməsi, əmək münasibətlərini hüquqi çərçivədə rəsmiləşdirməyənlərə cəza tədbirlərinin sərtləşdirilməsi, işsizlik müavinətinin minimum məbləğinin artırılması istiqamətlərində tədbirlər gücləndirilmişdir.

Gənclərin və yeniyetmələrin məşğulluq problemlərinin həllində peşə təlimi keçən gənclərin daimi işlə təmin olunmasına nəzarət edilməsi, sərbəstləşmə təhlükəsi yaşayan gənclərin işdən azad edilməmişdən əvvəl ixtisası üzrə yenidən hazırlıq keçməsinə şərait yaradılması, gənclərin işlə təmin olunmasında həvəsləndirmə mexanizminin gücləndirilməsi, yeniyetmələrin, gənclərin ictimai və mövsümi işlə təmin olunması, gənclərin xalq yaradıcılığı və qədim sənət növləri kimi işlərə cəlb edilməsi, turizm sahəsində işləmək üçün gənc mütəxxəssislərin yetişdirilməsi, gənclərin şəhərə axınının qarşısını almaq məqsədilə regionlarda yeni iş yerlərinin yaradılması, gənc sahibkarlar üçün biznes mərkəzlərinin yaradılması kimi tədbirlərin həyata keçirilməsi ölkənin sosial inkişaf gələcəyi üçün mühüm amillərdir [7, s.63].

Qaçqın və məcburi köçkünlərin məşğulluğunun gücləndirilməsi və bu istiqamətdə aparılan işlər dedikdə məcburi köçkünlərin daimi və müvəqqəti yaşadıqları ərazilərdə yeni iş yerlərinin açılması, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması sahəsində həvəsləndirmə mexanizmlərinin işlənməsi, məcburi köçkünlərin kiçik sahibkarlıqla məşğul olmaları üçün tədbirlərin keçirilməsi, məcburi köçkünlərin informasiya texnologiyalarından istifadə imkanlarının genişlənməsi, internet şəbəkəsinin yaradılması və.s nəzərdə tutulur. Təsadüfi deyildir ki, ulu öndərimiz Heydər

Əliyev demişdir ki, bizim əsas məqsədimiz torpaqlarımızı azad etmək, Azərbaycan ərazisindən Ermənistan silahlı qüvvələrini çıxartmaq, bunun nəticəsində soydaşlarımızın yurd yuvalarına geri qayıtmasıdır [7, s.22].

Keçmiş məhbusların işlə təmin olunması və məşğulluq problemləri vacib məsələlərdəndir. Xüsusilə də onların yenidən həyata adaptasiyası və sosial müdafiəsi daha mühümdür. Buna görə də dövlət tərəfindən bir sıra tədbirlər planının yaranmasına gətirib çıxardır: cəzaçəkmə müəssisələrindən azad ediləcək şəxslərin peşə təhsilini əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün cəzaçəkmə müəssisələri ilə məşğulluq xidməti orqanları orqanlarının birgə fəaliyyət mexanizmi və informasiya-məlumat bazası yaradılması, cəzaçəkmə müəssisələrindən azad edilmiş vətəndaşların yeni əmək vərdişlərinə yiyələnməsi, eləcə də qanunvericiliklə müəyyən edilmiş kvota üzrə iş yerlərinin müəyyən edilməsi və əməli işlər görülməsi və s.

Azərbaycan Respublikasında məşğulluq strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı qəbul olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası olaraq, işsizlik səviyyəsi azaldılmış, əmək ehtiyatları keyfiyyətcə yaxşılaşmış, rəqabət gücü artırılmış, sosial həssas təbəqələrin sosial müdafiəsi nəzərəçarpacaq dərəcədə gücləndirilmiş, iqtisadi fəallıq üçün əlverişli şərait yaranmışdır. 2011-ci ilin 1 yanvar tarixinə qədər öölkədə iqtisadi fəal əhalinin sayı 1995-ci illə müqayisədə 25,9%, 2006-cı illlə müqayisədə isə 6,7 % artaraq, 4587,4 min nəfər, məəşğul əhalinin sayı 19,8% və 8% artaraq, 4329,1 min nəfər təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın ikinci mərhələsi başlamışdır [8, s.32].

İkinci mərhələdə başlanan sosial siyasət özündə işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını, işgüzarlıq mühitinin səmərəliləşdirilməsini, sosial-struktur islahatların təkmilləşdirilməsini və insan kapitalının ən yüksək inkişaf səviyyəsini əks etdirirdi. Bu baxımdan 2011-2015-ci illər məşğulluq proqramının əsas məqsəd və vəzifələri bunlardır. Bu baxımdan birinci növbədə ölkədə makroiqtisadi sabitlik sahəsində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi, inflyasiyanın stabillik səviyyəsinin müntəzəm qorunub saxlanılması, yerli sənaye məhsullarının ixrac qabiliyyətini artırmaq, regional iqtisadi əlaqələrin möhkəmlənməsi, sağlam bazar münasibətlərinin yaranması, elmtutumlu sahələrin sayının artırılmasını ön plana çəkirik.

İşçi qüvvəsinə tələbatla iş yerləri arasında tarazlığın qorunub saxlanması, qeyri-formal məşğulluğun qarşısının alınması, neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan kapitalına yatırılması, işə düzəlməkdə çətinlik çəkən bir qrup vətəndaşlara statusundan asılı olmayaraq, dövlət tərəfindən xüsusi kömək-liyin göstərilməsi, peşə və ixtisaslaşma təsnifatının təkmilləşdirilməsi, fərdi əmək fəaliyyəti ilə məşğul olanlara köməklik göstərilməsi, boş iş yerləri haqqında məlumatı əldə etmək üçün analitik-informasiya sisteminin yaradılması da bu proqram çərçivəsində həyata keçirilən tədbirlərə aiddir.

İşləyənlərin layiqli həyat səviyyəsini təmin etmək üçün iqtisadiyyatın inkişafından asılı olaraq, minimum əmək haqlarının mərhələli formada artırılması, sosial cəhətdən həssas əhali qrupları üçün- qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, işsiz və işsiz axtaran qadınların peşə hazırlığı və əlavə təhsilinin davam etdirilməsinə köməklik göstərilməsi 2011-2015-ci illər dövlət məşğulluq siyasətinin gözlənilən nəticələrinə daxil edilə bilər [9, s.41].

Avropa ilə Asiyanın qovşağında strateji baxımdan əlverişli, mühüm geostrateji mövqeyə malik olan Azərbaycan ictimai-siyasi və mədəni-mənəvi həyatın bütün sahələrində özünəməxsus xüsusiyyətləri yaşatmaqla yanaşı, Şərq-Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri də əxz edərək, dünya birliyinə inteqrasiya olunmaq xəttini seçmişdir. Bu

seçimi reallaşdırmaq istiqamətində Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modellərini müəyyənləşdirir, digər tərəfdən beynəlxalq aləmdə mövcud olmuş və qəbul edilmiş ölçülərə uyğun olaraq öz milli maraqlarını qorumaq üçün dövlətlərarası əlaqələr girir. Bu da tamamilə təbiidir. Çünki, hər bir ölkənin daxili, iqtisadi, siyasi və mənəvi tələbatının ödənilməsi onun dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasını və inkişafını, milli maraqlarına cavab verən xarici siyasət yürüdülməsini tələb edir [10, s.33].

Müasir qloballaşma prosesindəki iqtisadi və sosial faktorlar elə həddə çatmışdır ki, beynəlxalq aləmdə dövlətlər və insanlar arasındakı münasibətlərin əsas katalizatoru rolunda din, dil, mədəniyyət deyil, məhz iqtisadi maraqlar çıxış edir. Hazırki münaqişlərin əsas determinantı bütün XX əsrdə baş vermiş dövlətlərarası toqquşmalarda olduğu kimi, yenə də ayrı-ayrı ölkələrin dərk olunmuş milli maraqları hesab olunur. D.Zerkinin "istənilən halda beynəlxalq konflikt o zaman baş verir ki, bir dövlət, yaxud dövlətlər qrupu öz mənafelərini digərlərinə təlqin edir" fikri ilə razılaşmamaq mümüküm deyil." Milli iqtisadiyyatı xarakterizəedən başqa bir cəhət ondan ibarətdir ki, o xalqın müəyyən ərazidaxilində mövcud olan iqtisadi, siyasi, mədəni və mənəvi birliyidir.

Bu bir tərəfdən gənc dövlətlərin xarici siyasət strategiyasının formalaşması qarşısında xeyli çətinlik yaratsa da, digər tərəfdən onların müstəqil xarici siyasət yeritməsi üçün əlverişli manevr imkanları açır. Hazırda dövlətlərarası münasibətləri tənzimləyən əsas vasitə iqtisadi, hərbi-siyasi və ya ideoloji güc, qüvvə olsa da, dünyada kütləvi qırğın silahlarına, o cümlədən atom bombasına malik olan ölkələrin sayının artması təhlükəsi iri fövqəldövlətləri və dövlətlər birliyini bir növ siyasi müvazinətini saxlamağa və qorumağa məcbur edir. Əsası hələ son orta əsrlərdə qoyulmuş siyasi müvazinət nəzəriyyəsinə görə, müxtəlif maraqların qarşılıqlı bağlılığı heç bir dövlətə başqaları üzərində mütləq şəkildə hegemonluq etməyə və onlar üçün davranış qaydaları müəyyənləşdirməyə imkan vermir. Hərbi-siyasi və iqtisadi sahədə baş verən keyfiyyət dəyişiklikləri region dövlətləri arasında milli maraqlarını, qlobal şəkildə isə bütün dünyada qayda-qanunun və əmin-amanlığın qorunub saxlanması marağını formalaşdırır." 2005-ci ildə İngiltərə vergi administrasiyası (HMRC) nəzdində iri biznes departamenti təşkil olunmuşdur [11, s.65].

Bugünkü günümüzdə Azərbaycan uğurla öz neft strategiyasını həyata keçirir. Bu çox aydın şəkildə həm iqtisadiyyatda, həm beynəlxalq siyasi arenada, həm xarici siyasət əlaqələrində, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bütün məsələlərdə, milli təhlükəsizlik sahəsində həyata keçirilən tədbirlərdə özünü göstərir. Baxmayaraq ki. Azərbaycana hələ də çox güclü təzyiqlər edilir, bizim Qarabağ düyünümüz açılmamış qalsa da belə, biz gənc və müstəqil dövlət olaraq bütün problemlərin öhdəsindən gələ biləcəyik.

**Ədəbiyyat:**


1. Babayev Ə.P İqtisadi inkişafdan modernləşməyə doğru. Bakı: Oğuz eli, 2013, 200 s.
2. Şəkərəliyev A.S. Dövlətin iqtisadi Siyasəti-reallıqlar, perspektivlər. Bakı: Elm, 2009, 543 s.
3. Mirzəzadə Aydın. Azərbaycan, zaman, inkişaf. Bakı: Azərbaycan, 2008, 608 s.
4. Abdullayev E. Dövlət quruculuğu. Bakı: Ozan, 2002, 232 s.
5. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı: Elm, 2013, 112 s
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cild: C: 29, Bakı: Azərnəşr, 2009, 520s.
7. Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə dövlət proqramı (2007-2010-cu illər) Azərbaycan Respublikasının 15 may 2007-ci il

2167 saylı sərəncamı. 10.06.2018
8. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Dövlət Statistika Komitəsi; Bakı: Səda, 2012, 44 s
9. Hacıyev Ş. Azərbaycanın iqtisadi inkişafının model identifikasiyası. "Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası". Bakı: Azərnəşr, 2011, 708 s.
10. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: Nurlar, 2004, 504 s.
11. Babayev Ə.P İqtisadi inkişafdan modernləşməyə doğru. Bakı: Oğuz eli, 2013, 200 s.

***Açar sözlər:*** *Sosial proqram, dövlət siyasəti, məşğulluq, gəlirlər, vergi, inkişaf*

**Gunel Adigozalova**
*Teacher, PhD student, Department of Philosophy,*
*Sociology and Political Studies, Sumgait State University*

## UNEMPLOYMENT PROBLEMS IN THE REPUBLIC OF AZERBAIJAN (2004-2014)

### SUMMARY

Our economic achievements and its results are widely reflected in this research work. Taking into account that the accomplished economic achievements have led to the improvement of the living standards of the population, mainly to the social protection of the vulnerable population, the formation of the population's safe social protection system and the allocation of social spending from the state budget. Taking into consideration all of these, the research period can be considered satisfactory and productive. The most important point is that some action plans have been implemented with very high growth rates, despite the fact that the program was introduced firstly.

***Key words:*** *Social Program, State Policy, Employment, Income, Tax, Development*

**Гюнель Адигозалова**
*Преподаватель кафедры Философии, социологии и политологии*
*Сумгаитского государственного университета, докторант*

## ПРОБЛЕМЫ БЕЗРАБОТИЦЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (2004-2014-е годы)

### РЕЗЮМЕ

Наши экономические достижения и его результаты широко отражены в исследовательской работе. Принимая во внимание, что достигнутые экономические успехи привели к повышению уровня жизни населения, в основном к социальной защите уязвимого населения, формированию безопасной системы социальной защиты населения и распределению социальных расходов из государственного бюджета. Учитывая все это, наш исследовательский период можно считать удовлетворительным и продуктивным. Самое главное, что некоторые планы действий были реализованы с очень высокими темпами развития, несмотря на то, что программа была применена впервые.

***Ключевые слова:*** *социальная программа, государственная политика, занятость, доход, налог, развитие*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

## E K O N O M E T R İ Y A
## E K O N O M E T R I Y A

**SƏBİNƏ BƏŞİROVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəçiliyində İnformasiya texnologiyaları kafedrasının müəllimi, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı**
*e-mail: sabina.bashirova@gmail.com*

# AQRAR SEKTORDA İQTİSADİ SƏMƏRƏLİLİYİN TƏŞKİLİNİN EKONOMETRİK MODELLƏŞDİRİLMƏSİ

Respublikamızda aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsində Ulu Öndər Heydər Əliyev misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyev ölkə iqtisadiyyatının möhkəmləndirilməsi, resurslardan səmərəli istifadə edilməsi, xarici şirkətlərlə əlaqələrin genişləndirilməsi, fəaliyyətdə intizamın yaradılması kimi çox əhəmiyyətli şərtlərin önə çəkilməsini vacib sayaraq demişdir: “Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz dünyada inkişaf etmiş ölkələrlə və dünyanın qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi, iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik”.

Ölkə Prezidenti İlham Əliyev aqrar sənaye kompleksində çalışan fermerlər, sahibkarlar, alim və mütəxəssislər tərəfindən böyük ümid və rəğbətlə qarşılanan “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 2003-cü il 24 noyabr tarixli Fərmanı, 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, 2004-cü il 23 oktyabr tarixli sərəncamları ilə təsdiq edilmiş “Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” və “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında”, 2008- ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2009-cu il 14 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” və digər qəbul edilmiş hüquqi-normativ sənədlər aqrar-sənaye kompleksinin inkişafına güclü təkan vermişdir (1).

Məlum olduğu kimi ölkədə kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci il Azərbaycanda Kənd Təsərrüfatı ili elan edilmiş və dövlət başçısının 3 aprel 2015-ci il tarixli sərəncamı ilə bununla bağlı tədbirlər planı təsdiq edilmişdir.

Aqrar sahədə ardıcıl həyata keçirilən məqsədyönlü modernləşdirmə aqrar bölməyə dövlət qayğısının bariz nümunəsidir (2).

**Cədvəl 1.** Respublikada əsas kənd təsərrüfatı texnikası növlərinin parkı (2014-2015-ci illər)

| Göstəricilər | İllər | | Keçən ilə nisbətən azalma | Keçən ilə nisbətən %-lə azalma |
|---|---|---|---|---|
| | 2014 | 2015 | | |
| Traktorlar | 23090 | 12262 | 10828 | 46.9 |
| Kotanlar | 5507 | 570 | 4937 | 89.6 |
| Yemyığan kombaynlar | 616 | 317 | 299 | 48.5 |
| Toxumsəpənlər | 2051 | 185 | 1866 | 90.9 |
| Taxılyığan kombaynlar | 2218 | 658 | 1560 | 70.3 |
| Kultivatorlar | 711 | 49 | 662 | 93.1 |
| Otbiçənlər | 1393 | 90 | 1303 | 93.5 |
| Qarğıdalıyığan kombaynlar | 7 | 2 | 5 | 71.4 |
| Çuğunduryığan kombaynlar | 9 | 6 | 3 | 33.3 |
| Kartofyığan kombaynlar | 39 | 4 | 35 | 89.7 |
| Sıxıbbağlayanlar | 1727 | 476 | 1251 | 72.4 |

Azərbaycan tarixən aqrar ölkə olmuş və hazırda ölkənin əsas aqrar sahəsi isə bitkiçilik, meyvəçilik, üzümçülük, çayçılıq, pambıqçılıq, heyvandarlıq və başqa sahələrdir.

Bunu nəzərə alan Prezident İlham Əliyev ölkə iqtisadiyyatını daha da yaxşılaşdırmaq məqsədi ilə respublikanın ən aparıcı sahələrinin – pambıqçılığın, üzümçülüyün, çayçılığın, baramaçılığın inkişaf etdirilməsi sahəsində kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsinin təmin edilməsi istiqamətində konkret tapşırıqlar vermişdir.

Məlumdur ki, kənd təsərrüfatının mexanikləşdirilməsi səviyyəsinin artırılmasında, texniki xidmətlərin göstərilməsində, məhsulun vaxtında və itkisiz yığılmasında "Aqrolizinq" ASC-nin rayon aqroservis filiallarının xüsusi rolu var. Hazırda respublikada 54 aqroservis filialları fəaliyyət göstərir, ondan 34 filialın müasir maddi-texniki bazası yaradılmış və tutumu 68 min ton olan 6 ədəd logistik gübrə bazası tikilib istifadəyə verilmişdir.

"Aqrolizinq" ASC tərəfindən aparılmış tədbirlərin nəticəsi olaraq istifadədən yaranmış 119,5 milyon manat vəsait yenidən kənd təsərrüfatı texnikalarının və müxtəlif təyinatlı maşın və texnoloji avadanlıqların alınmasına yönəldilmişdir.

Kənd təsərrüfatında maddi resurslar əsas fondlar ilə material dövriyyə vasitələrindən ibarət olub, torpaq, su ehtiyatları ilə birlikdə kənd təsərrüfatının maddi-texniki bazasını formalaşdırır. Onun tərkib hissəsinə – traktorlar, kombaynlar, müxtəlif becərmə texnikaları, xüsusi təyinatlı avtomobillər və müxtəlif elektrik avadanlıqları, cihazları aiddir.

Kənd təsərrüfatında iqtisadi səmərəliliyin araşdırılması məqsədi ilə illər üzrə müqayisəli şəkildə texnikaların alınması və istifadə edilməsi səmərəliliyini əks etdirən göstəricilər araşdırılıb təhlil edilmişdir (8).

Cədvəl müəllif tərəfindən Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilibdir.

Müqayisə olunan illər üzrə texnikaların alınma sayı azalmış, iqtisadi səmərəlilik isə artmışdır.

Müqayisə olunan illər üzrə bəzi texnikaların alınma sayı azalmış və iqtisadi səmərəlilik

**Cədvəl 2.** Respublikada əsas kənd təsərrüfatı texnikası növlərinin parkı (2015-2017-ci illər)

| Göstəricilər | İllər | | Keçən ilə nisbətən ədədlə | Keçən ilə nisbətən %-lə |
|---|---|---|---|---|
| | 2015 | 2017 | | |
| Traktorlar | 12262 | 979 | 11283 | 92.0 azalıb |
| Yemyığan kombaynlar | 317 | 12 | 305 | 96.2 azalıb |
| Taxılyığan kombaynlar | 658 | 1036 | 378 | 57.4 artıb |
| Kultivatorlar | 49 | 66 | 17 | 34.4 artıb |
| Qarğıdalıyığan kombaynlar | 2 | 3 | 1 | 50.0 artıb |
| Çuğunduryığan kombaynlar | 6 | 5 | 1 | 16.6 azalıb |
| Kartofyığan kombaynlar | 4 | 6 | 2 | 50.0 artıb |

artmışdır, bəzi texnikaların alınma sayı isə artmışdır. Bu zaman iqtisadi səmərəlilik azalmışdır. Belə ki, baxılan illərdə:

– traktorlar 11283 dənə və ya 92.0% azalıb;
– yemyığan kombaynlar 305 dənə və ya 96.2% azalıb;
– taxılyığan kombaynlar 378 dənə və ya 57.4% artıb;
– kultivatorlar 17 dənə və ya 34.4% artıb;
– qarğıdalıyığan kombaynlar 1 dənə və ya 50.0% artıb;
– çuğunduryığan kombaynlar 1 dənə və ya 16.6% azalıb;
– kartofyığan kombaynlar 2 dənə və ya 50.0% artıb.

İqtisadi səmərəliliyinin qiymətləndirilməsini aşağıdakı yanaşmalar təmin edir: (7;4)

– qoruyucu avadanlıq xərclərinin azaldılması;
– texniki dövrlərin sayını artırmaq və cari və ya əsaslı təmir xərclərini azaltmaq;
– obyektin təmiri zamanı fasilə müddətinin azaldılması;
– obyektin xidmət baxımından işləmə müddətinin artırılması.

İqtisadi təsiri müəyyən edən digər aspektlər isə aşağıdakılardır:

– məhsulun keyfiyyətinin yaxşılaşdırılması;
– material ehtiyatlarının saxlanılması;
– ətraf mühitin çirklənməsinin azaldılması;
– iş şəraitinin yaxşılaşdırılması.

Kənd təsərrüfatı maşınlarının səmərəliliyinin iqtisadi təsiri aşağıdakı üç sistemin həyata keçirilməsi nəticəsində hesablanır:

– qabaqcıl avadanlıq;
– müvəqqəti korroziyadan mühafizə;
– resursa qənaət texnologiyaları əsasında spesifikasiyası və texniki sənədlər.

Məlumdur ki, kənd təsərrüfatında istehsalın genişləndirilməsi və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi digər tədbirlərlə yanaşı kənd təsərrüfatı texnikalarının korroziyaya qarşı qorunmasından əhəmiyyətli dərəcədə asılıdır (3).

Korroziya qarşı qoruma vasitələrinin texniki səmərəliliyinin göstəricisi səmərəlilik (məhsuldarlıq) əmsalı (Kts) ilə xarakterizə olunacaq:

$$K_{ts}=\frac{\varepsilon}{\varepsilon'}$$

Burada ε - hazırlanmış vasitədən (alətdən) istifadə zamanı müdafiəsinin səmərəliliyi;

ε′-mövcud analoqdan istifadə zamanı qorunmasının səmərəliliyi.

Korroziyadan qorunma zamanı səmərəliliyin qiymətini bilmək üçün korroziya dərəcəsi, amortizasiya dərəcəsi, korroziya sahəsi, korroziya vaxtı, ilk əlamətləri, qədəri və s. göstəricilərdən istifadə edilir. Səmərəliliyin qiymətləri istifadə olunan sınaq üsulundan asılıdır (5,6).

Məsələlərdə nəticələrin təhlili zamanı səmərəliliyin orta qiyməti (K) anlayışından istifadə etmək əlverişlidir:

$$\overline{K}_{ts}=\frac{\Sigma_{t=1}^{N} K_{ts}}{N}$$

Burada N - sınaq üsullarının sayıdır.

Yeni qoruyucu vasitələrdən (avadanlıqlardan) istifadə zamanı iqtisadi səmərəlilik əmsalı yeni vasitələrin ümumi dəyərinin mövcud vasitələrin ümumi dəyərinə nisbəti kimi hesablanır, yəni:

$$K_{is}=\frac{Z}{Z'}$$

Ümumilikdə texnoloji proseslərin xərcləri hər etapdakı xərclərin cəminə bərabərdir:

$$Z=Z_a+Z_e+Z_i+Z_{ex}+Z_{dx}$$

$$Z'=Z'_a+Z'_e+Z'_i+Z'_{ex}+Z'_{dx}$$

Burada:

$Z_a$- bred vəsaitlərin alınması xərcləri;

$Z'_a$- yeni bred vəsaitlərin alınması xərcləri;

$Z_e$- elektrik xərcləri;

$Z'_e$- yeni vasitələrin elektrik xərcləri;

$Z_i$-işçilərin əmək haqlarının ödənilməsi xərcləri;

$Z'_i$-yeni vasitələri işlədən işçilərin əmək haqlarının ödənilməsi xərcləri;

$Z_{ex}$ - saxlama zamanı istehlak edilən elektrik xərcləri;

$Z'_{ex}$ - yeni vasitələrin saxlama zamanı istehlak edilən elektrik xərcləri;

$Z_{dx}$ - saxlama müddəti bitdikdən sonra daşınma xərcləri;

$Z'_{dx}$- yeni vasitələrin saxlama müddəti bitdikdən sonra daşınma xərcləridir.

**Ədəbiyyat:**


1. Abbasov İ. "Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı", Bakı, 2013
2. İbrahimov İ. "Heydər Əliyevin Aqrar İslahatlarının nailiyyətləri" // Dövlət İdarəçiliyi, Nəzəriyyə və təcrübə, xüsusi buraxılış, Bakı 2017
3. Kearney D. Agricultural science and politics: the dynamics of politically motivated funding for agricultural R&D in Sub-Saharan Africa//SIMT Working paper. - 2004
4. Polukhin A.A. Approaches for justification strategy technical modernization of agriculture given the characteristics of agricultural development 53 and resource provision subjects of the federation/ A.A.Polukhin// Russian Journal of Agricultural and Socio-Economic Sciences. 2013. T. 24. № 12. C. 22-27. - 0,8 п.л.
5. Tokgoz S. Private agricultural R&D in the United States//Journal of agricultural and resource economics.-2006.-№31.-c. 212-238
6. Tokgoz S. R&D spillovers in agriculture: results from a north-south trade model//AAEAAM Working paper.-2008
7. Полухин А.А. Анализ использования материально-технической базы животноводства сельскохозяйственными предприятиями Орловской области / А.А.Полухин, А.В.Алпатов, А.Н.Ставцев // Эффективное животноводство. – 2010.- №11 (61) с. 25-27.- 0,6 п.л., в т.ч. авторских 0,2 п.л.
7. 8. www.azstat.org


***Açar sözlər:*** *iqtisadi səmərəlilik, səmərəlilik əmsalı, səmərəliliyin orta qiyməti, qoruyucu vasitələr*

**Sabina Bashirova**
*Teacher of the Department "Information Technologies in Public Administration",*
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*PhD candidate, Azerbaijan State Economic University*

# ECONOMETRIC MODELING OF ECONOMIC EFFICIENCY IN THE AGRICULTURAL SECTOR

## SUMMARY

Corrosion control of agricultural equipment is a major factor for life and functioning of rural households.

There are many reasons for unsatisfactory corrosion protection technology. For instance, these reasons are lack of material and technical basis, lack of universal tools for mechanization of technological processes, as well as multifunctional material protection. The article contains scientific recommendations on the economic efficiency of agricultural machinery against corrosionat the same time it estimates the economic efficiency while using new protective equipment.

The conducted researches show that the acquired protective devices doubled the working capacity and duration of the use of agricultural technologies. The article contains several theoretical and static reports of the accounting committee. In addition, a formula has been derived for calculating the economic efficiency while using protective devices, as well as the protection of agricultural equipment.

***Key words:*** *economic efficiency, efficiency coefficient, average economic efficiency, protective equipment*

**Сабина Баширова**

*Преподаватель кафедры Информационные технологии в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики, диссертант Азербайджанского Государственного Экономического Университета*

# ЭКОНОМЕТРИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ В АГРАРНОМ СЕКТОРЕ

## РЕЗЮМЕ

Коррозионная защита сельскохозяйственной техники является важным фактором для жизни и деятельности сельского хозяйства. Существует много причин, по которым антикоррозийная защита техники неудовлетворительна. Этими причинами являются например, отсутствие материально-технической базы, отсутствие универсальных инструментов для механизации технологических процессов, а также многофункциональная защита материалов. В статье формулируются научные рекомендации по экономической эффективности сельскохозяйственной техники от коррозии и в то же время проводятся расчеты экономической эффективности при использовании нового защитного оборудования. Проведенные исследования показывают, что приобретенные защитные устройства повысили трудоспособность и длительность использования сельскохозяйственных технологий в два раза. Приводятся несколько теоретических и статических отчетов счетного комитета. Помимо этого выведена формула для расчета экономической эффективности при использования защитных устройств, а также рассмотрены вопросы защиты сельскохозяйственного оборудования.

***Ключевые слова:*** *экономическая эффективность, коэффициент эффективности, средняя экономическая эффективность, защитное оборудование*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

**TƏRLAN ORUCOVA**
**Azərbaycan Respublikası Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının doktorantı**
*e-mail: terlan.isgenderova@mail.ru*

# MULTİKULTURALİZM NƏZƏRİYYƏLƏRİ

Tarix boyunca fərqli etnik mənsubiyyətə, mədəniyyətə, dilə, dinə malik qrupların bir yerdə yaşaması bütün cəmiyyətlərdə öhdəsindən gəlinməsi lazım olan vacib məsələlərdən biri olmuşdur. Bəzi dövlətlər öz etnik və mədəni quruluşundan fərqli olan qruplara qarşı sərt siyasət yürüdərək onların fərqliliyini yox etməyə, hətta cəmiyyətdən təcrid etməyə çalışmışlar. Bəzi dövlətlər isə fərqliliklərin bir yerdə yaşaması siyasətini uğurlu bir şəkildə həyata keçirmişdir. Bu çərçivədə multikulturalizm siyasətləri, fərqliliklərin sistem içərisində özünəməxsus xüsusiyyətlərinin varlığını qəbul etməklə qalmır, bunun siyasi, hüquqi və sosial bazasını yaratmağa çalışır. “Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. Multikulturalizm mədəni müxtəlifliyin, məsələn azlıqların dilinin müdafiəsi məsələsini öz qarşısına qoyur. Eyni zamanda o, azlıqların mədəniyyəti ilə əsas mədəniyyətin qeyri-bərabər münasibətlərini nəzərdə saxlayır” [21, s. 881].

Multikulturalizm mövzusunda bir-birindən fərqli görüşlər vardır. Buna görə də, bu fərqli yanaşmalar arasındakı ortaq nöqtələri və fərqlilikləri vurğulamaq əhəmiyyət kəsb edir. Multikulturalizm yanaşmasını mənimsəyənlər arasında fərqli qrupların qrup haqlarıyla var olmalarını müdafiə edənlər, qrup haqlarını qəbul edib mədəni dəyərlərin hüquqi sistemə əks etdirilməsini qəbul etməyənlər və fərdi haqları qəbul edib qrup haqlarının siyasi dəyərləri təhdid etdiyini düşünənlər vardır.

Multikulturalizm nəzəriyyələri başlıca üç qrupda təsnif oluna bilər: kommunitarian multikulturalizm nəzəriyyələri, liberal multikulturalizm nəzəriyyələri və post-kolonyal multikulturalizm nəzəriyyələri.

Kommunitarian görüşə sahib olan alimlər, insanların bəzi hüquqlarının qaynağının ictimai olduğunu müdafiə edirlər. Bir birliyə aid olmaqdan qaynaqlanan - mədəni və linqvstik hüquqlar kimi- hüquqlar sosialdır. Kommunitarian fikri müdafiə edənlərə görə, sosial hüquqlar, insanın yalnız fərdi cəhətdən yaxşı olması ilə əlaqəli deyil. Məhz bu nöqtədə kommunitarianlar, multikulturalizm məsələsini fərdi hüquqlar təməlində müzakirə edən liberallarla toqquşur. Onlara görə fərdi hüquqlar və ya dövlətin tərəfsizliyi qanunu, əslində çoxluqdan kənarda qalanları qeyri-bərabər mövqeyə endirir. Bu şəkildə kommunitarianlar, liberalların fərdiliyi əbədiləşdirdiyini tənqid edərək qrup hüquqlarını müdafiə edirlər [6, s.159-160].

Kommunitarian fikri dəstəkləyən mütəfəkkirlərin ortaq nöqtəsi "mədəniyyətlərin tanınması" məsələsindədir. Multikulturalizmə kommunitarian dünyagörüşüylə yaxınlaşan Riçard Senet və Çarlz Teylor kimi bəzi alimlər, "mədəniyyətlərin tanınması" perspektiviylə hər kəsə öz kimliyini inkişaf etdirə bilməsi üçün bərabər şans verilməsi lazım olduğunu

müdafiə edirlər. "Tanınma" faktının əhəmiyyətini ifadə edən Çarlz Teylor bunun şəxsiyyət ilə əlaqəsinin əhəmiyyətli olduğuna diqqət çəkir. Əslində hər bir fərdin özü olma məsələsində orijinal yolu olduğunu ifadə edən Herderdən ilhamlanan Teylor, özünü reallaşdırma və özünün tanımanın gerçək bir yenilik olduğunu düşünür. O tanınma faktının ancaq demokratik cəmiyyətlərdə reallaşa biləcəyinə inanır və bu sayədə iyerarxik cəmiyyət quruluşunun dağılacağına inanır [18, s. 24-25].

Mədəniyyətlərin tanınması mövzusunda kommunitarian alimlər, bu prosesin tək tərəfli olmadığını və yalnız fərdi səviyyədə müzakirə olunmaması lazım olduğunu deyir. Onlara görə, bir sıra problemlər yaratsa da, fərqliliklərin ictimai sahədə tanınması və strukturca dəyişikliklərə gedilməsi lazımlıdır. Bu məzmunda Teylor tanımanın monoloji deyil, dialoji şəkildə ola biləcəyinə inanır. Teylora görə insanların öz kimliklərini kəşf etmələri izolyasiya şəraitində reallaşa bilməz. Əksinə bu müddət, başqalarıyla qismən ictimai, qismən daxili bir dialoq müzakirəsidir. Bu səbəbdən "tanınma" ictimai bir hərəkətdir. Ancaq Teylor, fərdi və ictimai tanınma şəkilləri olduğunu qeyd edir. Ona görə fərdi səviyyədə kimliyin formalaşmasını anlamaq, digərləriylə davam edən bir dialoqda mühüm mübarizəni əks etdirir. Lakin ictimai sahədə bərabər tanınma, çox daha böyük bir oyundur. Çünki ictimai hüquqlar, səsvermə hüququ kimi ictimai və iqtisadi mühiti maraqlandıran ikinci növ tanınma olduqca mübahisəli bir məsələdir [18, s.32-38].

Kommunitarian fikri müdafiə edən başqa bir alim Rayne Baubök "tanınma qaydasının qarşılıqlılıq ehtiva etdiyini" qeyd edir. Ona görə tanınmada əhəmiyyətli olan, ictimai strukturların və qurumların dəyişməsinin lazımlılığının qəbul edilməsidir. Çünki bir cəmiyyətdə qarşılıqlı uyuma yalnız mədəni tanınma ilə nail olmaq olmaz. Qarşılıqlı uyğunlaşma üçün lazımi yerdə struktur dəyişikliklərə gedilməli və etnik azlıqlar üçün struktur bərabərlik təmin edilməlidir [5, s.119]. Jopkeyə görə qrup kimliyi siyasi hüquqlar məsələsi gündəliyə gələndə mübahisəli hala gəlir. Ona görə multikulturalizm; etnik, irqi, dini və cinsi olaraq fərqli qrupların tanınması və bu qruplara bərabər haqların təmin edilməsi olaraq müəyyən edilməlidir. Bu, qrup kimliyinin ictimai tanınması mənasını verir [9, s.285].

Teylor universal olaraq fərqliliyin bərabər olaraq qəbul edilməsinin son zamanlarda mədəniyyətlərarası əlaqələr məzmununda da gündəmə gəldiyini ifadə edir. Ona görə Avropa və ya ağların dominantlığı, başqa mədəniyyətlərə yuxarıdan aşağı baxmalarına səbəb olur. Teylor, bu mədəniyyətlərə layiq olduqları dəyərin verilməsi lazım olduğunu müdafiə edir. Ona görə fərqli mədəniyyətləri bərabər dəyərdə tanıma istəyi, yalnız onların yaşamasına icazə vermək deyil. Tanınma, eyni zamanda onların dəyərini qəbul etmə mənasına gəlir. Taylor multikultural cəmiyyətlərdə, cəmiyyəti meydana gətirən qrupların bir-birlərinə bərabər səviyyədə dəyər vermədiklərinə görə ayrışma yaşandığını düşünür [18, s.42]. Yəni Teylor, multikulturalizm anlayışını fərdlər üzərindən deyil, birlikçi (kommunitarian) görüş oxunda, cəmiyyəti meydana gətirən fərqli qruplar üzərindən qiymətləndirir.

Multikulturalizmin kommunitarian görüş oxunda yaxınlaşan nəzəriyyəçilər, bir cəmiyyətdəki fərqli qrupların tanınmalarının üzərində dayanırlar. Qrupların tanınmalarının, qarşılıqlı təsir halında ola biləcəyini vurğulayırlar. Üstəlik tanımanın bu birliklərə yalnız müəyyən hüquqi haqlar verilərək məhdudlaşdırıla biləcəyinə qarşı çıxırlar. Çünki onlar, cəmiyyəti meydana gətirən mədəni dəyər və simvolların qanuni olduğunu düşünür və bu birliklərin fərqli şəkildə varlıqlarını davam etdirmələrinə imkan yaradacaq strukturun yaranmasına əhəmiyyət verirlər. Bu səbəblə multikulturalizmə fərdi əsasdan çox ictimai əsasda yaxınlaşaraq qrup kimliyi və qrup haqlarını önə çıxarırlar.

Multikulturalizmə liberal yanaşma isə, fərdi əsas götürərək fərdin içindən çıxdığı cəmiyyətin və daha geniş çərçivədə siyasi cəmiyyətin dominant olmadığı bir vəziyyət idealizə edilir. Bu səbəblə liberallar, qrup haqlarının ümumiləşdirici yanaşmasına soyuq

münasibət göstərirlər. Liberallar ümumiyyətlə, müxtəlif mədəniyyətlərin fərqlilikləriylə birlikdə yaşamasını müdafiə məsələsində birləşirlər. Lakin fərd və qrup haqları arasındakı əlaqələrə yanaşmada və dövlətin bu məsələdə mövqeyi məsələsində fərqlilik nümayiş etdirirlər. Bu baxımdan liberallar arasında da multikulturalizmə və multikulturalizm siyasətlərinə yanaşmada fərqli meyllər vardır. Klassik liberallar multikultural kimlik siyasətini, liberal bərabərliyə təhdid olaraq görürlər və dövlətin qrup haqlarını vurğulamalarının gərəksiz olduğunu müdafiə edirlər. Buna qarşılıq olaraq, müasir liberallar, müxtəlif qruplara fərqli davranılmasına müsbət yanaşırlar və multikulturalizm siyasətini dəstəkləyirlər. Qısaca klassik liberallar zəif multikulturalizm siyasətini, müasir liberallar sərt multikulturalizm siyasətini dəstəklədiyini deyə bilərik. Zəif multikulturalizm siyasətlərində mədəni fərqliliklər tanınır və miqrantların öz mədəniyyətlərini qorumaları və davam etdirmələrinə dair heç bir problem yoxdur. Amma hüquq, hökumət, təhsil kimi ictimai sahələrdə hakim cəmiyyətin normalarını mənimsənilməsi gözlənilir. Fərqlilikər tanınır, amma qrup haqları təminat altına alınmır [20, s. 6]. Daha ətraflı desək, “Multikulturalizmin zəif forması etnik-milli azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün imkan yaradır. Lakin azlıqlar öz imkanları ilə etnik-mədəni dəyərlərini qorumaq iqtidarında olmadıqlarına görə yaranmış situasiyada cəmiyyətdəki hakim etnik-mədəni dəyərlərin qəbul edilməsini ən optimal çıxış yolu kimi dəyərləndirirlər. Onlar elə bir vəziyyətə düşürlər ki, onlara bilərəkdən, xarici təzyiq olmadan, öz istəkləri ilə titul xalqın etnik-mədəni dəyərlərini qəbul etmək sərf edir. Öz mədəni kimliyini, etnik-mədəni dəyərlərini qorumaq isə çətin olur, baha başa gəlir. Mövcud vəziyyətdə azlıqların başqa çıxış yolu olmadığına görə, onlar könüllü şəkildə etnik-mədəni dəyərlərini qorumaq fikrindən tamamilə də olmasa müəyyən dərəcədə əl çəkirlər və bununla da yaşadıqları cəmiyyətə inteqrasiya olunmağı praktiki cəhətdən daha əlverişli hesab edirlər” [1, s 109]. Klassik liberal mütəfəkkir olan Kukatasa görə zəif multikulturalizm yanaşması, mədəni fərqliliyin cəmiyyətdə yayılmasının qarşısını almaq məqsədi güdmür və bu fərqliliklərin assimilyasiyanı planlaşdırmır. Ona görə multikultural dünyagörüşü, bir cəmiyyətə yeni daxil olanların fərqliliyini qəbul etməyə meyllidir. "Qapılar cəmiyyətə girmək istəyən hər kəsə açıq olmalıdır" fikrini müdafiə edən Kukatasa görə, əslində zəif və güclü multikulturalizm mövqeləri arasında dərəcə fərqi var. İkisinin də mənşəyi liberal siyasi nəzəriyyədir. Xüsusilə də zəif multikulturalizmin kökü klassik liberalizmdə, güclü multikulturalizmin mənşəyi müasir liberalizmdir [11, s. 7-8]. Kukatas buradakı təsnifatında zəif multikulturalizmi, multikulturalizm faktını tanıyarkən onu dövlət müdaxiləsi ilə qorumağı inkar etməkdə olduğunu bildirir. Güclü multikulturalizmin isə multikulturalizm faktını tanımaqla kifayətlənməyib dövləti müdaxiləyə, qrup hüquqlarını tanımağa dəvət etməkdə olduğunu qəbul edir. Kukatas dövlətin azlıq qruplarına qarşı "mədəni inteqrasiya " kimi siyasətlər yerinə "siyasi bitərəflik" mövqeyi tutması lazım olduğunu ifadə edir [12, s. 111]. Bu, qrup hüquqları ilə deyil, yalnız fərdi hüquqların təmin edilməsi mümkündür. Çünki liberal bir dövlətin rolu, təhlükəsizliyi təmin etmək və insan haqlarının zərər görməsinə mane olmaqdır. Dövlətin azlıqlara xüsusi hüquqlar tanıması, dövlətin fərdlərə qarşı neytral olan mövqeyindən kənara çıxması deməkdir. Halbuki liberal bir dövlətin vəzifəsi vətəndaşlarına öz yaxşı həyatlarını yaşamaları, ya da fərdi xəyallarına rahat çatmaq üçün lazımi hüquqi çərçivə təmin etməklə məhduddur. Kukatasa görə buradakı ideal üsul; Liberal multikultural cəmiyyətlərin üzvlük axtaran, kənardan gələnlərə qarşı cəsarətləndirici və ya cəsarətlərini qıran üsullarla yanaşmamasıdır. Dövlət, yeni cəmiyyətə inteqrasiya olmağa yol axtaranların və öz ənənə və inanclarını davam etdirməyi seçənlərin yollarına müdaxilə etməməlidir [11, s. 12]. Bu çərçivədə Kukatas fərqliliklərin yalnız xoş görülməyib eyni zamanda dəstəkləndiyi yəni müsbət tədbirlərin alındığı sərt multikul-

turalizmə qarşı çıxır. Çünki zəif multikulturalizmi müdafiə edən Kukatas, qrupların yalnız fərdlərin həyatlarına təsir etdiyi dərəcədə əhəmiyyətli olduğunu irəli sürür [11, s. 8]. Ona görə, mədəni qruplar, üzvlərinin qanuni olan və səlahiyyət verdiyi könüllü münasibətlər kimi qəbul edilməlidir. Bu qrupu tanımağın lazım olan yeganə şərti, üzvlərinin qrupdan ayrılmağı seçməməsidir [12, s. 116].

Multikulturalizmin zəif formasından fərqli olaraq onun güclü forması milli azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasını tələb edir. Multikulturalizmin güclü forması cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə münasibətdə dözümlüyün nümayiş etdirilməsi ilə kifayətlənmir. O, bu müxtəlifliyin dövlət tərəfindən qorunmasını və inkişaf etdirilməsini, onun maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsini vacib hesab edir [1, s.110]. Sərt multikulturalizmdə mədəni cəhətdən fərqli qrupların güclü, rəsmi və konstitusion olaraq tanınması əsasdır [17, s. 89].

Müasir liberallar, multikulturalizmə özünə hörmət perspektivində yanaşırlar. Ancaq bu bərabər şərait ya da bərabər bazar şəraitində meydana gələn bir bərabərsizlik deyil. İnsanların seçmədiyi, onların məruz qaldığı bir bərabərsizlikdir. Bu dezavantaja (çətin vəziyyətə) görə azlıq qrupuna mənsub olan fərdlər haqlarını və azadlıqlarını istədikləri kimi həyata keçirə bilmirlər. Elə bu səbəbdən müasir liberallar üçün bu bərabərsizliklərin balanslaşdırılaraq, dezavantajlı qruplara haqlarının verilməsi vacibdir. Ancaq onu da qeyd etmək lazımdır ki, bütün müasir liberallar, multikulturalizm siyasətləri və ya azlıqlara qrup haqlarının verilməsini dəstəkləmir. (Məsələn Brayan Barri multikulturalizm siyasətlərinə qarşı çıxır). Bu fikri müdafiə edənlər, bərabərsizliyi davam etdirən qanunların aradan qaldırılmasını və bəlkə də azlıq qruplarına çoxdan qrup haqlarının verilməsi lazım olduğunu dilə gətirirlər. Məsələn; Əksəriyyət dilinin hakim olduğu bir ölkədə, bu qruplara öz dillərində təhsil hüququ verməlidir, ya da iş yerində öz milli geyimlərinə (Yəhudi kişilərin başlarına taxdıqları kipanın Amerikada, müsəlman qadınların hicabının Fransada problem olması kimi) icazə verilməlidir. Həmçinin mədəni azlıqlar, öz inanclarına qarşı olduğu halda bəzi məsuliyyətlərdən azad oluna bilməlidir [7, s.109, 111; 13, s. 77]. Onlar, bunun sadəcə qrupa hörmətlə yanaşı mümkün olduğuna inanır. Müasir liberallara görə, bir mədəniyyətə hörmət etmədən həmin mədəniyyətə mənsub fərdlərə hörmət etmək olmur.

Müasir liberallara görə bir cəmiyyətdə azlıq qrupları, təbii olaraq dezavantajlı (çətin) vəziyyətdədir və hakim cəmiyyətə bərabər mövqeyə malik deyil. Ancaq onların ən çox önəm verdiyi məsələ, azlıq qrupu olmağın insanların öz seçimi olmamasıdır [3, 2005]. Ancaq müasir liberallar, yerli xalqlar ilə miqrantlardan ibarət olan etnik azlıqları ayrı kateqoriyada qiymətləndirmələrinə görə tənqid edilə bilər. Çünki onlara görə miqrantlar iqtisadi qazanc əldə etmək üçün başqa ölkəyə köç etdikləri üçün öz milli mədəniyyətlərindən ayrılmağı seçmişlər. [7, s.113].

Müasir dövrdə çox cəmiyyət mədəniyyət baxımından yekcins deyil, onlar dini, mədəni və ya etnik fərqliliklərə malikdirlər. Kimlikaya görə ulus dövlətlər yekcins cəmiyyətlər yaratmağa çalışmışlar, amma insanlar arasındakı fərqlilikləri yonmaqda uğur qazana bilməmişlər. Bu səbəblə liberal ulus dövləti, artıq fərqliliklərin var olduğu gerçəyini tanımalı və həm iqtisadi, həm də mədəni olaraq bir multikultural cəmiyyət yaratmaq üçün lazımi addımları atmalıdır. Çünki Kimlikaya görə həqiqi bərabərlik, fərqli qruplara fərqli münasibət göstərilərək təmin oluna bilər. Bu məqamda Kimlika, qrupların ehtiyaclarına cavab verməyən münasibətlərin bərabərhüquqlu olmayacağını ifadə edir. Kimlikanın təklif etdiyi bu bərabərlik, sosial bərabərlikdən daha çox siyasi bir bərabərlikdir. Kimlika bu məqamda edilməsi lazım olanın, qrup haqlarını tanımaq olduğuna inanır. Kimlika milli azlıqları mədəniyyət baxımından səciyyələndirir və bu azlıqlar öz mədəniyyətlərini davam etdirmək

istəyirlərsə, onların fərqli olaraq tanınması lazım olduğunu bildirir [7].

Kimlikaya görə, fərqli qrupların hüquqları üç kateqoriyadan ibarətdir. Bunlardan ilki, öz özünü idarə etmə haqqıdır. Kimlika, Birləşmiş Millətlər Müqaviləsinə əsasən bütün xalqların malik olduğu bu hüququ, milli azlıqlar üçün nəzərdə tutur [7, s.27]. Edilməsi lazım olanın, milli azlıqlara mümkün qədər dəstək verilməsi olduğunu deyir. Bu insanların öz qədim torpaqlarında, çoxluq olaraq qalmalarına təminat verilməsi və özlərini idarə etmələrinə şərait yaradılması lazım olduğunu dilə gətirir. Kimlikanın ikinci kateqoriyadakı hüquqları, çoketnikli hüquqlardır və bunlar keçici olaraq görülməməlidir. Kimlikaya görə çok-etnikli hüquqlar, inteqrasiyanı dəstəkləməyi qarşısına məqsəd qoymalıdır. İrqçilik əleyhinə olan bu hüquqlar, dezavantajlı (çətin) vəziyyətdə olanlara qanunlarda (siqhlərin sarıq (puggaree) taxmasına icazə verilməsi, ya da Yəhudilər üçün şənbə və müsəlmanlar üçün cümə olan müqəddəs günlərin tətil olması) bəzi istisnaları nəzərdə tutur [7, s.30]. Kimlikanın saymış olduğu üçüncü qrup hüquqlar isə xüsusi təmsil haqlarıdır. Bu hüquqlar, dövlətin mərkəzi təmsil müəssisələrində azlıq mədəniyyətlərinin təmsil edilməsi mənasına gəlir [2, s. 90]. Xüsusi təmsil haqları, həm etnik qruplar, həm də milli azlıqlar üçün yeni sosial hərəkətləri əhatə edir. Bunlar irq, etnik mənsubiyyət, ictimai cinsiyyət və ya cinsiyyət qaynaqlı, qabiliyyət əsaslı (ability-based) qrupların uyğun təmsili üçün prioritet tələblərə qarşı haqlardan meydana gəlir. Əgər bu hüquqlar, təzyiq vasitəsi kimi istifadə edilsə müvəqqəti olarlar. Amma öz özünü idarə etməyin nəticəsi olaraq qəbul edilirlərsə müvəqqəti ola bilməzlər [7, s.31-35].

Kimlika milli azlıqlar ilə əlaqələndirilən qrup haqlarının, öz özünü idarə etmə hüquqları, ya da xüsusi təmsil hüquqları ilə bağlı olması lazım olduğuna inanır. Kimlikaya görə bu hüquqlar müvəqqəti deyil, daimi əsasda tanınmalıdır. Çünki bu hüquqlar, milli azlığın əsas haqlarıdır. Şübhəsiz, bu qruplar bəzən ən yaxşı həll olan, olduqları dövlətdən ayrılmağı seçə bilirlər. Amma ayrılmanın olmadığı şəraitdə, milli azlıqlara muxtariyyət və xüsusi təmsil haqlarından ibarət kombinasiya tətbiq etmək mümkündür. Hər bir halda çok-etnikli dövlətlərdə çok-etnikli hüquqların həyata keçirilməsi lazım olduğunu bildirir. Kimlika, bu etnik qruplara qarşı irqçiliyi və ayrı-seçkiliyi dayandırmaqla bağlı siyasətlərlə paralel olaraq təhsil, müsbət ayrı-seçkiliyin bəzi növləri, dini əməlləri pozan bəzi qaydalardan sərbəstlik və mədəni təcrübələr üçün dövlət resursları vermək kimi məsələlərlə bağlı hüquqların verilməsi lazım olduğunu müdafiə edir [7, s.13].

Kukatas, liberalizmin hər kəsin öz həyatını davam etdirməkdə fərdi azadlığın əhəmiyyətini vurğulayan bir doktrina olduğunu bildirir. Bu səbəblə liberalizm, multikulturalizmə müsbət yanaşan bir doktrinadır. Çünki liberal ənənələrə görə azlıqların davranışları və ya fərqliliklərinə təzyiq yox, tolerantlıq göstərilməlidir. Bunun mənası, liberal cəmiyyətdə azlıq mədəniyyətlərinin qəbul edilməsidir. Ona görə ki, insanlar nə istəmədiyi dəyərləri yaşamaq, nə də dəyərlərinin qadağan olunduğu yerdə yaşamaq məcburiyyətindədir. Əsas liberal qayğı isə fərqli dəyərlərə sahib insanların bir arada yaşarkən münaqişələrin qarşısını alan bəzi üsullar tapmaqdır. Əhəmiyyətli olan, hər kəsin öz dəyərləri ilə yaşamasına prinsipial olaraq haqq tanınması və ya ən azından dözmədikləri dəyərlərlə yaşamalarının yolunun tapılmasıdır. Kukatas, mədəni fərqliliyin çox vaxt münaqişələri artırmasının bir həqiqət olduğunu və bunun hər zaman asanlıqla həll edilən bir məsələ olmadığını bildirir. Bu səbəblə, fərqli mədəniyyətdən gələn insanların tək bir cəmiyyətdə birlikdə mövcud olması üçün bəzi məsələlərin tənzimlənməsi lazımdır. Ona görə bu məsələdə əhəmiyyətli olan, yalnız ictimai sahədə fərqlərin necə qəbul edilməsi və ya müxtəlifliklərə qarşı necə bir davranış göstəriləcəyi deyil. Bununla bərabər ictimai sahədə nə cür məsələlərin qanuni olacağı da dəqiq olaraq qavranılmalıdır. Bunun mənası məsələn; ictimai nitqin hansı dildə olacağı, hansı tətillərin qəbul ediləcəyi, hansı ənənələrin xoş görüləcəyi, ictimai sahədə hansı stan-

dartların olacağı və hansı mənzərənin gözlənəcəyi ilə fərdlərin və cəmiyyətlərin hansı hüquq və vəzifələrə malik olacağı kimi halların açıq olmasının lazımlı olmasıdır [11, s. 1-2].

Xülasə, Kukatas liberalizmin, münaqişə və ya fərqliliklə qarşılaşdığı zaman sülh yolları axtardığı üçün cəmiyyətdəki mədəni müxtəlifliyə isti baxdığını bildirir. Bu nöqtədə Kukatasın düşüncəsinin ən orijinal tərəfi – fərqli mədəniyyət və adət-ənənələrin, liberalizmə və ya liberal dəyərlərə yaxın olmasa da, onlara xoş münasibət göstərilməsi lazım olduğu anlayışını irəli sürməsidir. Bunun mənası, klassik liberal multikultural cəmiyyətin liberal olmayan bir çox faktoru özündə saxlaması, onları assimilyasiya etməyə və ya ayırmağa çalışmayıb bunun əvəzinə onlara tolerant yanaşmasıdır. Kukatasa görə klassik liberalizm, ümumi (comprehensive) liberalizmə görə daha tolerantdır. Çünki klassik liberalizm, həm liberal, həm də liberal olmayan dəyərlərə və ya fərqliliklərə tolerant yanaşan bir çərçivə yaradır. Halbuki müasir liberalizmdə, tolerantlıq yalnız o geniş dəyərləri tanıyan və ya qəbul edən qrup və fərdlərə göstərilir. Ancaq bu yanaşma, bir qrupa xüsusi üstünlüklər və qoruma verilməsi anlamına da gəlmir. Bu, Kukatasa görə, "qorxunun, narahatçılığın və ya imtiyazın olmadığı bir multikulturalizmdir" [11, s. 13-15].

Nəticə olaraq, onu deyə bilərik ki, liberalizm içərisində multikulturalizmə dair fərqli yanaşmalar mövcuddur. Kimlika kimi müasir liberallar, fərqliliklərə qarşı dövlətin fəal müdaxiləsini nəzərdə tuturlar. Kukatas kimi klassik liberallar isə dövlətin fərqliliklərə qarşı, hətta liberal olmayan dəyərlərə belə tolerantlıq göstərərək neytral mövqedə qalmasını müdafiə edirlər. Müasir liberal alimlərin bir qismi; Kukatasın təklif etdiyi bu tərz multikulturalizm anlayışını, liberalizmin təməlindəki dəyərlərə bağlılıq göstərmədiyi üçün məntiqsiz hesab edirlər [4].

Multikulturalizmə liberalizmdən kənarda baxma və kommunitarian münasibəti genişləndirmək məqsədi güdən alimlər, post-kolonyal olaraq adlandırılan qrupu təşkil edirlər [10, s. 7]. Post-kolonyal görüşü dəstəkləyənlər multikulturalizmə fərdi əsaslı münasibəti təklif etmirlər. Bunun əvəzinə, həmin kimlik qruplarını formalaşdıran və onları bir arada saxlayan dəyər və simvollar ilə onların qarşılıqlı təsirinin əsas olduğu fikrini müdafiə edirlər [8; 14; 15; 19]. Bu mənada, mədəni müxtəlifliyin real və arzu edilən bir şey olduğunu qəbul edən və siyasi həyatını buna görə tənzimləyən cəmiyyəti, yaxşı bir cəmiyyət olaraq qiymətləndirirlər. Parex bu tərz yaxşı bir cəmiyyətin ancaq dialoq sayəsində yaradıla biləcəyini irəli sürür. Liberal dəyərlərin isə belə tərəfsiz mövqe tuta bilməyəcəyinin üzərində dayanır [15, s. 430-431]. Çünki post-kolonyal mütəfəkkirlərə görə, liberalizm də müəyyən bir dünya görüşünün əks olunmasıdır və öz içində bir mədəniyyət birləşdirir. Bu səbəblə məsələnin həlli bu mədəniyyətin kodlarına dayanmamalıdır. Burada post-kolonyal alimlərin müasir liberallara qarşı olduğunu deyə bilərik.

Ivison kimi alimlər müəyyən tarixi bərabərsizliklərə görə azlıqların, miqrantların, ya da yerlilərin qurban vəziyyətinə düşdüyünü irəli sürürlər. Daha əvvəlcədən baş vermiş bərabərsizliklərin, inkar edilən hüquqların və azadlıqların, torpaqların alınmış olmasının, mədəni təcrübə və ritualların yox olmasının diqqətə alınması lazım olduğuna inanırlar. Bu səbəblə, belə xalqlara - yerli xalq kimi - müəyyən səlahiyyətlər və ya öz özlərini idarə etmələri üçün muxtar statusun verilməsi lazım olduğunu ifadə edirlər [8, s. 509]. Bu məqamda müasir liberallar ilə post-kolonyal yanaşmanın bənzərlikləri fərqlərindən çoxdur.

Ceyms Tulliyə görə liberalizm, bu gün üçün fərqli cəmiyyətlərin və mədəniyyətlərin ortaq dili kimi qəbul edilr. Əslində liberalizmin dili, Qərb təcrübəsindən gəlməyənlər üçün yad dildir. Bu dil alternativlərindən daha ideal bir dil olduğu üçün ortaq dil halına gəlmişdir [19, s.12,17]. Bu çərçivədə post-kolonyal alimlər, multikulturalizmə və mədəniyyətlər arası qarşılıqlı təsirə münasibətdə, tarixi və mədəni arxa planı da nəzərə almağı təklif edirlər və liberalizmin və liberal siyasət dilinin qeyri-qərb cəmiyyətləri üçün eyni məna ifadə etmədiyini qeyd edirlər. Onlar, mübahisənin

başlanğıc nöqtəsini liberalizmdən də əvvələ aparmağı düzgün hesab edirlər [16]. Bu şəkildə post-kolonyallar, mədəniyyətlər arası hakimiyyət münasibətlərinin formalaşması proseslərinin vurğulanmasının vacib olduğunu qeyd edirlər.

Post-kolonyal alimlərin önəm verdiyi digər bir məqam, konstitusiya və siyasi dialoqun önünün açılmasıdır. Onlara görə, bu mütləq şəkildə müəyyən liberal qaydalar fonunda olmaq məcburiyyətində deyil. Əhəmiyyətli olan, dezavantajlı (çətin vəziyyətdə olan) qrupların mədəni özünəməxsusluğunun önünün açılmasıdır [15, s 14-16]. Post-kolonyal görüşə malik olan alimlər, liberalizmin mədəniyyətdən ayrı bir şey olmadığını vurğulayır. Elə buna görə də məsələnin həlli, o mədəniyyətin kodlarına əsaslanmamalıdır. Azlıqlara liberal olmama haqqı tanınmalıdır. (Kukatas kimi klassik liberallar də bu barədə eyni fikri müdafiə edirlər). Çünki yeganə ədalətli çərçivə liberal olan deyil. Beləliklə, fərqli mədəniyyətlərin dialoqda ola biləcəkləri, konstitusion və hüquqi dəyərlərin müzakirə edilə biləcəyi mədəniyyətlər arası dialoq mühitinin yaradılması çox əhəmiyyətlidir; Çünki daha əhatəli olanı budur [19, s. 133]. Bəzi cəmiyyətlərdə müstəmləkəçilik, siyasi quruluşun müəyyən qrupların nəzarətində olması nəticəsində dezavantajlı qruplar və iyerarxiyalar yaranmışdır. Post-kolonyal nəzəriyyəçilər yaranan bu bərabərsizliklərin tarixi kökünə getməyi təklif edirlər. Çünki onlara görə bu iyerarxiyanın və bərabərsizliklərin, cəmiyyət içində münasibətlərdə və hüquqi sistem içində normallaşdırılan əməlləri qəbul edilə bilməz. Post-kolonyal yanaşmanın tanınmış alimlərindən olan Parex multikulturalizmi, mədəni müxtəlifliyə imkan tanıyan və onu qoruyan siyasi nəzəriyyənin əsas amili kimi anlamağa cəhd edirlər. Parex, multikulturalizmi təkbaşına fərqlilik və identikliklə müzakirə etməyə üstünlük vermir. Bunun əvəzinə mədəniyyətlə qaynaşmış və ondan qidalanan fərqlilik və kimliklərlə, yəni bir qrup insanın özlərini və dünyanı dərk etməkdə, fərdi və ümumi həyatlarını tənzimləməkdə istifadə etdikləri inancları bütövlükdə qavrayır. Bu çərçivədə Parex konstitusiya, hüquqi və vətəndaş dəyərlərinin cəmiyyətin xalq mədəniyyətini əks etdirdiyinə inanır və bunları "kütləvi dəyərlər" şəklində konsepsiyalaşdırır. Bunların qaçılmaz olan yaxşı həyat anlayışına forma və can verdiyini ifadə edir. Kütləvi dəyərlərin "dəyər" olmasının səbəbinin isə cəmiyyətin onları qoruması, onlara uyğun yaşamağa çalışması və üzvlərinin davranışlarını onlara görə mühakimə etməsindən qaynaqlandığını bildirir [15, s. 343-344]. Elə bu nöqtədə Parexin diqqət çəkməyə çalışdığı məqam çox əhəmiyyətlidir. Çünki Parex, bir cəmiyyətin kütləvi dəyərlərinin bir-biri ilə ardıcıl bütün yaratmadığını bildirərək qeyri-stasionar xüsusiyyətinə işarə edir. Yəni bunlar cəmiyyətin şərtlərində və qrupların öz baxışlarındakı dəyişikliklərə görə fərqlənirlər. Parexin "Multikulturalizmi Yenidən Düşünmək" adlı əsərində daim vurğuladığı bir digər nöqtə, dialoqdur. Ona görə kütləvi dəyərlər, cəmiyyətin əxlaqi quruluşunu əks etdirdiyi üçün azlıq adətlərinə dair mübahisələrdə də qəbul ediləcək tək başlanğıc nöqtəsidir. Çünki Parex insanların ilk mühakimələrinin, cəmiyyətin kütləvi dəyərlərinə söykənəcəyini bildirir. Yəni bir cəmiyyətdə qadağan, istifadədən çəkindirmə, xoş görmə, təşviq etmə, cəmiyyətin geri qalanının örnək alması üçün qoruyub saxlamaq kimi müxtəlif şəkillərdə adətlərə kütləvi dəyərlərə istinadla reaksiya verilir [15, s. 345]. Bu çərçivədə multikultural baxış bucağı insanların mədəniyyətlə iç-içə olduğu, mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqun labüd və arzu edilən olduğu, bütün mədəniyyətlərin daxili plüralizmə sahib olduğu görüşlərinin qarşılıqlı təsirindən yaranır. Yaxşı cəmiyyət, mədəni müxtəlifliyin real və arzu edilən bir şey olduğunu qəbul edir və siyasi həyatını buna görə tənzimləyir. Qısaca multikultural yanaşma, dialoq sayəsində yaradılmışdır. Ən başda gələn qayğısı isə dialoqun davam etməsini təmin etmək, təsirli bir şəkildə davam edəcəyi şəraiti yaratmaq, dominant düşüncə formalarının hüdudlarını genişləndirmək və kütləvi olaraq qəbul edilən prinsiplər, nəzəriyyələr və siyasətlər yaratmaqdır [15, s. 430-431].

Nəticədə multikulturalzimə post-kolonyal yanaşmanı müdafiə edən alimlərin ortaq

nöqtəsi, universal olaraq qorunan amma həqiqətdə Qərb mədəniyyətini əks etdirən normaları rədd etmələridir. Bu istiqamətdə, qeyri-qərb mədəniyyətlərə hüquqlarının verilməsi çərçivəsində qiymətləndirdikləri multikulturalizmi həll yolu kimi görürlər. Multikultural bir cəmiyyətə, institusionallaşmış dialoq sayəsində çata biləcəklərini nəzərdə tuturlar. Bu çərçivədə, liberal və başqa yanaşmaları həll yolu kimi deyil; dialoqun bir hissəsi kimi müzakirə edirlər. Multikultural cəmiyyətin bütün üzvlərinin qəbul edəcəyi bir təşkilatlanma modeli axtarışında olan post-kolonyal alimlər, azlıq mədəniyyətlərinin də bu dialoq şəraitində aktiv rol alması zərurətini qeyd edirlər. Ancaq bu alimlər, eyni zamanda siyasi, ictimai və mədəni məsələlərə praktiki həll baxımından nöqsanları olan bir mövqe ortaya qoymuşlar. Daha yüksək səviyyədə mədəni konsensusu əsas götürən post-kolonyal yanaşma, bunu bəzi praktiki məsələləri ikinci plana ataraq edir.

**Nəticə**

Beləliklə, müəyyən fikir ayrılıqları olmasına baxmayaraq, multikulturalizmin 3 nəzəriyyəsi də dövlətin cəmiyyətə sonradan daxil olan azlıq qruplarının qorunmasını, onların cəmiyyətə qoşulmasına imkan verən qanunlar və siyasətlər yaratmasını nəzərdə tutur. Komunitaryan fikri müdafiə edən C.Teylor kimi alimlər, fərqliliklərin tanınma siyasəti və bu prosesin bir dialoq şəklində formula edilməsi məsələsini vurğulayırlar. Fərqlilikləri görməzlikdən gələn sözdə tərəfsiz siyasətlərin, hegemon mədəniyyəti əks etdirdiyi fikrini müdafiə edirlər. Halbuki bütün insanların bərabər hörmətə layiq olduğunu ifadə edirlər. Liberal yanaşmanı müdafiə edənlər, öz içlərində Kukatasın müdafiə etdiyi klassik liberal qanad ilə Kimlikanın müdafiə etdiyi bərabərhüquqlu liberal qanada bölünür. İlk qrup, multikultural siyasətlərin liberal dəyərlərlə zidd olduğunu irəli sürərək qrup haqlarına qarşı çıxırlar. Dövlətin rolunun bu tərz hüquqlarla genişlənməsini təhlükəli hesab edən bu alimlər, hər kəsin öz həyat yolunu seçməkdə azad olduğuna görə fərqliliklərə, yəni çoxmədəniyyətliliyə müsbət yanaşırlar. Hətta liberal olmayan dəyərlərə belə xoş münasibət göstərilməsini müdafiə edirlər. Buna qarşı olaraq müasir liberallar, qrup hüquqlarını tanıyırlar. Qrupların ehtiyaclarına cavab verməyən yanaşmaların bərabərhüquqlu olmadığını ifadə edirlər. Onlara görə azlıqların öz mədəniyyətlərini davam etdirmələri üçün onların fərqli olaraq tanınması lazımdır. Müasir liberallar, dövlətin fərqliliklərin idarə edilməsinə neytral qalmayaraq multikultural siyasətlərlə hərəkət etməsini vacib hesab edirlər. Çoxmədəniyyətliliyə post-kolonyal perspektivdən yanaşanlar isə ən əsas əvvəlcədən yaşanmış bərabərsizliklərin, inkar edilən hüquqların və azadlıqların, torpaqların alınmış olmasının, mədəni rituallarının yox olmasının kompensasiya edilməsi lazım olduğunu müdafiə edirlər. Onlara görə, qeyri-Qərb mədəniyyətlərinə hüquqlarının verilməsi, bütün qruplar arasında dialoq yolu ilə yaradılan multikultural cəmiyyət sayəsində reallaşacaqdır. Ayrıca bu vəziyyətdə olanlara müəyyən bir səlahiyyət və ya muxtar statusun verməsi problemləri həll edəcək.

**Ədəbiyyat:**


1. Nəcəfov E. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, , s.103-112
2. Şahin, Bican. (2010). Toleration: The Liberal Virtue, Lanham, Md.: Lexington Books.
3. Appiah, Kwame Anthony. (2005). The Ethics of Identity. Princeton: Princeton University Press
4. Barry, Brian. (2001). Culture and Equality: An Egalitarian Critique of Multiculturalism. Cambridge, Massachusetts: Harvard University Press.
5. Bauböck, Rainer. (1996). Social and Cultural Integration in Civil Society, İç. R. Bauböck, A. Heller, A. Zolberg (ed.). The Challenge of Diversity. Ontegration and Pluralism in Societies of Immigration, (67-132). Aldershot: Avebury.
6. Bloemraad, Irene, Korteweg, Anna ve Yurdakul, Gökçe. (2008). Citizenship and Immigration: Multiculturalism, Assimilation, and Challenges to the Nation-State. The Annual Review of Sociology, 34, 153-79
7. Carens, Joseph H. (2000). Culture, Citizenship, and Community: A Contexual Exploration of Justice as Evenhandedness, Oxford: Oxford University Press.
8. Ivison, Duncan. (2006). Historical Injustice, İç. J. Dryzek, B. Honig, and A. Phillips (ed.). The Oxford Handbook of Political Theory, (507-525). Oxford: Oxford University Press.
9. Joppke, Chiristian. (1998). Why Liberal States Accept Unwanted Immigration. World Politics, 50 (2), 266-293.
10. Kelly, Paul. (2002). Introduction: Between Culture and Equality, İç. P. Kelly (ed.) Multiculturalism Reconsidered (1-17). Cambridge, U.K.: Polity Press.
11. Kukathas, Chandran. (1992, a). Theoretical Foundations of Multiculturalism. (1-21). 22 Nisan 2011. http://econfaculty.gmu.edu/pboettke/workshop/fall04/theoretical_foundations.pdf.
12. Kukathas, Chandran. (1992, b). Are there any cultural rights? Political Theory, 20 (1), 105-139.
13. Kymlicka, Will. (1995). Multicultural Citizenship: Liberal Theory of Minority Rights. Oxford: Clarendon Press.
14. Moore, Margaret. (2005). Internal Minorities and Indigenous Self-Determination, İç. A. Eisenberg and J. Spinner-Halev (ed.). Minorities within Minorities: Equality, Rights and Diversity, (271-293). Cambridge: Cambridge University Press.
15. Parekh, Bhikhu. (2002). Çokkültürlülüğü Yeniden Düşünmek Kültürel Çeşitlilik ve Siyasal Teori (B. Tanrıseven, Çev.). Ankara: Phoenix Yayınları. (2000).
16. Sandall, Roger. (2001). The Culture Cult: Designer Tribalism and Other Essays. Boulder: Westview.
17. Shachar, Ayelet. (1999). Multicultural Vulnerability, İç. C. Joppke and S. Lukes (ed.). Multicultural Questions (87-112). New York: Oxford University Press.
18. Taylor, Charles. (1994). The Politics of Recognition, İç. A. Gutmann (ed.). Multiculturalism (25-75). Priceton, New Jersey: Princeton University Press.
19. Tully, James. (1995). Strange Multiplicity: Constitutionalism in an Age of Diversity. Cambridge: Cambridge University Press.
20. Vertovec, Steven. (Mart, Nisan 2001). Transnational Challenges to the New Multiculturalism. [Bildiri] the ASA Conference: the University of Sussex. Erişim: 05 December 2011, http://www.transcomm.ox.ac.uk/working%20papers/WPTC-2K-06%20Vertovec.pdf.
21. Wieviorka M., (1998) „Is Multiculturalism a Solution ?‟, Ethnic and Racial Studies 21(5): 882-910

***Açar sözlər:*** *multikulturalizm, multikulturalizm nəzəriyyələri, zəif multikulturalizm, güclü multikulturalizm, multikultural cəmiyyət*

**Tarlan Orujova**
*PhD student, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THEORIES OF MULTUCULTURALISM

## SUMMARY

Since the approaches to multiculturalism differ from each other, the article deals with the analysis of the theories of multiculturalism, general moments and differences between these various approaches.

The author researches the main and distinctive features of “soft” and “hard” multiculturalism.

The article also outlines that although there are certain disagreements, all of these three theories of multiculturalism mean the protection of minority groups that subsequently entered society and the creation of laws and policies that will be able to integrate into the society.

***Key words:*** *multiculturalism, theories of multiculturalism, “soft” multiculturalism, “hard” multiculturalism, multicultural society*

**Тарлан Оруджева**
*Докторант Академии Государственного Управления При Президенте Азербайджанской Республики*

## ТЕОРИИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

## РЕЗЮМЕ

В статье рассматриваются теории мультикультурализма, общие моменты и различия между разнообразными подходами к мультикультурализму, поскольку эти подходы отличаются друг от друга. Автор исследует основные особенности и отличительные черты “мягкого” и “жесткого” мультикультурализма. Отмечается, что, несмотря на определенные разногласия, все теории мультикультурализма предполагают защиту групп меньшинств, создание законов и осуществление политики, позволяющих им интегрироваться в общество.

***Ключевые слова:*** *мультикультурализм,“мягкий” мультикультурализм, “жесткий” мультикультурализм, теории мультикультурализма, мультикультурное общество*

## G Ə N C   T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G   R E S E A R C H E R S

## S İ Y A S İ   İ N S T İ T U T L A R   V Ə   S İ S T E M L Ə R
## P O L I T I C A L   I N S T I T U T I O N S   A N D   S Y S T E M S

**RİYAD RÜSTƏMLİ**
**Baki Dövlət Universiteti doktorantı**
*e-mail: riyadrustamli@yahoo.com*

# MARAQ QRUPLARI SİYASİ NÜMAYƏNDƏLİK SİSTEMİNDƏ: MÜASİR MEYLLƏR

Son dövrlərdə maraq qrupları siyasət aləmində getdikcə daha mühüm yerlərdən birini tutur. Hakimiyyət qərarlarının hazırlanması prosesində onların rolu durmadan artır. Maraq qrupları, demokratik təsisatlar iyeararxiyasında getdikcə daha yüksək status əldə edir və bu problem üzərində fikir cəmləşdirmək zərurətə çevrilir. «Dünyada siyasi qloballaşma ilk növbədə beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının yaradılması, əvvəllər milli-dövlət institutlarının suveren hüququ hesab olunan bəzi ictimai, siyasi, mənəvi və informasiya idarəçiliyi məsələlərinin onlara həvalə edilməsi, demokratik idarəçilik standartlarının bu təşkilatlar vasitəsi ilə ölkələrin daxili həyatında yayılması və s. ilə səciyyələnir» (1, s. 479). Xüsusilə diqqət çəkən məsələlərdən biri, maraq qruplarının nümayəndəlik rolunun araşdırılması, müasir dövrdə maraq qrupları ilə siyasi partiyaların funksiyalarının nisbətinin dəqiqləşdirilməsi, demokratik idarəetmə sistemləri üçün maraq qruplarının ictimai-siyasi rolunun yüksəlməsinin mümkün olacaq nəticələridir. Bu məqalə vasitəsi ilə məhz həmin məsələlərə diqqəti cəlb etməyə çalışmışıq. Qısaca olaraq demək olar ki, maraq qrupları ümumi maraqlar arasında birləşmiş sosial qrupları təcəssüm etdirir. Maraq anlayışı göstərilən qrupların elə bir keyfiyyətini təcəssüm etdirir ki, onlar əvvəla “qrupu bir vahid halında birləşdirir, həmin sosial qrupu sosial vəziyyətinə və seçilən maraqlar səciyyəsinə görə digərlərindən fərqləndirir (11, s. 86). İkincisi, həmin qrupun ictimai marağın reallaşması ilə şərtlənən məqsədini araya gətirir. Məhz maraqlar qrupu yaradan bir əlamət kimi onun üzvlərinin konkret sosial şəraitlə öz tələbatlarını optimal ödəmə cəhdləri ilə əlaqədar olan oxşar davranışını formalaşdırır. Bununla da cəmiyyətdə qrup nümayəndələrinin mövqeyini dəqiqləşdirir, digər qruplara, həmçinin bütövlükdə sosial-siyasi təsisatlara onların fəal münasibətini müəyyənləşdirir. “Siyasi mənafelərlə birləşmiş və hakimiyyətin reallaşması prosesində iştirak etmək iddiasında olan qrupların əsas məqsədi öz mənafelərinə uyğun olaraq, hökumət qərarlarının qəbul edilməsinə təsir etmək imkanına malik olan fərdlər birliyinin yaradılmasıdır” (4, s. 68). Fərdlərin və onların təşkil etdiyi sosial qrupların maraqları obyektiv səciyyə daşıyır, özlərinin sosial vəziyyəti ilə müəyyən edilir ki, onun da spesifik cəhətləri sosial stratifikasiya sistemində ifadə edilmişdir. Cəmiyyət müxtəlif funksional mövqeyə malikdir, lakin sosial stratifikasiya Eyzenştadtın haqlı olaraq qeyd etdiyi kimi “rolların differensiyalı qiymətləndirilməsi” ilə əlaqədardır (12, s.63). Müvafiq olaraq sosial vəziyyətdə mövcud olan fərqlər hakimiyyət, nüfuz, var-dövlət və s. kimi rifah amillərinə çatmaq üçün də qeyri-bərabər imkanlarda özünü göstərir.

Real sosial strukturu, müxtəlif qruplar arasında sərvətlərin bölüşdürülməsi xarakterini və bunların arasındakı qeyri-bərabərlik dərəcəsini dərk etmədən cəmiyyətin fəaliyyəti və inkişafını başa düşmək qeyri-mümkündür. Sosial həyatın bu aspektinə aid olan biliklərin məcmuunu müasir alimlər sosial stratifikasita nəzərəriyyəsinə müncər edirlər. Sosial strati-

fikasiya sistemi hakim olan dəyərlər toplusu ilə sıx əlaqədardır və bu əsasda da fəaliyyətin müxtəlif növlərinin sıralanması baş verir. Bu sıralanmanın isə mənası ondadır ki, K.Devis və U.Murun qeyd etdiyi kimi, fərdlər sahib olduqları mövqeyə görə sosial strukturda yerləşsinlər, öz vəzifələrini yerinə yetirməyə stimul əldə etsinlər. Bütün fəaliyyət növləri cəmiyyət üçün eyni əhəmiyyət kəsb etmir. Buna görə də sosial stratifikasiya qarşısına belə bir məqsəd qoymuşdur ki, cəmiyyət üçün daha çox əhəmiyyət kəsb edən, daha çox əmək və istedad tələb edən mövqelər müvafiq olaraq daha çox stimullaşdırılsın, mükafatlandırılsın (9, s. 366-369). Eyni zamanda qeyd etmək lazımdır ki, bəzən bu və ya digər qrupun yüksək təminatı, əlavə stimullaşdırılması tam ictimai inkişafa istiqamətlənmir, subyektivizm halları meydana çıxır. Yəni bir çox hallarda resursların yenidən bölgüsü siyasi motiv xarakteri kəsb edir. Bununla əlaqədar ümumi mənafe əsasında birləşən insan qrupları tez-tez ümumi mənafelərini birgə reallaşdırmaq üçün avtonom birliklər yaratmağa meyilli olmaqla yanaşı, həm də öz maraqlarının siyasi ifadə tərzini nümayiş etdirir, dövlət hakimiyyəti orqanlarına təsir edirlər. Qeyd olunan siyasi aspekt əksər maraq qruplarının fəaliyyətində mərkəzi yeri tutur. Demokratik idarəetmə sisteminin geniş miqyasda tətbiq olunması formalarından biri də hakimiyyət səlahiyyətlərinin müxtəlif təşkilatlarda, qruplar kollektivində bölüşdürərək özünü idarəetmə formalarının bərqərar olmasıdır (2, s. 107). Siyasi tədqiqatçıların bir çoxu bu mövqedən çıxış edirlər. Ms. C.Berri maraq qruplarını “hakimiyyətə təsir etmək istəyən təşkilat” kimi nəzərdən keçirirdi (5, s, 5-6). A.Şevkat maraq qruplarını “hökumətin qanunverici və inzibati qərarlarına təsir göstərmək üçün öz gücünü bir yerdə koordinasiya edən, hakimiyyət orqanlarının nümayəndələri ilə əlaqə yaradan, ümumi məqsəd ətrafında birləşən insanların sosial təşkil olunma forması” kimi nəzərdən keçirirdi (6, s.1159).

Maraq qruplarının nümayəndəlik funksiyası məhz dövlət hakimiyyəti orqanlarına təsirdə reallaşır. Siyasi təzyiq strategiyası bütün maraq qruplarına bu və ya digər dərəcədə xasdır. M.M.Denken yazırdı ki, “hətta fəaliyyəti məhdud dairəni əhatə edən, məsum qrupların da maraqları mütləq başqa qrupların maraqları ilə toqquşur. Bu toqquşma anından onlar özlərinin məxsusi sosial mühitinin qayğısına qalmağa məcburdur, yəni sərəncamlarında olan bütün vasitələrdən istifadə edirlər ki, digərlərini öz maraq və hüquqlarına hörmət etməyə razılaşdırsınlar (10, s. 147). Tədqiqatçı buradan da belə bir ədalətli nəticə çıxarır ki, bütün qruplar nəticə etibarı ilə təzyiq qruplarıdır. Şvarsenberq də yazırdı ki, “Bütün maraq qrupları gerçəklikdə təzyiq qruplarıdır (13, s. 90–91).

Maraq qrupları tərəfindən nümayəndəlik funksiyasının reallaşdırılması funksiyası kimi dövlət hakimiyyəti orqanlarına təzyiq strategiyasından istifadə edilməsi siyasi quruluşunun xüsusiyyətindən asılı olmayaraq bütün cəmiyyət tipləri üçün xarakterikdir. Amma demokratik sistemlərdə maraq qrupları azad rəqabət şəraitində, dəqiq hüquq normaları hüdudlarında, ictimai təsirə açıq olan dövlət təsisatları mühitində mövcud olur və fəaliyyət göstərir. Qeyri-demokratik cəmiyyətlərdə isə rəqabət məhdudlaşdırılır, maraq qrupları “ yazılmamış qanunlar” əsasında fəaliyyət göstərir. Avtoritar sistemlərdə - yəni real fəaliyyət göstərən parlamentin, siyasi partiyaların, nümayəndəlik təsisatlarının olmadığı şəraitdə maraq qrupları daha çox əhəmiyyət kəsb edir, sosial-siyasi qarşılıqlı təsirin vahid kanalına, siyasi proseslərin aparıcı subyektinə çevrilir. Buradan isə daha bir nəticə çıxır ki, siyasət həm demokratik, həm də avtoritar sistemlərdə müxtəlif qrup maraqlarının mübarizə meydanıdır. Siyasi proseslərin dərk edilməsinə belə bir plüralist yanaşma aktuallıq kəsb edir ki, hakimiyyət qərarları sosial qüvvələrin tarazlığının məhsulu kimi özünü göstərməli, maraq qruplarının ədalətli, bərabər təsir imkanlarını əks etdirməlidir. Belə interpretasiyada qəbul edilən siyasi sistem özünütənzimləyən, maraq qruplarının münaqişəli qarşılıqlı təsirlərində qüvvə balansını əks etdirən sistem kimi özünü göstərir. Belə şəraitdə maraq qruplarından heç biri hakimiyyət monopoliyasına sahib olmur,

öz iradəsini qəbul etdirə bilmir, çünki digər qruplar tarazlaşdırıcı müqavimət faktoru kimi çıxış edir. Əgər hansı isə bir qrupun siyasi potensialı qeyri-proporsional şəkildə artarsa, sosial-siaysi prosesin digər iştirakçıları hakimiyyət orqanlarına təzyiq üçün qüvvələrini cəmləyir və bununla da tarazlaşdırılmış siyasi kursun formalaşdırılmasına kömək edirlər. Ümumiyyətlə isə dövlət hakimiyyəti orqanlarına təzyiq göstərərək maraq qrupları siyasi nümayəndəlik təsisatı qismində çıxış edir, dövlət və cəmiyyət arasında vasitəçilik funksiyasını yerinə yetirir, idarə edənlərlə idarə olunanlar arasında əlaqələndirici rolunda çıxış edirlər. Siyasi sistemdə maraq qruplarının əhəmiyyəti özünü onda göstərir ki, belə qruplar müxtəlif sosial mənafeləri formalaşdıraraq, ifadə edərək siyasət məkanına köçürür, hakimiyyət qərarlarının gündəliyini və formalaşma prosesini müəyyən edərək siyasi sistemin özünəməxsus süzgəci, təmizləyicisi rolunda çıxış edir.

Siyasi partiyalar da maraq qrupları ilə yanaşı sosial-siyasi münasibətlər sistemində mediator funksiyasını yerinə yetirir. Həm maraq qrupları, həm də siyasi partiyalar siyasi sferada sosial maraqların nümayəndəliyini həyata keçirir, dövlət təsisatları ilə cəmiyyət arasında qarşılıqlı əlaqəni təmin edirlər. Lakin bununla yanaşı siyasi sistemdə oxşar mövqelərinin, bəzi funksional ekvivalentliyinin olmasına baxmayaraq siyasi partiyalar və maraq qrupları təşkilat prinsiplərinə və fəaliyyət xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər. Maraq qrupları və siyasi partiyaların əsas fərqi dövlət hakimiyyətinə münasibətləridir. Belə ki, maraq qrupları öz məqsədlərinə çatmaq üçün daha çox dövlət orqanlarına təsir etmək yolundan istifadə edirlər. Onlar seçkilərdə öz namizədlərini irəli sürərək hökumətin fəaliyyəti üçün məsuliyyəti üzərlərinə götürməkdən nisbətən uzaq dururlar. Doğrudur, fəaliyyət xarakterinə görə maraq qruplarına bənzəyən çoxsaylı xırda partiyalar mövcuddur və ya digər tərəfdən bir sıra maraq qrupları seçkilərdə iştiraketmə prosesini siyasi təzyiq taktikası kimi istifadə edirlər. Lakin bunlarla yanaşı maraq qrupları ilə siyasi partiyalar arasında olan prinsipial fərq dəyişməz olaraq qalır: yəni maraq qrupları dövlət hakimiyyətindən birbaşa istifadə etmək iddiasında olmur. Siyasi partiyaların isə məqsədi yalnız hakimiyyətə təsir etmək deyil, hakimiyyəti ələ almaq, əldə saxlamaq, reallaşdırmaq istəyən təşkilat kimi özünü təsdiq etməkdir. Bundan başqa maraq qrupları ilə siyasi partiyaları siyasətdə maraqların nümayəndəlik funksiyasının reallaşma forması və miqyasları da fərqləndirir. Böyük sosial parçalanmalar məsəl üçün: sinfi, dini, mədəni-ərazi və s. əsasında formalaşıb və seçicilərin daha çox kütləsini öz tərəfinə çəkməyə cəhd edərək siyasi partiyalar ənənəvi olaraq sosial maraqların geniş spektrinə söykənir və buna görə də onların fəaliyyəti bilavasitə bu və ya digər sosial subyektin maraqlarını ifadə etmək deyil, daha çox həmin maraqların aqreqasiyasıdır – yəni müxtəlif yönlü maraqların toplanması, bir məcraya yönəldilməsi, ümumi proqram halında birləşdirilməsi və daha sonra da onların dövlət orqanlarına təqdim edilməsi, reallaşmasını tələb etməkdir. Genezisi konkret sosial tələbatların dərk edilməsi ilə bağlı olan maraq qrupları isə əksinə daha çox xüsusi maraqlara meyllənir və siyasi nümayəndəlik sferasında onların fəallığı isə əksər hallarda maraqların artikulyasiyası ilə məhdudlaşır, hökumət qarşısında təmsil etdiyi zümrənin ehtiyac və tələblərini yalnız ifadə edirlər.

Siyasi ədəbiyyatda maraq qrupları ilə siyasi partiyalar arasında obrazlı ifadə etsək bir növ "əmək bölgüsünün" olduğu qəbul edilir. Belə ki, maraq qrupları ayrı-ayrı maraqları, ehtiyacları, tələbatları üzə çıxarır, formalaşdırır, siyasi qurumlardan biri kimi həm də siyasi partyaların diqqətinə təqdim edir. Siyasi partiyalar isə bu maraqları aqreqasiya edir, onları partiya proqramlarında təcəssüm etdirir, dövlət siyasətinə bir alternativ qismində irəli sürür. Lakin bu funksiyaların bölüşdürülməsi, ayrılması məsələsi xeyli dərəcədə normativ və ideal-tipik xarakter daşıyır. Təcrübədə isə maraq qrupları ilə siyasi partiyalar arasında dəqiq sərhəd çəkmək çox çətin məsələdir. Bir tərəfdən xüsusi siyasi platforma formalaşdıran, onları nəzarətlərində olan siyasi partiya vasi-

təsi ilə hərəkətə gətirən, sosial istəklərin böyük dairəsini özündə birləşdirən genişmiqyaslı maraq qrupları (məs.: ümummilli həmkarlar ittifaqları, sahibkarların aparıcı assosiasiyaları və s.) mövcuddur. Digər tərəfdən isə çoxsaylı kiçik partiyalar vardır ki, (məs.: yaşıllar və s.) onların fəaliyyəti xüsusi maraqların müdafiəsi ilə başa çatır. Beləliklə, bir siyasi partiyalar ilə maraq qruplarının həm bir-birini tamamlaması, həm də bir-birini əvəz etməsi haqqında danışa bilərik, yəni siyasətdə maraq qrupları bilavasitə iştirak edir və əks proporsional asılılıq əsasında siyasi partiyaların vəziyyəti ilə üzvi surətdə əlaqədardır. Partiya sistemi nə qədər zəif fəaliyyət göstərsə, maraq qrupları bir o qədər güclənir və əksinə partiyalar öz səlahiyyətlərini nə qədər səmərəli yerinə yetirsələr onlar maraq qruplarının təsirini xeyli məhdudlaşdıra və ya minimum səviyyəyə endirə bilərlər. Dövlət və cəmiyyəti əlaqəndirən təsisat qismində partiyalar ənənəvi olaraq qabaqcıl rolda çıxış edirlər. Belə vəziyyət reprezentiv demokratiya (nümayəndəli demokratiya) şəraitində maraq qrupları və siyasi partiyaların müxtəlif statusları ilə şərtlənir, yəni reprezentativ demokratiyada dövri olaraq keçirilən seçkilərin gedişində seçicilərin səsi uğrunda partiyaların rəqabəti idarəetmə sisteminin əsası kimi qəbul edilir. R.Kats yazırdı ki, "müsair demokratiya partiya demokratiyasıdır. Demokratik idarəçiliyin mahiyyətini təşkil edən partiya təlimatları və təcrübəsi nəinki siyasi partiyalar tərəfindən yaradılmışdır, həm də onlarsız ağlasığmaz olardı" (6, s.1). Partiyaların və demokratik siyasi sistemlərin fəaliyyətləri arasında fundamental qarşılıqlı əlaqəni İ.Almond və onun həmfikirləri belə izah edirlər: siyasi partiyalar dövlət siyasətinə münasibətdə öz mövqelərini müəyyən edir, öz "seçdikləri namizədləri" və öz siyasi kurslarını seçkilərə təklif edir, mitinqlər, televiziya reklamı, "evləri gəzmək" vasitəsi ilə elektoral dəstəsi təmin edir. Vətəndaşlar isə səsvermə aktı vasitələri ilə öz iradəsini ifadə edir və həmin seçkilər müxtəlif maraqların üzə çıxarılmasına imkan verir. Nəticə olaraq həmin səslərin aqreqasiyası vasitəsi ilə millət, vətəndaşlar öz gələcək liderləri və dövlət siyasəti kursu haqqında kollektiv qərar qəbul edə bilər (8, c. 161-163). Siyasi partiyaların prinsipial rolu haqqında yuxarıda deyilənlərin əksəriyyəti müasir dövrdə də qəbul edilir. Lakin ictimai inkişafın son onilliklərdəki dominant istiqamətləri xeyli dəyişikliklərə səbəb olmuşdur, yəni sosial-siyasi qarşılıqlı fəaliyyət sistemində maraq qruplarının mediator təsisatı qismində mövqeyini xeyli gücləndirmişdir. Bu isə onunla əlaqədardır ki, əvvəla müasir cəmiyyətlərin diferensasiyasının yüksəlməsi maraqların müxtəlifliyinin dəfələrlə genişlənməsinə səbəb olmuşdur və belə maraqların, tələbatların heç də hamısı özünə adekvat siyasi-elektoral nümayəndəlik müəyyən edib, tapa bilmir. İkincisi, keçmiş sosial fərqlərin, parçalanmaların (I növbədə sinfi fərqlərin) tədricən azalması ictimai tələbatların, gözləntilərin real əks etdirilməsi nöqteyi-nəzərindən ənənəvi partiya-elektoral sistemini az səmərəli vəziyyətə gətirmişdir. Üçüncüsü, partiya-elektoral sistem hüdudlarında olduğuna nisbətən, dövlətin fəaliyyət sferasının genişlənməsi ilə şərtlənən siyasi-inzibati idarəetmənin mürəkkəbləşməsi daha intensiv sosial-siyasi qarşılıqlı təsir tələb edir. Bu qeyd olunan meyllər isə siyasi qərarların hazırlanması prosesində maraq qruplarının əhəmiyyətinin artdığını müəyyən edərək, dövlət ilə cəmiyyət arasında birbaşa dialoqun zəruriliyini aktuallaşdırmışdır. Yəni burada söhbət partiya və seçkilər ilə əlaqələnən cəmiyyət-dövlət münasibətlərindən getmir. Maraq qrupları siyasi nümayəndəlik sistemində mühüm yer tuturlar və vaxt keçdikcə onların rolu yüksələcəkdir. Digər tərəfdən hakim qərarların formalaşdırılması prosesində maraq qruplarının rolunun yüksəlməsi hakimiyyətin demokratik modelinin bir sıra transformasiya tələbatına aid olan mürəkkəb problemlər yaradır. Məsələ ondadır ki, digər siyasi rejimlərdən fərqli olaraq demokratiya idarəedənlərlə idarə olunanlar arasında əldə edilən razılığa əsaslanır. Demokratiyanın varlığının ən mühüm ilkin şərti dövlət ilə vətəndaş cəmiyyəti arasında səmərəli qarşılıqlı fəaliyyət, təsirdir. İlk əvvəldən bu günə qədər vətəndaş cəmiyyəti ilə dövlət arasında dialoqun qorunub saxlanması vəzifəsini

dəyişməz qaydada siyasi partiyalar öz üzərinə götürmüşdür. Qeyd edildiyi kimi hakim olan ictimai inkişaf meylləri siyasi nümayəndəlik təsisatları qismində siyasi partiyaların əhəmiyyətini azaldır və əksinə bu sferada maraq qruplarının potensialı yüksəlir. Müasir dövrdə demokratiyanın səmərəlilik əmsalı xeyli dərəcədə vətəndaş cəmiyyəti təsisatlarının inkişafı səviyyəsi və onların siyasi iştirakçılığının miqyaslarının genişliyi ilə müəyyən olunur. Müasir şəraitdə demokratik idarəetmə xeyli transformasiyalara məruz qalır, yəni demokratik idarəetmə hökumətin seriyalı hərəkətlər yığımı olmaqdan tədricən uzaqlaşır, müxtəlif sosial agentlərin, qrupların, qüvvələrin, dövlət və qeyri-dövlət təşkilatlarının, təsisatlarının, ayrı-ayrı insanların az və ya çox dərəcədə daimi xarakter daşıyan qarşılıqlı fəaliyyətinə, münasibətinə çevrilir. İdarəetmə artıq birgə rəhbərliyə, birgə istiqamətlənmə və meyllənməyə dair birtərəfli deyil iki və ya çox tərəfli prosesə çevrilir. Bu halda dövlət ilə cəmiyyət arasında yalnız sərhədlər deyil, həm də onların təbiəti dəyişir, bir-birinə münasibətdə daha nüfuzedici olur, birinin harada qurtardığını digərinin harada başladığını müəyyən etmək olmur. Demokratik idarəetmənin belə modeli vətəndaşların siyasətdə iştirakının yeni keyfiyyətini tələb edir. Demokratik ölkələrdə məhz belə sosial dəyişikliklər baş verməkdədir. Siyasi iştirakçılıq kütləvilikdən, ümumilikdən, ciddi təşkilatlanmadan uzaqlaşır, daha fərdi, fraqmentar, situasiyaya adekvat, fərdi, səriştəli, interaktiv və uyğunlaşan xarakter kəsb edir. Bununla yanaşı ənənəvi demokratik təsisatlar siyasi iştirakçılığın dəyişən formatını qəbul etməyə tam hazır vəziyyətdə deyildir. Bu deyilənlər arasında ən əsası odur ki, maraq qruplarının getdikcə daha böyük əhəmiyyət kəsb edən yeni vətəndaş iştirakçılığının partiya-elektoral sistemindən daha çox siyasi nümayədəlik mexanizmində səmərəli reallaşması mümkündür. Bu gün getdikcə daha çox aydın olur ki, partiya demokratiyası artıq keçmişdə qalmağa başlayır, onun yerini isə maraq qruplarının demokratiyası tutur. Siyasi qərarların formalaşması tədricən, ancaq dönməz qaydada siyasi mübarizə müstəvisindən maraq qruplarının qarşılıqlı fəaliyyət müstəvisinə, lobbist təsirlər məkanına keçir. Yeni şəraitdə də səmərəli hakimiyyət qərarlarının işlənib hazırlanması maraq qruplarının demokratik idarəetmə sisteminə düzgün inteqrasiya edilməsi ilə müəyyən olunacaqdır. “Vətəndaşın dövlət idarəçiliyində iştirakının real təmin edilməsi onun milli şüurunun inkişafına .... mühüm təsir edir. İctimai şüur cəmiyyətin inkişafının göstəricisidir. Bu baxımdan da ictimai şüur özlüyündə cəmiyyətin inkişafında mühüm rol oynayır. Cəmiyyətin inkişaf səviyyəsinə uyğun olan idarəetmə strukturunu tələb edir. İdarəetmə strukturu geri qaldıqda, primitiv olduqda, zamanın tələbi ilə səsləşmədikdə, cəmiyyətin inkişafında bir buxova, əngələ çevrilir” (2, s. 107). Bu isə maraq qruplarının siyasi proseslərə fəal cəlb edilməsini, bütün maraq qrupları arasında bərabər, açıq, vicdanlı rəqabətin təmin edilməsini, dövlət siyasətində maraqları toqquşan bütün qrupların mövqelərinin hərtərəfli nəzərə alınmasını diqqət mərkəzinə çəkir.

**Ədəbiyyat:**

1. Həsənov Ə. Geosiyasət. Bakı, 2010.
2. Hüseynov R. Azərbaycanın Dövlət idarəçiliyi. Tarix və müasirliyin vəhdəti, Bakı, 2018
3. Əfəndiyev M. Sosiologiya: Nəzəri problemləri və qərb sosiologiyası. Bakı, 2018
4. Şirinov A., İbadov N., Politologiya, Bakı, 2015
5. Berry J. The İnterest Group Society , New york, Longman, 2009
6. Katz R. Theory of Parties and Elektoral sistems, Baltimore, 2007
7. Sekwat A. İnterest Groups, Westview Press, 1998
8. Алмонд Г. и др. Сравнительная политология сегодня. Мировой обзор. М.: Аспект Пресс, 2002
9. Девис. К., Мур У. Некоторые принципы стратификации. Социология. Хрестоматия для вузов. М., 2002

10. Демкен Т.М. Политическая наука. М., 1993
11. Здравомыслов А.Г. Потребности. Интересы. Ценности. М.: Политиздат, 1986.
12. Комаров М.С. Социальная стратификация и социальная структура. Социологические исследования. 1992.
13. Шварценверч Р.Ж. Политическая социология. М, 1992.

***Açar sözlər:*** *siyasi proses, struktur, məzmun, siyasi iştirakçılıq, aktor, faktor, siyasi sistem*

**Riyad Rustamli**
*PhD student, Baku State University*

## INTEREST GROUPS IN THE POLITICAL REPRESENTATION SYSTEM: MODERN TRENDS

### SUMMARY

The article is dedicated to research of the place and role of interest groups in the political representation system of modern states.

The article also analyzes the proportion of political parties and interest groups in the political representation system. So, interest groups are very important subject of modern politics.

The representation function of the interest groups is reflected in the pressure to authorities, the fulfillment of the mediation mission between state ensuring national interests and civil society representing the special interest and goals.

On the other hand, political parties fulfill a similar mediator function in the system of social-political interaction.

***Key words:*** *Political Process, Structure, Content, Participation in Political Life, Actor, Factor, Political System*

**Рияд Рустамли**
*Докторант Бакинского Государственного Университета*

## ГРУППЫ ИНТЕРЕСОВ В СИСТЕМЕ ПОЛИТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЬСТВА: СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ

### РЕЗЮМЕ

Статья посвящена рассмотрению места и роли групп интересов в системах политического представительства современных государств. Автор раскрывает особенности представительских функций групп интересов. В статье дается анализ соотношения позиций групп интересов и политических партий в системах политического представительства. Автор отмечает усиление роли групп интересов в системах политического представительства и подчеркивает тенденцию перехода от партийной демократии к демократии групп интересов. В статье делается вывод о необходимости трансформации демократических систем правления для более эффективной интеграции групп интересов в политические процессы.

***Ключевые слова:*** *политический процесс, структура, содержание, участие в политической жизни, актор, фактор, политическая система*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## DÖVLƏT İDARƏÇİLİYİ
## PUBLIC ADMINISTRATION

**AZƏR ƏLİYEV**
**SOCAR Ekologiya idarəsinin rəisi**
*e-mail: azer.aliyev@socar.az*

**RƏNA HÜMBƏTOVA**
**SOCAR Ekologiya idarəsi, böyük mühəndis**

# AZƏRBAYCANDA NƏQLİYYAT SEKTORUNDAN İSTİLİK EFFEKTİ YARADAN QAZLARIN ATILMALARININ AZALDILMASINDA SOCAR-ın ROLU

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun (IPCC) verdiyi məlumata görə son 30 ildə insan fəaliyyəti nəticəsində atmosferdəki İEYQ-nin miqdarı sürətlə artmaqdadır [6].

Atmosferə atılan İEYQ emissiyalarının miqdarını azaltmaq məqsədilə 1994-cü ilin mart ayının 21-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konveniyası (UNFCCC) qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu Konvensiyaya 1995-ci ildə, 2000-ci ildə isə Konvensiyaya əlavə olunan Kioto Protokoluna qoşulmuşdur. Hazırda iqlim dəyişmələrinin qarşısının alınması üçün beynəlxalq və regional səviyyələrdə atmosferə atılan İEYQ emissiyalarının azaldılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 2015-ci il tarixdə Paris şəhərində keçirilmiş 21-ci Tərəflər Konfransında iqlim dəyişmələri üzrə yeni beynəlxalq-hüquqi sənəd olan "Paris Sazişi" qəbul edilmiş və 173 ölkə tərəfindən bu Saziş ratifikasiya edilmişdir. Ölkəmiz iqlim dəyişmələri sahəsində qəbul edilmiş "Paris razılaşması"nı dəstəkləmişdir. Azərbaycan Respublikası qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə özünün töhfəsi olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

Paris Sazişinin əsas məqsədi Qlobal istiləşməni 1.5ºC səviyyəsində məhdudlaşdırmaqdır.

Qlobal miqyasda dünya üzrə ümumi emissiyaların 25%-dən çox hissəsi nəqliyyat sektorunun payına düşür. Nəqliyyat sektoru üzrə ümumi emissiyaların 75%-i isə yol nəqliyyatından qaynaqlanır. Proqnozlara görə 2000-ci il ilə müqayisədə 2030-cu ilə qədər nəqliyyata tələbatın iki dəfə artacağı gözlənilir.

Buna görə də bu sahədə azalmalara nail olmaq üçün, bütün ölkələr tərəfindən qəti addımların atılmasına ehtiyac duyulur. Artıq bir çox ölkələr, məsələn, Avropa İttifaqının (Aİ) ölkələri iqlim dəyişmələri üzrə fəaliyyət planını qəbul etmişlər [2]. Həmin planın həyata keçirilməsi nəticəsində Avropa ölkələrinin ərazilərində baş verəcək azalmalar aşağıdakı diaqram 1-də göstərilmişdir.

Diaqramdan göründüyü kimi, Aİ ölkələrində 2050-ci ilə qədər nəqliyyat sektorundan atılan emissiyaların azaldılmasında minik avtomobillərinin böyük payı olacaqdır. Baza ssenarisinə görə nəqliyyat sektorundan atılan




**Diaqram 1.** Aİ-nin 2050-ci ilə qədər fəaliyyət planı

emissiyaların miqdarının 2050-ci ilə qədər təxminən 1400 Mt $CO_2$ ekvivalenti olunması gözlənilir.

Bu atılmaların artması nəticəsində şəhər və qəsəbələrdə havanın keyfiyyəti aşağı düşməyə başlamışdır. Havanın keyfiyyəti iqtisadi inkişafa paralel olaraq sürətlə pisləşir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə havanın keyfiyyətinin mənfi təsiri dünya üzrə 6,5 milyon insanın həyatına vaxtından əvvəl son qoymasına səbəb olmuşdur. Yol nəqliyyatı NO və $N_2O$ emissiyalarının mənbəyidir, bu qazlara təbiətdə bir yerdə rast gəlinir, ona görə də bu qazların insan sağlamlığına təsiri də kompleks şəkildə verilir. NO qazının ən yüksək qatılığı atılma mənbəyinin ətrafında olur. Yanacağın yandırılması prosesi zamanı əmələ gələn azot oksidinin təxminən 90%-i azot bir oksid (NO) təşkil edir. Qalan 10%-i isə azot dioksidin ($NO_2$) payına düşür. Lakin atılma mənbəyindən məsafə artdıqca, kimyəvi reaksiya nəticəsində NO qazı $NO_2$ qazına çevirilir. Bu qaz isə xarakterik bir qoxu olan qəhvəyi rəngli bir qazdır. Bu qazın havada qatılığı artdıqca tənəffüs yollarının selikli qişaları qıcıqlanır, insanın boğulmasına səbəb olur, qoxu hissini və vizual reaksiyanı zəiflədir. Artıq bir sıra ölkələrdə bu qazın konsentrasiyası havadakı normaları aşmışdır. ABŞ-ın NASA agentliyinin peyk çəkilişlərində hava qatlarında konsentrasiyası normadan artıq olan ölkələr aşağıdakı şəkildə qeyd edilmişdir [3].

Mütəxəssislərin hesablamalarına görə il ərzində bütün dünyanın avtomobil parkı (təqribən 1 mlrd. ədəd) 2,3 mlrd. tona yaxın yanacaq işlədir. Hazırda dünyada quru ərazinin hər kvadrat kilometrinə 7 avtomobilin düşdüyü bildirilir. Bakıda bu göstərici rekord səviyyəyə yüksəlib. Belə ki, Bakı şəhərində olan avtomobillərin sayını onun ərazisinə bölsək, təqribən hər kvadratkilometrə 400 avtomobil düşür.



**Şəkil 1.** NASA məlumatına əsasən $NO_2$ qazı ilə çirkləndirilmiş ərazilər

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən nəqliyyat sektoru üzrə İEYQ emissiyalarına yol nəqliyyatından əlavə, daxili hava və su nəqliyyatı, dəmir yolu və boru kəməri nəqliyyatından atılan İEYQ-nin emissiyaları da daxildir. 2013-cü ildə ölkə üzrə nəqliyyatdan atılan emissiyaların miqdarında 1990-cı illə müqayisədə 33% artım müşahidə olunur. Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına təqdim etdiyi İkinci İkiillik Yenilənmiş hesabatına görə, ölkə üzrə avtomobil nəqliyyatından atılan İEYQ emissiyaların miqdarı ölkə üzrə nəqliyyat sektorunun emissiyalarının təxminən 90-92%-ni təşkil edir [1].

1990-cı ildə avtonəqliyyatın emissiyaları ölkə üzrə hesablanmış ümumi emissiyaların 7.7%-ni təşkil edirdisə, 2013-cü ildə bu rəqəm 12.5%-ə qədər qalxmışdır.

Qeyd etmək lazımdır ki, avtonəqliyyat altkateqoriyası üzrə emissiyalar illik statistik




**Diaqram 2.** Nəqliyyat sektorundan İEYQ emissiyasının dəyişmə dinamikası

**Cədvəl 1.** Azərbaycanda nəqliyyat vasitələrinin sayı, ədəd.

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 438626 | 612069 | 982553 | 1037626 | 1135936 | 1232678 | 1291008 | 1322610 | 1330551 |
| minik avtomobilləri | 332026 | 479447 | 815683 | 871449 | 958594 | 1048806 | 1100124 | 1129596 | 1136983 |
| avtobuslar | 14756 | 26735 | 29569 | 29189 | 29647 | 30334 | 30943 | 31057 | 30958 |
| yük avtomobilləri | 78566 | 90852 | 118460 | 122182 | 130019 | 133637 | 141126 | 141273 | 141525 |
| xüsusi təyinatlı avtomobillər | 10456 | 9490 | 11715 | 10153 | 11936 | 13427 | 11282 | 11063 | 11158 |
| Digərləri | 2822 | 5545 | 7126 | 4653 | 5740 | 6474 | 7533 | 9621 | 9927 |
| Motosiklet | 6389 | 3562 | 1643 | 1647 | 2067 | 2487 | 2877 | 3215 | 3290 |
| Qoşqu və yarımqoşqular | 6486 | 4776 | 10776 | 10551 | 11424 | 12350 | 13104 | 13744 | 13971 |

məcmuədə verilən məlumatlara əsaslanır və 2006-cı ilin İPCC-nin Qaydalar sənədinin Səviyyə 1 adlanan sadələşdirilmiş metodikası ilə hesablanır [6]. Bu metodikada yalnız nəqliyyat vasitələrində il ərzində faktiki yandırılmış yanacağın miqdarı nəzərə alınır. Emissiyaların hesablanmasında dəqiqliyin artırılması və daha yüksək metodoloji səviyyələrə keçilməsi üçün avtonəqliyyatların növləri (minik avtomobilləri, ağır yük avtomobilləri, yüngül yük avtomobilləri, avtobuslar və motosikletlər), hər növ nəqliyyat üçün il ərzində yandırılan yanacağın həcmi (ayrılıqda dizel, benzin, sıxılmış neft və təbii qazlar və s.), avtomobillərin illik yürüşləri barədə məlumatların əldə edilməsi zəruri hesab olunur.

Paris Sazişi sənədinə daxil etmək üçün SOCAR ölkə daxilində “Nəzərdə tutulan, ölkə səviyyəsində müəyyən edilmiş töhfələr” sənədinə öz tədbirlərini daxil etmişdir. Bu sənədin icrasında SOCAR-ın həyata keçirdiyi layihələr xüsusi önəm daşıyır. Belə ki, SOCAR tərəfindən təqdim edilmiş töhfələr irimiqyaslı layihələrdir. Buna misal olaraq neft-qaz emalı sahəsində yeni, müasir ekoloji yönümlü ətraf mühitə dost texnologiyaların tətbiqi, o cümlədən 2021-ci ilə qədər H.Əliyev adına Neft Emalı Zavodunda AVRO-5 standartlarına uyğun yanacağın istehsalı layihəsini göstərmək olar.

Belə ki, SOCAR Azərbaycan Respublikası üzrə avtonəqliyyatdan atılan emissiyaların azaldılması üçün AVRO-5 standartına uyğun yanacaq istehsal etməklə dəm qazı (CO), azot oksidi ($NO_x$) və qeyri-metan uçucu üzvi birləşmələrin (QMUÜB) azaldılmasına nail olacaq. (CO), ($NO_x$) və QMUÜB günəş işığında troposferdə İEYQ olan ozonun ($O_3$) yaranmasına səbəb olur, buna görə də onlar "ozon prekursorları" adlanılırlar. Bundan əlavə, azot oksidinin emissiyası atmosferdə gedən azot dövranında mühüm rol oynayır. Bu qazlar barədə məlumat BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına təqdim olunan İkiillik Yenilənmiş Hesabatlarda və Milli Məlumatlarda öz əksini tapır [7].

Qeyd etməliyik ki, Azərbaycanda hazırda istehsal olunan yanacaq AVRO-3 standartına cavab verir. Misal üçün, sərnişin avtomobillərində AVRO-3 standartına uyğun dizel yanacağından istifadə zamanı atmosferə 0.66 q/km CO və 0.50 q/km $NO_x$ atılırsa, AVRO-5 standartına cavab verən dizel yanacağından istifadə zamanı isə 0.5 q/km CO və 0.18 q/km $NO_x$ atılacaqdır. AVRO-3 standartına cavab verən benzin yanacağı üçün bu göstəricilər 2.3 q/km CO və 0.15 q/km $NO_x$ təşkil edir [4]. AVRO-5 standartını tətbiq etməklə CO və $NO_x$ qazlarının atılmalarını müvafiq olaraq 1 q/km və 0.06 q/km-ə qədər azaltmaq mümkün olacaqdır.

Bu layihəni tətbiq etməklə həm ölkə üzrə İEYQ-nin azalmasına, həm də 1991-ci il 25 fevral tarixində Finlandiyanın Espo şəhərində

imzalanmış BMT-nin "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiyanın öhdəliklərinin yerinə yetirilməsinə nail olunacaqdır.

Ölkə üzrə nəqliyyat vasitələrindən emissiyaların azalmalarının qiymətləndirməsi üçün nəqliyyat vasitələri barədə xüsusi məlumatların toplanılması vacibdir. DSK tərəfindən nəqliyyatın növündən asılı olaraq nəqliyyat vasitələrinin sayı, nəqliyyat vasitələri parkının yaş strukturu, minik avtomobillərinin markalarına görə bölgüsü və nəqliyyatda enerji məhsullarının istehlakı barədə məlumatlar verilir.

CO və $NO_x$ atılmalarının azalmalarını qiymətləndirmək üçün benzin və dizellə işləyən avtomobil nəqliyyatının illik yürüşləri barədə məlumat hesablanmalıdır.

Cədvəl 1-dən göründüyü kimi, Azərbaycanda 2000-ci illə müqayisədə nəqliyyat vasitələrinin ümumi sayında 3 dəfə, minik avtomobillərinin sayında isə 3.4 dəfə artım müşahidə olunur. Qeyd etmək lazımdır ki, minik avtomobillərinin payı ümumi avtomobil nəqliyyatının 85.5%-ni təşkil edir. Buna görə, qiymətləndirilmədə bütün avtonəqliyyat minik avtomobilləri kimi götürülmüşdür.

Avtomobillərin markalarından asılı olaraq minik maşınları hər 100 km yürüşə təxminən 7-12 litr, yük maşınları isə 10-15 litr yanacaq sərf edirlər. Minik avtomobillərinin sayı çox olduguna görə, qiymətləndirmədə konservativ olaraq hər 100 km yürüşə yanacağın sərfi 11 litr kimi götürülmüşdür.

DSK-nın məlumatına əsasən 2016-cı ildə avtomobil nəqliyyatında 1234.1 min ton benzin, 617,9 min ton dizel yandırılmışdır. Yəni benzin yanacağından iki dəfə çox dizel yanacağı istifadə edilmişdir. Buna əsasən fərz etmək olar ki, ölkədə benzin yanacağı ilə işləyən nəqliyyat vasitələrinin sayı 2 dəfə çoxdur. 2016-cı ildə avtonəqliyyatın ümümi sayını nəzərə alaraq, benzin ilə işləyən nəqliyyatın sayı 887034 ədəd, dizellə işləyən nəqliyyat isə 443517 ədəd götürülmüşdür. Təbii ki, bu yanaşmada qeyri-müəyyənliklərin səviyyəsi bir qədər yüksəkdir, lakin avtomobil nəqliyyatının illik yürüşü haqqında statistik məlumat mövcüd olmadığı halda belə yanaşmalardan istifadə etmək mümkündür.

Yuxarıda hesablanmış məlumatlara əsasən aşağıdakı cədvəldə atılmaların müqayisəli təhlili verilir.

**Cədvəl 2.** AVRO-5 standartına keçid zamanı ozon prekursorlarının azaldılması

| Göstəricilər | Dizel yanacağı ilə işləyən AN | Benzin yanacağı ilə işləyən AN |
|---|---|---|
| AN-nin illik yürüyüşü, km | 7021590909,10 | 14958787878,70 |
| **Avro-3 standartına uyğun yanacaqdan emissiyalar, min t** | | |
| CO | 4,63 | 34,41 |
| $NO_x$ | 3,51 | 2,24 |
| **Avro-5 standartına uyğun yanacaqdan emissiyalar, min t** | | |
| CO | 3,51 | 14,96 |
| $NO_x$ | 1,26 | 0,90 |
| **Azalmalar, min t** | | |
| CO | 1,12 | 19,45 |
| $NO_x$ | 2,25 | 1,34 |

Yuxarıdakı cədvəldən göründüyü kimi, H.Əliyev adına NEZ-in modernizasiya və yenidən qurma layihəsi nəticəsində AVRO-5 standartına cavab verən yanacağın istehsalı zamanı Azərbaycanın nəqliyyat sektorundan atılan dəm qazının emissiyaları 20.57 min ton, NOx emissiyaları isə 3.6 min ton azalacaqdır.

SOCAR balansında olan nəqliyyat vasitələrinin intellektual idarə edilməsi məqsədilə 2014-cü ildə nəqliyyat idarəsini yaratmışdır. 2014-cü ilə qədər SOCAR-da olan avtomobil nəqliyyatı və xüsusi texnika vasitələri idarə və müəssisələr üzrə bölüşdürülmüşdü. 2014-cü ildə "Nəqliyyat İdarəsinin strukturunun təşkil olunması haqqında" sərəncamına əsasən SOCAR-ın idarə və müəssisələrində olan nəqliyyat və xüsusi texnika vasitələri vahid struktur olan Nəqliyyat İdarəsinin balansına verilmişdir. Optimallaşdırma tədbirləri nəticəsində müəssisələrdə olan fərdi nəqliyyat vasitələrinin ləğv edilməsi yanacaqdan istifadənin azaldılması ilə nəticələndi.

Bundan əlavə, nəqliyyat vasitələrinə sərf olunan xərclərin azaldılması məqsədilə 2016-cı ildən vahid nəzarət nöqtəsindən GPS vasitəsilə idarə olunan "SOCAR-taksi" sistemi tətbiq olunmuşdur.

Qeyd etmək lazımdır ki, SOCAR-ın 22 aprel 2010-cu il tarixli 53 nömrəli əmri ilə "Nəqliyyat vasitələrinin ekoloji müayinədən keçirilməsi Qaydaları"na uyğun olaraq, SOCAR-ın Ekologiya İdarəsinin ekoloji ölçmə məntəqələrində ildə bir dəfə şirkətin balansında olan nəqliyyat vasitələrinin ekoloji müayinəsi həyata keçirilir. Ekoloji ölçmə məntəqələri müasir tələblərə cavab verən "Stargas-898" və "Smokemeter-495/01" qazanalizatorları ilə təchiz olunmuşlar. Həmin avadanlıqlar vasitəsilə işlənmiş qazların tərkibində olan dəm qazının (CO), karbohidrogenlərin (HC), azot oksidlərinin ($NO_x$), karbon qazının ($CO_2$) və tüstünün (PM) miqdarının yüksək dəqiqliklə ölçülməsi mümkündür. Aparılan monitorinqlər nəticəsində ətraf mühit normalarına cavab verməyən avtomobil vasitələri təmirə dayandırılır və ya istismardan çıxarılır.

Dünyada mövcud olan təcrübələrdən asılı olaraq nəqliyyat sektorunun emissiyalarını azaltmaq üçün nəqliyyatda alternativ yanacağa keçmək tədbirləri hazırda prioritet məsələlərdəndir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması, ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması




**Diaqram 3.** Nəqliyyatdan İEYQ emissiyası, min t $CO_2$ ekv.

və ekoloji cəhətdən daha təmiz elektriklə işləyən avtomobillərdən istifadənin tətbiqi son dövrlərdə aktual məsələlərdəndir. Hazırda ölkəmizdə də bu sahədə maarifləndirmə və təşviqatın aparılması istiqamətində işlər davam etdirilir.

Yuxarıda qeyd olunan tədbirlər nəticəsində SOCAR-ın avtomobil nəqliyyatından atmosferə atılan birbaşa İEYQ emissiyalarının miqdarı hesablanmışdır.

Şəkildən göründüyü kimi, yuxarıda qeyd olunan tədbirlər nəticəsində SOCAR-ın nəqliyyat sektorundan 2013-2014-cü illər ərzində atılan emissiyaların miqdarında sürətli azalma baş vermişdir. Belə ki, SOCAR-ın yeni strukturu olan Nəqliyyat idarəsinin formalaşdırılması nəticəsində 2013-cü illə müqayisədə 2014-cü ildə atmosferə atılan İEYQ emissiyalarının miqdarında 43% azalmaya nail olunmuşdur [7].

SOCAR-ın nəqliyyat vasitələrinin məlumat bazasında avtonəqliyyatların markaları, istehsal illəri, hər nəqliyyat üzrə illik yürüşü, il ərzində yandırılan yanacağın miqdarı, illik müayinə nəticələri barədə məlumatlar toplanılır. Bu məlumatlara əsasən SOCAR-da AVRO-5 standartına keçilməsi nəticəsində CO və $NO_x$ qazlarının atılmalarını yüksək dəqiqliklə hesablamaq mümkün olmuşdur.

Qeyd etməliyik ki, SOCAR-ın balansında olan nəqliyyat vasitələrinin parkı 7.4% Avropa, 30.2% ABŞ, 37.8% Russiya və Türkiyə, 24% isə Çin, Yaponiya və Koreyada istehsal edilmiş avtonəqliyyatdan ibarətdir. Şirkətin balansında olan xüsusi texnikada yalnız dizel yanacağı yandırılır.

Aparılan təhlillərə əsasən aşağıdakı cədvəldə SOCAR-ın balansında olan nəqliyyat vasitələrinin növündən asılı olaraq CO və $NO_x$ atılmalarının azalmaları göstərilir.

**Cədvəl 3.** SOCAR-ın nəqliyyat vasitələrindən CO və $NO_x$ emissiyalarının azaldılması (tonla)

| | **Dizel mühərrikli** | | **Benzin mühərrikli** | |
|---|---|---|---|---|
| | **CO** | **$NO_x$** | **CO** | **$NO_x$** |
| **Minik üzrə:** | | | | |
| Avro-3 | 2.93 | 2.22 | 93.41 | 6.09 |
| Avro-5 | 2.22 | 0.80 | 40.61 | 2.44 |
| **Azalma** | **0.71** | **1.42** | **52.80** | **3.65** |
| **Avtobuslar üzrə:** | | | | |
| Avro-3 | 15.70 | 12.89 | 7.15 | 0.29 |
| Avro-5 | 12.23 | 4.63 | 3.11 | 0.11 |
| **Azalma** | **3.47** | **8.26** | **4.04** | **0.18** |
| **Xüsusu texnika üzrə:** | | | | |
| Avro-3 | 0.55 | 0.45 | - | - |
| Avro-5 | 0.43 | 0.16 | - | - |
| Azalma | **0.12** | **0.29** | **-** | **-** |
| **Yük avtomobilləri üzrə:** | | | | |
| Avro-3 | 17.03 | 13.98 | 24.12 | 0.97 |
| Avro-5 | 13.26 | 5.02 | 10.49 | 0.38 |
| **Azalma** | **3.77** | **8.96** | **13.63** | **0.59** |
| **Cəmi qazın azalması** | **8.07** | **18.93** | **70.47** | **4.42** |

Aşağıdakı diaqramda AVRO-5 standartına cavab verən yanacağın istifadəsi zamanı SOCAR-ın balansında olan nəqliyyat vasitələrindən atmosferə atılan emissiyaların azalmaları qiymətləndirilmişdir.

emissiyaların miqdarında baş verəcək azalma hesablanmışdır.

2. Heydər Əliyev adına NEZ-in modernzasiyası və yenidən qurulması nəticəsində AVRO-5 yanacağına keçid zamanı SOCAR-ın balansında olan avtomobil nəqliyyatından atmosferə atılacaq emissiyaların miqdarında baş verəcək azalma hesablanmışdır.




**Diaqram 4.** SOCAR-da AVRO-5 standartına cavab verən yanacağın istifadəsi zamanı ozon prekursorların azaldılması (min tonla)

Göründüyü kimi AVRO-3-dən AVRO-5-ə keçid zamanı SOCAR balansında olan nəqliyyat vasitələrindən atmosferə atılan CO qazının miqdarını 48.9 %, $NO_x$ qazının miqdarını isə 63.4 % azaldacaqdır.

Dayanıqlı nəqliyyat komponenti üzrə SOCAR-ın balansında olan sərnişin nəqliyyatı vasitələrində, yük maşınlarında, xüsusi təyinatlı nəqliyyat vasitələrində yanacaqdan istifadənin səmərəliliyinin artırılması üzrə işlər davam etdirilir.

**Nəticə**

1. AVRO-5 yanacağına keçid zamanı ölkənin avtonəqliyyatından atmosferə atılacaq

3. SOCAR-ın balansında olan nəqliyyat vasitələrindən atmosferə atılan İEYQ-nin illər üzrə miqdarı hesablanmış, atılma dinamikası təhlil edilmiş və həyata keçirilən tədbirlər nəticəsində baş verən azalmalar qiymətləndirilmişdir.

4. SOCAR-ın nəqliyyat sektorunda strukturun təkmilləşdirilməsi nəticəsində atmosferə atılan İEYQ-nin miqdarında azalma hesablanmışdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017-ci ilin statistik məcmuəsi, Azərbaycanda Nəqliyyat.
2. Rikardo-AEA, TEPR, TNO və CE Delft (2012) "SULTAN alətinin daha da təkmilləşdirilməsi və 2050-ci ilə Aİ-nin Nəqliyyat Sektorunda istixana qazlarının azaldılması trayektoriyaları üzrə senarilər", Fəaliyyət 6 sənədi, "Aİ-nin Nəqliyyat Sektorunda İstixana Qazları: 2050-ci ilə Yollar II layihə çərçivəsində hazırlanmışdır. (Ricardo-AEA, TEPR, TNO and CE Delft (2012) "Further development of the SULTAN tool and scenarios for EU transport sector GHG reduction pathways to 2050", Task 6 paper produced as part of the "EU Transport GHG: Routes to 2050 II)
3. https://www.nasa.gov/press-release/new-nasa-satellite-maps-show-human-fingerprint-on-global-air-quality (2014-cü ilin göstəriciləri)
4. https://en.wikipedia.org/wiki/European_emission_standards
5. Голдовская Л.Ф. Воздействие оксидов азота на организм человека и растения, http://www.km.ru/referats
6. 2006 IPCC Guidelines for National Greenhouse Gas Inventories, Volume 2 Energy and Volume 1 General Guidance and Reporting
7. 2016: SOCAR-ın Davamlı inkişaf haqqında hesabatı, http://socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2016.pdf

***Açar sözlər:*** *Paris sazişi, qlobal istiləşmə, avtomobil nəqliyyatı, istilik effekti yaradan qazlar, AVRO-3, AVRO-5*

**Azer Aliev**
*Head of SOCAR Environmental Department*
**Rena Humbatova**
*Senior Engineer, SOCAR Environmental Department*

## THE ROLE OF SOCAR IN REDUCING GREENHOUSE GAS EMISSIONS FROM THE TRANSPORT SECTOR IN AZERBAIJAN

### SUMMARY

Contemporary environmental pollution is one of the global issues of global concern. It has already been proven that the existence of greenhouse gases (GHG) in the atmosphere creates a greenhouse effect and it prevents the return of heat coming from the Sun to the Earth. As a result, there is a gradual warming of the climate which is called climate change or global warming in nature. Relative to other industrial sites road transport has a large share in the air pollution.

SOCAR carries out the inventory of the GHG emissions which is thrown from vehicles into the atmosphere on its balance sheet.

The article presents the calculations of the amount of GHG emissions released into the atmosphere from vehicles as a result of combustion of fuels that meets the requirements of EURO-3 and EURO-5 standards which are on the balance of SOCAR across country. Moreover, annual analysis of the dynamics of emissions has been indicated and the declines resulting from the taken measures have also been assessed.

***Key words:*** *Paris Agreement, Global Warming, Road Transport, Greenhouse Gases, EURO-3, EURO-5*

**Азер Алиев**
*Начальник Экологического департамента ГНКАР*

**Рена Гумбатова**
*Старший инженер Экологического департамента ГНКАР*

## РОЛЬ SOCAR В УМЕНЬШЕНИИ ВЫБРОСОВ ПАРНИКОВЫХ ГАЗОВ ОТ ТРАНСПОРТНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В современный период проблема защиты окружающей среды от загрязнения в глобальном масштабе, является одной из задач мирового сообщества. Уже доказано, что существование парниковых газов (ПГ) в атмосфере создает парниковый эффект, и это препятствует возвращению тепла поступающего от солнца. В итоге происходит постепенное потепление климата, которое в природе называется изменением климата или глобальным потеплением.

В загрязнении атмосферы автомобильный транспорт играет большую роль, по сравнению с другими промышленными участками. SOCAR проводит работы по инвентаризации выбросов ПГ от транспортных средств находящихся на своем балансе.

В представленной статье проведены расчеты количества выбросов ПГ в атмосферу от транспортных средств по стране и SOCAR-у от сжигания топлива, отвечающего стандартам ЕВРО-3 и ЕВРО-5, анализ динамики выбросов по годам и оценка их уменьшения в результате проведенных мероприятий.

***Ключевые слова:*** *Парижское соглашение, глобальное потепление, автомобильный транспорт, парниковые газы, ЕВРО-3, ЕВРО-5*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q H Ü Q U Q ; İ N S A N H Ü Q U Q L A R I
I N T E R N A T I O N A L L A W ; H U M A N R I G H T S

**FƏRİD MƏDƏTLİ**
**Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı**
*e-mail: fmadatli@gmail.com*

# ÜTT ÇƏRÇİVƏSİNDƏ MÜBAHİSƏLƏRİN HƏLLİ ÜZRƏ QƏRARLARIN VƏ TÖVSİYƏLƏRİN YERİNƏ YETİRİLMƏSİ ÜZƏRİNDƏ NƏZARƏTİN XÜSUSİYYƏTLƏRİ

Öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının iqtisadi inkişafının strateji istiqamətlərindən birini dünya siyasi, iqtisadi və hüquqi məkanına inteqrasiya olunması təşkil edir. Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatı (*bundan sonra ÜTT – kursiv müəllifindir*) ilə əməkdaşlığı və daha sonra bu təşkilata qoşulma ehtimalı (üzv olması) bizim ölkə üçün qlobal və regional beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya olunması prosesinə tutarlı impuls verə bilər. Bu isə, öz növbəsində, Azərbaycan Respublikasının bütövlükdə xarici iqtisadi və ticarət dövriyyəsi strukturunun tədricən genişləndirilməsi, dərinləşdirilməsi və yaxşılaşdırılması üçün əsaslar və stimullar yaradır.

1994-ci ilə kimi Tariflər və Ticarət üzrə Baş Saziş (TTBS) adlanan ÜTT "hələ tam azad olmayan dünya ticarətinin liberallaşdırılması və ticarət tərəfdaşları üçün bərabər imkanların təmin edilməsi" məqsədinə nail olmaq üçün yaradılmışdır [6, s. 671]. Bununla yanaşı, ÜTT bu təşkilata üzv olan dövlətlərin iqtisadi artımına kömək edilməsi və bu ölkələrin vətəndaşlarının rifahının yüksəldilməsi və həmçinin bu ölkələr arasında ticarət sazişi üzrə danışıqlarda tənzimləyicisi qismində çıxış edir.

Təbii ki, belə məqsədlərə nail olmaq üçün bizim ölkənin ÜTT kimi nüfuzlu beynəlxalq iqtisadi təşkilata daxil olması, müəyyən dərəcədə, kömək edə bilər.

Onu da nəzərə almaq lazımdır ki, ÜTT qloballaşma şəraitində beynəlxalq ticarətin dinamik inkişafında və iqtisadi artımında əsas mexanizmə çevrildi. Yaxşı bəlli olduğu kimi ÜTT 1 yanvar 1995-ci ildən fəaliyyət göstərir və o 1947-ci ildə yaradılmış Tariflər və Ticarət üzrə Baş Sazişi əvəz etmişdir [9]. Hal-hazırda ÜTT bütün dünya ticarətinin 97%-nə nəzarət edir. Bundan əlavə ÜTT beynəlxalq ticarətin hüquqi şərtlərinin, prinsip və normalarının tərtib edilməsinin yeganə real dünya mərkəzi qismində çıxış edir, daimi əsasda üzv-dövlətlərin ticarət siyasətinin monitorinqini həyata keçirir və həm yeni ticarət münasibətlərinin qurulmasına və artıq mövcüd olan ticarət münasibətlərinin dəqiqləşdirilməsinə, və həm də mübahisələrin və fikir ayrılıqlarının tənzimlənməsinə yönəlmiş ikitərəfli və çoxtərəfli danışıqların aparılmasını yeridir [7, s. 518]. Bu yuxarıda qeyd edilən halları nəzərə alaraq, Azərbaycan Respublikası bu hökumətlərarası təşkilat ilə əməkdaşlıq etməkdə çox maraqlıdır. Məhşur Böyük Britaniya hüquqşünası K. Şmitqoffun qeyd etdiyi kimi ÜTT-yə (QATT) xas olan vacib keyfiyyət ondan ibarətdir ki, bu beynəlxalq təşkilat mümkün beynəlxalq ticarət mübahisələrinin tənzimlənməsi üçün platforma qismində çıxış edir [8, s. 374].

Əgər Azərbaycan Respublikasının bu təşkilata üzvlük məsələləri üzrə mütəxəssislər və ekspertlər arasında mübahisəli anlar mövcuddursa və hətta bu məsələyə dair bir-birinə zidd olan fikirlər ifadə olunursa, yəni Azərbaycan Respublikasının ÜTT-yə qoşulması haqqında məsələ Azərbaycan Respublikası tərəfindən belə üzvlükdən üstünlüklərin və preferensiyaların alınmasının faydası və mümkünlüyü müəyyən diskussiyalar yaradırsa, Azərbaycanın bu təşkilata üzvlüyünün faydalı olmasına praktiki olaraq heç bir şübhə doğurmayan ÜTT fəaliyyət sahəsi kimi ÜTT çərçivəsində yaradılmış ticarət mübahisələrin həlli mexanizmidir. Bu onunla bağlıdır ki, ÜTT çərçivəsində ticarət mübahisələrinin həlli mexanizmi çox səmərəli və effektivdir və dövlətlər tərəfindən kifayət qədər fəal şəkildə istifadə olunur [3, s. 101-102]. Havyer Kərim qeyd etdiyi kimi, 2016-cı il ÜTT yarandığı andan ÜTT çərçivəsində mübahisələrin tənzimlənməsi sistemi üçün ən yüklu il olmuşdur. Belə ki, il ərzində, münsiflət qruplarında, Apellyasiya orqanında və arbitraj proseslərində 41 işə baxılırdı, müqayisə üçün 2015-ci ildə belə işlərin sayı 26 idi. ÜTT təkcə münsiflər qrupları səvyyəsində, orta hesabla, hər ay təxminən 19 belə işə baxırdı. [10] Bu tendensiya dayanaqlı inkişaf trendinə malikdir. Belə ki, bizim hesablaşmalarımıza əsasən 2017-ci ildə ÜTT çərçivəsində 17 yeni işə baxılmağa başlanmış, 2018-ci ilin tam olmayan 7 ayında isə bu rəqəm 21-ə çatmışdır.

Bütövlükdə isə 1995-ci ildən başlayaraq 2018-ci ilin iyul ayına kimi (yəni ÜTT-in fəaliyyət göstərdiyi 23 il ərzində) ÜTT çərçivəsində 556 mübahisənin araşdırılmasına başlanmışdır. Bu günə sonuncu belə araşdırma 9 iyul 2018-ci ildə baş vermişdir (United States – *«Certain Measures on Steel and Aluminium Products»*) və bu işlər üzrə 350-dən çox qətnamə qəbul edilmişdir.

Lakin qərarların və tövsiyələrin qəbul edilməsi onların yerinə yetirilməsi üzərində müvafiq səmərəli nəzarət mərhələsi ilə tamamlanmalıdır, əks halda qəbul edilmiş qərarların və tövsiyələrin yerinə yetirilməməsi və kağız üzərində qalması təhlükəsi ilə rastlaşmaq olar. Bu səbəbdən ÜTT-nin Mübahisələrin həlli üzrə Orqanı (MHO) tərəfindən qəbul edilmiş qərarların və tövsiyələrin yerinə yetirilməsi üzrə nəzarət mərhələsi çox vacib, mahiyyətcə, ÜTT çərçivəsində mübahisələrin tənzimlənməsi üzrə bütöv hüquqi mexanizmin həlledici mərhələsi kimi çıxış edir.

Bu səbəbdən ÜTT-də mübahisələrin tənzimlənməsi çərçivəsində qəbul edilmiş qərarların və tövsiyələrin yerinə yetirilməsi üzərində nəzarətin hüquqi aspektlərinin və xüsusiyyətlərinin tədqiqi, çox güman ki, Azərbaycan Respublikasının ÜTT-yə üzv olması ehtimalı nöqteyi-nəzərindən Azərbaycan hüquq elmində xüsusi maraq doğurur.

ÜTT-də mübahisələrin tənzimlənməsi çərçivəsində qəbul edilmiş qərarların və ya tövsiyələrin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi MHO-nun səlahiyyətinə daxildir. MHO-nun səlahiyyətlərini ticarət mübahisələrinin tənzimlənməsi ilə birbaşa bağlı məsələlərə baxılması məqsədilə çağırılan ÜTT-nin Baş Şurası həyata keçirir. Bir qayda olaraq bu orqan ayda bir dəfə iclas keçirir. Bu orqan mübahisəli məsələlər üzrə verilmiş qərarların və irəli sürülmüş tövsiyələrin tətbiqi və icra edilməsi üzərində nəzarəti həyata keçirir və həmçinin ÜTT-nin təsis edilməsi haqqında Sazişə müvafiq olaraq imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə verir.

Çıxardılmış qərarların və irəli sürülmüş tövsiyələrin yerinə yetirilməsi haqqında məsələ, onların qəbul edilməsindən sonra MHO-nun iclasında ÜTT-nin hər bir üzvü tərəfindən və istənilən zaman qaldırıla bilər. Əgər MHO bu məsələni başqa cür həll etməzsə, verilmiş qərarların və irəli sürülmüş tövsiyələrin yerinə yetirilməsi haqqında məsələ ağlabatan müddətin müəyyən edilməsi anından altı ay keçdikdən sonra MHO iclasının gündəliyinə daxil edilir və bu məsələnin həll edilməsinə qədər MHO-nun gündəliyində qalır. Ən azı belə iclasın keçirilməsinə on gün qalmış maraqlı tərəf verilmiş qərarların və irəli sürülmüş tövsiyələrin yerinə yetirilməsinin gedişatı haqqın-

da MHO-ya yazılı surətdə rəsmi sənəd təqdim edir. Belə səlahiyyətli orqana məruzələrin təqdim edilməsi beynəlxalq praktikada tətbiq edilən ən vacib nəzarət metodlarından biri hesab edilir. R.M.Valeyev ədalətli olaraq qeyd edir ki, belə nəzarət metodu o deməkdir ki: "Beynəlxalq münasibətlərin üzv-dövlətləri, sazişlərə müvafiq olaraq təsis edilmiş nəzarət orqanlarına, beynəlxalq-hüquq öhdəliklərinin yerinə yetirilməsi üzrə aparılmış və aparılan dövlətdaxili (qanunverici, icra, məhkəmə) tədbirlər haqqında rəsmi yazılı məlumat təqdim edirlər" [2, s. 114]. MHO qrupların və Apellyasiya orqanının təsdiq edilmiş hesabatlarında öz əksini tapmış göstərişlərin icra olunması üzərində nəzarəti birbaşa həyata keçirir. Təbii ki, bu prosesdə qəbul olunmuş MHO qərarlarının və tövsiyələrinin yerinə yetirilməsi haqqında məsələ çox vacib bir məsələdir. ÜTT çərçivəsində mübahisələrin tənzimlənməsinə yönəlmiş əsas hüquqi vasitə olan "Mübahisələrin həlli qaydaları və prosedurları haqqında Razılaşma" (MHQPR) [15] nəzərdə tutur ki, münsiflər qrupunun və ya Apellyasiya orqanının məruzəsinin qəbul edilməsi tarixindən 30 gün ərzində keçirilməli olan MHO-nun iclasında, təşkilatın maraqlı olan tərəfi MHO-nu onun qərarlarının və ya tövsiyələrinin yerinə yetirilməsinə dair öz niyyətləri haqqında məlumatlandırmalıdır. Əgər müxtəlif səbəblərdən MHO-nun qərarlarının və tövsiyələrinin dərhal nəzərə alınması praktiki olaraq mümkün deyilsə, bu halda bunun edilməsi üçün ÜTT-yə üzv olan belə dövlətə müəyyən bir müddət verilməlidir. MHQPR belə müddət "ağlabatan müddət" adlandırılır (bax MHQPR 21.3 maddəsinə). Buna görə "ağlabatan müddət" ifadəsinin dəqiq müəyyən edilməsi vacib hüquqi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, MHQPR "ağlabatan müddət" anlayışının dəqiq definisiyasını əks etdirməməsinə baxmayaraq onun hesablanmasının əsas xüsusiyyətlərini və mexanizmini müəyyən edir. Bu müddətin MHO tərəfindən bəyənildiyi şərti ilə, bunda maraqlı olan ÜTT-yə üzv-dövlət tərəfindən təklif edilən müddət "ağlabatan müddət" hesab olunur. MHO tərəfindən bu müddət bəyənilmədiyi halda "ağlabatan müddət" qərarların və tövsiyələrin qəbul edildiyi tarixdən 45 gün ərzində mübahisə tərəflərinin qarşılıqlı razılaşdırılmış müddəti hesab edilir. Lakin əgər mübahisənin tərəfləri qarşılıqlı razılaşdırılmış müddətə dair razılığa gələ bilmirlərsə, bu halda "ağlabatan müddət" anlayışı altında qərarların və tövsiyələrin MHO tərəfindən qəbul etdiyi tarixdən 90 gün ərzində arbitraj vasitə ilə tərəflərin hər ikisi üçün məcburi olan müəyyən edilmiş müddət başa düşülür. Onu da nəzərə almaq lazımdır ki, əgər tərəflər işin arbitraj baxışına verilməsindən sonra 10 gün ərzində arbitr haqqında razılığa gələ bilmirlərsə, məsələnin həlli MHO-nun səlahiyyətinə keçir və bu halda arbitr Baş direktor tərəfindən mübahisənin tərəfləri ilə 10 gün ərzində məsləhətləşmələr aparıldıqdan sonra təyin edilir. Bununla yanaşı nəzərdə tutulur ki, belə növ arbitrajda arbitr münsiflər qrupunun və ya Apellyasiya orqanının qərarlarının və tövsiyələrinin yerinə yetirilməsi üçün "ağlabatan müddət" münsiflər qrupunun və ya Apellyasiya orqanının müvafiq məruzəsinin qəbul edilməsi tarixindən 15 ayı keçməmək prinsipini rəhbər tutmalıdır. Lakin bu müddət mütləq yox, kəsici xarakter daşıyır. Bu müddət, konkret hallardan asılı olaraq, ya daha uzun, yada daha qısa ola bilər.

Bu müddəadan göründüyü kimi MHQPR MHO-nun qərarlarının yerinə yetirilməsi üçün "ağlabatan müddət" kimi başa düşülən dəqiq müəyyən edilmiş müddətni göstərmir. Buna görə praktikada MHO-nun qərarlarının yerinə yetirilməsi üçün "ağlabatan müddət" kimi başa düşülən müddətin uzunluğunun müəyyən edilməsi ilə bağlı problemlər yaşanırdı. Halhazırda ÜTT-də MHO qərarlarının icrası üçün ümumilikdə qəbul olunmuş "ağlabatan müddət" tərifi *European Communities - Measures Concerning Meat and Meat Products* (iddiaçı qismində - ABŞ, cavabdeh qismində - Avropa Birlikləri, üçüncü tərəf qismində isə – Avstraliya, Kanada və Yeni Zenlandiya çıxış edirdi) işi üzrə arbitrajda verilmişdir. Avropa Birlikləri və ABŞ 25 sentyabr 2009-cu ildə artıma kömək edən müəyyən hormonlarla bəstə-

lənməmiş malqaradan mal ətinin idxalına və bu mübahisə ilə bağlı ABŞ və Avropa Birlikləri arasında 13 may 2009-cu ildə razılaşdırılmış Avropa Birliklərinin müəyyən məhsullarına ABŞ-da tətbiq edilən öhdəliklərin həcminin genişləndirilməsinə dair qarşılıqlı anlaşma üzrə Memorandum haqqında MHO-nu məlumatlandırmışlar. Bu Memoranduma 21 oktyabr 2013-ci ildə yenidən baxılmışdır və bu haqda MHO 14 aprel 2014-cü ildə məlumatlandırılmışdır.

Bu işdə "ağlabatan müddət" tərifinə dair belə bir nəticəyə gəlinmişdir ki, MHQPR 21.3 (1) maddəsinə müvafiq olaraq müəyyən edilmiş "ağlabatan müddət" MHO qərarlarının və tövsiyələrinin yerinə yetirilməsi üçün üzv-dövlətin hüquq sistemi çərçivəsində mümkün olan ən qısa müddət olmalıdır. Adi halda o 15 aydan çox ola bilməz, lakin bu müddətdən daha qısa ola bilər [14]. MHQPR müvafiq müddəalarına uyğun olaraq münsiflər qrupu və ya Apellyasiya orqanı öz məruzələrinin təqdim etmə müddətini uzatdığı hallar istisna olmaqla, MHO tərəfindən münsiflər qrupunun təsis edilməsi tarixindən "ağlabatan müddət" tarixinə qədər müddət 15 aydan çox olmamalıdır. Lakin bu müddət imperativ xarakter daşımır. Mübahisə tərəfləri digər müddət haqqında da razılığa gələ bilərlər.

Münsiflər qrupu və ya Apellyasiya orqanı öz məruzələrinin təqdim edilməsi müddətinin uzadılması haqqında məsələ qaldırdığı hallarda, bu 15 aylıq müddətnin üstünə əlavə müddət hesablanır. Bu halda isə, əgər mübahisə tərəfləri işdə müstəsna halların olması haqqında ümumi razılığa gəlməsələr, ümumi müddət 18 aydan çox ola bilməz [15].

Heç bir şübhə doğurmur ki, işi udmuş dövlət üçün vacibdir ki, qərarın icrası prosesi uzanmasın. MHQPR müvafiq olaraq işi uduzmuş cavabdeh dövlət qərarın yerinə yetirilməsi üçün müəyyən müddət təklif edə bilər. Lakin belə bir təklif MHO tərəfindən bəyənilməlidir. Nəzərə alsaq ki, MHO-da qərarlar konsensus yolu ilə qəbul edilir, işi udmuş dövlət belə təkliflə razılaşmaya da bilər. Bu halda iddiaçı dövlət əleyhinə səs verərək belə bir qərarın qəbul olunmasının qarşısını alır, hətta digər dövlətlər bu qərarın lehinə səs versələr belə.

ÜTT-də mübahisələrin həlli praktikası göstərir ki, qərarların icrası üçün mübahisəni uduzmuş tərəfin təklif etdiyi müddətlərin MHO tərəfindən qəbul edilməsi nadir hallarda baş verir. Məsələn, *Section 110(5) of the US Copyright Act (DS 160)* işində (iddiaçı qismində Avropa Birlikəri çıxış etmiş, cavabdeh qismində ABŞ çıxış etmiş, üçüncü tərəf qismində isə Avstraliya, Braziliya, Kanada, Yaponiya və İşveçrə çıxış etmişlər) ABŞ bu işlə bağlı MHO-ya sonuncunun qərarlarının və tövsiyələrinin yerinə yetirilməsi haqqında öz niyyətini bildirmişdir. Lakin ABŞ tərəfindən təklif edilən 15 aylıq müddət MHO tərəfindən təsdiq edilməmişdir. ABŞ nümayəndə heyəti özünün MHO sədrinə unvanlamış 9 iyul 2018-ci il tarixli məlumatında qeyd edir ki, ABŞ administrasiyası bu məsələnin qarşılıqlı razılaşdırılmış həllini əldə etmək məqsədilə ABŞ Konqresi ilə sıx əməkdaşlığını və Avropa İttifaqı ilə əməkdaşlığını davam etdirəcəkdir [16].

MHO çərçivəsində müddətə dair bütün tərəfləri qane edən qərar qəbul edilmədiyi halda MHO tərəfindən qərarların və tövsiyələrin qəbul edildiyi tarixdən 45 gün ərzində mübahisə tərəflərinin qarşılıqlı razılaşdırılmış müddəti qərarların qəbul edilməsi üçün "ağla-batan müddət" sayılır. Tərəflər arasında qarşılıqlı razılaşdırılmış belə müddət nümunəsi kimi *"Egypt — Definitive Anti-Dumping Measures on Steel Rebar from Turkey"* (iddiaçı Türkiyə, cavabdeh isə Misir) mübahisəsi üzrə Misir və Türkiyə arasında sazişi göstərmək olar. Bu iş üzrə MHO 1 oktyabr 2002-ci ildə münsiflər qrupunun məruzəsini qəbul etmişdir. Bundan sonra 14 noyabr 2002-ci ildə Misir və Türkiyə MHO-nun sədrini məlumatlandırmışlar ki, onlar MHO-nun qərarlarının və tövsiyələrinin yerinə yetirilməsi üçün "ağlabatan müddətnin" doqquz aydan çox olmamasına dair, yəni 1 noyabr 2002-ci ildən 31 iyul 2003-ci ilə kimi, qarşılıqlı sazişə gəlmişlər [11].

Əgər bu məsələyə dair tərəflər arasında razılığa gəlinmirsə, bu halda qərarların icrası üçün ağlabatan müddətnin tərəflər üçün məc-

buri olan arbitraj yolu ilə müəyyən edilməsi mərhələsi başlayır. Praktikada çoxsaylı nümunələrə rast gəlmək olar ki, belə arbitraja həm mübahisəni udmuş iddiaçı-dövlətin, həmçinin cavabdeh-dövlətin tələbinə əsasən əl atılır. Belə arbitrajda arbitr funksiyalarını həm bir şəxs, həmdə bir qrup şəxs həyata keçirə bilər. Bir qayda olaraq arbitr qismində Apellyasiya orqanının üzvləri olan şəxslər təyin edilir. Arbitrajı məhkəmədən fərqləndirən cəhəd ondan ibarətdir ki, arbitri mübahisə tərəfləri özləri təyin edirlər. Lakin, əgər ağlabatan müddətin müəyyən edilməsi üçün arbitrajın tətbiq edilməsi haqqında qərarın qəbul edilməsindən 10 gün ərzində tərəflər arbitrin namizədliyinə dair ümumi razılığa gələ bilmədiyi halda, belə arbitri, hər iki tərəf ilə məsləhətləşmələr apardıqdan sonra, növbəti 10 gün ərzində Baş direktor təyin edir. Praktikada belə imkana əl atılması və Baş direktorun köməyinə müraciət edilməsi hallarına rast gəlmək olar.

MHO tərəfindən qəbul edilmiş qərarların və tövsiyələrin yerinə yetirilməsinə nəzarət mərhələsinin vacib ünsuru kimi mübahisəni uduzmuş dövlət tərəfindən belə qərarların və tövsiyələrin yerinə yetirilmədiyi halda ona qarşı tətbiq edilən tədbirlər çıxış edir.

Qeyd etmək lazımdır ki, kompensasiya və imtiyazların dayandırılması və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlər müvəqqəti xarakterli tədbirlərdir və onlara öz öhdəliklərini pozan dövlət tərəfindən ağlabatan müddət ərzində qərarların və tövsiyələrin yerinə yetirilmədiyi halda müraciət etmək mümkündür. Belə müvəqqəti tədbirlərin əsas vəzifəsi ondan ibarətdir ki, onların tətbiq edilməsi nəticəsində öz öhdəliklərini pozan dövlət tərəfindən yol verilmiş pozuntular aradan qaldırılsın.

Lakin MHO tərəfindən qəbul edilmiş qərarların və tövsiyələrin tam həcmdə yerinə yetirilməsinə dair tədbirin ÜTT-nin müvafiq sazişləri ilə uyğunlaşdırılması, kompensasiya və ya imtiyazların dayandırılması və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlərdən daha üstündür (MHQPR 22 (1) maddəsi).

Lakin kompensasiyanın və imtiyazların ya digər öhdəliklərin dayandırılmasının tətbiq edilməsi halı öz xüsusiyyətlərinə malikdir. Belə ki, kompensasiya könüllü xarakter daşıyır və o, öz öhdəliklərini pozan dövlət tərəfindən verildikdə, ÜTT-nin müvafiq sazişinə uyğun olmalıdır.

Əgər ona aid olan üzv dövlət ÜTT-nin müvafiq sazişinə uyğun olmayan bir addım atmışsa və belə bir əməlini ÜTT-nin müvafiq sazişinə uyğunlaşdıran tədbirə əl atmırsa və ya MHQPR 21 (3) maddəsinin müəyyən etdiyi kimi digər üsulla ağlabatan müddət ərzində MHO qərarlarını və tövsiyələrini yerinə yetirmirsə, o, əgər ondan bunu xahiş etsələr, ağlabatan müddətin bitməsindən gec olmayaraq maraqlı olan bütün tərəfləri qane edən kompensasiyanın müəyyən edilməsi üçün mübahisələrin tənzimlənməsi prosedurlarına əl atmış tərəflərin hər birisi ilə danışıqlara başlamalıdır. Kompensasiya müxtəlif formalarda ola bilər. Məsələn, bu cavabdeh dövlət tərəfindən öz üzərinə əmtəənin müəyyən növlərinə gömrük tarifinin azaldılması üzrə öhdəliklərin götürülməsi ola bilər. Kompensasiya MHQPR nəzərdə tutduğu mənada cavabdeh dövlət tərəfindən iddiaçı dövlətə vurulmuş mənfi nəticələrin aradan qaldırılmasına yönəlmiş bir tədbirdir. Bu səbəbdən o vurulmuş ziyanın əvəzlənməsini nəzərdə tutan "kompensasiya" definisiyasından fərqlənir. MHQPR nəzərdə tutulan kompensasiya ÜTT qaydalarına və standartlarına əməl edilməsinə nail olmaqdan ibarət olan ÜTT əsas məqsədinə xidmət edir.

Əgər bir sıra səbəblərə görə (məsələn, cavabdeh dövlət könüllü olaraq kompensasiya verməsinə razılıq vermirsə və ya iddiaçı dövləti cavabdeh dövlət tərəfindən təklif olunan tədbirlər və ya onların həcmi qane etmirsə) belə kompensasiya ağlabatan müddət bitdiyi tarixdən sonra 20 gün ərzində razılaşdırılmayıbsa, ÜTT çərçivəsində mübahisələrin həlli prosedurlarına müraciət etmiş hər bir tərəf MHO-dan xahiş edə bilər ki, o ÜTT-nin pozulmuş sazişi üzrə müvafiq üzv-dövlətə aid imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə versin.

İmtiyazların və ya digər öhdəliklərin dayandırılması tədbiri, kompensasiyalar ilə

yanaşı, ÜTT çərçivəsində mübahisələrin tənzimlənməsi prosesində qəbul edilmiş tövsiyələrin və qərarların yerinə yetirilməsi üzərində nəzarət mərhələsinin digər vacib bir ünsürudur. Belə tədbir bu növ tövsiyələrin və qərarların icra edilmədiyi halında cavabdeh dövlətə qarşı tətbiq edilir. Bununla yanaşı, imtiyazların və ya digər öhdəliklərin dayandırılması prosesi MHO-nun ciddi nəzarəti altında aparılır.

Onu da qeyd etmək lazımdır ki, ÜTT-də imtiyazların və ya digər öhdəliklərin dayandırılması MHQPR tərəfindən dəqiq müəyyən edilmiş qaydalar və prinsiplər əsasında həyata keçirilir. Belə ki, imtiyazların və ya digər öhdəliklərin dayandırılması haqqında məsələni araşdırarkən şikayət vermiş tərəf bir sıra aşağıda qeyd edilən prinsipləri və prosedurları istifadə etməyə məcburdur. İlk növbədə belə bir ümumi prinsip mövcüddur ki, şikayət vermiş tərəf əvvəlcə ÜTT-nin münsiflər qrupu və ya Apellyasiya orqanı tərəfindən pozuntunun və ya digər imtiyazların ləğv edilməsi və ya azadılması müəyyən edildiyi sektorda (bu bir neçə sektor da ola bilər) imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına çalışmalıdır.

Əgər şikayət vermiş tərəf hesab edirsə ki, həmin sektorda imtiyazların və ya digər öhdəliklərin dayandırılması mümkün deyilsə, o ÜTT-nin eyni sazişinin təsir çərçivəsində digər sektorlarda imtiyazların və ya öhdəliklərin dayandırılmasına çalışa bilər. Bununla yanaşı, şikayət vermiş tərəf hesab etsə ki, ÜTT eyni sazişinin təsiri çərçivəsində digər sektorlarda imtiyazların və ya digər öhdəliklərin dayandırılması mümkünsüzdür və ya səmərəli deyil, yaranmış vəziyyət isə kifayət qədər ciddidir, bu halda o ÜTT-nin digər sazişinin təsiri çərçivəsində imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına can ata bilər. Nəzərə almaq lazımdır ki, əgər şikayət vermiş tərəf digər tərəfə aid imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə istəyirsə o bunun səbəblərini göstərməlidir. Bütün hallarda MHO tərəfindən icazə verilmiş imtiyazların və ya digər öhdəliklərin dayandırılması səviyyəsi imtiyazların ləğv edilməsi və ya azaldılması səviyyəsinə uyğun olmalıdır. Təbiidir ki, əgər ÜTT-nin müvafiq sazişi imtiyazların və ya digər öhdəliklərin dayandırılmasını qadağan edirsə, MHO belə dayandırmalara icazə verə bilməz.

MHO tərəfindən imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazənin verilməsinə aid onu da vurğulamaq lazımdır ki, iddiaçı dövlətin xahişinin təmin edilməsi "neqativ konsensus" *(negative consensus)* prinsipinə əsaslanır [5, s. 58], (Hans Qutun sözlərinə görə "geriyə konsensus" *(inverted consensus)* [1, s. 140]), bu isə keçmişdə qərarların qəbuluna yol verməyən "veto"nu qarşısının alınmasına imkan verir. Belə ki, əgər MHO konsensus yolu ilə iddiaçı dövlətin xahişini rədd etmirsə, o iddiaçı dövlətin belə bir sorğusuna əsasən ağlabatan müddət bitdiyi tarixdən 30 gün ərzində imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə vermiş olur. Beləliklə demək olar ki, imtiyazların və ya digər öhdəliklərin dayandırılması avtomatik olaraq baş verir. Bu hala aid İ.İ. Dyumulen qeyd edir ki, iddiacı dövlət bu halda "imtiyazların qüvvədə olmasını avtomatik dayandıra bilər" [4, s. 56]. Lakin, əgər onun maraqlarına toxunan dövlət ona aid belə təklif edilən dayandırmanın səviyyəsinə qarşı etiraz edirsə və ya təsdiqləyirsə ki, iddiaçı dövlət tərəfindən imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə istənilən vaxtda ÜTT çərçivəsində imtiyazların və ya digər öhdəliklərin dayandırılması üzrə prinsiplərə və prosedurlara əməl edilməyib, bu halda iş arbitraja verilir. Belə arbitraj, ilkin olaraq, önun üzvləri yerində olduqda münsiflər qrupu və ya Baş direktor tərəfindən təyin edilən arbitr tərəfindən aparılır və ağlabatan müddət bitdiyi tarixdən 60 gün ərzində yekunlaşır. Bununla yanaşı qeyd etmək lazımdır ki, arbitraj baxışı dövründə imtiyazlar və ya digər öhdəliklər dayandırılmamalıdır. Arbitr ( bu anlayış altında arbitr kimi çıxış edən ya müəyyən bir şəxs, ya da bir qrup şəxs və ya ilkin münsiflər qrupunun üzvləri başa düşülür) dayandırılan imtiyazların və ya digər öhdəliklərin xarakterinə baxmasına səlahiyyətli deyil. O yalnız bir məsələni

müəyyən edir, belə dayandırmanın səviyyəsi imtiyazların və ya digər öhdəliklərin ləğv edilməsi və ya azaldılması səviyyəsinə uyğun gəlir, yoxsa yox. Arbitr həmçinin müvafiq ÜTT sazişi ilə ehtimal edilən imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə verilib-verilməməsi məsələsini də müəyyən edə bilər. Bununla yanaşı arbitr, əgər arbitraja verilən işə müvafiq prinsiplərə və prosedurlara əməl edilməməsi haqqında şikayət daxildirsə, belə şikayəti araşdırır. Əgər arbitr müəyyən etsə ki, bu prinsiplərə və prosedurlara əməl edilməyib, bu halda şikayət vermiş tərəf onları MHQPR-nin müvafiq müddəalarına uyğun olaraq tətbiq edir. Belə arbitrajın tərəfləri arbitrin qərarını iş üzrə yekun qərar kimi qəbul edirlər. Buna görə onlar təkrar arbitraja əl atmamalıdırlar. MHO təxirəsalınmadan iş üzrə arbitrin qərarı haqqında məlumatlandırılır və əgər MHO konsensus əsasında belə xahişin rədd edilməsinə qərar verməzsə (yəni bu halda da "neqativ konsensus" prinsipi qüvvədədir), xahişin arbitrin qərarına uyğun olduğu halda müvafiq sorğu üzrə imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına icazə verir. İmtiyazların və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlər müvəqqəti xarakter daşıyır və cavabdeh dövlət tərəfindən ÜTT-nin müvafiq sazışınə uyğun olmayan kimi baxılan tədbirin ləğv edilməsinə qədər tətbiq edilir. Bununla yanaşı, cavabdeh dövlət tərəfindən imtiyazların ləğv edilməsinə və ya azaldılmasına dair təklif etməməsi halı da mümkündür. Həmçinin hər iki tərəfi təmin edən digər qərarın əldə edilməsi halı da mümkündür. Son iki halda demək olar ki, belə qərarın əldə edilməsi qarşılıqlı xarakter daşıyır və hər iki tərəfin iradəsindən asılıdır. Faktiki olaraq MHQPR-nin bu norması dispozitiv xarakter daşıyır və cavabdeh dövlətə bir neçə davranış variantlarından birisini seçmək imkanı verir. Hər bir halda belə davranış variantlarından hər birini imtiyazların və ya digər öhdəliklərin dayandırılması haqqında qərarın yerinə yetirilməsinə yönəlməlidir. Bunu da nəzərə almaq lazımdır ki, MHO, imtiyazların və ya digər öhdəliklərin dayandırıldığı, lakin belə tədbirin ÜTT-nin müvafiq sazişinin müddəaları ilə bir araya gətirilməsi tövsiyəsinin yerinə yetirilmədiyi hallar daxil olmaqla, qəbul edilmiş qərarların və tövsiyələrin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsini davam edir. Lakin qeyd etmək zəruridir ki, təcrübədə heç də bütün hallarda iddiaçı dövlətlər imtiyazların və ya digər öhdəliklərin dayandırılmasına müraciət etmək imkanından istifadə etmirlər. Məsələn, *Mexico - High Fructose Corn Syrup* [12] işində və *European Communities - Regime for the Importation, Sale and Distribution of Bananas* [17] işində Qvatemala, Honduras və Meksika kimi ölkələr mübahisənin onların xeyrinə həll edilməsindən sonra heç bir hərəkat etməmişlər və imtiyazların dayandırılmasına icazə verilməsi haqqında MHO-ya sorğu ilə müraciət etməmişlər.

Təcrübədə iddiaçı dövlətlərin MHO tərəfindən imtiyazların dayandırılmasına razılıq aldırları, lakin bir sıra müxtəlif səbələrdən bu imkandan istifadə etmədikləri hallara da rast gəlmək olar. Belə ki, iddiaçı dövlət belə bir nəticəyə gələ bilər ki, belə növ tədbirlərin tətbiqi onların iqtisadiyyatına daha mənfi nəticələr göstərə bilər, nəinki cavabdeh dövlət tərəfindən görülən təsiretmə tədbiri. Hər bir halda imtiyazların və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlərin tətbiq edilməsi qərarı iddiaçı dövlətlərin səlahiyyətinə aiddir.

Həmçinin onu da nəzərə almaq lazımdır ki, cavabdeh dövlət tərəfindən ÜTT qaydalarının pozulmasına dair MHO qərarlarının icrasına istiqamətlənmiş müvafiq tədbirlər gördüyü hallarında imtiyazların və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlərin ləğv edilməsinin həyata keçirilməsi məsələlərinin tənzimlənməsinə yönəlmiş müddəalar MHQPR özündə əks etdirilmir. Ehtimal etmək olar ki, bu halda cavabdeh dövlətin öhdəliyi icra olunmuş hesab olunur.

Beləliklə belə bir nəticələrə gəlmək olar ki:

1. ÜTT çərçivəsində çoxtərəfli xarakter daşıyan beynəlxalq müqavilənin xüsusiyyəti ondan ibarətdir ki, zərəçəkmiş dövlətin özü zərərvuran dövlətə qarşı tədbirlər görmür və ÜTT çərçivəsində mübahisələrin həlli üzrə

hüquqi mexanizmə müraciət etməlidir. Belə hüquqi mexanizmin səmərəli fəaliyyət göstərməsində MHO xüsusi yer tutur.

2. ÜTT çərçivəsində dövlətlər arasında mübahisələrin həllinə yönəlmiş əsas hüquqi sənəd olan "Mübahisələrin həlli qaydaları və prosedurları haqqında Razılaşma"da öz əksini tapmış "ağlabatan müddət" anlayışı vacib hüquqi mənaya malikdir. Onun hüquqi əhəmiyyəti ondan ibarətdir ki, bu müddət ərzində mübahisəni uduzmuş dövlət MHO qərarını icra etməlidir. Mübahisəni uduzmuş dövlət tərəfindən qərarın icra olunmadığı halında "ağlabatan müddət"in bitdiyi andan tərəflərin kompensasiya haqqında razılıq əldə etməsi imkanını nəzərdə tutan müddətin hesablanması başlanır. Lakin bu müddət də bitdikdən sonra və bu müddət ərzində tərəflər arasında kompensasiyalar məsələsi üzrə razılıq əldə edilmədiyində, işi udmuş tərəf "Mübahisələrin həlli qaydaları və prosedurları haqqında Razılaşma"ın 22(2) maddəsinə uyğun olaraq imtiyazların dayandırılması haqqında məsələ qaldıra bilər.

3. Öz hüquqi təbiətinə görə ÜTT sazişlərindən irəli gələr imtiyazların və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlər, əgər onlar bir üzv-dövlət tərəfindən digər üzv-dövlət tərəfindən edilmiş pozuntuya cavab kimi həyata keçirilmirsə, ÜTT çərçivəsində qəbul olunmuş öhdəliklərin pozulması kimi dəyərləndirilir. Aydındır ki, əgər hər hansı bir dövlət ÜTT normalarını və standartlarını pozursa, o belə hüquqazidd hərəkətə görə məsuliyyət daşıyır.

4. MHO qərarının "neqativ konsensus" prinsipinə əsaslanmasına baxmayaraq MHO-ya müraciət etmə faktının özü ÜTT-nin bu orqanının fəaliyyət göstərməsinin vacibliyini bir daha göstərir. MHO imtiyazların və ya digər öhdəliklərin dayandırılması kimi tədbirlərin tətbiq edilməsi səlahiyyətinə malikdir və bu onun müstəsna hüququdur. ÜTT sistemi MHO tərəfindən qəbul olunan qərara əsasən belə tədbirlərin tətbiqinə icazə verir və bu hal ÜTT-nin fəaliyyətinin ən vacib prinsiplərindən birisini təşkil edir.

**Ədəbiyyat:**


1. Houtte H. The Law of International Trade. 2nd Edition, London, Sweet & Maxwell, 2002, 477 p.
2. Валеев Р.М. Контроль в современном международном праве. Казань, 2003.
3. Вельяминов Г.М. Порядок урегулирования споров во Всемирной торговой организации // Московский журнал международного права. 1999, № 1, с.101-102.
4. Дюмулен И.И. Всемирная торговая организация. М., ЗАО. «Издательство "Экономика», 2003, 271 с.
5. Карро Д., Жюйар П. Международное экономическое право М., Международные отношения, 2002. – 580 с.
6. Международное право / Вольфганг Граф Витцум и др. пер. с нем. М.: Инфотропик Медиа, 2011, 992 с.
7. Международное публичное право. / Под ред. К.А. Бекяшева. М., Проспект, 1999, 608 с.
8. Шмиттгофф К.М. Экспорт: право и практика международной торговли. Пер. с англ. М., Юрид. лит., 1993, 512 с.
9. Agreement establishing the World Trade Organization// http://www.wto.org/english/docs_e/legal_e/legal_e.htm
10. Carim X. WTO Dispute Settlement Body - Developments in 2016 // https://www.wto.org/english/tratop_e/dispu_e/carim318_e.ht
11. DS211: Egypt — Definitive Anti-Dumping Measures on Steel Rebar from Turkey // https://www.wto.org/english/tratop_e/dispu_e/cases_e/ds211_e.htm
12. DS132: Mexico — Anti-Dumping Investigation of High-Fructose Corn Syrup (HFCS) from the United States
13. DS544: United States — Certain Measures on Steel and Aluminium Products // https://www.wto.org/english/tratop_e/dispu_e/cases_e/ds544_e.htm
14. EC Measures Concerning Meat and Meat Products (Hormones). Arbitration under Article 21.3 (1) of the Understanding on Rules and Procedures Coverning the Settlement of Disputes (para 26) //http://trade.ec.europa.eu/doclib/docs/2003/november/tradoc_114631.pdf
15. Understanding on rules and procedures governing the settlement of disputes. Annex 2 of the WTO Agreement //https://www.wto.org/english/tratop_e/dispu_e/dsu_e.htm
16. United States –Section 110 (5) of the US copyright act. Status report by the United States. Addendum. WT/DS160/24/Add.160. file:///C:/Users/User/Downloads/160-24A160.pdf 10 July 2018
17. World Trade Organization. Appellate Body - European Communities - Regime for the Importation, Sale and Distribution of Bananas - AB-1997-3 - WT/DS27/AB/R (25.09.1997)


***Açar sözlər:*** *ÜTT, beynəlxalq hüquq, ticarət mübahisələri, nəzarət, kompensasiya, güzəştlərin dayandırılması*

**Farid Madatli**
*PhD student, Azerbaijan University of Tourism and Management*

## FEATURES OF CONTROL OVER THE EXECUTION OF DECISIONS AND RECOMMENDATIONS ON THE SETTLEMENT OF DISPUTES WITHIN THE FRAMEWORK OF THE WTO

### SUMMARY

The article deals with issues related to the legal aspects and peculiarities of the control exercised by the WTO Dispute Settlement Body (DSB) over the execution of decisions and recommendations on the resolution of trade disputes within the WTO. This type of control is an important stage of the entire dispute settlement mechanism within the WTO.

An integral element of the stage over the monitoring the execution of decisions and recommendations adopted by the DSB, in case of their non-compliance by state that has lost a dispute are measures such as compensation and suspension of concessions and other obligations.

The article also explores the issues related to the definition of a "reasonable period of time" for the implementation of the decisions of the WTO, its basic features and the mechanism of calculating.

***Key words:*** *WTO, International Law, Trade Disputes, Control, Compensation, Suspension of Concessions*

**Фарид Мадатли**
*Докторант Азербайджанского Университета Туризма и Менеджмента*

## ОСОБЕННОСТИ КОНТРОЛЯ ЗА ВЫПОЛНЕНИЕМ РЕШЕНИЙ И РЕКОМЕНДАЦИЙ ПО РАЗРЕШЕНИЮ СПОРОВ В РАМКАХ ВТО

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы, связанные с правовыми аспектами и особенностями осуществления контроля со стороны Органа по разрешению споров (ОРС) ВТО за выполнением решений и рекомендаций по разрешению торговых споров в рамках ВТО. Такой контроль является важной стадией всего механизма урегулирования споров в рамках ВТО. Составным элементом стадии контроля за выполнением рекомендаций и решений, принятых ОРС, в случае их неисполнения государством, проигравшим спор, являются такие меры, как компенсация и приостановление уступок и других обязательств. Также в статье исследованы вопросы, связанные с определением «разумного периода времени» для исполнения решений ОРС ВТО, его основными особенностями и механизмом исчисления.

***Ключевые слова:*** *ВТО, международное право, торговые споры, контроль, компенсация, приостановление уступок*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ilk dərs günü ilə bağlı tədbir keçirilib***

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ilk dərs günü münasibətilə tədbir keçirilib.





Akademiyanın rektoru, akademik Urxan Ələkbərov professor-müəllim heyətini, tələbə və magistrləri yeni tədris ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. O, müstəqil dövlətimizin qurucusu ulu öndər Heydər Əliyevin elm və təhsilin inkişafına daim böyük önəm verdiyini, Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin elm və təhsillə bağlı imzaladığı bir çox sənədlərin əhəmiyyətini diqqətə çatdırıb. Qeyd edib ki, müasir dövrdə ölkənin gücü onun təbii sərvətləri ilə yanaşı, insan potensialı ilə də müəyyən edilir. Rektor 2018-2019-cu tədris ilində Dövlət İdarəçilik Akademiyasına qəbul olanların əksəriyyətinin yüksək bal topladığını diqqətə çatdırıb. O, yüksək nəticələr göstərən gənclərin Dövlət İdarəçilik Akademiyasını seçməsini, bununla yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, mərkəzi icra hakimiyyəti orqanları, müxtəlif nazirliklər, şəhər və rayon icra hakimiyyətlərində və digər dövlət orqanlarında çalışan 75 nəfər rəhbər kadrın Dövlət İdarəçilik Akademiyasında magistr təhsili almasını da olduqca əhəmiyyətli hesab edildiyini söyləyib.

Sonra Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov, inzibati idarəetmə fakültəsinin dekanı, professor Xatirə Hüseynova və digər çıxış edənlər ilk dərs günü münasibətilə təbriklərini çatdırıblar. Onlar ölkəmizin nailiyyətlərinin əldə edilməsində Dövlət İdarəçilik Akademiyasının məzunlarının imzasının daha da çox olacağına inamlarını ifadə ediblər.

Qeyd edək ki, bu il 370 nəfər gənc Dövlət İdarəçilik Akademiyasını seçib.

## *Dövlət İdarəçilik Akademiyasında ilk mühazirə Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Heydər Əliyev Mərkəzinin dəstəyi ilə fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"ndə 2018-2019-cu tədris ilində bakalavriatura pilləsinə qəbul olan I kurs tələbələri ilk mühazirələrini dinləyiblər.

İlk mühazirəni deyən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verərək, qeyd edib ki, məktəb Ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği məqsədilə yaradılıb. O, Ümummilli lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu öndərin siyasi xəttinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əzmlə davam etdirildiyini diqqətə çatdırıb, bu gün əldə edilmiş nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ inkişaf strategiyasının dayandığını bildirib. U.Ələkbərov innovativ inkişaf strategiyasının reallaşdırılmasında ölkənin birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın xüsusi rolunu qeyd edib və bu sahədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusəndə Heydər Əliyev Fondunun önəmli fəaliyyətinə də diqqət çəkib.



O, qeyd edib ki, Ulu öndər Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılmasının məqsədi dövlət idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması,



onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi-tədqiqatların təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi kimi müəyyən edilmiş, Akademiyanın yaradılması dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunması, yeni idarəetmə mədəniyyətinin formalaşması və inkişafı baxımından xüsusi əhəmiyyətə malik olması, dövlət qulluğu üçün kadrların hazırlanması, təkmilləşməsi və ixtisasının artırılması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olduğunu tələbələrin diqqətinə çatdırıb.

Mühazirədə ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inkişafa təsir edən amillər müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırılıb. Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor, çıxışında ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda öz təsdiqini tapdığı qeyd olundu.

Eyni zamanda o, qeyd edib ki, cari ildə beynəlxalq təşkilatların dərc etdirdikləri hesabatlarda əksini tapan innovativ insan potensialına əsaslanan davamlı inkişaf göstəricilə- rinə görə, Azərbaycan hazırda dünya liderləri sırasındadır.

Ölkənin davamlı inkişafının əsas amilinin insan potensialı olduğunu vurğulayan akademik qeyd edib ki, 2015-2030-cu illər üçün qəbul edilmiş məqsədlər "Davamlı inkişaf hədəfləri" kimi tarixə düşüb. Azərbaycan həmin tədbirlərdən çox əvvəl davamlı inkişafı dövlət strategiyasının prioritet istiqaməti kimi qəbul edib. Respublikamızın "Böyük yeddilik" ölkələri ilə müqayisədə nəzərəçarpan inkişaf göstəricilərini diqqətə çatdıran akademik deyib ki, bu mühüm iqtisadi nailiyyətlər Ermənistanla münaqişə və torpaqlarımızın 20 faizinin işğalı fonunda qazanılıb. Ölkəmizin bu problemləri olmasaydı, qazanılacaq uğurların miqyası daha böyük ola bilərdi.

Mühazirənin sonunda tələbələrin suallarını cavablandırılıb.



### *Dövlət İdarəçilik Akademiyasında "Əlimərdan Bəy Topçubaşov. ...Xalqımızın müstəqil yaşayacağına inanırdıq" adlı kitabın təqdimatı keçirilib*

Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 may 2017-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar tədbirlər çərçivəsində Azərbaycanın Macarıstandı fövqəladə və səlahiyyətli səfiri, filologiya elmləri doktoru, professor Vilayət Quliyevin tərcümə və tərtib etdiyi "Əlimərdan Bəy Topçubaşov. ...Xalqımızın müstəqil yaşayacağına inanırdıq" kitabının təqdimatı keçirilib.





Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı və 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti ili elan edilməsi ilə əlaqədar tədbirlər çərçivəsində o dövrə işıq salan kitabların əhəmiyyəti olduqca böyükdür.

Akademik U.Ələkbərov xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu bildirdiyini diqqətə çatdırıb. Eyni zamanda Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın qədim və zəngin dövlətçilik tarixinə böyük ehtiramın göstəricisi olduğunu bildirmişdir.

Rektor Əlimərdan bəy Topçubaşovun Azərbaycan dövləti və xalqı qarşısında böyük xidmətlərindən danışıb onun müstəqilliyimizin tanınması, dünya dövlətləri tərəfindən qəbul edilməsi yolunda əzmlə çalışdığını qeyd edib. Kitabın dövlət idarəçiliyi sahəsində DİA-da təhsil alanlar üçün də dəyərli vəsait olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən professor V.Quliyev kitabın ərsəyəgəlmə prosesi barədə məlumat verib, Əlimərdan Bəy Topçubaşovun siyasi-publisistik irsinin Azərbaycan oxucusuna təqdim edilməsinin əhəmiyyəti barədə danışıb. «...Xalqımızın müstəqil yaşayacağına inanırdıq» kitabında Əlimərdan Bəy Topçubaşovun məqalələri, nitqləri, səfər qeydləri, diplomatik yazışmaları, tarixi araşdırmaları, bədii publisistikası və zəngin epistolyar irsi haqqında ətraflı şərh verən V.Quliyev DİA-nın professor-müəllim və tələbə heyətinə təşəkkürünü bildirib.

Kitabla bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, Dövlət İdarəçilik Akademiyası Siyasi araşdırmalar institutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov, Dövlət İdarəçilik Akademiyası "Siyasi idarəetmə" fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov, Azərbaycan Milli Elmlər Akademiyasının professoru Solmaz Rüstəmova-Tohidi, Dövlət İdarəçilik Akademiyası "Tarix" kafedrasının professoru Havva Məmmədova, Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, və digərləri qeyd ediblər ki, aktual mövzuları əhatə edən əsərləri ilə vaxtaşırı oxucuların diqqətini cəlb edən professor Vilayət Quliyevin fəaliyyətini yüksək qiymətləndiriblər və onun fəaliyyəti ilə ərsəyə gələn kitabların tarixçilər, diplomatlar, politoloqlar üçün dəyərli mənbə olacağını qeyd ediblər. Çıxışlarda V.Quliyevin AXC dövrü ilə bağlı mütəmadi araşdırmalar apardığını, onun tədqiqatlarında elmi faktların üstünlük təşkil etdiyini və xalqımızın tarixini, mədəniyyətini, adət-ənənələrini, ədəbiyyatını layiqincə təbliğ və təmsil etdiyini vurğulayıblar.



## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................35

Belçika Krallığına səfər ........................................................................................27
Fransa Respublikasına səfər ..................................................................................28
Qazaxıstan Respublikasına səfər ............................................................................30
İsmayıllı və Şamaxı rayonlarına səfər ...................................................................34
Rusiya Federasiyasına rəsmi səfər.........................................................................47
Qırğız Respublikasına səfər....................................................................................50
Xorvatiya Respublikasına rəsmi səfər ...................................................................53
Masallı və Biləsuvar rayonlarına səfər ..................................................................57
Tacikistan Respublikasına səfər.............................................................................65

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ....................................................................................................67

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin giriş nitqi...................................67

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi ................................69

"SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında İlham Əliyevin nitqi ......................................................................................................75

Azərbaycan-İtaliya biznes forumunda İlham Əliyevin nitqi......................................................76

Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində İlham Əliyevin nitqi........................................................78

Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında İlham Əliyevin nitqi.................80

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində İlham Əliyevin nitqi......................81

Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda İlham Əliyevin nitqi ..........82

Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda İlham Əliyevin nitqi ......................................................................................................84

**SİYASƏT**

**Ali Hasanov.** Grandiose Triumphant Annals of 15-Year Presidency .........................................89

**REGİONLAR**

**Sevindik Hətəmov.** Salyan daha çox investisiya qoyulan rayonlardan biridir .........................103

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Vüqar Gülməmmədov.** Dayanıqlı İnkişaf Məqsədlərinin təmin edilməsində Ali Audit Qurumlarının rolu: metodoloji və praktik yanaşma ....................................................113

**Rauf Sultanov.** Qlobal ekoloji çağırışların idarə edilməsi ilə əlaqədar kadr potensialının formalaşdırılması....................................................119

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Elçin Əhmədov.** Azərbaycanın dinamik inkişaf göstəriciləri: uğurlar və nailiyyətlər (2003-2018-ci illər) ....................................................127

**Adil Vəliyev.** Azərbaycan Respublikasının qanunvericilik sistemində sosial və əmək qanunvericiliyi mühüm komponent kimi ....................................................139

**BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI**

**Светлана Несмеянова.** Депортация в национальном праве (на примере Азербайджана и России)....................................................149

**DİL NƏZƏRİYYƏSİ**

**Nigar Valiyeva.** The modern Teaching of the Global English During Intercultural Communication in the Globalized World....................................................155

**TEXNOLOJİ İNNOVASİYALAR İQTİSADİYYATI**

**Хатира Гусейнова, Гюлара Сулейманова.** Ускорение внедрения инновационных процессов в социально-экономическое развитие регионов Азербайджанской Республики ....................................................167

**SAHƏ İQTİSADİYYATI**

**İbrahimxəlil İbrahimov.** Azərbaycanın kənd təsərrüfatının keçmişi, bu günü və gələcəyinin idarə edilməsi ....................................................175

**SOSİAL FƏLSƏFƏ**

**Günay Piriyeva**. Qərb və Şərq mədəni ənənələrində tolerantlıq ideyasının təcəssümü ........... 191

**SOSİAL PSİXOLOGİYA**

**Bayram Haqverdiyev.** İnsan inkişafının sosial-psixoloji problemləri ....................................................203

**SOSİOLOGİYANIN NƏZƏRİYYƏSİ, METODOLOGİYASI VƏ TARİXİ**

**İnşallah Qafarov.** Azərbaycan kəndinin sosial-iqtisadi mənzərəsi (1920-1926-cı illər) ..........209

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Bəxtiyar Nəbiyev.** Azərbaycan dövlətçiliyinin inkişafında Ümummilli Lider Heydər Əliyevin strateji yanaşma metodu ....217

**VƏTƏN TARİXİ**

**Almaz Əliyeva.** Qarabağ: reallıqlar və perspektivlər ....225

**Эльдар Амиров.** Процесс образования Карабахского ханства и его значение в контексте традиций преемственности азербайджанской государственности в Карабахе ....237

**Allahverdi Əlimirzəyev.** Qutilərin Şumerdə inzibati idarəçiliyinin xüsusiyyətləri ....253

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Elşad Həsənli.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial ədalət və humanizm prinsipləri ....261

**Ülviyyə Haqverdi.** Azərbaycan Respublikasında demoqrafik siyasətin formalaşdırılmasının konseptual-hüquqi əsasları və əsas inkişaf istiqamətləri ....269

**GƏNC TƏDQİQATÇILAR**

**SOSİAL PROBLEMLƏR**

**Günel Adıgözəlova.** Azərbaycan Respublikasında işsizlik probleminin həlli istiqamətləri (2004-2014-cü illər) ....277

**EKONOMETRİYA**

**Səbinə Bəşirova.** Aqrar sektorda iqtisadi səmərəliliyin təşkilinin ekonometrik modelləşdirilməsi ....283

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Tərlan Orucova.** Multikulturalizm nəzəriyyələri ....289

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Riyad Rüstəmli.** Maraq qrupları siyasi nümayəndəlik sistemində: müasir meyllər ....299

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Azər Əliyev, Rəna Hümbətova.** Azərbaycanda nəqliyyat sektorundan İstilik Effekti Yaradan Qazların atılmalarının azaldılmasında SOCAR-ın rolu ....305

**BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI**

**Fərid Mədətli.** ÜTT çərçivəsində mübahisələrin həlli üzrə qərarların və tövsiyələrin yerinə yetirilməsi üzərində nəzarətin xüsusiyyətləri ....315

**Dövlət İdarəçilik Akademiyasında** ....325

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2018, №3(63)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *Şəbnəm Həsənova* tərəfindən redaktə edilmişdir.

Redaktoru ***Günay Maqsudova***
Kompüter dizayneri ***İradə Təhməzova***
Korrektoru ***İradə Təhməzova***

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 173. Tiraj 1000.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2018, №3(63)**


The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B.Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Summary of the articles were translated into English
by *Shabnam Hasanova.*


Editor ***Günay Maqsudova***
Computer designer ***Irada Tahmazova***
Corrector ***Irada Tahmazova***

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from the diapositivs at
«Tahsil Publishing-Polygraphy»
Order 173. Number of copies printed 1000.